# GÜRCÜSTAN QANUNVERİCİLİYİ

Redaktor: **Kamran Ramazanlı**

Çevirənlər: **Ayvaz Əlyəzoğlu**

**Nelli Məmmədova**

Bəzi hallarda "Toleranse" İctimai Birliyinin tərcümə materiallarından istifadə edilmişdir.

—kitab Gürcüstandandakı soydaşlarımız üçün nəzərdə tutulub.

წიგნში შესულია საქართველოს კონსტიტუციის,– განათლების, მიწის და საბაჟო კოდექსები.

წიგნი, გათვალისწინებულია საქართველოში მცხოვრებ აზერბაიჯანელთათვის

«Biz, demokratik cəmiyyət quruluşunun təməlini qoymaq, iqtisadi azadlıq, sosial və hüquqi quruluş qurmaq, ümumən tanınmış insan hüquq və azadlıqlarının təmin edilməsi, dövlət müstəqilliyinin möhkəmlənməsi və digər xalqlarla sülh münasibətini möhkəmləndirməyin kəskin istəyində olan Gürcüstan vətəndaşları, gürcü xalqının çox əsrlik dövlətçilik ənənələrinə və Gürcüstanın 1921-ci ilin Konstitusiyasının tarixi-hüquqi irsinə əsaslanaraq, Tanrı və millət qarşısında aşkar şəkildə bu Konstitusiyanı bəyan edirik». (15.10.2010 N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 1**

## BİRİNCİ FƏSİL

### Ümumi müddəalar

1.Gürcüstan müstəqil, vahid və ayrılmaz bir dövlətdir. Bu 1991-ci ilin 31 mart tarixində bütün ölkə ərazisində, həmçinin Abxaziya Muxtar Respublikasında və keçmiş Cənubi Osetiya Muxtar Vilayətində keçirilmiş referendum və 1991-ci ilin 9 aprel tarixli Gürcüstanın dövlət müstəqilliyinin bərpası Aktı ilə təsdiq edilmişdir.

2.Gürcüstanın siyasi dövlət quruluş forması demokratik respublikadır.

3.Gürcüstan dövlətinin adı «Gürcüstan»dır.

**Maddə 2**

1.Gürcüstanın dövlət ərazisi 1991-ci ilin 21 dekabr göstəriciləri ilə müəyyənləşmişdir. Gürcüstanın ərazi bütövlüyü və dövlət sərhəddinin toxunulmazlığı Gürcüstan Konstitusiyası və qanunları ilə təsdiq edilmiş, dövlətlərin dünya tərəfkeşliyi və beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır.

2.Gürcüstanın dövlət ərazisinin özgəninkiləşdirilməsi qadağandır. Dövlət sərhədlərinin dəyişilməsi yalnız qonşu dövlətlərlə bağlanan ikitərəfli razılıq ilə mümkündür.

3.Gürcüstanın dövlət ərazi quruluşu ölkənin bütün ərazisində Gürcüstan yurisdiksiyasının tam bərpasından sonra konstitusional qanunla səlahiyyətlərin bölünməsi prinsipi əsasında müəyyənləşəcəkdir.

4.Özünüidarə vahidində qeydiyyatdan keçmiş Gürcüstan vətəndaşları yerli əhəmiyyətə malik işləri, dövlət suverenliyinə toxunmadan, Gürcüstan qanunvericiliyinə uyğun olaraq yerli özünüidarəetmə vasitəsi ilə qaydaya salırlar. Dövlətin hakimiyyət orqanları yerli özünüidarələrin inkişafına yardımçı olurlar.

(15.10.2010 N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 3**

1.Gürcüstanın ali dövlət orqanlarının xüsusi idarəçiliyinə aiddir, yalnız:

a)Gürcüstan vətəndaşlığı, insan hüquqları və azadlıqları, emiqrasiya və imiqrasiya, ölkəyə daxil olma və ölkədən çıxma, Gürcüstanda başqa ölkələrin vətəndaşları və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti və ya daimi olması haqqında qanunvericilik;

b)Dövlət sərhədlərinin statusu, rejimi və müdafiəsi; Ərazi sularının, hava boşluğunun, kontinent şelfi və xüsusi iqtisadi zona statusu, onların müdafiəsi;

c)Dövlətin müdafiəsi və təhlükəsizliyi, hərbi qüvvələr, hərbi sənaye və silahla ticarət;

ç)Müharibə və sülh sazişi məsələləri; Fövqəladə və hərbi vəziyyətin hüquqi rejiminin təyin və daxil edilməsi;

d)Xarici siyasət və beynəlxalq əlaqələr; e) Xarici ticarət, gömrük və tarif rejimləri; ə) Dövlət maliyyəsi və dövlət iqtibası; Pulun kəsilməsi, kredit, sığorta və vergi qanunvericiliyi; f) Standartlar və etalonlar; Geodeziya və kartoqrafiya;

Dəqiq vaxtın təyin olunması; Dövlət statistikası; g) Vahid enerji sistemi və rejimi; Rabitə; ticarət donanması; gəmilərin bayrağı; ümumi dövlət əhəmiyyətinə malik limanlar, hava limanları və aerodromlar; Hava boşluğunun, tranzit və hava nəqliyyatının nəzarəti, hava nəqliyyatının qeydiyyatı; Meteoroloji xidmət; Ətraf mühitin vəziyyətinin müşahidə sistemi;

ğ) Dövlət əhəmiyyətli dəmiryol və avtomobil yol xətləri; h) Okeanda və açıq dənizdə balıq ovu; x) Sərhəd-sanitar kordonu; ı) Əczaçılıq məmulatlarına aid qanunvericilik;

i) Təhsil müəssisələrinin akreditə edilməsi və akademik dərəcəsi haqqında qanunvericilik; (27.12.2006 N4135)

j) İntellektual mülkiyyət haqqında qanunvericilik;

k) Ticarət, cinayət, mülki, inzibati və əmək, cəzaçəkmə və prosessual qanunvericilik;

q) Kriminal polis və istintaq;

l)Torpaq, faydalı qazıntılar və təbii resurslara dair qanunvericilik;

2.Vahid idarəçiliyə aid olan məsələlər ayrıca müəyyənləşir.

3.Acarıstan Muxtar Respublikasının statusu Gürcüstanın «Acarıstan Muxtar Respublikasının statusu haqqında» konstitusional qanunu ilə müəyyənləşir. (20.04.2000 N260)

4.Abxaziya Muxtar Respublikasının statusu Gürcüstanın «Abxaziya Muxtar Respublikasının statusu haqqında» konstitusional qanunu ilə müəyyənləşir. (10.10.2002 N1689)

**Maddə 4**

1.Gürcüstanın bütün ərazisində müvafiq şəraitin yaradılması və yerli özünüidarəetmə orqanlarının formalaşdırılmasından sonra Gürcüstan Parlamentinin tərkibində iki palata olacaq: Respublika Şurası və Senat.

2.Respublika Şurasının tərkibi proporsional qayda ilə seçilmiş üzvlərdən ibarətdir.

3.Senat, Abxaziya Muxtar Respublikasında (10.10.2002, N689), Acarıstan Muxtar Respublikasında (20.04.2000, N260)

və Gürcüstanın digər ərazi vahidlərində seçilmiş üzvlər və Gürcüstan Prezidenti tərəfindən təyin edilmiş 5 üzvdən ibarətdir.

4.Palatanın tərkibini, səlahiyyəti və seçimi qaydası orqanik qanunla müəyyənləşir.

**Maddə 5**

1.Gürcüstanda dövlət hakimiyyəti mənbəsi xalqdır. Dövlət hakimiyyəti konstitusiya ilə təyin olunmuş çərçivədə həyata keçirilir.

2.Xalq öz hakimiyyətini referendum, bilavasitə demokratiyanın digər formaları və öz nümayəndələri vasitəsi ilə həyata keçirir.

3.Kimsənin hakimiyyəti mənimsəmək və ya qanunsuz olaraq ələ keçirməyə hüququ yoxdur.

4.Dövlət hakimiyyəti, hakimiyyətin hissələrə bölünməsi prinsipi ilə həyata keçirilir.

**Maddə 6**

1.Gürcüstan Konstitusiyası dövlətin ali qanunudur. Bütün digər hüquqi aktlar Konstitusiyaya müvafiq olmalıdır.

2.Gürcüstan qanunvericiliyi beynəlxalq hüququn ümumən tanınmış prinsip və normalarına müvafiqdir. Gürcüstan Konstitusiyasına, konstitusional razılığa zidd olmayan təqdirdə (30.03.2001, N826) Gürcüstanın beynəlxalq müqaviləsinin və ya razılıqlarının daxili dövlət normativ aktlarına qarşı üstün hüquqi qüvvəsi vardır.

**Maddə 7**

Gürcüstan, ali insan dəyərləri olan ümumən tanınmış insan hüquq və azadlıqlarını tanıyır və müdafiə edir. Hakimiyyəti həyata keçirərkən xalq və dövlət birbaşa qüvvədə olan hüquq kimi, hüquq və azadlıqlarla məhduddurlar.

**Maddə 8**

Gürcüstanın dövlət dili gürcü dilidir. Abxaziya Muxtar Respublikasında (10.10.2002, N1689) isə həmçinin – abxaz dili.

**Maddə 9**

1.Dövlət inanc və dini əqidənin tam azadlığını bəyan edir. Bununla yanaşı Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsinin Gürcüstan tarixində və onun dövlətdən müstəqil olduğunu tanıyır.

2.Gürcüstan dövlətinin və Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsinin qarşılıqlı əlaqələri konstitusional razılıq ilə müəyyənləşir. Konstitusional razılıq tam olaraq ümumən tanınmış, məhz insanın hüquq və əsas azadlıqları sahəsində olan beynəlxalq hüquq prinsip və normalarına müvafiq olmalıdır. (30.03.2001, N826)

**Maddə 10**

Gürcüstanın paytaxtı Tbilisidir.

**Maddə 11**

Gürcüstanın dövlət rəmzləri orqanik qanunla müəyyənləşdirilmişdir.

## İKİNCİ FƏSİL
## Gürcüstan vətəndaşlığı. Əsas insan hüquq və azadlıqları

**Maddə 12**

1.Gürcüstan vətəndaşlığı anadan olma və naturalizasiya ilə qazanılır.

2.Gürcüstan vətəndaşı, bu bənddə təyin olunan istisna hallarından başqa eyni zamanda başqa bir dövlətin vətəndaşı ola bilməz. Gürcüstan Prezidenti tərəfindən Gürcüstan qarşısında xüsusi xidməti olan və ya ona Gürcüstan vətəndaşlığının verilməsi dövlət maraqlarından irəli gəlirsə, xarici ölkənin vətəndaşına Gürcüstan vətəndaşlığı verilə bilər. (6.02.2004, N3272)

3.Gürcüstan vətədaşlığının qazanılması və itirilməsi qaydası orqanik qanunla müəyyənləşir.

**Maddə 13**

1.Gürcüstan, olduğu yerdən asılı olmayaraq öz vətəndaşlarına himayəlik edir.

2.Vətəndaşlığın əldən alınması yol verilməzdir.

3.Gürcüstan vətəndaşının Gürcüstandan qovulması yolverilməzdir.

4.Beynəlxalq razılıqlar ilə nəzərdə tutulan hallardan başqa Gürcüstan vətəndaşının xarici dövlətə verilməsi yolverilməzdir. Vətəndaşın verilməsi haqqında qərardan məhkəməyə şikayət oluna bilər.

**Maddə 14**

Bütün insanlar anadan olduğu andan, irqindən, dəri rəngindən, dilindən, cinsindən, dinindən, siyasi və digər baxışlarından, milli, etnik və sosial mənsubiyyətindən, mənşəyindən, əmlak və rütbə durumundan, yaşayış yerindən asılı olmayaraq azaddır və qanun qarşısında bərabərdir.

**Maddə 15**

1.Yaşayış hüququ insanın toxunulmaz hüququdur və qanunla müdafiə olunur.

2.Ölüm cəzası qadağandır. (27.12.2006, N4136)

**Maddə 16**

Hər bir kəsin öz şəxsiyyətini azad şəkildə inkişaf etdirmək hüququ var.

**Maddə 17**

1.İnsanın şərəf və ləyaqəti toxunulmazdır.

2.İnsana işgəncə vermək, qeyri-humanist, qəddar və ya şərəf və ləyaqətə toxunan hərəkət və cəzanın istifadə edilməsi yolverilməzdir.

3.Saxlanılan və yaxud başqa cür azadlığı məhdudlaşdırılan şəxsin fiziki və ya psixoloji yolla məcbur edilməsi yolverilməzdir. (27.12.2006, N4136)

**Maddə 18**

1.İnsan azadlığı toxunulmazdır.

2.Məhkəmə qərarı olmadan azadlıqdan məhrum etmə və ya şəxsi azadlığın başqa cür məhdud edilməsi yolverilməzdir.

3.İnsanın saxlanılması, qanunla müəyyən olunmuş hallarda xüsusi səlahiyyəti olan şəxs tərəfindən mümkündür. Saxlanılan və yaxud başqa cür azadlığı məhdud edilən şəxs 48 saatdan gec olmayaraq aidiyyatı üzrə müvafiq məhkəməyə təqdim olunmalıdır. Əgər sonrakı 24 saat ərzində məhkəmə həbs və yaxud azadlığın başqa cür məhdud edilməsi haqda qərar qəbul etməsə, şəxs ani olaraq azadlığa buraxılmalıdır.

4. Çıxarılmışdır. (27.12.2006, N4136) 5. Saxlanılan və ya həbs edilən şəxsə saxlanıldığı, yaxud həbs olunduğu an onun hüquqları və azadlığının məhdudlaşdırılmasının əsas səbəbi izah edilməlidir. Şəxs saxlanılan və ya həbs edilən andan müdafiəçinin yardımını tələb edə bilər. Tələb təmin edilməlidir.

6.Müttəhimin ilkin həbs tədbiri 9 aydan çox olmamalıdır. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

7.Bu maddənin tələblərinin pozulması qanunla cəzalandırılır. Qanunsuz olaraq saxlanılan və ya həbs olunan şəxsin kompensasiya (müavinət) almaq hüququ var.

**Maddə 19**

1.Hər bir şəxsin söz, fikir, vicdan, din, inanc azadlığı

2.İnsanın söz, fikir, vicdan, din, inanc üzündən təqib, həmçinin onlar haqqında fikir söyləməyə məcbur edilməsi yolverilməzdir.

3.Bu maddədə sadalanan azadlıqların məhdud edilməsi, onların digər şəxslərin hüquqlarını pozmadığı halda yolverilməzdir.

**Maddə 20**

1.Hər bir insanın şəxsi həyatı, şəxsi iş yeri, şəxsi qeydləri, yazışmaları, telefon və ya digər texniki vasitələrlə danışmağı, həmçinin texniki vasitələrlə alınan mesajlar (ismarıc)

toxunulmazdır. Qeyd edilən hüquqların məhdud edilməsi məhkəmə qərarı və ya qanunla müəyyən olunmuş hallar olmadan da mümkündür.

2.Məhkəmə qərarı və ya qanunla müəyyən olunmuş hallar istisna olmaqla mənzil sahibinin iradəsi ziddinə heç kimin başqa sahiblikdə olan mənzilə daxil olmaq, həmçinin axtarış aparmaq hüququ yoxdur.

**Maddə 21** (15.10.2010 N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

1.Əmlak və varislik hüququ tanınır və təmin edilmişdir. Əmlakın, onun əldə edilməsinin, özgəninkiləşdirilməsi və ya irsən alınmasının ümumi hüququn ləğv edilməsi yolverilməzdir.

2.Mütləq ictimai vaciblik üçün birinci bənddə qeyd edilən hüquqların məhdudlaşdırılması qanunla müəyyənləşmiş hallarda və qəbul edilmiş qayda ilə mümkündür.

3.İctimai əsaslar zəminində mülkiyyətdən məhrum edilmə qanunla müəyyən olunmuş müvafiq hallarda, məhkəmə qərarı və ya aidiyyatı qanunla təyin olunmuş təxirəsalınmaz zərurət olduğu halda və yalnız müvafiq ödəmənin edilməsi şərtilə mümkündür.

**Maddə 22**

1. Gürcüstanda qanuni şəkildə olan hər bir şəxsin ölkənin bütün ərazisində azad gediş-gəliş və azad şəkildə yaşayış yerini seçmə hüququ var.

2. Gürcüstanda qanuni şəkildə olan hər kəsin azad şəkildə Gürcüstandan çıxmaq hüququ var. Gürcüstan vətəndaşı azad şəkildə Gürcüstana daxil ola bilər.( 15.10.2010, N3710, 2011- ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3. Bu hüquqların məhdudlaşdırılması yalnız qanuna müvafiq olaraq, demokratik cəmiyyətin mövcudluğu üçün vacib dövlət təhlükəsizliyi və ya cəmiyyətin təhlükəsizliyini təmin etmək, sağlamlığın müdafiəsi, cinayətin aradan qaldırılması və ya ədalətin həyata keçirilməsi məqsədi ilə mümkündür.

4.Gürcüstan vətəndaşı azad şəkildə Gürcüstana daxil ola bilər. (15. 10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

13

**Maddə 23**

1.İntellektual yaradıcılıq azadlığı təmin olunmuşdur. İntellektual əmlak hüququ toxunulmazdır.

2.Yaradıcılıq prosesinə müdaxilə etmək, yaradıcılıq sahəsində senzura yolverilməzdir.

3.Yaradıcılıq əsərlərinin yayılması insanların qanuni hüququnun pozulmadığı halda həmin yaradıcılıq əsərlərində qadağanın tətbiq edilməsi və yayılmasının qadağan edilməsi yolverilməzdir.

**Maddə 24**

1.Hər bir insanın azad şəkildə məlumat almaq və yaymaq, öz fikrini şifahi, yazılı şəkildə və ya digər vasitələrlə yaymaq hüququ var.

2.Kütləvi informasiya vasitələri azaddır. Senzura yolverilməzdir.

3.Dövlətin və ya ayrıca şəxslərin kütləvi informasiyanın və ya onun yayılması vasitələrinin monopoliyaya almaq (inhisara almaq) hüququ yoxdur.

4. Bu maddənin birinci və ikinci bəndlərində sadalanan hüquqların həyata keçirilməsi, demokratik cəmiyyətdə dövlət təhlükəsizliyinin, ərazi bütövlüyünün və ya cəmiyyətin təhlükəsizliyini təmin etmək üçün, cinayətin aradan qaldırılması, başqalarının hüquq və ləyaqətinin müdafiəsi konfedensial tanınan məlumatın yayılmasının aradan qaldırılması və ya məhkəmənin müstəqilliyi və qərəzsizliyini təmin etmək şərtilə qanunla məhdudlaşdırıla bilər.

**Maddə 25**

1.Hərbi qüvvələrdə və Daxili İşlər Nazirliyi tərkibində olmayan şəxslərdən başqa hər kəsin əvvəlcədən xəbərdarlıq

etmədən ictimai şəkildə, silahsız olaraq, örtülü eləcə də açıq məkanda toplaşmaq hüququ var. (23.12.2005, N2494)

2.Toplaşma və ya nümayiş (manifestasiya) təşkil etmək xalqın və nəqliyyatın hərəkət etdiyi yerdə keçirildiyi halda qanunla hakimiyyətin əvvəlcədən xəbərdar edilməsi vacibliyi ilə təsis edilə bilər.

3.Hakimiyyət toplantı və nümayişi (manifestasiyanı) yalnız onun qanuna zidd xarakter aldığı zaman dayandıra bilər.

**Maddə 26**

1.Hər kəsin ictimai birliklər, həmçinin peşə ittifaqları yaratmaq və onlarda birləşmək hüququ var.

2.Gürcüstan vətəndaşlarının orqanik qanununa müvafiq olaraq siyasi partiya, başqa birlik yaratmağa və onların işində iştirak etmək hüquqları var.

3.Məqsədi Gürcüstanın konstitusional quruluşunun zəbt edilməsi və ya zor gücünə dəyişdirilməsi ölkənin demokratikliyinə müdaxilə etmək, ərazi bütövlüyünün pozulması, müharibə və ya işgəncənin təşviqini aparan, milli, bölgə, dini və ya sosial münaqişəni törətmək olan ictimai və siyasi birliklərin yaradılması və işi yolverilməzdir.

4.İctimai və siyasi birliklər tərəfindən silahlı bölmələrin yaradılması yolverilməzdir.

5.Hərbi qüvvələrin və ya Daxili İşlər Nazirliyi orqanlarının şəxsi heyətinə daxil olan, hakim və ya prokuror təyin olunan şəxs siyasi birliklərdə üzvlüyünü dayandırır. (23.12.2005, N2494)

6. İctimai və siyasi birliklərin işinin dayandırılması və ya qadağan edilməsi orqanik qanunla müəyyənləşmiş hallarda və təyin olunan qayda ilə məhkəmənin qərarına əsasən mümkündür.

**Maddə 27**

Dövlət, xarici ölkənin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin siyasi işinə məhdudiyyət təyin etməyə səlahiyyətlidir.

**Maddə 28**

1.Gürcüstanın hər bir vətəndaşının 18 yaşından etibarən referendumda, dövlət və özünüidarəetmə orqanlarına seçkilərdə iştirak etmək hüququ var. Seçicilərin istəklərinin azad şəkildə ifadəsi təmin edilmişdir.

2.Məhkəmə tərəfindən qabiliyyətsiz tanınan və ya məhkəmə qərarı ilə cəzaçəkmə müəssisələrində olan vətəndaşların seçkilər və referendumda iştirak etmək hüququ yoxdur.

**Maddə 29**

11.Eyni zamanda həm Gürcüstan vətəndaşlığını, həm hər hansı bir xarici ölkə vətəndaşlığı daşıyan şəxs Gürcüstan Prezidenti, Baş nazir, Parlament sədri vəzifəsini tuta bilməz. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

2.Dövlət işinin şərtləri qanunla müəyyənləşir.

**Maddə 30**

1.Əmək azaddır.

2.Dövlət azad istehlakın və rəqabətin inkişafına yardım etməyə borcludur. Qanunla yolverilən hallardan başqa monopoliya işi qadağandır. İstehlakçıların hüquqları qanunla müdafiə olunur.

3.Dövlət əmək münasibətlərini qaydaya salan beynəlxalq razılıqlar əsasında Gürcüstan vətəndaşlarının xaricdə əmək hüquqlarını müdafiə edir.

4.Əmək hüquqlarının müdafiəsi, əməyin ədalətli şəkildə maaşla təmin edilməsi və təhlükəsiz, sağlam şərtlər, həddi buluğa çatmamış şəxsin və qadının əmək şərtləri qanunla müəyyənləşir. (15.10.2010, N3710, nəşr olunma tarixindən 15 gün müddətində qüvvəyə minsin).

**Maddə 31**

Dövlət, ölkənin bütün ərazisinin bərabər şəkildə sosial-iqtisadi inkişafının qeydinə qalır. Dağlıq bölgələrin sosial-iqtisadi inkişafını təmin etmək üçün qanun güzəştlər təyin edir.

**Maddə 32**

Dövlət işsiz qalan Gürcüstan vətəndaşının işlə təmin olunmasına yardımçı olur. Yaşayış minimumunun təmin edilməsi şərtləri və işsizin statusu qanunla müəyyənləşir.

**Maddə 33**

Tətil hüququ tanınır. Bu hüququn həyata keçirilməsi qaydası qanunla müəyyənləşir. Qanun həmçinin həyat üçün vacib olan xidmətlərin işinin zəmanətini təmin edir.

**Maddə 34**

1. Dövlət mədəniyyətin, mədəni həyatda vətəndaşların məhdudiyyətsiz iştirakını, mədəni özünəməxsusluğunun ifadə edilməsi və zənginləşdirilməsinə, milli və ümumbəşəri dəyərlərin tanınması və beynəlxalq mədəni əlaqələrin dərinləşməsinin inkişafına yardım edir.

2.Gürcüstanın hər bir vətəndaşı mədəni irsin qorunmasının qeydinə qalmağa borcludur. Dövlət mədəni irsi qanunla müdafiə edir.

Maddə 341 ( 15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

Dövlət təhsil müəssisələri, idman birlikləri ilə əməkdaşlıq vasitəsi ilə yeniyetmələrin və gənclərin fiziki tərbiyəsinə, onların idmana cəlb edilməsinə yardımçı olur.

**Maddə 35**

1. Hər bir kəsin təhsil almaq və onun formasını seçmə hüququ var.

2. Dövlət ölkənin təhsil sisteminin beynəlxalq təhsil 17

mühitində harmonizasiyasını təmin edir. (27.12.2006, N 4135) 3. Məktəbəqədər tərbiyəni dövlət qanunda təyin olunmuş qaydaya əsasən təmin edir. İbtidai və baza təhsili mütləqdir. Ümumi təhsil qanunda təyin olunmuş qaydaya əsasən, tam şəkildə dövlət tərəfindən maliyyələşdirilir. Vətəndaşların qanunda təyin olunmuş qaydaya əsasən dövlət maliyyəsi ilə peşə və ali təhsil almaq hüquqları var. (27.12.2006, N4135) 4. Dövlət qanunla təyin olunmuş qayda ilə təhsil müəssisələrini dəstəkləyir.

**Maddə 36**

1. Nigah həyat yoldaşların hüquq bərabərliyinə və öz istəklərinə əsaslanır.

2. Dövlət ailənin firəvanlığına dəstək göstərir. 3. Ana və uşaqların hüquqları qanunla müdafiə olunur.

**Maddə 37**

1. Hər bir kəsin mümkün tibbi yardım vasitəsi kimi sağlamlıq sığortasından istifadə hüququ var. Qanunla təyin olunmuş qaydaya əsasən müəyyənləşmiş şərtlərlə təmənnasız tibbi yardım təmin edilmişdir.

2. Dövlət sağlamlığın müdafiəsi müəssisələrini, müalicə vasitələrinin istehsalı və bu vasitələrlə ticarətə nəzarət edir.

3. Hər bir şəxsin sağlamlıq üçün zərərli olmayan mühitdə yaşamağa, təbii və mədəni mühitdən istifadə etmək hüququ var. Hər bir şəxs təbii və mədəni mühitin qeydinə qalmağa borcludur.

4. Dövlət insan sağlamlığı üçün təhlükəsiz mühiti təmin etmək, cəmiyyətin ekoloji və iqtisadi maraqlarına müvafiq olaraq, hazırkı və gələcək nəsillərin maraqlarını nəzərə almaqla mühitin mühafizəsi və təbiətdən rasional istifadəni təmin edir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

5.İnsanın işlədiyi və yaşadığı mühitin vəziyyəti haqqında tam, obyektiv və vaxtında məlumat almaq hüququ var. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 38**

1.Gürcüstan vətəndaşları milli, etnik, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq sosial, iqtisadi, mədəni və siyasi həyatda bərabərdir. Beynəlxalq hüququn ümumən tanınmış prinsip və normalarına müvafiq olaraq onların azad, hər cür diskriminasiya və müdaxilə olmadan öz mədəniyyətini

inkişaf etdirmək, şəxsi həyatda və ictimai şəkildə ana dillərindən istifadə etmək hüquqları var.

2.Beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsip və normalarına müvafiq olaraq azlıqların hüquqlarının həyata keçirilməsi Gürcüstanın suverenliyinə, dövlət quruluşuna, ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı olmamalıdır.

**Maddə 39**

Gürcüstan Konstitusiyası burada yazılmayan, lakin özlüyündə konstitusiya prinsiplərindən irəli gələn insan və vətəndaşın digər ümumən tanınmış hüquqlarını, azadlıq və zəmanətlərini inkar etmir.

**Maddə 40**

1.İnsan onun günahkar olduğu, qanunla təyin olunmuş qayda ilə və qanuni qüvvəyə minən məhkəmənin ittihamedici qərarı təsdiq edilməyənədək günahsiz hesab olunur.

2.Heç kim özünün günahsız olduğunu sübut etməyə borclu deyil. Günahın sübuta yetirilməsi vəzifəsi ittihamçıya aiddir.

3.Şəxsin ittiham edilən şəxs kimi cavabdehliyə verilməsi haqqında qərar, ittiham nəticəsi və ittihamedici qərar yalnız dəqiq sübutlara əsaslanmalıdır. Qanuna əsasən təyin olunan qayda ilə təsdiq olunmayan hər bir şübhə ittiham edilənin xeyrinə qəbul olunmalıdır.

**Maddə 41**

1.Gürcüstanın hər bir vətəndaşının dövlət müəssisələrində onun haqqında olan məlumatla həmçinin dövlət, peşə və ya kommersiya sirrindən ibarət olmayan hər bir məlumatla tanış olmaq hüququ var.

2.Dövlət təhlükəsizliyi və ya ictimai təhlükəsizliyin təmin olunması və insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədilə bağlı qanunda təyin olunmuş hallar istisna olmaqla, insanın sağlamlığı, həmin şəxsin razılığı olmadan onun maddi durumu və ya digər şəxsi məsələləri ilə bağlı, rəsmi sənədlərdə mövcud olan informasiya heç kim üçün açıq olmamalıdır.

**Maddə 42**

1.Hər bir insanın öz hüquq və azadlıqlarını müdafiə etmək üçün məhkəməyə müraciət etmək hüququ var.

2.Hər bir şəxs yalnız onun işinin yurisdiksiyasının aid olduğu məhkəmə tərəfindən cəzalandırıla bilər.

3.Müdafiə hüququ zəmanətlidir.

4.Eyni cinayət üçün heç kim heç kimə ikinci dəfə cəza tətbiq edilə bilməz.

5.Heç kim törətdiyi zaman hüquq pozuntusu sayılmayan cinayətə görə cavabdeh deyil. Cavabdehliyi yüngülləşdirməyən və yaxud ləğv etməyən qanunun əks qüvvəsi yoxdur.

6.Müttəhimin öz şahidlərinin ittiham edilən tərəfin şahidlərinin olduğu şəraitdə çağırılması və ifadələrinin alınmasını tələb etməyə hüququ var.

7.Qanunun pozulması yolu ilə əldə edilən dəlillərin qanuni hüquqi qüvvəsi yoxdur.

8.Heç bir kəs özünü və ya qanunla dairəsi müəyyənləşən yaxınlarının əksinə ifadə verməyə borclu deyil.

9.Hər kəsə dövlət, muxtar respublikalar və ya özünüidarəetmə orqanları və onların xidmətlçiləri tərəfindən vurulan ziyanın məhkəmə yolu ilə müvafiq olaraq dövlət, muxtar respublikalar və ya özünüidarəetmə orqanlarının hesabından tam ödənilməsinə zəmanət verilir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 43**

1.Gürcüstan ərazisində insan hüquqlarının və azadlıqlarının müdafiəsinə nəzarəti Gürcüstanın xalq müdafiəçisi həyata keçirir. Xalq müdafiəçisini Gürcüstan Parlamenti tam tərkibin çoxluğu ilə beş il müddətinə seçir.

2.Xalq müdafiəçisi insan hüquqları və azadlıqlarının pozulması faktlarını, bununla bağlı müvafiq orqanlara və şəxslərə bildirməsi səlahiyyətinə malikdir. Xalq müdafiəçisinin işinə mane olmaq qanunla cəzalandırılır.

3.Xalq müdafiəçisinin hüquqi səlahiyyəti orqanik qanunla müəyyənləşir.

**Maddə 44**

1.Gürcüstanda yaşayan hər bir şəxs Gürcüstan Konstitusiyasının və ya qanunvericiliyinin tələblərini yerinə yetirməyə borcludur.

2.İnsan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır.

**Maddə 45**

Konstitusiyada qeyd edilən əsas hüquqlar və azadlıqlar onların məzmununun nəzərə alınması ilə həmçinin hüquqi şəxslərə aiddir.

**Maddə 46**

1.Fövqəladə və müharibə vəziyyəti zamanı Gürcüstan Prezidentinin ölkədə və ya onun hər hansı bir hissəsində Konstitusiyanın 18-ci, 20-ci, 21-ci, 22-ci, 24-cü, 25-ci, 30-cu, 33-cü və 41-ci maddələrində qeyd edilən hüquq və azadlıqları məhdud etmək hüququ var. Gürcüstan Prezidenti 48 saaatdan gec olmadan bu qərarı təsdiqləmək üçün Parlamentə daxil etməlidir.

2.Əgər ölkənin bütün ərzisində fövqəladə və hərbi vəziyyət elan edilibsə, Gürcüstan Prezidentinin, Gürcüstan Parlamentinin digər nümayəndəlik orqanlarına seçkiləri bu vəziyyətin ləğv edilməsindən sonra keçirilir. Ölkənin hər hansı bir hissəsində fövqəladə vəziyyətin elan edilməsi zamanı ölkənin qalan ərazisində seçkilərin keçirilməsi haqqında qərarı Gürcüstan Parlamenti qəbul edir. (6.02.2004, N3272)

**Maddə 47**

1.Gürcüstanda yaşayan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərin Konstitusiya və qanunla nəzərdə tutulmuş istisna hallardan başqa, Gürcüstan vətəndaşı ilə eyni hüquq və öhdəlikləri var.

2.Ümumən tanınmış beynəlxalq hüquq normalarına müvafiq olaraq qanunla təyin olunmuş qayda ilə Gürcüstan

xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə sığınacaq verir.

3.Gürcüstan qanunvericiliyi ilə cinayət sayılmayan siyasi baxışı və ya hərəkət üzündən izlənilən, sığınacaq verilən şəxsin digər dövlətə verilməsi yolverilməzdir.

**Maddə 48**

## ÜÇÜNCÜ FƏSİL

## Gürcüstan Parlamenti

Gürcüstan Parlamenti qanunvericilik hakimiyyəti, ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən Konstitusiya ilə müəyyənləşmiş çərçivədə hökumətin işinə nəzarət edən və digər səlahiyyətləri icra edən, ölkənin ali nümayəndəlik orqanıdır.

**Maddə 481** (24.09.2009, N1674)

1.Gürcüstan Parlamentinin yeri Tbilisi şəhəri və Kutaisi şəhəridir. Parlamentin plenar iclasları yalnız Kutaisi şəhərində keçirilir.

2.Gürcüstan Parlamentin yerinin müvəqqəti olaraq iclasın və ya sessiyanın çağırılması məqsədi ilə dəyişilməsi yalnız fövqəladə və ya müharibə vəziyyəti zamanı mümkündür.

**Maddə 49**

1.Gürcüstan konstitusiyasının 4-cü maddəsi ilə nəzərdə tutulan şərtlərin yaradılmasına qədər Parlament ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə ilə 4 il müddətinə, proporsional sistemlə seçilən 75 və majoritar sistemlə seçilən 75 parlament üzvündən ibarət olur. (12.03.2008, N5853)

2.Parlament üzvlüyünə seçilmək hüququna 25 yaşından yuxarı olan Gürcüstan vətəndaşı malikdir.

3.Parlamentin daxili strukturu və iş qaydası Parlamentin reqlamenti ilə müəyyənləşir.

4.Dövlət büdcəsində Parlament üçün nəzərdə tutulan cari xərclərin azaldılması əvvəlki ilin büdcə vəsaitlərinin miqdarı ilə müqayisədə azaldılması yalnız Parlamentin əvvəlcədən bildirilən razılığından sonra mümkündür. Parlament dövlət büdcəsində Parlament üçün ayrılan büdcə vəsaitlərinin bölüşdürülməsi qərarını özü verir. (6.02.2004, N3272)

**Maddə 50**

1.Qanuna əsasən təyin edilmiş qayda ilə qeydiyyatdan keçən vətəndaşların, siyasi birliklərin seçkilərdə iştirak etmək hüququ var. Onların tərəfkeşliyi, seçicilərin imzaları orqanik qanunla təyin olunan qayda ilə və ya seçkilərin keçirilməsi üçün Parlamentdə nümayəndəsi olan orqanik qanunla müəyyən edilmiş seçicilərin sayının 1%-dən çox olmamalıdır. Majoritar sistemlə seçkilərdə iştirak qaydası və şərtləri seçki qanunvericiliyi ilə müəyyənləşir (12.03.2009, N5853)

2.Proporsional sistemlə keçirilən seçkilərin nəticəsində Parlament üzvlərinin mandatları yalnız seçkilərdə iştirak edən, seçicilərin ən azı 5%-nin səsini toplayan siyasi birliklər və seçki blokları arasında bölünür. Majoritar sistemlə keçirilən seçkilərdə Parlament üzvü mandatlarının bölüşdürülməsi qaydası seçki qanunvericiliyi ilə müəyyənləşir. (12.03.2008, N5853)

21.Parlamentin növbəti seçkiləri, Parlamentin səlahiyyətinin sona yetməsi təqvim ilinin oktyabr ayında keçirilir. Seçkilərin tarixini Gürcüstan Prezidenti seçkilərə 60 gündən gec olmayaraq təyin edir. (27.12.2006, N4133)

3.Seçkilərin vaxtı fövqəladə və ya müharibə vəziyyəti vaxtına düşürsə, seçkilər bu vəziyyətin ləğv olunmasından sonra 60-cı gün keçirilir. Seçkilərin tarixini fövqəladə və müharibə vəziyyətinin ləğv olunduğu an Gürcüstan Prezidenti təyin edir. Parlamentin vaxtından əvvəl buraxılması halında Parlamentin növbədənkənar seçkiləri, Parlamentin vaxtından əvvəl buraxılması haqqında əmrin qüvvəyə minməsindən sonra 60-cı gün keçirilir. Növbədənkənar seçkilərin tarixini Gürcüs-

tan Prezidenti Parlamentin vaxtından əvvəl buraxılması haqqında əmrin qüvvəyə mindiyi zaman təyin edir. (27.12.2006, N4133)

31.Parlament, Prezidentin Parlamentin buraxılması haqqında əmri qüvvəyə mindiyi an işini dayandırır. Prezidentin Parlamentin buraxılması haqqında əmrinin qüvvəyə minməsindən yeni seçilmiş Parlamentin ilk iclasınadək buraxılmış Parlament yalnız Prezident tərəfindən fövqəladə və ya müharibə vəziyyəti elan olunduğu, yaxud fövqəladə və ya müharibə vəziyyətinin davam etdirilməsi məsələsinə dair qərar vermək üçün toplaşır. Parlament 5 gün ərzində toplaşmasa və ya fövqəladə vəziyyəti təsdiq etməsə, (davam etdirilməsi haqqında Prezidentin əmrini təsdiq etməsə (davam etdirməsə), onda elan edilən fövqəladə vəziyyət ləğv edilir. Parlament, toplantıdan sonra 48 saat ərzində müharibə vəziyyətinin elan edilməsi (davam etdirilməsi) haqqında Prezidentin əmrini təsdiq etməsə, müharibə vəziyyəti ləğv olur. Parlamentin toplanması Parlament üzvlərinin vəzifə və maaşlarının bərpasına gətirib çıxarmır. Parlament yuxarıda qeyd edilən məsələyə dair qərar qəbul olunduqdan sonra işini bitirir. (6.02.2004, N 3272)

4.Parlamentin səlahiyyəti yeni seçilmiş Parlamentin ilk iclası zamanı sona yetir.

5.Parlament üzvünün seçilmə qaydası, həmçinin seçkilərdə namizəd kimi iştirak etmənin yolverilməz olması Konstitusiya və orqanik qanunla müəyyənləşir.

**Maddə 51**

Gürcüstanın yeni seçilmiş Parlamentinin birinci iclası seçkilərdən sonra 20 gün ərzində keçirilməlidir. Birinci iclas gününü Gürcüstan Prezidenti təyin edir. Parlament deputatların ən azı üçdə iki hissəsinin səlahiyyəti təsdiq edildiyi halda işə başlayır.

**Maddə 511**

Parlament istisna olmaqla Gürcüstan Prezidenti tərəfindən yalnız Konstitusiya ilə müəyyən edilmiş hallarda azad

edilə bilər: a) Parlament seçkilərinin keçirilməsindən sora altı ay ərzində; [a) Parlament seçkilərinin keçirilməsindən sonra altı ay ərzində, 80-ci maddə əsasında tətil baş vermirsə; (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

b) Parlament tərəfindən Konstitusiyanın 63-cü maddəsi ilə müəyyən edilmiş səlahiyyətin yerinə yetirilməsi zamanı;

c) Fövqəladə və ya müharibə vəziyyəti zamanı;

ç) Gürcüstan Prezidentinin səlahiyyət müddətinin son 6 ayı ərzində; (6.02.2004)

[ç) Gürcüstan Prezidentinin səlahiyyətinin son altı ayı ərzində, əgər azad olma Konstitusiyanın 80-ci maddəsinə əsasən baş vermirsə. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 52**

1.Gürcüstan Parlamentinin üzvü bütün Gürcüstanın nümayəndəsidir, azad mandatdan istifadə edir və onun geri çağırılması yolverilməzdir.

2.Parlament üzvünün saxlanılması və ya həbs edilməsi, onun evinin, avtomobilinin, iş yerinin və ya şəxsin onun üzərində axtarış aparması yalnız Parlmentin razılığı ilə mümkündür. Cinayət hadisəsi zamanı saxlanılması istisna haldır, bu haqda həmin an Parlamentə xəbər verilməlidir. Parlament razılıq verməsə, Parlamentin saxlanılan və ya həbs edilən üzvü zaman itirilmədən azad edilməlidir. (23.04.2004, N6)

3. Parlament üzvünün, ona Parlament üzvü kimi etibar edilən fakta görə ifadə vermək hüququ var. Bu məsələ ilə əlaqədar yazılı materiallara qadağanın tətbiq edilməsi yolverilməzdir. Bu hüquq Parlament üzvündə onun səlahiyyətinin başa çatmasından sonra da saxlanılır.

4.Parlament üzvü öz səlahiyyətini yerinə yetirərkən Parlamentdə və ya ondan kənarda deyilən fikir və baxışlara görə məsuliyyətə cəlb olunmayacaq.

5.Parlament üzvünün səlahiyyətlərinin məhdudiyyətsiz həyata keçirilmə şərtləri təmin edilir. Parlament üzvünün bəyanatı əsasında müvafiq dövlət orqanları onun şəxsi təhlükəsizliyini təmin edir.

6.Deputatın səlahiyyətinin həyata keçirilməsi üçün məhdudiyyətlərin qoyulması qanunla cəzalandırılır.

**Maddə 53**

1. Parlament üzvünün dövlət işində vəzifə tutmaq və ya müəssisə işi ilə məşğul olmaq hüququ yoxdur.

2. Əvvəlki bənd ilə nəzərdə tutulmuş tələblərin pozulması zamanı Parlament üzvünün səlahiyyəti dayandırılır.

3. Parlament üzvü qanunla təyin edilmiş maaş alır.

**Maddə 54**

1.Parlament üzvünün səlahiyyətinin tanınması və ya vaxtından əvvəl dayandırılmasına Parlament qərar verir. Parlamentin bu qərarının Konstitusiya Məhkəməsinə şikayət verilməsi mümkündür.

2.Parlament üzvünün səlahiyyəti vaxtından əvvəl dayandırıla bilər:

a) Şəxsi ərizəsinə əsasən səlahiyyəti geri alınarsa;

b)Ona qarşı məhkəmənin danılmaz qərarı qanuni qüvvəyə minərsə;

c)Məhkəmə onu fəaliyyətsiz, izsiz, itmiş və ya həlak olmuş kimi tanıyarsa;

ç)Parlament üzvü statusuna müvafiq olmayan vəzifə tutmaqla yanaşı müvafiq olmayan işlə məşğul olarsa;

d) Gürcüstan vətəndaşlığını itirəcəyi halda;

e) Ciddi səbəb olmadan dörd ay ərzində parlamentin işində iştirak etməzsə:

ə)Vəfat edərsə.

**Maddə 55**

1. Gürcüstan Parlamenti özünün səlahiyyət müddətində, reqlamentlə təyin olunan qaydaya əsasən, gizli səs vermə ilə Gürcüstan Parlamentinin sədrini və sədr müavinlərini, həmçinin Abxaziya Muxtar Respublikasından (10.10.2002, N1689) və Acarıstan Muxtar Respublikasından seçilən Parlament üzvlərindən, elə onların təqdimatı ilə hər birindən bir müavin seçir. (20.04.2000, N260)

2.Parlamentin sədri Parlamentin işinə rəhbərlik edir, fikrin azad ifadəsini təmin edir, Parlament tərəfindən qəbul olunan aktları imzalayır, reqlamentlə nəzərdə tutulan digər səlahiyyətləri yerinə yetirir.

3.Parlament sədrinin müavinləri sədrin tapşırığı ilə sədr tərəfindən səlahiyyətin həyata keçirilməsinin mümkün olmadığı halda və ya vəzifədən azad olunması zamanı onun vəzifəsini yerinə yetirirlər.

4.Parlamentin sədri Parlament binasında reqlamentlə nəzərdə tutulmuş qayda ilə tam inzibati (administrativ) funksiyaları yerinə yetirir.

**Maddə 56**

1.Qanunverici məsələlərin ilkin hazırlanması, qərarların yerinə yetirilməsinə yardım etmək, parlament tərəfindən onun qarşısında cavabdeh orqanlar və hökumətin işinin nəzarəti məqsədi ilə Parlamentdə onun səlahiyyət müddəti ilə komitələr yaranır.

2.Konstitusiya və reqlamentin nəzərə alınması hallarında, həmçinin deputatların beşdə bir hissəsinin tələbi ilə parlamentdə istintaq və ya başqa müvəqqəti komissiyalar yaranır. Komissiya Parlamentin verdiyi qərar əsasında yaradılır. Parlament nümayəndələrinin sayı komissiya nümayəndəliyi və komissiya üzvlərinin ümümi sayının yarısından çox olmamalıdır. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3.İstintaq komissiyasının tələbinə əsasən, onun iclasında iştirak etmək, həmçinin araşdırma üçün vacib sənədlərin təqdim edilməsi məcburidir.

**Maddə 57**

1.Parlamentin işinin təşkili üçün Parlament bürosu yaranır. Parlament bürosunun tərkibinə Gürcüstan Parlamentinin sədri, sədr müavinləri, Parlament komitələri və Parlament fraksiyalarının sədrləri daxildir.

2.Çıxarılmışdır. ( 15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 58**

1.Parlament üzvləri Parlament fraksiyasında birləşə bilərlər. Fraksiya üzvlərinin sayı altı nəfərdən az olmamalıdır. (10.10.2008, N343)

2.Fraksiyanın yaradılması və iş qaydası, onun səlahiyyəti qanun və reqlamentlə müəyyənləşir.

**Maddə 59**

1.Parlamentin üzvü Parlament qarşısında hesabatlı olan orqana, hökumətə, hökumətin üzvünə, şəhərin merinə, hər bir səviyyədə olan ərazi vahidinin rəhbərinə, dövlət idarələrinə sualla müraciət etmək və onlardan cavab almaq səlahiyyətinə malikdir.

[1. Parlament üzvü, Parlament qarşısında cavabdeh olan idarə, hökumət, hökumət üzvünə, dövlət müəssisələrinə sual ilə müraciət etmək və onlardan cavab almaq səlahiyyətinə malikdir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)] 2. Parlament üzvlərinin ən azı on nəfərlik qrupunun,

Parlament fraksiyalarının Parlament qarşısında hesabatlı olan orqana, hökumətə, Parlament iclasında verilən suallara cavab verməli olan hökumətin hər hansı bir üzvünə sualla müraciət etmək hüququ var. Cavab Parlament müzakirəsinin mövzusu ola bilər.

3.Parlament, Parlament üzvlərinin tam tərkibinin çoxluğu ilə baş nazirin qarşısında hökumətin hər hansı bir üzvünün vəzifə cavabdehliyi məsələsinin qaldırılması səlahiyyətinə malikdir. (6.02.2004, N3272)

[3. Parlament və parlament üzvlərinin tam tərkibi ilə baş nazirin qarşısında hökumətin hər hansı bir üzvünün vəzifə cavabdehliyi məsələsini qaldırmaq səlahiyyəti var. Əgər belə hallarda, baş nazir hökumət üzvünü azad edərsə, o iki həftə ərzində Parlamentə öz əsaslandırılmış qərarını təqdim etməlidir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 60**

1.Parlamentin toplantısı ictimaiyyət üçün açıq keçirilir. İştirak edənlərin çoxunun qərarı ilə Parlament müxtəlif məsələlərin müzakirəsi zamanı iclası və ya onun hissəsini başa çatmış elan edə bilər.

2.Hökumətin üzvü, Parlament tərəfindən seçilmiş, təyin edilmiş və ya təsdiq edilmiş vəzifə sahibi səlahiyyətlidir, tələb olduğu halda isə borcludur ki, Parlamentin, onun komitələri və komissiya iclaslarında iştirak etsin, iclasda verilən suallara cavab versin və yerinə yetirilən iş haqqında hesabat təqdim etsin. Belə vəzifəli şəxsi tələb olduğu zaman Parlament, Komitə və komissiyanı dinləməlidir. (6.02.2004, N3272)

3.Parlamentin plenar iclasında səsvermə açıq və ya gizlidir. Səsvermə Konstitusiya və qanunla nəzərdə tutulmuş hallardan başqa açıqdır. ( 15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

4.Parlamentin açıq plenar iclasının protokolu ictimaidir. ( 15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 61**

1.Gürcüstan Parlamenti öz hüququ ilə növbəti sessiyada iki dəfə toplanır. Payız sessiyası sentyabr ayının ilk çərşənbə

axşamı başlayır və dekabr ayının üçüncü həftəsinin cümə günü sona yetir. Yaz sesiyası isə fevral ayının ilk həftəsinin çərşənbə axşamı başlayır və iyun ayının son həftəsinin cümə günü sona yetir.

2. Gürcüstan Prezidenti Parlament sədrinin, deputatların ən azı dörddə bir hissəsinin tələbi və ya öz təşəbbüsü ilə sesiyalar arasında Parlamentin növbədənkənar sessiyasını, sonrakı sessiya zamanı isə növbədənkənar iclasını çağırır. Əgər yazılı tələbin təqdim edilməsindən sonra 48 saat ərzində çağırış aktı dərc edilməsə, Parlament özünün reqlamentinə əsasən sonrakı 48 saat ərzində işə başlamağa borcludur.

[2. Gürcüstan prezidenti parlamentin sədri, deputatların ən azı dörddə birinin, hökumətin tələbi və ya şəxsi təşəbbüsü ilə sessiyalar arasında parlamentin növbədənkənar sessiyasını, sonrakı sessiyanın gedişatı zamanı isə növbədənkənar iclas çağırır. Yazılı tələbdən sonra 48 saat ərzində çağırış aktı verilmədiyi təqdirdə, parlament öz reqlamentinə əsasən 48 saat ərzində işinə başlamağa məcburdur. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

3.Parlamentin növbədənkənar iclası yalnız müəyyən edilmiş gün qaydası ilə keçirilir və onun bitməsi zamanı bağlanır.

4.Prezident tərəfindən fövqəladə və ya müharibə vəziyyəti elan ediləndən 48 saat müddətində Parlament toplanır. Parlamentin işi bu vəziyyətin başa çatmasın qədər davam edir.

**Maddə 62**

Parlamentin müharibə və sülh haqqında qərarı fövqəladə və ya müharibə vəziyyəti zamanı, konstitusiyanın 46-cı maddəsi ilə nəzərdə tutulmuş məsələlərin qəbul olunması, Parlament üzvlərinin çoxluq təşkil etdiyi tərkibi ilə qəbul olunur.

**Maddə 63**

1.Parlamentə 75-ci maddənin 2-ci bəndi ilə nəzərdə tutulmuş hallarda impiçment qaydası ilə Gürcüstan prezidentinin

vəzifədən uzaqlaşdırılması məsələsinin qaldırılması barədə səlahiyyət verilir. Bunun üçün parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsi iştirak etməlidir. Məsələ nəticə çıxarılmaq üçün Ali məhkəməyə və ya Konstitusiya Məhkəməsinə təqdim edilir.

2.Ali Məhkəmə öz nəticəsi ilə prezidentin hərəkətində cinayət tərkibli nişanələrin mövcudluğunu və ya Konstitusiya Məhkəməsi Konstitusiya pozuntusunu təsdiq edərsə, parlament nəticənin müzakirəsindən sonra Parlament tam tərkibin çoxluğu ilə, impiçment qaydasına əsasən Prezidentin vəzifədən azad edilməsi məsələsinin səs verməyə çıxarılması barədə qərar qəbul edir.

3.İmpiçment qaydası ilə bu qərarı parlament üzvlərinin tam tərkibinin ən azı üçdə iki hissəsi dəstəkləyərsə, Prezident vəzifəsindən azad olunmuş hesab ediləcək.

4.30 gün müddətində Parlament qərar qəbul etməsə, məsələ aradan qaldırılmış hesab ediləcək. Sonrakı bir il ərzində eyni ittihamın təqdim edilməsi yolverilməzdir.

5.Prezidentə qarşı irəli sürülən ittihamın fövqəladə və ya müharibə vəziyyəti zamanı Parlamentdə müzakirəsi və qərarın qəbul edilməsi yolverilməzdir.

[Maddə 63 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

1.Parlamentə 75-ci maddənin 2-ci bəndi ilə nəzərdə tutulmuş hallarda impiçment qaydası ilə Gürcüstan prezidentinin vəzifədən uzaqlaşdırılması məsələsinin qaldırılması barədə səlahiyyət verilir. Bunun üçün parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsi iştirak etməlidir. Məsələ nəticə çıxarılmaq üçün Ali məhkəməyə və ya Konstitusiya Məhkəməsinə təqdim edilir.

2.Konstitusiya Məhkəməsi öz nəticəsi ilə prezidentin hərəkətlərində cinayət tərkibli nişanların olduğunu və ya Konstitusiya pozuntusunu təsdiq edərsə, parlament nəticənin təqdim edilməsindən 15 gündən çox olmayan müddətdə prezi-

dentin impiçment qaydası ilə vəzifəsindən azad olunması məsələsini müzakirə edir və səs verməyə çıxarır.

3.Prezident, impiçment qaydası ilə, bu qərarı parlament üzvlərinin tam tərkibinin ən azı üçdə iki hissəsi dəstəkləsə, vəzifəsindən azad olunmuş hesab ediləcək.

4. Əgər parlament bu maddənin 2-ci bəndi ilə təyin olunan müddətdə prezidentin impiçment qaydası ilə vəzifəsindən uzaqlaşdırılması haqqında qərar qəbul etməsə, eyni məsələ ilə bağlı impiçment prosedurunun başlanması yolverilməzdir.

5.İmpiçment prosedurunun fövqəladə və ya hərbi vəziyyət zamanı həyata keçirilməsi yolverilməzdir.]

**Maddə 64**

1.Konstitusiyanın pozulması və cinayətin törədilməsi üçün impiçment qaydası ilə Ali Məhkəmənin sədrinin, hökumət üzvlərinin, Nəzarət Palatasının sədrinin və Milli Bank Şurasının üzvlərinin azad edilməsi hüququna Parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsi malikdir. (10.10.2008, N344)

2.63-cü maddənin 2-ci bəndi ilə nəzərdə tutulan qayda ilə nəticənin qəbul edilməsindən sonra tam tərkibin çoxluğu ilə Parlament bu maddənin birinci bəndində sadalanan vəzifə sahiblərini vəzifədən azad etməyə səlahiyyətlidir. Bura həmçinin 63-cü maddənin 4-cü bəndinin qüvvəsi də aiddir.

**Maddə 65**

1.Gürcüstan Parlamenti tam tərkibinin çoxluğu ilə beynəlxalq müqavilələr və razılıqların ratifikasiyası, denonslaşması (etibarsızlığı) və ləğv edilməsini icra edir.

[11.Gürcüstan hökuməti Gürcüstan parlamentinə beynəlxalq müqavilələrin, razılıqların ratifikasiyası, denonslaşması (etibarsızlığı) və ləğv edilməsi ilə bağlı müraciət edir. Müqavilə prezident tərəfindən bağlanıbsa, bu maddənin 2-ci bəndi «a»-«c» aşağı bəndlərində nəzərə alınmış hallarda Parlamentə Gürcüstan prezidenti müraciət edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

2. Ratifikasiyası nəzərdə tutulan beynəlxalq müqavilələr və razılıqlarla yanaşı aşağıda göstərilən beynəlxalq müqavilə və razılıqların ratifikasiyası mütləqdir:

a) Beynəlxalq təşkilata və ya dövlətlərarası ittifaqa Gürcüstanın daxil olmasını nəzərdə tutan sənədlər.

b) Hərbi məzmunlu sənədlər.

c) Dövlətin ərazi bütövlüyünə və dövlət sərhədlərinin dəyişdirilməsinə aid sənədlər.

ç) Dövlət tərəfindən borcun götürülməsi və ya verilməsinə aid sənədlər.

d)Daxili dövlət qanunvericiliyinin dəyişilməsini, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün mütləq olan qanunların və qanun qüvvəsinə malik olan aktların qəbul edilməsini tələb edən sənədlər.

3.Parlament digər beynəlxalq müqavilələr və razılıqların bağlanması haqqında məlumatlandırılmalıdır.

4. Konstitusiya Məhkəməsinə konstitusiya şikayəti və ya təqdimatın daxil edilməsi ərəfəsində müvafiq beynəlxalq razılığın, yaxud razılığın ratifikasiyası, Konstitusiya Məhkəməsi tərəfindən qərar çıxarılmayanadək yolverilməzdir.

**Maddə 66**

1.Qanun layihəsi və ya qətnamənin Konstitusiya ilə qəbulunun digər qaydaları müəyyən olunmayıbsa, həmin qanun layihəsi və ya qətnamə Parlamentin tam tərkibinin üçdə bir hissəsi tərəfindən dəstəkləndiyi halda qəbul edilmiş hesab edilir.

11 Konstitusional razılıq, onu Parlamentin tam tərkibinin beşdə üç hissəsi dəstəklədiyi halda təsdiq olunmuş hesab edilir. (30.03.2001, N826)

2.Orqanik qanun layihəsi, Parlamentin siyahı tərkibinin yarısından çoxunun dəstəklədiyi halda qəbul olunmuş hesab edilir.

3.Parlamentin razılğı Konstitusiya ilə digər qaydayla müəyyən edilməyibsə, qərar şəklində qəbul olunur.

4.Digər şəkildə olan qərarların qəbul olunma qaydası Parlament reqlamenti ilə müəyyənləşir.

**Maddə 67**

1.Qanunvericilik təşəbbüsü irəli sürməyə yalnız xüsusi hallarda Gürcüstan Prezidentinin, hökumətin, Parlament üzvünün, Parlament fraksiyasının, Parlament komitəsinin, Abxaziya Muxtar Respublikasının və Acarıstan Muxtar Respublikasının ali nümayəndəlik orqanlarının, ən azı 30000 seçicinin hüququ var.

2.Gürcüstan Prezidenti və ya hökuməti tərəfindən təqdim olunan qanun layihəsini onların tələbi ilə Parlament növbədənkənar müzakirə edir.

3.Hökumət qanunla nəzərdə tutulmuş müddətdə Parlamentdə müzakirə olunacaq qanun layihəsi ilə əlaqədar qeydləri təqdim etməsə, qanun layihəsi hökumət tərəfindən bəyənilmiş hesab ediləcək. (6.02.2004, N3272)

[Maddə 67

1.Qanunvericilik təşəbbüs hüququ Gürcüstan prezidentində, hökumətində, parlament üzvündə, parlament fraksiyasında, parlament komitəsində, 30000-dən az olmayan seçicisi olan Abxaziya Muxtar Respublikası və Acarıstan Muxtar Respublikasının ali nümayəndəlik orqanlarında mövcuddur.

2.Gürcüstan prezidenti və ya hökuməti tərəfindən təqdim olunan qanun layihəsini parlament onun tələbinə uyğun olaraq növbədənkənar müzakirə edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 68**

1.Parlament tərəfindən qəbul olunan qanun layihəsi 7 gün müddətində Gürcüstan Prezidentinə təqdim olunur. (6.02.2004, N3272)

2.Prezident 10 gün ərzində qanunu imzalayır və elan edir, yaxud əsaslandırılmış qeydlərlə Parlamentə qaytarır.

3.Prezident qanun layihəsini Parlamentə qaytardığı təqdirdə, Parlament Prezidentin qeydlərini səs verməyə çıxarır.

Qeydlərin qəbul olunması üçün bu cür qanun layihələri üçün Konstitusityanın 66-cı maddəsi ilə təyin olunan səslərin sayı yetərlidir. Qeydlər qəbul edildiyi halda, qanun layihəsinin son versiyası Prezidentə təqdim olunur. Prezident 7 gün ərzində onu imzalayır və elan edir.

4.Parlament Prezidentin qeydlərini qəbul etməsə, qanun layihəsinin ilkin nəşrinə səs verilir. Qanun və ya orqanik qanun onu Parlamentin siyahı tərkibinin beşdə üç hissəsi dəstəklədiyi halda qəbul olunmuş hesab edilir. Konstitusiyaya edilmiş düzəliş Parlamentin tam tərkibinin ən azı üçdə iki hissəsinin dəstəklədiyi halda qəbul olunmuş hesab edilir.

[4. Əgər parlament prezidentin qeydlərini qəbul etmirsə, qanun layihəsinin ilkin nəşrinə səs verilir. Qanun, parlament üzvlərinin tam tərkibinin yarısından çoxunun dəstəklədiyi zaman qəbul olunur. Parlament üzvlərinin tam tərkibinin ən azı üçdə iki hissəsi dəstəklədiyi halda konstitusional qanun qəbul olunmuş hesab edilir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

5.Prezident təyin edildiyi halda qanunu elan etməsə, onu Parlament sədri imzalayır və elan edir.

6.Müddət təyin edilmədiyi halda Qanun rəsmi orqanda dərc edildikdən on beş gün sonra qüvvəyə minir.

## Maddə 69
## DÖRDÜNCÜ FƏSİL
## Gürcüstan Prezidenti

1. Gürcüstan Prezidenti Gürcüstan dövlətinin baçşısıdır. (6.02.2004, N3272)

2.Gürcüstan Prezidenti dövlətin daxili və xarici siyasətini idarə edir və həyata keçirir. O, ölkənin vahidliyini və bütövlüyünü, dövlət orqanlarının işinin konstitusiyaya müvafiq olmasını təmin edir.

3.Gürcüstan Prezidenti xarici əlaqələrdə Gürcüstanın ali nümayəndəsidir.

[Maddə 69 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

1.Gürcüstan prezidenti Gürcütanın dövlət başçısıdır, ölkənin rəhbərliyi və milli müstəqilliyinin zaminidir. Gürcüstan prezidenti Konstitusiya ilə ona verilən səlahiyyət çərçivəsində dövlət orqanlarının fəaliyyətini təmin edir.

2.Gürcüstan Prezidenti Gürcüstanın hərbi qüvvələrinin ali komandanıdır.

3.Gürcüstan Prezidenti xarici əlaqələrdə Gürcüstanın ali nümayəndəsidir.]

**Maddə 70**

1.Gürcüstan Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Eyni şəxs Prezident kimi ardıcıl olaraq yalnız iki dəfə seçilə bilər.

2.Prezident vəzifəsinə seçki hüququ olan, Gürcüstanda anadan olmuş, Gürcüstan vətəndaşılığını daşıyan, Gürcüstanda ən azı 15 il yaşamış və seçkilərin təyin olunmasının son 3 il ərzində Gürcüstanda yaşayan 35 yaşında şəxs seçilə bilər. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3.Prezidentliyə namizədlik verməyə vətəndaşların siyasi birliklərinin və ya təşəbbüs qruplarının hüququ var. Namizədlərin təqdim edilməsi orqanik qanunla təyin olunan qaydayla seçicilərin imzaları ilə təsdiq edilməlidir. Orqanik qanunla müəyyən edilmiş seçicilərin imzalarının sayı seçicilərin sayının 1%-dən çox olmamalıdır. (12.03.2008, N5853)

4.Seçkilərdə iştirak edənlərin yarısından çoxunun səs verdiyi namizəd seçilmiş hesab ediləcək. (6.02.2004. N3272)

5.Seçkilərin birinci turunda heç bir namizəd lazımı qədər səs toplamasa, birinci turun nəticələrinin rəsmən elan

edilməsindən iki həftə sonra seçkilərin ikinci turu keçirilir. (27.12.2006, N4133)

6.Seçkilərin ikinci turunda birinci turda daha yaxşı nəticələri olan iki namizədə səs verilir. Ən çox səs toplayan namizəd seçilmiş hesab olunur. (6.02.2004, N3272)

7. Seçkilərin birinci turunda yalnız bir namizəd iştirak etməklə yanaşı o, səslərin lazımı sayını toplaya bilmədiyi halda seçki günündən iki ay sonra yeni seçkilər keçirilir. (15.10.2010, N371, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

8. Fövqəladə və müharibə zamanı seçkilər keçirilmir.

9. Prezidentin növbəti seçkiləri Prezidentin səlahiyyət müddətinin başa çatdığı təqvim ilinin oktyabr ayında keçirilir. Seçkilərin tarixini seçkilərə qədər ən azı 60 gün qalmaqla Gürcüstan Prezidenti təyin edir. (27.12.2006, N4133)

10. Çıxarılmışdır. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 71**

1. Vəzifə səlahiyyətlərinin icrasına başlamazdan öncə Gürcüstanın yeni seçilmiş prezidenti proqram çıxışını edir və and içir:

«Mən Gürcüstan Prezidenti Tanrı və millət qarşısında elan edirəm ki, Gürcüstan Konstitusiyasını, ölkənin müstəqilliyini, vahidliyini və bölünməzliyini müdafiə edəcəm. Vicdanla prezident öhdəliyini yerinə yetirəcəm, mənim ölkəmin vətəndaşlarının təhlükəsizlik və firəvanlığının, mənim xalqımın və vətənimin dirçəlişi və gücünün artmasının qeydinə qalacam».

2.Bu maddənin birinci bəndi ilə nəzərdə tutulmuş tədbir Prezidentin seçilməsi günündən üçüncü bazar günü keçirilir. Əvvəlki Prezidentin səlahiyyəti yeni seçilən Prezidentin and içmə anından etibarən başa çatır. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 72**

Gürcüstan Prezidentinin partiyadan başqa digər vəzifə tutmaq, müəssisə işi ilə məşğul olmaq, maaş almaq və ya hər

hansı bir başqa iş üçün daimi maaş almaq hüququ yoxdur. (6.02.2004, N3272)

[Maddə 72 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

Gürcüstan Prezidentinin başqa vəzifə tutmaq, həmçinin partiya da daxil olmaqla, müəssisə işi ilə məşğul olmaq və ya hər hansı bir başqa iş üçün daimi maaş almaq hüququ yoxdur.]

**Maddə 73**

1. Gürcüstan Prezidenti:

a) Beynəlxalq müqavilələr və razılıqlar bağlayır, xarici dövlətlərlə danışıqlar aparır; Parlamentin razılığı ilə Gürcüstanın səfirlərini və digər diplomatik nümayəndələrini təyin edir; Xarici dövlətlərin və beynəlxalq təşkilatların səfirlərini, digər diplomatik nümayəndəliklərin akkreditasiyasını qəbul edir; (27.12.2006, N4133)

a1) Gürcüstan dövlətinin adı ilə Gürcüstanın Avtokefal

Pravoslav Kilsəsi ilə konstitusional razılıq bağlayır; (30.03.2001, N826)

b) Baş naziri təyin edir, baş nazirə hökumət üzvünü – nazirlərin təyin edilməsi haqqında razılıq verir; (6.02.2004, N3272)

c) Öz təşəbbüsü və ya Konstitusiya ilə nəzərdə tutulmuş digər hallarda Gürcüstanın müdafiə, daxili işlər və ədliyyə nazirlərini vəzifədən azad etmək səlahiyyətinə malikdir; (10.10.2008, N344)

ç) Hökumət, hökumət üzvü və qanunla müəyyən edilmiş digər vəzifədə olan şəxslərin istefasını qəbul edir, hökumətə, hökumət üzvünə hökumətin yeni tərkibini və ya hökumətin yeni üzvünün təyin edilməsinədək öhdəliklərin yerinə yetirilməsini həvalə etmək səlahiyyətinə malikdir; (6.02.2004, N3272)

d)Hökumətə, Parlamentə Gürcüstan dövlət büdcəsi layihəsini təqdim etməyə razılıq verir; (6.02.2004, N3272)

e)Konstitusiya və qanunla müəyyən edilmiş hallarda və təyin olunan qayda ilə vəzifəli şəxsləri Parlamentə təqdim edir, təyin edir və azad edir;

ə)Gürcüstana silahlı hücum olduğu halda hərbi vəziyyət elan edir, müvafiq şərtlər mövcud olduğu halda sülh bağlayır və 48 saatdan gec olmayaraq bu qərarları təsdiq etmək üçün Parlamentə daxil edir;

f)Müharibə, yaxud kütləvi qarışıqlıq, ölkənin ərazi bütövlüyünə müdaxilə, hərbi çevriliş və silahlı üsyan, ekoloji fəlakət və epidemiya zamanı və ya dövlət orqanlarının konstitusiya səlahiyyətlərinin normal şəkildə həyata keçirilməsi imkanlarından məhrum olduqları digər hallarda ölkənin bütün ərazisində və ya onun hər hansı bir hissəsində fövqəladə vəziyyət elan edir və bu qərarı 48 saatdan gec olmadan təsdiq etmək üçün parlamentə daxil edir. Fövqəladə vəziyyət zamanı qanuni qüvvəyə malik olan, fövqəladə vəziyyətin başa çatmasına qədər qüvvədə olan dekretlər dərc edir, fövqəladə tədbirləri həyata keçirir. Dekretlər toplandıqdan sonra Parlamentə təqdim olunur. Fövqəladə səlahiyyətlər yalnız bu bənddə qeyd edilən səbəblərə görə fövqəladə vəziyyət elan edildiyi ərazilərdə yayılır;

g)Parlamentin razılığı ilə, hərəkətləri üzündən ölkənin süverenliyinə, ərazi bütövlüyünə, dövlət hakimiyyəti orqanlarının konstitusiya səlahiyyətlərinin həyata keçirilməsinə təhlükə yarandığı halda özünüidarəetmə və ya ərazi vahidlərinin digər nümayəndəlik orqanlarının işini dayandırmaq və ya onları azad etmək səlahiyyətlərinə malikdir;

ğ)Konstitusiya və qanun əsasında qərar və əmrlər dərc edir;

h)Konstitusiya ilə müəyyən edilmiş qayda ilə qanunlara imza atır və dərc edir;

x)Vətəndaşlıq, sığınacaq verilmə məsələlərinə dair qərar verir;

ı)Dövlət təltifləri, ali hərbi, xüsusi və fəxri adlar, ali diplomatik rütbələr verir;

i)Məhbusları əfv edir;

j)Konstitusiya ilə təyin olunmuş hallar və qayda ilə Parlamenti buraxa bilər; (6.02.2004, N3272)

k) Çıxarılmışdır (27.12.2006, N4133, Orqanik qanunla müvafiq məsələlərin qaydaya salınmasından sonra qüvvəyə minsin).

q) Parlamentin azad edilməsindən sonra yeni seçilmiş parlamentin birinci toplantısına qədər xüsusi hallarda vergi və büdcə məsələlərinə dair qanun qüvvəsi olan akt – dekret dərc etmək səlahiyyətinə malikdir. Qeyd edilən akt Parlamentin birinci toplantısından bir ay ərzində təsdiq edilmədiyi halda qüvvəsini itirir; (6.02.2004, N3272)

l) 511 maddəsinin «a»-«c» alt bəndləri ilə nəzərdə tutulmuş mühitin mövcud olan halda Parlament tərəfindən Konstitusiya ilə təyin olunmuş vaxtda hökumət tərkibi üçün etimadın elan edilməməsi təqdirdə baş naziri təyin etməyə və ona nazirləri təyin etmək huququ vermək səlahiyyətlərinə malikdir; (6.02.2004, N3272)

2.Prezident qanunla təyin edilən qaydayla parlament və nümayəndəlik orqanlarının seçkilərini təyin edir.

3.Gürcüstan Prezidenti hökumət və icraçı hakimiyyət idarələrinin aktlarını dayandırmaq və ya ləğv etmək səlahiyyətinə malikdir. (6.02.2004, N3272)

4.Prezident Milli Təhlükəsizlik Şurasının üzvlərini təyin edir, Gürcüstanın Silahlı Qüvvələrinin Birləşmiş Qərargahının rəhbərini və digər yüksək hərbi rütbəli şəxsləri vəzifəyə təyin və azad edir. (27.02.2006, N4136)

5.Prezidentin xalqa və Parlamentə müraciət etmək səlahiyyəti var. İldə bir dəfə Prezident ölkənin vəziyyətinə aid vacib məsələlərə dair Parlamentə məruzə təqdim edir.

6.Prezident Konstitusiya ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

[Maddə 73 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.Gürcüstan Prezidenti:

a) Hökumətlə razılıqla dövlətlərlə danışıqlar aparır, beynəlxalq müqavilələr və razılıqlar bağlayır; Hökumətin təqdimatı ilə Gürcüstan səfirlərini, digər diplomatik nümayəndələri təyin və azad edir; Digər dövlətlərin və beynəlxalq təşkilatların səfirləri və diplomatik nümayəndələrinin akkreditasiyasını qəbul edir;

b) Gürcüstan dövlətinin adı ilə Gürcüstanın Avtokefal Pravoslav Kilsəsi ilə konstitusional razılıq bağlayır;

c) Konstitusiya ilə təyin olunan halda baş nazirin namizədliyini təqdim edir və baş naziri təyin edir.

ç) Konstitusiya ilə müəyyənləşmiş hallarda hökumətə yeni hökumətin tərkibinin yaradılmasınadək səlahiyyətin yerinə yetirilməsini həvalə edir; d)Konstitusiya ilə müəyyən edilmiş hallarda vəzifə sahiblərini parlamentə təqdim edir, təyin edir, azad edir; qanunla təyin olunmuş qayda ilə ədliyyənin ali şura üzvlərini təyin edir, Gürcüstan parlamentinə Mərkəzi Seçki Komissiyasının və milli tənzimləmə orqanlarının üzvlərini təqdim edir;

e)Acarıstan Muxtar Respublikasının yeni seçilmiş şurasının səlahiyyətinin tanınmasından 10 gün ərzində, ali şurada təqdim olunan siyasi subyektlərlə məsləhətləşmələrdən sonra, Gürcüstan hökumətinin ilkin razılığı ilə, ali şuraya təsdiq üçün Acarıstan Muxtar Respublikasının hökumət başçısı namizədini təqdim edir.

ə)Gürcüstana silahlı hücum olduğu halda hərbi vəziyyət elan edir, müvafiq şərtlər mövcud olduğu halda sülh bağlayır və 48 saatdan gec olmayaraq bu qərarları təsdiq etmək üçün Parlamentə daxil edir;

f)Müharibə, yaxud kütləvi qarışıqlıq, ölkənin ərazi bütövlüyünə müdaxilə, hərbi çevriliş və silahlı üsyan, ekoloji

fəlakət və epidemiya zamanı və ya dövlət orqanlarının konstitusiya səlahiyyətlərinin normal şəkildə həyata keçirilməsi imkanlarından məhrum olduqları digər hallarda ölkənin bütün ərazisində və ya onun hər hansı bir hissəsində fövqəladə vəziyyət elan edir və bu qərarı 48 saatdan gec olmadan təsdiq etmək üçün parlamentə daxil edir. Fövqəladə səlahiyyətlər yalnız bu alt bənddə qeyd edilən səbəblərə görə fövqəladə vəziyyət elan edildiyi ərazilərdə yayılır;

f)Müharibə və ya fövqəladə vəziyyət zamanı qanuni qüvvəyə malik olan, fövqəladə vəziyyətin başa çatmasına qədər qüvvədə olan dekretlər dərc edir; Fövqəladə tədbirləri həyata keçirir; Dekretlər toplandıqdan sonra Parlamentə təqdim olunur.

g)Parlamentin razılığı ilə, hərəkətləri üzündən ölkənin süverenliyinə, ərazi bütövlüyünə, dövlət hakimiyyəti orqanlarının konstitusiya səlahiyyətlərinin həyata keçirilməsinə təhlükə yarandığı halda özünüidarəetmə və ya ərazi vahidlərinin digər nümayəndəlik orqanlarının işini dayandırmaq və ya onları azad etmək səlahiyyətinə malikdir;

ğ)Konstitusiya ilə verilən səlahiyyətlərin həyata keçirilməsi üçün dekret, əmrlər və sərəncam, həmçinin Gürcüstanın hərbi qüvvələrinin ali komandanı kimi əmrlər verir;

h) Konstitusiyaya müvafiq olaraq qanunlara imza atır və dərc edir;

x)Vətəndaşlıq, sığınacaq verilmə məsələlərinə dair qərar verir;

ı)Dövlət təltifləri, ali hərbi, xüsusi və fəxri adlar, ali diplomatik rütbələr verir;

i) Məhbusları əfv edir;

j) Konstitusiya ilə təyin olunmuş hallar və qayda ilə Parlamenti buraxır;

2.Gürcüstan Prezidenti konstitusiya və qaydayla Gürcüstan Prezidenti, parlament və nümayəndəlik orqanlarının seçkilərini təyin edir.

3.Gürcüstan Prezidenti Milli Təhlükəsizlik Şurasının üzvlərini təyin edir, Gürcüstanın Silahlı Qüvvələrinin Birləşmiş Qərargahın rəhbərini və digər yüksək hərbi rütbəli şəxsləri vəzifəyə təyin və azad edir.

4.Gürcüstan Prezidentinin xalqa və Parlamentə müraciət etmək səlahiyyəti var. İldə bir dəfə Prezident ölkənin vəziyyətinə aid vacib məsələlərə dair Parlamentə məruzə təqdim edir.

5.Gürcüstan Prezidenti Konstitusiya ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.]

[Maddə 731 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

1.Gürcüstan Prezidentinin hərbi vəziyyət zamanı verilən aktlarından və bu maddənin 2-ci – 4-cü bəndləri ilə nəzərdə tutulmuş hallardan başqa, digər hüquqi aktlarına baş nazirin kontrassiqnasiyası lazımdır.

2. Konstitusiya ilə birbaşa nəzərdə tutulmayan hallarda Prezidentin əmrinin kontrassiqnasiyaya ehtiyacı yoxdur:

3.Prezidentin Konstitusiyaya müvafiq olaraq hökumətin təqdimatı ilə verilən və ya hökumətin əvvəlcədən razılıq verdiyi hüquqi aktlarının kontrassiqnasiyaya ehtiyacı yoxdur.

4.Prezidentin hüquqi aktlarının kontrassiqnasiyaya ehtiyacı yoxdur:

a) Parlament seçkilərinin təyin edilməsi və parlamentin azad edilməsi, yeni seçilmiş Parlamentin ilk iclasının çağrılması, həmçinin Parlamentin növbədənkənar iclasının və ya sessiyasının çağrılması;

b)Qanunverici təşəbbüslər:

c)Qanunun imzalanması və çap edilməsi, həmçinin Parlamentə qanun layihəsinin qeydlərlə qaytarılmasına;

ç) Beynəlxalq müqavilələr və razılıqların imzalanması, həmçinin Konstitusiya ilə müəyyənləşdirilmiş hallarda onların Parlamentə ratifikasiya üçün təqdim etməyə;

d)73-cü maddənin «e» alt bəndi ilə müəyyən edilmiş vəzifələrə şəxslərin təyin edilməsi, irəli sürülməsi və azad edilməsi;

e)Məhkəməyə və ya Konstitusiya Məhkəməsinə müraciət;

ə) Baş nazir namizədinin irəli sürülməsi və baş nazirin təyin edilməsi;

f) Hökumət üçün, Konstitusiyanın 80-ci maddəsinin birinci bəndinə uyğun olaraq hüquq səlahiyyətlərinin müəyyən vaxt üçün həvalə edilməsi;

g) Dövlət təltiflərinin və xüsusi adların verilməsi;

ğ)Vətəndaşlığın verilməsi və vətəndaşlığın dayandırılması;

h) Konstitusiyanın 78-ci maddəsinin 4-cü bəndi ilə nəzərdə tutulmuş qayda ilə hökumət iclasının çağrılması tələbi;

x)Milli Təhlükəsizlik Şurasının üzvlərinin təyin edilməsi, Gürcüstanın Silahlı Qüvvələrinin Baş Qərargahın rəhbəri, digər yüksək hərbi rütbəli şəxslərin təyin edilməsi və azad edilməsi, Konstitusiya Məhkəməsinin hakimlərinin təyin edilməsi, Ali Məhkəmənin hakimlərinin namizədlərinin Parlamentə təqdim edilməsi;

ı) Prezident Administrasiyasının Milli Təhlükəsizlik Şurası və Prezidentə tabe olan müəssisələrin işi;

i) Fövqəladə və hərbi vəziyyətin elan edilməsi və ləğv olunması;

j)Məhbusların əfv edilməsi;

5. Prezidentin kontrassiqnasiyaya ehtiyacı olan hüquqi aktları dərc edilir və kontrassiqnasiya edildiyi halda hüquqi nəticələrə malik olur.

6. Kontrassiqnasiya hallarında hüquqi akta cavabdehlik hökumətə aid olur.

**Maddə 74**

1.Gürcüstan Parlamentinin, 200 000 nəfər seçicinin tələbi və ya şəxsi təşəbbüsü ilə Gürcüstan Prezidenti konstitusiya

və orqanik qanunla müəyyən edilmiş məsələlərə dair keçirilmə tələbinin alınmasından 30 gün ərzində referendum təyin edir.

[1.Gürcüstan parlamentinin, Gürcüstan hökumətinin, ən azı 200 000 seçicinin tələbi ilə və ya şəxsi təşəbbüsü ilə Gürcüstan Prezidenti, Konstitusiya və qanunla müəyyənləşdirilən məsələlərə dair keçirlməsi tələbinin qəbulundan 30 gün ərzində referendum təyin edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

2. Qanunun qəbul edilməsi və ya ləğv edilməsi üçün, amnistiya və əfvə görə, beynəlxalq müqavilələr və razılıqların ratifikiasiyası və denonsasiya haqqında, həmçinin insanın əsas konstitusiya hüquq və azadlıqlarını məhdudlaşdıran məsələlərə dair referendum keçirmək olmaz. 3. Referendumun təyin edilməsi və keçirilməsi ilə əlaqəli məsələlər orqanik qanunla müəyyənləşir.

**Maddə 75**

1.Gürcüstan Prezidenti toxunulmazdır. Vəzifədə olduğu müddətdə onun həbs edilməsi və ya cinayət işi cavabdehliyinə verilməsi olmaz.

2.Prezident tərəfindən konstitusiyanın pozulması, dövlət xəyanəti və digər cinayət işi törədildiyi halda Parlament konstitusiyanın 63-cü maddəsi və orqanik qanunla təyin olunmuş qaydayla Prezidenti vəzifəsindən azad edir, əgər:

a)Konstitusiyanın pozulması Konstitusiya Məhkəməsinin qərarı ilə təsdiq olunmuşdur.

b) Dövlət xəyanəti və digər cinayət işinin tərkib nişanələrinin Ali məhkəmənin qərarı nəticəsində təsdiq edildiyində.

[2. Prezident tərəfindən Konstitusiyanın pozulması və ya onun hərəkətində cinayət tərkibli nişanələr olduğu halda parlament Konstitusiyanın 63-cü maddəsi və qanunla təyin olunmuş qayda ilə Prezidenti vəzifəsindən azad edə bilər. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezi-

dent seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 76**

1.Gürcüstan prezidenti tərəfindən özünün səlahiyyətlərinin həyata keçirilməsinin bacarıqsızlığı və ya Gürcüstan prezidentinin səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması olarsa, Gürcüstan Prezidentinin vəzifəsini Parlamentin sədri yerinə yetirir. Parlament sədri tərəfindən Gürcüstan Prezidentinin vəzifəsinin həyata keçirilməsinin mümkün olmadığı halda, həmçinin Parlament azad edildiyi zaman Gürcüstan prezidenti vəzifəsini baş nazir yerinə yetirir. Parlamentin sədri tərəfindən Gürcüstan prezidentinin vəzifələrinin yerinə yetirilməsi müddətində parlamentin sədri vəzifəsini Parlamentin sədrinin tapşırığı ilə parlament sədrinin müavinlərindən biri yerinə yetirir. Baş nazir tərəfindən Gürcüstan Prezidentinin vəzifəsinin yerinə yetirilməsi müddətdə baş nazir vəzifəsini baş nazirin birinci müavini səlahiyyətinə malik hökumət üzvü yerinə yetirir. (11.03.2008, N5833)

2.Prezident vəzifəsini yerinə yetirən 73-cü maddənin 1-ci bəndinin «c» və «g» alt bəndləri və 74-cü maddənin 1-ci bəndi ilə nəzərdə tutulan hüquqlardan istifadə etməyə, həmçinin Parlamenti azad etmək səlahiyyəti yoxdur.

[2. Prezident səlahiyyətlərini yerinə yetirən 73-cü maddənin 1-ci bəndinin «ğ» və «k» alt bəndləri və 74-cü maddənin 1-ci bəndi ilə nəzərdə tutulan hüquqları istifadə etməyə səlahiyyətli deyildir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

3. Prezident seçkiləri Prezidentin səlahiyyətinin bitməsi anından 45 gün ərzində keçirilir və onun keçirilməsini Parlament təmin edir.

Maddə 761 Çıxarılmışdır (10.10.2008, N344).

**Maddə 77**

Gürcüstan Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsinə dəstək məqsədi ilə Gürcüstan Prezidentinin administrasiyası yaranır. Gürcüstan Prezidenti administrasiyasının rəhbə- rini vəzifəyə təyin və azad edir, administrativ struktur və iş qaydasını Gürcüstan Prezidenti müəyyənləşdirir. (6.02.2004, N3272)

## DÖRDÜNCÜ FƏSİL
## Gürcüstan hökuməti (6.02.2004, N3272)

**Maddə 78**

1.Hökumət Gürcüstan qanunvericiliyinə müvafiq olaraq icraçı hakimiyyətin, ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsini təmin edir. Hökumət Gürcüstan Prezidenti və Parlamenti qarşısında cavabdehdir.

2.Hökumət baş nazir və nazirlərdən ibarətdir. Hökumət tərkibində dövlət naziri (dövlət nazirləri) ola bilər. Baş nazirin hökumət üzvlərindən birinə baş nazirin birinci müavini, həmçinin bir və ya bir neçə üzvünə baş nazirin müavinləri vəzifəsinin yerinə yetirməsini həvalə etməyə səlahiyyətlidir. Hökumət və hökumət üzvləri Gürcüstan Prezidenti qarşısında səlahiyyətlərini geri götürürlər. (11.03.2008, N5833)

21.Birinci vitse-baş nazirin və vitse-baş nazir vəzifəsinin öhdəliyi qaydası və hüquq səlahiyyətləri qanunla müəyyənləşir. (11.03.2008, N5833)

3. Hökumət konstitusiya, qanunlar və prezidentin normativ aktları əsasında və onların yerinə yetirilməsi üçün qərar və əmrlər qəbul edir. Onlara baş nazir imza atır.

4.Gürcüstan Prezidenti xüsusi vacibliyi olan dövlət məsələlərinə dair hökumət iclası çağırmağa və bu iclasa sədrlik etməyə səlahiyyətlidir. İclasda qəbul olunan qərar Prezident aktı ilə qeydiyyat olunur.

5.Hökumətin strukturu, səlahiyyəti və iş qaydası Parlamentə layihələri hökumət Prezidentin razılığı ilə təqdim etdiyi konstitusiya və qanunla müəyyənləşir.

6.Hökumət öz qərarı ilə istefa verməyə səlahiyyətlidir.

7.Hökumətin səlahiyyəti konstitusiya ilə təyin olunmuş qaydayla və müəyyən hallarda hökumət üzvlərinin təyin olunduğu andan başlayır. (6.02.2004, N3272)

[Maddə 78 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.Gürcüstan hökuməti, ölkənin daxili və xarici siyasətini həyata keçirən icraçı hakimiyyətin ali orqanıdır. Hökumət Parlament qarşısında hesabat cavabdehliyi daşıyır.

2.Hökumət baş nazir və dövlət nazirlərindən ibarətdir. Hökumət tərkibində dövlət naziri və ya dövlət nazirləri ola bilər.

3.Baş nazir hökumətin üzvlərindən birinə birinci vitse baş nazir, həmçinin bir və ya bir neçə üzvünə – vitse baş nazir səlahiyyətini yerinə yetirməyi həvalə etmək səlahiyyətinə malikdir. Birinci vitse-baş nazirin və vitse-baş nazir vəzifəsinin öhdəliyi qaydası və hüquq səlahiyyətləri qanunla müəyyənləşir.

4.Baş-nazir və nazirlər xarici əlaqələrdə Gürcüstanı özlərinin səlahiyyəti çərçivəsində təqdim edirlər.

5.Hökumət konstitusiya və digər qanunvericilik aktlarının əsasında və onların yerinə yetirilməsi üçün qərar və göstərişlər qəbul edir. Sənədləri baş nazir imzalayır.

6.Gürcüstan prezidentinin müxtəlif məsələlərin hökumət iclasında müzakirəsini tələb etməyə və bu məsələlər müzakirə olunan zaman hökumət iclasında iştirak etməyə səlahiyyəti var. İclasda həmçinin Milli Təhlükəsizlik Şurasının katibi və digər üzvləri də iştirak edir.

7. Hökumətin strukturu, səlahiyyəti və iş qaydası konsti- tusiya və qanunla müəyyənləşir. Qeyd edilən qanun layihəsini Parlamentə hökumət təqdim edir.

8. Hökumətin səlahiyyəti konstitusiya ilə müəyyən edilmiş hallarda və təyin olunmuş qaydayla hökumət üzvlərinin təyin olunduğu andan başlayır.]

**Maddə 79**

1. Hökumətin sədri baş nazirdir. [1. Hökumətin başçısı baş nazirdir (15.10.2010, N3710.

2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

2. Baş nazir hökumətin iş istiqamətini müəyyənləşdirir, hökumətin işinə təşkilatçılıq edir, hökumət üzvlərinin işinə koordinasiyanı və nəzarəti həyata keçirir, Gürcüstan Prezidentinə hökumətin işi haqqında məruzə edir və hökumətin işinə görə Gürcüstan Prezidenti və Parlamenti qarşısında cavabdehdir.

[2. Baş nazir hökumətin iş istiqamətlərini müəyyənləşdirir, hökumətin işinə təşkilatçılıq edir, hökumət üzvlərinin işinə koordinasiya və nəzarət edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

3. Baş nazir Parlamentin tələbi ilə ona hökumət proqramının yerinə yetirilməsinin gedişatına dair hesabat təqdim edir.

4. Baş nazir öz səlahiyyəti çərçivəsində fərdi hüquqi akt - əmr dərc edir, həmçinin hökumət binasında tam inzibati funksiyalarını həyata keçirir.

5.Baş nazir Prezidentin razılığı ilə hökumətin digər üzvlərini təyin edir. Baş nazirin hökumət üzvlərini vəzifədən azad etmək salahiyyəti var.

[5. Baş nazir hökumətin digər üzvlərini vəzifəyə təyin və azad edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

6.Baş nazir qanunla nəzərdə tutulmuş hallarda də qaydada digər vəzifə sahiblərini vəzifəyə təyin və azad edir.

7.Baş nazirin istefası və ya onun səlahiyyətinin dayandırılması hökumətin digər üzvlərinin dayandırılmasına gətirib çıxarır. Hökumətin digər üzvlərinin istefasi və ya vəzifədən azad edilməsi təqdirdə baş nazir Gürcüstan Prezidentinin razılığı ilə iki həftə müddətində hökumətin yeni üzvünü təyin edir. (6.02.2004, N3272) [7. Baş nazirin istefası və ya onun səlahiyyətinin dayandırılması hökumətin digər üzvlərinin səlahiyyətlərinin dayandırılmasına gətirib çıxarır. Hökumətin digər üzvünün istefası və ya vəzifədən azad olunması təqdirdə baş nazir iki həftə ərzində hökumət üzvünü təyin edir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 80**

1.Gürcüstan Prezidenti tərəfindən and içmədən sonra hökumət Gürcüstan prezidenti qarşısında səlahiyyəti geri çəkir. Prezident hökumətin səlahiyyətinin geri çəkilməsini qəbul edir və hökumətin yeni tərkibinin təyin edilməsinə qədər öhdəliklərin yerinə yetirilməsini həvalə edə bilər.

2.Gürcüstan Prezidenti hökumətin istefası, buraxılması və ya səlahiyyətinin dayandırılmasından sonra 7 gün ərzində Parlament fraksiyaları ilə məsləhətləşərək baş nazir namizədini seçir. Baş nazir postuna namizəd isə Prezidentlə razılaşdırdıqdan sonra 10 gün ərzində hökumət üzvlərinin namizədlərini seçir. Bu bəndin 1-ci cümləsi ilə nəzərdə tutulan prosedurun sona yetməsindən 3 gün ərzində Gürcüstan Prezidenti etimad qazanmaq üçün hökumət tərkibini Parlamentə təqdim edir.

3.Gürcüstan Prezidenti tərəfindən hökumət tərkibinin təqdim edilməsindən bir həftə müddətində Parlament hökumət tərkibi və hökumət proqramı üçün etimadın elan edilməsi məsələsini müzakirə edir və səsverməyə çıxarır. Parlamentin etimadını qazanmaq üçün Parlamentin tam tərkib çoxluğunun tərəfkeşliyi lazımdır. Hökumət üzvləri etimadın elan edilməsindən sonra 3 gün ərzində təyin edilməlidir. Parlament hökumət

tərkibi barədə etimad elan etməmək və həmin qərarda hökumətin hər hansı bir üzvünün etimadını geri çəkmək məsələsini qaldırmaq səlahiyyətinə malikdir. Əgər Prezident Parlamentin uzaqlaşdırılma haqqında qərarını dəstəkləyərsə, uzaqlaşdırılmış şəxsin hökumətin tərkibinə, hökumət tərəfindən azad edilmiş və ya istefa vermiş üzvün əvəzinə təyin edilməsi yolverilməzdir.

4.Hökumət tərkibi və onun hökumət proqramı Parlamentin etimadını qazanmadığı halda, Gürcüstan Prezidenti bir həftə müddətində Parlamentə hökumətin həmin və ya yeni tərkibini təqdim edir. Parlament bu maddənin 3-cü bəndi ilə nəzərdə tutulan prosedurları həyata keçirir.

5.Hökumət tərkibi və hökumət proqramı ardıcıl olaraq üç dəfə Parlamentin etimadını qazanmasa, Gürcüstan Prezidenti 5 gün ərzində baş nazir vəzifəsinə yeni namizədin namizədliyini irəli sürür və ya Parlamentin razılığı olmadan baş naziri, baş nazir isə həmçinin 5 gün ərzində Gürcüstan Prezidentinin razılığı ilə nazirləri təyin edir. Bu halda Gürcüstan Prezidenti Parlamenti azad edir və növbədənkənar seçkilər təyin edir.

6.Bu maddə ilə nəzərdə tutulan prosedurların gedişatı zamanı Gürcüstan Prezidentinin impiçment qaydası ilə vəzifədən uzaqlaşdırılması məsələsinin qaldırılması yolverilməzdir. (6.02.2004, N3272)

[Maddə 80 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

1.Yeni seçilən parlamentin səlahiyyətinin tanınması anından hökumətin səlahiyyəti bitmiş hesab olunur və Gürcüstan prezidenti hökumətin yeni tərkibi təsdiq olunana qədər səlahiyyətin yerinə yetirilməsini Parlamentə həvalə edir.

2.Gürcüstan Prezidenti hökumətin səlahiyyətinin bitməsindən 7 gün ərzində parlament seçkilərində ən yaxşı nəticəsi

olan seçki subyekti tərəfindən ona təqdim edilən baş nazir namizədini irəli sürür.

3.Baş nazirliyə namizəd 7 gün ərzində nazirlərin namizədlərini seçir və Gürcüstan parlamentinə etimad qazanmaq üçün hökumət tərkibini təqdim edir. Hökumətin tərkibi ilə yanaşı, hökumət proqramı da təqdim edilməlidir.

4.Gürcüstan parlamenti hökumət tərkibinin təqdim edilməsindən 7 gün ərzində hökumətin tərkibinə etimadın verilməsi məsələsini müzakirə edir və məsələni səsverməyə çıxarır. Parlamentin etimadını qazanmaq üçün parlamentin üzvlərinin siyahı tərkibinin çoxluğunun dəstəyi lazımdır.

5.Hökumətin tərkibi etimad qazanmasa, hökumət tərkibinin parlamentə təqdim edilməsindən 30 gün ərzində hökumətin ilkin təqdim edilmiş və ya yenilənmiş tərkibinin etimad alması məsələsi ilə bağlı təkrar səs vermələr keçiriləcək.

6.Baş nazirin namizədi və ya hökumət tərkibi 5-ci bənddə təyin olunan qayda ilə təqdim edilməsə və parlament vaxtında etimad elan etməsə, prezident 7 gün müddətində baş nazir namizədliyinə parlament üzvlərinin ən azı beşdə iki hissəsi tərəfindən təqdim edilən namizədi irəli sürür. Parlament üzvlərinin müxtəlif tərkibləri tərəfindən 2 namizəd təqdim edilibsə, prezident baş nazir namizədi kimi say hesabı ilə daha çoxluq təşkil edən parlament üzvləri tərəfindən təqdim olunan namizədi, təqdim edənlərin eyni sayda olduğu halda isə təqdim edilən namizədlərdən birinin namizədliyini irəli sürəcək.

7.Bu maddənin 6-cı bəndinə əsasən nəzərə alınan halda hökumət üzvlərinin seçilməsi və hökumət tərkibinə etimadın elan edilməsi bu maddənin 3-cü və 4-cü bəndləri ilə nəzərdə tutulmuş qayda ilə həyata keçirilir. Parlament hökumət tərkibinə etimad elan etmədiyi halda Gürcüstan prezidenti 3 gün ərzində parlamenti buraxaraq növədən kənar seçkilər təyin edir.

8.Hökumət tərkibi üçün etimadın elan edilməsindən 2 gün ərzində prezident baş naziri təyin edir, baş nazir isə 2 gün ərzində hökumətin digər üzvlərini təyin edir. Prezident qeyd

edilən müddətdə baş nazirin təyin edilməsi haqqında hüquqi akt təqdim etməsə baş nazir təyin olunmuş hesab edilir.

[Maddə 801 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.Hökumətin istefası və ya baş nazirin səlahiyyətinin dayandırılması zaman Gürcüstan prezidenti 7 gün ərzində baş nazir namizədi kimi parlment çoxluğunun, çoxluq yaranmayıbsa, ən çox parlament üzvünün birləşdiyi fraksiya tərəfindən təqdim edilən namizədi təqdim edir.

2.Hökumət üzvlərinin seçilməsi və hökumət tərkibi üçün etimadın elan edilməsi 80-ci maddənin 3-cü və 8-ci bəndləri ilə təyin olunmuş qayda ilə baş verir.

3.Bu maddənin birinci bəndi ilə nəzərdə tutulmuş mühitin mövcud olduğu halda Gürcüstan prezidenti yeni hökumətin formalaşmasına qədər səlahiyyətin yerinə yetirilməsini hökumətin eyni tərkibinə həvalə edir.]

**Maddə 81**

1.Parlamentin tam tərkibi ilə hökumətə etimadsızlıq elan etmək səlahiyyəti var. Etimadsızlığın elan edilməsi məsələsinin qaldırılmasına Parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsinin hüququ var. Hökumətə etimadsızlığın elan edilməsindən sonra Gürcüstan Prezidenti hökuməti azad edir və ya Parlamentin qərarı ilə razılaşmır. Əgər Parlament ən tez 90, ən gec 100 gün ərzində yenidən hökumətə etmidasızlıq elan edərsə Gürcüstan Prezidenti hökuməti və ya Parlamenti azad edəcək, növbədən kənar seçkilər təyin edəcək. 511 maddənin "a"-"c" alt bəndləri ilə nəzərə alınmış halların mövcud olduğu zaman etimadsızlıq elan edilməsi haqqında təkrar səsvermə bu kimi hallardan 15 gün sonra keçirilməlidir.

2.Parlament qərar qəbul etməklə hökumətə etibar etməməsi barədə məsələ qaldırmaq səlahiyyətinə malikdir. Qərarın qəbul edilməsindən ən tez 15 və ən gec 20 gün ərzində Parlament tam tərkibinin beşdə üç hissəsinin çoxluğu ilə höku-

mətə etimadsızlıq edərsə Gürcüstan Prezidenti hökuməti buraxacaq. Parlament hökumətə etimadsızlıq elan edə bilmədiyi halda hökumətə etimadsızlıq məsələsinin qaldırılması sonrakı 6 ay ərzində yol verilməzdir.

3.Bu maddənin 2-ci bəndində nəzərdə tutulmuş qaydaya əsasən hökumət azad edilərsə, Gürcüstan Prezidentinin hökumətin sonrakı tərkibində həmin şəxsi baş- nazir təyin etmək və ya baş nazirin həmin namizədini təqdim etmək səlahiyyəti yoxdur.

4.Baş nazir Parlamentdə müzakirə ediləcək dövlət büdcəsi, vergi məcəlləsi və hökumət strukturu, səlahiyyət və iş qaydası haqqında qanunlayihələrinə dair hökumətin etimad məsələsini qaldırmaq səlahiyyətinə malikdir. Parlament hökumətə etimadı tam tərkibin çoxluğu ilə elan edir. Parlament hökumətə etimad elan etmədiyi təqdirdə Gürcüstan Prezidenti bir həftə ərzində hökuməti azad edir və ya Parlamenti azad edirək növbədənkənar seçkilər təyin edir.

5.Etimadın elan edilməsi ilə əlaqədar səsvermə, məsələ qaldırıldıqdan sonra 15 gün ərzində keçirilməlidir. Bu müddətdə səsvermənin keçirilməməsi etimadın elan edilməsi deməkdir.

6.Parlament tərəfindən hökumətə etimadın elan edilməsi zamanı müvafiq qanunlayihəsi qəbul olunmuş hesab ediləcəkdir.

7.Bu maddə ilə nəzərdə tutulmuş prosedurların gedişatı zamanı Gürcüstan Prezidentinin impiçment qaydası ilə vəzifəsindən uzaqlaşdırılması yolverilməzdir. (6.02.2004, N3272)

[Maddə 81 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

1.Parlamentin hökumətə etimadsızlıq elan etmək səlahiyyəti var. Etimadsızlıq elan edilmə məsələsinin qaldırılmasına dair parlament üzvlərinin siyahı tərkibinin ən azı beşdə iki hissəsi parlamentə müraciət edə bilər. Etimadsızlıq

məsələsinin qaldırılması ilə əlaqədar səsvermə ən tez 30 və ən gec isə 35 gün ərzində keçirilir. Etimadsızlıq məsələsi, bu məsələyə parlament üzvlərinin siyahı tərkibinin yarısından çoxu dəstək verdiyi halda qaldırılmış hesab ediləcək. Parlament etimadsızlıq məsələsinin qaldırılması haqqında qərar qəbul etməsə, parlamentin həmin üzvləri tərəfindən etimadsızlıq məsələsinin qaldırılması ilə əlaqədar parlamentə müraciət etmək səsvermədən sonra 6 ay müddətində yolverilməzdir.

2. Etimadsızlıq haqqında məsələnin qaldırılmasından 30 gün tez olmamaq və 35 gün gec olmamaq şərtilə, parlament üzvlərinin ən azı beşdə iki hissəsi tərəfindən təqdim olunan baş nazir namizədini prezidentə təqdim edilməsinə səs verir. Bu bənd ilə təyin olunan qayda ilə baş nazir namizədliyinə 2 nəfər təqdim edilsə, bu halda hər iki namizədə səs verilir. Baş nazir namizədinə Parlament üzvlərinin siyahı tərkibinin yarısından çoxu səs verdiyi halda Prezidentə təqdim olunacaq.

3.Prezident, baş nazir namizədinin təqdim edilməsindən beş gün ərzində, təqdim edilən baş nazir namizədinin namizədliyini irəli sürmək və ya təqdim edilən namizədin namizədliyinin irəli sürülməsini rədd etmək səlahiyyətinə malikdir. Prezident, Parlament tərəfindən təqdim edilən namizədin namizədliyini irəli sürsə, hökumətin yeni tərkibinə etimadın elan edilməsi 80-ci maddənin 3-cü və 4-cü bəndləri ilə nəzərdə tutulmuş qaydaya əsasən həyata keçirilir.

4.Prezident, bu maddənin 3-cü bəndinə əsasən, Parlament tərəfindən ona təqdim edilən baş nazir namizədinin irəli sürülməsini rədd etsə, parlament namizədin təqdim edilməsindən ən tez 30 və ən gec 35 gün ərzində, Prezidentə həmin baş nazir namizədinin təqdim edilməsinə səs vermək səlahiyyətinə malikdir. Təqdim edilməyə parlamentin siyahı tərkibinin beşdə üç hissəsi dəstək versə, Prezident 3 gün ərzində ona təqdim edilən namizədin namizədliyini irəli sürməyə borcludur. Hökumətin yeni tərkibi üçün etimadın elan

edilməsi 80-ci maddənin 3-cü və 4-cü bəndlərində nəzərdə tutulmuş qayda ilə baş tutur.

5.Bu maddənin 3-cü və ya 4-cü bəndlərinə əsasən Parlament tərəfindən hökumətin yeni tərkibi üçün etimadın elan edilməsi, hökumət üçün etimadsızlığın elan edilməsi hesab ediləcək, bu isə onun hüquq səlahiyyətlərinin dayandırılmasına səbəb olur. Yeni baş nazirin və hökumət üzvlərinin təyin olunması 80-ci maddənin 8-ci bəndinə müvafiq baş verir.

6.Bu maddənin 3-cü və ya 4-cü bəndlərinə müvafiq olaraq, Parlament tərəfindən hökumətin yeni tərkibi üçün etimadın elan edilməsi bəyan edilmədiyi təqdirdə, prezidentin 3 gün ərzində parlamenti azad etmək və növbədənkənar seçkilər təyin etmək səlahiyyəti var.]

**Maddə 811**

1.Hökumət və onun hökumət proqramı üçün Parlament tərəfindən etimadın elan edilməsindən sonra, hökumətin ilkin tərkibinin üçdə bir hissəsinin, yəni hökumətin ən azı 5 üzvünün yeniləşməsi zamanı, Gürcüstan Prezidenti bir həftə müddətində Parlamentə etimad qazanmaq üçün hökumət tərkibini təqdim edir.

2.Parlament tərəfindən hökumətin tərkibi üçün etimadın elan edilməsi Konstitusiyanın 80-ci maddəsi ilə təyin olunan qayda ilə baş verir.

[Maddə 811 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti prezident seçkiləri nəticəsində seçilən prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.Baş nazir, hökumət tərəfindən təşəbbüs edilmiş qanun layihəsi ilə əlaqədar parlament qarşısında hökumətə etimad məsələsini qaldırmaq səlahiyyətinə malikdir.

2.Parlament qanun layihəsinə bu maddənin birinci bəndi ilə müəyyən edilmiş məsələnin qaldırılmasından 14 gün ərzində səs verir. Konstitusiyanın 66-cı maddəsi ilə uyğun qanunlayihənin qəbul olunması üçün müəyyənləşmiş kvorumla, qanunlayihə bir dinləmə ilə qəbul edilir.

3.Qanun layihəsi qəbul olunmasa, qeyd edilən 81-ci maddənin birinci bəndi ilə nəzərə alınan etimad məsələsinin qaldırılması haqqında qərar kimi hesab ediləcək və 81-ci maddə ilə nəzərdə tutulmuş prosedurlar davam edəcək.

4.Parlament 81-ci maddənin 2-ci və 4-cü aşağı bəndləri ilə nəzərdə tutulmuş qayda və müddətdə hökumətə etimadsızlıq elan etməsə, qanun layihəsi qəbul olunmuş hesab ediləcək.]

**Maddə 812**

1.Nazirliklər, dövlət və ictimai həyatın müəyyən sahələrində dövlət idarəetməsinin və dövlət siyasətinin həyata keçirilməsini təmin etmək üçün yaradılır.

2.Nazirliyə nazir rəhbərlik edir. Nazir onun səlahiyyətinə aid olan məsələlələrə dair qərarları müstəqil olaraq qəbul edir. Nazir qanun, Prezidentin normativ aktı və ya hökumətin qərarları əsasında onların yerinə yetrilməsi üçün əmrlər verir.

3.Dövlət naziri, Konstitusiyada təyin olunan qaydalara müvafiq olaraq, xüsusi əhəmiyyətə malik olan dövlət məsələlərini yerinə yetirmək üçün təyin edilir.

4.Hökumət üzvünün partiya üzvülüyündən başqa digər vəzifə tutmağa, müəssisə təsis etməyə, müəssisə işi görməsinə, elmi, pedaqoji, yaradıcılıq işindən başqa digər işdən maaş almasına hüququ yoxdur.

5. Hökumət üzvünün vəzifəsindən istefa etmək hüququ var. (6.02.2004, N3272)

**Maddə 813** (11.03.2008, N5833)

1.Gürcüstan Prezidentinin və hökumətinin, Gürcüstan inzibati-ərazi vahidlərində nümayəndəliklərini dövlət səlahiyyətlisi – qubernator təmsil edir.

2.Dövlət səlahiyyətlisi – qubernator qanuna əsasən yerli özünüidarəetmə orqanlarının işinə nəzarəti və qanunla müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

3.Dövlət səlahiyyətlisi – qubernatorun vəzifəyə təyin edilmə və vəzifədən azad edilmə qaydası qanunla müəyyənləşir.

[Maddə 813 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.İcraçı hakimiyyətin nümayəndəliyini Gürcüstanın inzibati-ərazi vahidlərində dövlət səlahiyyətlisi – qubernator təmsil edir.

2.Dövlət səlahiyyətlisi – qubernatorun hüquq səlahiyyətləri qanunla müəyyənləşir.

3.Dövlət səlahiyyətlisi – qubernatoru vəzifəyə baş nazir təyin edir və azad edir.]

**Maddə 814** (10.10.2008, N344)

Prokurorluq orqanları Ədliyyə Nazirliyinin sisteminə daxildir və onların ümumi rəhbərliyini ədliyyə naziri həyata keçirir. Prokurorun hüquq səlahiyyəti və işi qanunla müəyyənləşir.

**Maddə 82**
## BEŞİNCİ FƏSİL
## Məhkəmə hakimiyyəti

1.Məhkəmə hakimiyyəti konstitusiya nəzarəti, ədalət və qanunda təyin edilmiş digər formalar vasitəsi ilə həyata keçirilir.

2. Məhkəmə aktları hər bir dövlət orqanı və şəxs üçün məcburidir.

3. Məhkəmə hakimiyyəti müstəqildir və onu yalnız məhkəmələr icra edir.

4. Məhkəmə qərarı Gürcüstanın adı ilə çıxarılır.

5. Ümumi məhkəmələrdə işlər məhkəmə kollegiyası tərəfindən təyin olunmuş qanun və qaydalar əsasında müzakirə edilir. (6.02.2004, N 3272)

**Maddə 83**

1. Konstitusiya nəzarətinin məhkəmə orqanı Gürcüstanın Konstitusiya məhkəməsidir. Onun hüqüq səlahiyyəti, yaranma və iş qaydası Konstitusiya və orqanik qanunla müəyyənləşir.

2.Ədalətin bərpasını ümumi məhkəmələr icra edir. Onların sistemi orqanik qanunla təyin edilmişdir. (27.12.2006, No 4133)

3.Hərbi məhkəmənin təsis edilməsi yalnız müharibə şəraiti zamanı və ümumi məhkəmə sistemində mümkündür.

4.Fövqəladə və ya xüsusi məhkəmələrin yaradılması yolverilməzdir.

**Maddə 84**

1. Hakim öz işində müstəqildir və yalnız Konstitusiyaya və qanuna tabedir. Hakimin işinə müdaxilə və ya qərarın verilməsi üçün hər hansı bir təsir göstərmək qadağandır və qanunla cəzalandırılır.

2. Hakimin işin müzakirəsindən uzaqlaşdırılması, onun vaxtından əvvəl vəzifədən azad edilməsi və ya digər vəzifəyə

keçirilməsi yalnız qanunla müəyyən olunmuş hallarda yol verilir.

3. Heç kimin hakimdən konkret bir işə aid hesabat tələb etmək hüququ yoxdur.

4. Hakimin müstəqilliyini məhdudlaşdıran hər bir akt qeyri-qanunidir.

5. Məhkəmə orqanı yalnız qanunla müəyyən olunmuş qaydalar əsasında məhkəmə qərarını ləğv edə, dəyişə və ya dayandıra bilər.

**Maddə 85**

1. Məhkəmədə iş açıq iclasda müzakirə edilir. Bağlı iclasda işin müzakirə edilməsi yalnız qanunla nəzərdə tutulmuş halda mümkündür. Məhkəmənin qərarı ictimai şəkildə elan edilir.

2. Hüquqi işlərinin aparılması dövlət dilində həyata keçirilir. Dövlət dilini bilməyən şəxs tərcüməçi ilə təmin edilir. Əhalinin dövlət dilini bilmədiyi rayonlarda dövlət dilinin öyrənilməsi və hüquü işlərin aparılması ilə məsələlərin həlli təmin edilir.

3. Hüquq işlərinin aparılması tərəflərin bərabərliyi və raqabət prinsipi ilə həyata keçirilir.

**Maddə 86**

1. Ali hüquqi təhsilli, ixtisasına uyğun ən azı 5 il iş təcrübəsinə malik, 28 yaşı tamam olmuş Gürcustan vətəndaşları hakim ola bilər. (27.12.2005, No2496)

[1. Hakim, müvafiq ali hüquqi təhsili və ixtisas üzrə ən azı 5 illik iş təcrübəsi olan, 30 yaşından yuxarı Gürcüstan vətəndaşları ola bilər. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

2.Hakimin vəzifəyə ən azı 10 il müddətinə təyin olunur. Hakimlərin seçilməsi, təyin edilməsi, vəzifədən azad edilməsi qanunla müəyyənləşir.

[2. Hakimin müddətsiz vəzifəyə təsdiq olunması, qanunla təyin olunmuş yaş həddinə çatana qədər olur. Hakimin müddətsiz təsdiq olunmasına qədər, qanunla hakimin müəyyən vaxt üçün, ən çox 3 il müddətinə təsdiq olunması mümkündür. Hakimlərin seçilməsi, təyin olunması, vəzifədən azad olunması qaydası Konstitusiya və qanunla müəyyənləşir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

3. Hakimin pedaqoji və elmi fəaliyyətdən başqa digər vəzifə və ödənişli işlərlə məşğul olması ziddiyyət təşkil edir. Hakim siyasi partiyanın üzvü ola bilməz, siyasi işdə iştirak edə bilməz. (27.12.2005, No2496)

Maddə 861 (27.12.2006, No4133 orqanik qanunla müvafiq məsələlərin qaydaya salınmasından sonra qüvvəyə minsin)

1. Hakimlərin vəzifəyə təyin olunması, vəzifədən azad olunması və digər məsələlərin yerinə yetirilməsi məqsədi ilə Gürcüstanın Ədliyyə Ali Şurası yaranır.

2.Gürcüstanın Ədilyyə Ali Şurasının tərkibinin yarısından çoxunu Gürcüstanın ümumi hakimlərinin özünüidarə orqanları tərəfindən seçilən üzvlər təşkil edir. Gürcüstanın Ədliyyə Ali Şurasına Gürcüstanın Ali Məhkəmə sədri rəhbərlik edir.

3. Gürcüstanın Ədliyyənin Ali Şurasının səlahiyyətləri və yaranma qaydası orqanik qanunla müəyyənləşir.

**Maddə 87**

1.Hakim toxunulmazdır. Gürcüstanın Ali Məhkəməsinin sədrinin icazəsi olmadan onun cinayət məsuliyyətinə cəlb edilməsi, saxlanılması və ya həbs edilməsi, evində, avtomobilində, iş yerində və ya üzərində axtarış aparılması yol verilməzdir. Cinayət törədilən zaman yaxalama halı istisna edilir və bu zaman dərhal Gürcüstanın Ali Məhkəməsinin sədrinə xəbər verilməlidir. Gürcüstanın Ali Məhkəməsinin sədri razılıq

verməsə saxlanılan və ya həbs edilən hakim dərhal azad edilməlidir.

2.Dövlət hakim və onun ailəsinin təhlükəsizliyinin təmin

**Maddə 88**

1.Gürcüstanın Konstitusiya Məhkəməsi hakimiyyəti Konstitusiya hüquq icrası qaydası ilə həyata keçirilir.

2.Gürcüstanın Konstitusiya Məhkəməsi 9 hakimdən – Konstitusiya Məhkəməsinin üzvlərindən ibarətdir. Məhkəmənin 3 üzvünü Gürcüstanın Prezidenti təyin edir, 3 üzvünü Parlamentin siyahı tərkibinin ən azı beşdə üç hissəsi seçir, 3 üzvünü isə Ali Məhkəmə təyin edir. Konstitusiya məhkəməsinin üzvlərinin səlahiyyət müddəti 10 ildir. Konstitusiya Məhkəməsi konstitusiya məhkəməsinin sədrini öz tərkibindən 5 illik müddətə seçir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3.Konstitusiya Məhkəməsinin üzvü əvvəllər bu vəzifəndə olmuş şəxs ola bilməz.

4.Konstitusiya Məkəməsinin üzvü 30 yaşından etibarən, ali hüquqi təhsilli Gürcüstan vətəndaşı olan şəxs ola bilər. Konstitusiya Məhkəməsinin üzvləri seçilərkən, təyin olunma və seçilməsi, onların səlahiyyətinin dayandırılması, həmçinin Konstitusiya hüquqicrasının və məhkəmənin işinin digər məsələləri qanunla müəyyənləşir. (27.12.2005, N2496)

5. Konstitusiya Məhkəməsinin üzvü toxunulmazdır. 65

Konstitusiya məhkəməsinin razılığı olmadan, Konstitusiya Məhkəməsinin üzvünün cinayət məsuliyyətinə cəlb edilməsi, saxlanılması və ya həbs edilməsi, evində, avtomobilində, iş yerində və ya üzərində axtarış aparılması Konstitusiya Məhkəməsinin razılığı olmadan yol verilməzdir. Cinayət törədən zaman yaxalanma halı istisnadır. Bu zaman dərhal Konstitusiya Məhkəməsinə xəbər verilməlidir. Onun icazəsi olmadığı halda Konstitusiya Məhkəməsinin saxlanılan və ya həbs edilən üzvü dərhal azad edilməlidir.

**Maddə 89**

1. Gürcüstanın Konstitusiya məhkəməsi - Gürcüstan Prezidenti, hökuməti, Parlament üzvlərinin ən azı beşdə birinin, məhkəmənin, Abxaziya Muxtar Respublikasının və Acarıstan Muxtar Respublikasının ali nümayəndəlik orqanlarının, özünüidarə vahidinin nümayəndəlik orqanı – bələdiyyənin, Ali Ədliyyə Şurasının xalq müdafiəçisinin və vətəndaşların şikayəti və ya təqdimatı əsasında orqanik qanunla təyin edilmiş qaydada: (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

a)Konstitusiyaya əsasən, konstitusiya razılığı, qanunvericiliklər, Prezident, hökumət, Abxaziya Muxtar Respublikası, Acarıstan Muxtar Respublikası hakimiyyətinin ali orqanlarının normativ aktlarına müvafiq olaraq qərar qəbul edir; (6.02.2004, N3272);

b)dövlət orqanları arasında səlahiyyət həddinə dair mübahisələri müzakirə edir;

c)vətəndaşların Konstitusiyaya müvafiq olaraq siyasi birliklər yaratmaları və fəaliyyətləri məsələlərini müzakirə edir;

ç) referendum və seçkilərin qaydaya salma normalarını və bu normalara əsasən keçirilən və ya keçiriləcək seçkilərin (referendumun) konstitusionallığına dair mübahisəni müzakirə edir; (27.12.2005, N2496)

f)beynəlxalq müqavilələr və razılıqların konstitusionallıq məsələsini müzakirə edir;

d) Şəxsin şikayəti əsasında normativ aktların Gürcüstan Konstitusiyasının ikinci fəsli ilə tanınmış insanın əsas hüquq və azadlıqları ilə nisbətdə konstitusionallığını araşdırır; (27. 12. 2005,N2496)

e1)«Acarıstan Muxtar Respublikasının statusu haqqında» Gürcüstan Konstitusional qanununun pozulmasına dair mübahisəni müzakirə edir (21.07.2004, N306)

e2) Özünüidarə vahidinin nümayəndəlik orqanı – sakrebulonun (bələdiyyənin) şikayəti əsasında normativ aktların

konstitusionallıq məsələsini, Konstitusiyanın yeddinci1 başlığında müəyyən olunmuş qanunlarla nisbətini müzakirə edir (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

e3) Ali Ədliyyə Şurasının təqdimatı əsasında normativ aktların Konstitusiyanın 82-ci, 84-cü, 86-cı, 861-ci, 87-ci və 90- cı maddələri ilə nisbətdə müvafiqliyini müzakirə edir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

z)Gürcüstan Konstitusiyası və orqanik qanunla müəyyənləşən digər səlahiyyətləri icra edir.

2.Konstitusiya Məhkəməsinin qərarı son qərardır. Qeyri-konstitusional tanınan normativ akt və ya onun hissəsi hüquqi qüvvəsini Konstitusiya Məhkəməsinin müvafiq qərarının dərc edilməsindən sonra itirir.

**Maddə 90**

1.Gürcüstanın Ali Məhkəməsi ən yüksək kasassiya məhkəməsidir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

2.Gürcüstanın Ali Məhkəmənin hakimlərini Gürcüstan Prezidentinin təqdimatı ilə, Parlament siyahı tərkibinin çoxluğu ən azı 10 il müddətinə seçir.

3.Gürcüstanın Ali Məhkəməsinin səlahiyyəti, təşkilatı, işi və Ali Məhkəmə üzvlərinin səlahiyyətlərinin dayandırılması məsələsi orqanik qanunla müəyyən olunur. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

4.Gürcüstanın Ali Məhkəməsinin sədri və üzvləri toxunulmazdır. Ali Məhkəmənin sədrinin və üzvlərinin cinayət məsuliyyətinə cəlb edilməsi, saxlanılması və ya həbs edilməsi, onların evində, avtomobilində, iş yerində və ya üzərində axtarış aparmaq yalnız Parlamentin razılığı ilə mümkündür. Cinayət üzərində yaxalanmaq istisna haldır. Bu barədə dərhal Parlamentə xəbər verilməlidir. Parlament razılıq vermədiyi halda saxlanılan və ya həbs edilən şəxs dərhal azad edilməlidir.

## Maddə 91 Çıxardılmışdır (6.02.2004, N3272 )

## ALTINCI FƏSİL

## Dövlət maliyyəsi və nəzarət

**Maddə 92**

1.Gürcüstan Parlamenti siyahı tərkibinin çoxluğu ilə hər il dövlət büdcəsi qanununu qəbul edir. Qeyd edilən qanunu Gürcüstan Prezidenti imzalayır.

2.Gürcüstanın dövlət büdcəsinin tərtib edilməsi və qəbul olunması qaydası qanunla müəyyən olunur.

**Maddə 93**

1.Gürcüstan hökuməti Parlament komitələri ilə əsas göstəricilər və istiqamətlər razılaşdırıldıqdan sonra Gürcüstan Prezidentinin icazəsi ilə dövlət büdcəsinin layihəsini Parlamentə təqdim etmək səlahiyyətinə malikdir.

2.Hökumət gələn ilin büdcə layihəsini büdcə ilinin sonuna ən azı 3 ay qalmış Parlamentə təqdim edir. Büdcə layihəsi ilə yanaşı hökumət gələn ilin büdcəsinin yerinə yetirilməsinin gedişatı haqqında hesabat təqdim edir. Hökumət dövlət büdcəsinin yerinə yetirilməsi hesabatını büdcə ilinin sona yetməsindən ən gec 3 ay ərzində Parlamentə təsdiq etmək üçün təqdim edir. Əgər Parlament dövlət büdcəsinin yerinə yetirilmədiyi təqdirdə dövlət büdcəsinin yerinə yetirilməsi hesabatını təsdiq etməsə, Gürcüstan Prezidenti hökumətin cavabdehlik məsələsini müzakirə edəcək və Parlamentə bir ay ərzində özünün əsaslandırılmış qərarı haqqında bildirəcək.

3.Konstitusiyanın 511 maddəsinin "a"-"ç" alt bəndlərində nəzərdə tutulmuş hallarda, Parlament tərəfindən Konstitusiya ilə təyin olunmuş müddətdə dövlət büdcəsi təsdiq edilmədiyi halda Prezident dövlət büdcəsini dekretlə təsdiq edir.

4.Hökumətin razılığı olmadan büdcə layihəsinə dəyişikliklərin əlavə edilməsi yolverilməzdir. Hökumət Parlamentdən əlavə dövlət xərcinin ayrılmasını yalnız onun ödənilmə mənbəyi göstərildiyi halda tələb edə bilər. 5. Parlamentin, hökumət tərəfindən dövlət büdcəsi vəsaitləri xərclərinin

qanuniliyinə nəzarət etmək, pozuntular aşkar olunduğu halda isə büdcə vəsaitlərinin xərclənməsinin dayandırılması tələbi ilə Gürcüstan Prezidentinə müraciət etmək səlahiyyəti var. Büdcə vəsaitlərinin qeyri-qanuni xərclənməsi təsdiq edildiyi təqdirdə Prezident müvafiq qərar qəbul edir. 6. Parlament bu maddənin 2-ci bəndinə əsasən, təqdim olunan büdcəni 3 ay arzində qəbul edə bilməsə, Gürcüstan Prezidentinin hökuməti istefaya göndrmək və ya Parlamenti buraxmaq və növbədənkənar seçkilər təyin etmək səlahiyyəti var.

7.Dövlət büdcəsinin təsdiq edilmədiyi təqdirdə Parlamentin buraxılması zamanı Prezident dekret ilə dövlət büdcəsini təsdiq edir və yeni seçilmiş Parlamentin səlahiyyətinin tanınmasından bir ay sonra onu təsdiq etmək üçün təqdim edir.

8.Cari ilin dövlət büdcəsinin xərclərinin artmasını, gəlirin azalmasını və ya dövlət tərəfindən yeni maliyyə öhdəlikliklərinin götürülməsini nəzərdə tutan qanun layihəsini Parlament yalnız hökumətin razılığından sonra, gələn il ilə bağlı yuxarıda qeyd edilən qanun layihələri - hökumət tərəfindən Parlamentlə razılaşdırılmış dövlət büdcəsinin əsas parametrləri çərçivəsində qəbul edə bilər. (6.02.2004, N3272)

[Maddə 93 (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

1.Yalnız Gürcüstan hökuməti parlament komitələri ilə əsas göstəricilər və istiqamətlərin müzakirəsindən sonra, parlamentə dövlət büdcəsinin layihəsini təqdim etmək səlahiyyətinə malikdir.

2.Hökumət gələn ilin büdcə layihəsini parlamentə büdcə ilinin sonuna qədər ən geci üç aya təqdim edir. Büdcə layihəsi ilə bərabər hökumət, cari ilin büdcəsinin yerinə yetirilməsinin gedişatı haqqında məruzə edir. Hökumət dövlət büdcəsinin yerinə yetirilməsi hesabatını, büdcə ilinin sonundan beş ay gec olmamaqla parlamentə təsdiq etmək üçün təqdim edir.

3.Hökumətin razılığı olmadan büdcə layihəsinə əlavələrin edilməsi qadağandır. Hökumət ödənmə mənbəyini göstərdiyi halda parlamentdən əlavə dövlət xərcinin ayrılmasını tələb edə bilər.

4. Parlament təqdim edilən büdcəni 3 ay ərzində qəbul edə bilmədiyi halda, dövlət tərəfindən əvvəl həvalə olunmuş öhdəlikləri yerinə yetirmək üçün mütləq xərclər, əvvəlki ilin büdcəsinə əsasən təmin ediləcək.

5.Dövlət büdcəsi haqqında qanun layihəsinə əsasən, əvvəlki ilin dövlət büdcəsi haqqında qanuna uyğun olaraq, Gürcüstan Prezidenti üçün nəzərdə tutulmuş xərclərin azaldılması yalnız Prezidentin razılığı ilə mümkündür. Cari ilin dövlət büdcəsinin xərclərinin artırılmasını, gəlirlərin azaldılması və ya dövlət tərəfindən yeni maliyyə öhdəliklərinin götürülməsinə gətirib çıxardan qanunlayihəsini parlament yalnız hökumətin razılığından sonra, gələn maliyyə ili ilə əlaqədar, qanun layihələri isə hökumət tərəfindən Parlamentlə razılaşdırılmış dövlət büdcəsinin əsas parametrləri çərçivəsində qəbul edə bilər.

6.Parlamentin hökumət tərəfindən vəsaitlərin xərclənməsinin qanunauyğunluğuna nəzarət etmək səlahiyyəti var.

7.Uzun müddətli, stabil iqtisadi artımın təmin edilməsi üçün iqtisadi siyasətin kökünü təşkil edən prinsiplər orqanik qanunla təyin edilir. Mikroiqtisadi parametrlərinin təyin olunan sərhədlərinin pozulması və xüsusi hallar zamanı vaciblik olanda sərhədlərdən yan keçmə hallarında, həmçinin parametrlərin sərhədlərinə qayıdış məqsədi ilə həyata keçiriləcək tədbirlər orqanik qanunla müəyyənləşir. (15.12.2010, N4033.

2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin) ]

**Maddə 94**

1.Qanunla təyin olunan miqdar və qayda ilə vergilərin və rüsumun ödənilməsi məcburidir.

2.Vergilər və rüsumun strukturunu, daxil edilmə qaydasını yalnız qanun təyin edir.

3. Vergilərdən azad olma yalnız qanunla yol verilir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

[4.Aksizdən başqa ümumdövlət vergisinin yeni növünün daxil edilməsi və ya ümumdövlət vergisinin növ baxımından mövcud olan təyinatın yuxarı sərhəddinin artırılması, orqanik qanunla nəzərdə tutulan hallar istisna olmaqla yalnız referendum yolu ilə mümkündür. Referendumun təyin olunmasının təşəbbüsü hüququ yalnız Gürcüstan hökumətinə aiddir. (15.10.2010, N4033. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)

5.Ümumdövlət vergisinin yeni növünün qəbul edilməsi və ya sərhəd həddinin artırılması kimi mövcud olan verginin alternativi olan və ya onu əvəz edən və eyni zamanda vergi yükünü artırmayan verginin daxil edilməsi və ya dəyişilməsi hesab edilməyəcək. Ümumdövlət vergisinin yeni növünün qəbul edilməsi və ya sərhəd həddinin artırılması kimi həmçinin vergi növü baxımından mövcud olan sərhəd həddi çərçivəsində vergi həddinin dəyişdirilməsi də hesab edilməyəcək. (15.10.2010, N4033. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

**Maddə 95**

1.Gürcüstanın Milli Bankı qiymətlərin stabilliyini təmin etmək üçün ölkənin valyuta siyasətini aparır və maliyyə sektorunun stabil fəaliyyətini təmin edir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

2.Çıxarılmışdır. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3.Milli Bank Gürcüstan hökumətinin banklar bankı, bankiri və xəzinə müvəkkilidir.

4.Milli bank öz işində müstəqildir. Milli Bankın səlahiyyət öhdəliyi, iş qaydası və mstəqillik zamanəti orqanik qanunla müəyyənləşir.

5.Pulun adı və vahidi qanula müəyyənləşir. Pulun emissiya hüququna yalnız Milli Bank malikdir.

**Maddə 96**

1.Milli Bank Şurası Gürcüstanın Milli Bankının orqanıdır. Onun üzvlərini Gürcüstan Prezidentinin təqdimat ilə 7 il müddətinə parlament siyahı tərkibinin çoxluğu ilə seçir. Milli Bank Şurasının üzvlərinin istefası yalnız parlamentin qərarı ilə 64-cü maddəyə müvafiq olaraq mümkündür.

2.Milli Bankın przidenti vəzifəsinə, milli bank şurası üzvləri arasından Milli Bank Şurasının təqdimatı əsasında Gürcüstan Prezidenti təyin və azad edir. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

3.Milli Bank Parlament qarşısında hər il öz xidmətinə aid hesabat təqdim etməyə borcludur. (15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 97**

1.Dövlət xərcləri və dövlətin digər maddi dəyərlərin istifadəsinə nəzarəti Gürcüstanın Nəzarət Palatası həyata keçirir. Onun həmçinin maliyyə təsərrüfat nəzarətinin digər dövlət orqanlarının işinə nəzarət etmək, Parlamentə vergi qanunvericiliyinin mükəmməlləşdirilməsinə dair təkliflər təqdim etmək səlahiyyəti var.

2.Nəzarət Palatası öz işində müstəqildir. O, Parlamentin qarşısında hesabat verir. Nəzarət Palatasının sədrini 5 il müddətinə parlament sədrinin təqdimatı və siyahı tərkibinin çoxluğu ilə Gürcüstan Parlamenti seçir. Onun vəzifədən azad olunması əsasları Konstitusiya və qanunla müəyyənləşir. (6.02.2004, N3272)

3.Nəzarət Palatası ildə iki dəfə, büdcənin yerinə yetirilməsinin və tam hesabatın təqdim edilməsi zamanı Parlamentə

hökumət hesabatı ilə əlaqəli məruzə, ildə bir dəfə isə öz işinə dair hesabat təqdim edir.

4.Nəzarət Palatasının səlahiyyəti, təşkilatı və iş qaydası, müstəqillik zəmanəti qanunla müəyyənləşir.

5.Dövlət nəzarətinin digər orqanları qanuna müvafiq olaraq yaranır.

**Maddə 98**

## YEDDİNCİ FƏSİL

## Dövlət müdafiəsi

1.Özünümüdafiə müharibəsi Gürcüstanın suveren hüququdur.

2.Gürcüstanın, ölkə müstəqilliyi, suvernliyi və ərazi bütövlüyünün müdafiəsi, həmçinin beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün hərbi qüvvələri var.

3.Hərbi qüvvələrin növləri və tərkibi qanunla müəyyənləşir. Hərbi qüvvələrin strukturunu Gürcüstan Prezidenti, sayını isə Milli Təhlükəsizlik Şurasının təqdimatı ilə siyahı tərkibinin çoxluğu ilə Parlament təsdiq edir.

**Maddə 99**

1.Hərbi dirçəliş və ölkənin müdafiəsini təşkil etmək üçün Milli Təhlükəsizlik Şurası yaradılır. Milli Təhlükəsizlik Şurasına Prezident rəhbərlik edir.

2. Milli Təhlükəsizlik Şurasının tərkibi, səlahiyyəti və iş qaydası orqanik qanunla müəyyənləşir.

**Maddə 100**

1.Hərbi qüvvələrin istifadəsi haqqında qərarı Gürcüstan Prezidenti qəbul edir və 48 saat ərzində qərarı təsdiq olunması üçün Parlamentə daxil edir. Bununla yanaşı beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün Gürcüstan Parlamentinin razılığı olmadan hərbi qüvvələrin istifadəsi yol verilməzdir.

2.Dövlətin müdafiə məqsədi ilə xüsusi və qanunla nəzərdə tutulmuş hallarda ölkəyə başqa dövlətin hərbi qüvvəsinin daxil edilməsi, istifadəsi və yerdəyişməsi haqqında qərarını Gürcüstan Prezidenti qəbul edir. Qərar vaxt itirmədən

təsdiq edilmək üçün Parlamentə təqdim olunur və Parlamentin razılığından sonra qüvvəyə minir. (6.02.2004, N3272)

**Maddə 101**

1.Gürcüstanın müdafiəsi, Gürcüstanın hər bir vətəndaşının borcudur.

2.Ölkəni müdafiə etmək və hərbi öhdəlikləri yerinə yetirmək hər bir yararlı Gürcüstan vətəndaşının borcudur. Hərbi öhdəliyin yerinə yetirilmə formasını qanun müəyyən- ləşdirir.

## YEDDİNCİ1 FƏSİL
## Yerli özünüidarəetmə

(15.10.2010, N3710, 2011-ci ilin 1 yanvar tarixindən qüvvəyə minsin)

**Maddə 1011**

1.Yerli özünüidarəetmənin nümayəndəlik və icra orqanlarının yaradılması və iş qaydası qanunla müəyyən edilir. Özünüidarəetmənin icra orqanları, idarəetmənin nümayəndəlik orqanları qarşısında öhdəliklər götürürlər.

2.Yerli özünüidarəetmənin nümayəndəlik orqanı – sakrebulo (bələdiyyə) özünüidarəetmə vahidi ərazisində qeydiyyatdan keçmiş Gürcüstan vətəndaşları tərəfindən birbaşa, ümumi bərabərhüquqlu seçki hüququ əsasında, gizli səsvermə yolu ilə seçilir.

3.Özünüidarəetmə vahidinin yaradılması və ləğv edilməsi, həmçinin inzibati sərhədlərin yenidən yoxlanılması qaydası qanunla müəyyənləşir. Özünüidarəetmənin ləğv edilməsi və ya inzibati sərhədlərin yenidən yoxlanmasından əvvəl özünüidarə vahidi ilə məsləhətləşmə aparılmalıdır.

**Maddə 1012**

1.Yerli özünüidarəetmənin hüquq səlahiyyətləri dövlət orqanlarının hüquq səlahiyyətlərindən ayrıdır. Özünüidarə vahidlərinin fərdi və nümayəndəlik hüququ və səlahiyyətləri var. Yerli özünüidarəetmənin hüquq səlahiyyətlərinin müəyyənləşdirilməsinin əsas prinsipləri və hüquq səlahiyyətləri qanunla tənzimlənir.

2. Özünüidarə vahidi fərdi hüquq səlahiyyətlərini Gürcüstan qanunvericiliyi ilə təyin olunmuş qaydada, müstəqil olaraq və öz cavabdehliyi ilə həyata keçirir. Qanunla müəyyən edilmiş fərdi hüquq səlahiyyətləri eksklüzivdir.

3. Özünüidarə vahidi fərdi təşəbbüsü ilə, Gürcüstan 77 qanunvericiliyinə əsasən hakimiyyətin digər orqanlarının səlahiyyətinə aid olmayan və qanunla qadağan olunmayan hər bir məsələni həll etmək səlahiyyətinə malikdir.

4.Özünüidarə vahidlərinə dövlət orqanlarının nümayəndəliyi səlahiyyətləri qanunvericilik aktları, həmçinin müqavilələr əsasında, yalnız miqdarının hesablanması qaydası qanunla müəyyənləşən müvafiq maddi və maliyyə resurslarının verilməsi əsasında verilir.

**Maddə 1013**

1.Yerli özünüidarəetmənin öz mülkü və maliyyəsi var.

2.Özünüidarə vahidinin orqanları tərəfindən onların səlahiyyəti çərçivəsində verilən qərarların yerinə yetirilməsi üçün özünüidarə vahidinin ərazisi əsasdır.

3.Yerli idarəetmə orqanlarının işinə dövlət nəzarəti qanunla müəyyənləşmiş qayda ilə həyata keçirilir. Dövlət nəzarətinin həyata özünüidarəetmənin qanunvericiliyi ilə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsidir. Dövlət nəzarəti onun məqsədlərini proporsional şəkildə həyata keçirir.

keçirilməsinin məqsədi yerli normativ aktlarının Gürcüstan uyğunluğunun və nümayəndəlik.

## SƏKKİZİNCİ FƏSİL

## Konstitusiyanın yenidən baxılması

### Maddə 102

1. Konstitusiyanın ümumi və ya müəyyən hissəsinə yenidən baxılmasına dair qanun layihəsinin təqdim edilməsinə hüquqları var:

a) Prezidentin;

[a)Çıxarılmışdır. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

b)Parlament üzvlərinin tam tərkibinin yarısından çoxunun;

c)200 000 nəfərdən az olmayan seçicinin.

2.Konstitusiyanın yenidən baxılmasına dair qanun layihəsi Gürcüstan Parlamentinə təqdim olunur. Gürcüstan Parlamenti qanun layihəsini ümumxalq müzakirə üçün dərc edir. Parlamentdə qanun layihəsinin müzakirəsi onun dərc edilməsindən bir ay sonra başlayır.

3.Konstitusiyanın yenidən baxılmasına dair qanun layihəsi Gürcüstan Parlamentinin tam tərkibinin ən azı üçdə iki hissəsi dəstəklədiyi halda qəbul olunmuş hesab ediləcək.

[3. Konstitusiyanın yenidən baxılmasına dair qanun-layihəsi, Gürcüstan Parlamentinin ən azı üç ay interval ilə iki ardıcıl sessiyasında Parlamentin tam tərkibinin ən azı üçdə iki hissəsinin lehinə olduğu təqdirdə qəbul olunmuş hesab ediləcəkdir. (15.10.2010, N3710. 2013-cü ilin oktyabrının növbəti Prezident seçkiləri nəticəsində seçilən Prezidentin and içməsindən sonra qüvvəyə minsin)]

4. Konstitusiyanın 68-ci maddəsi ilə nəzərdə tutulan qaydaya əsasən Konstitusiyanın yenidən baxılmasına dair qanunu Prezident imzalayır və dərc edir.

**Maddə 103**

Fövqəladə və hərbi vəziyyətin elan olunması, fövqəladə və hərbi vəziyyətin ləğv edilməsinədək Konstitusiyanın yenidən baxılmasının dayandırılmasına gətirib çıxaracaq.

## Maddə 104
## DOQQUZUNCU FƏSİL
## Keçici müddəalar

1. Gürcüstan Konstitusiyası, Gürcüstanın yeni seçilmiş Prezidenti Parlamentin səlahiyyətinin tanınmasından sonra qüvvəyə minir.

2. Konstitusiyanın 49-cu, 50-ci və 70-ci maddələri Konstitusiyanın dərc edildiyi andan qüvvəyə minir.

Maddə 1041 (23.02.2005, N1010)

1.Konstitusiyanın 49-cu maddəsinin 1-ci bəndi və 58-ci maddəsinin 1-ci bəndi Gürcüstanın orqanik qanunda «Gürcüstanın Seçki Məcəlləsi»nə müvafiq dəyişikliklər və əlavələrin daxil edilməsindən sonra qüvvəyə minsin.

2.2004-cü ildə seçilmiş Gürcüstan Parlamentinin səlahiyyətinin sona çatmasına qədər onun tərkibi, həmçinin fraksiyanın formalaşdırılması üçün mütləq olan Parlament üzvlərinin sayı bu Parlamentin seçkiləri zamanı qüvvədə olan qanunvericiliyə müvafiq olaraq müəyyənləşir.

3.2008-ci ilin Gürcüstan Parlamentinin növbəti seçkiləri may ayında keçirilir. Seçkilərin tarixini Gürcüstan Prezidenti seçkilərə qədər ən azı 60 gün qalmış müddətdə təyin edir. (11.03.2008, N5833)

Maddə 1042 (24.09.2009, N1675)

Gürcüstan Parlamentinin üzvlərinin səlahiyyəti, 2008-ci ilin 21 may Parlament seçkilərində proporsional seçki sistemi ilə seçilən, Gürcüstan Parlamentinin Gürcüstan Konstitusiyasının 54-cü maddəsinin 2-ci bəndinin «a» alt bəndinə müvafiq olaraq Gürcüstan Parlamenti tərəfindən səlahiyyəti vaxtından əvvəl dayandırılan, əgər yerdəyişmələrinin səlahiyyəti tanınmayıbsa və qeyd edilənlərə dair razılıq 2010-cu ilin 1 yanvarınadək elan edilibsə, bərpa olunsun.

Maddə 1043 (12.02.2010, N2565)

1. Yerli idarəetmə orqanlarının növbədənkənar seçkiləri ən gec 2010-cu ilin 1 iyun tarixində keşirilsin.

2.Tbilisi şəhərinin meri seçkiləri ümumi, bərabər, birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə bu maddənin birinci bəndi ilə müəyyənləşmiş vaxtda keçirilsin.

3.Bu maddənin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş seçkilərin tarixini Gürcüstan Prezidenti seçkilərə qədər ən azı 60 gün qalmış müddətdə təyin edir.

4.Bu maddənin qüvvəyə minməsindən bir ay müddətində Gürcüstan Parlamenti Gürcüstanın digər qanunverici aktları ilə bu maddənin müvafiqliyini təmin edir.

**Maddə 105**

1. 1995-ci ilin seçkilərində iştirak hüququ qanunla təyin olunmuş qayda ilə qeydiyyatdan keçən, təşəbbüsləri 50 000 imza ilə təsdiq olunan və ya Konstitusiyanın qəbul olunması günü üçün Parlamentdə nümayəndəsi olan vətəndaşların, siyasi birliklərin hüququ var.

2.Proporsional sistem ilə seçkilər vahid partiya siyahısı ilə keçirilir.

3.Siyasi birliyin seçki blokunun seçki vilayətində partiya siyahısında olan deputatın namizədliyini majoritar qayda ilə də təqdim etmək hüququ var.

4.Majoritar seçki vilayətində səslərin çox hissəsini götürən, lakin səsvermədə iştirak edənlərin ən azı üçdə bir hissəsi iştirak etdiyi halda seçilən namizəd seçilmiş hesab ediləcəkdir.

5.Birinci turda heç bir namizəd lazımi qədər səs toplamadığı halda ikinci tur keçiriləcək. İkinci turda daha yaxşı nəticələri olan iki namizəd iştirak edəcək. Səslərin çox hissəsini yığan namizəd qalib sayılacaq.

6.Bu maddə Konstitusiya dərc olunan andan qüvvəyə minir və yeni seçilmiş Parlamentin səlahiyyətinin tanınmasına qədər qüvvədə olur.

**Maddə 106**

1.Konstitusiyanın qüvvəyə minməsindən sonra yalnız Konstitusiyaya zidd olmayan hüquqi aktlar və ya aktların hissəsi qüvvədə olur.

2.Konstitusiyanın qüvvəyə minməsindən sonra iki il ərzində Gürcüstan Prezidenti və Gürcüstan Parlamenti Konstitusiyanın qüvvəyə minməsinə qədər qəbul olunan normativ aktların dövlət qeydiyyatını, Konstitusiya və qanunlarla onların müvafiqliyini təmin edirlər.

3.Konstitusiyanın qüvvəyə minməsindən sonra iki il ərzində Gürcüstan Parlamenti Konstitusiya ilə nəzərdə tutulmuş orqanik qanunları qəbul etməli və ya bu sahədə mövcud olan normativ aktların qanunauyğunluluğunu təsdiq etməlidir.

**Maddə 107**

1.Konstitusiyaya müvafiq olaraq məhkəmə quruluşuna aid orqanik qanunların qəbul olunmasına qədər məhkəmə quruluşunun mövcud qanunvericiliyi qüvvədə qalır.

2.Konstitusiyanın 18-ci maddəsinin 2-ci və 3-cü bəndləri müvafiq cinayət prosessual qanunvericilik aktlarının qəbul olunmasından sonra qüvvəyə minəcək.

3. Konstitusiya məhkəməsi haqqında orqanik qanun 1996-cı ilin 1 fevralına qədər qəbul olunmalıdır.

**Maddə 108**

Gürcüstanın bütün ərazisində yurisdiksiyanın tam bərpa olunması ilə əlaqədar Konstitusiyanın 102-ci maddəsinin 2-ci bəndinə müvafiq dəyişikliklər yaxud əlavələrin daxil edilməsi Konstitusiyanın yenidən baxılması qanun layihəsinin ümumxalq müzakirəsi üçün dərc edilməsi olmadan istisna qayda ilə mümkündür.

**Maddə 109**

1.Müvafiq qayda ilə Konstitusiyaya Gürcüstanın dövlət başçısı imza atır və dərc edir.

2.Gürcüstan Parlamenti və Konstitusiya komissiya üzvləri Konstitusiya mətnini imzalayır. Konstitusiyanın qüvvəyə minməsindən ən azı 1 il ərzində Gürcüstanın bütün yerli orqanlarının binasında açıq şəkildə saxlanılmalıdır ki, əhali onunla tanış olsun.

Gürcüstanın dövlət başçısı Eduard Şevardnadze Tbilisi, 1995-ci il, 24 avqust

## ÜMUMTƏHSİL HAQQINDA GÜRCÜSTAN QANUNU

**l-ci hissə.**

**Ümumi müddəalar**

**Maddə 1. Ümumi təhsil haqqında Gürcüstan qanunvericiliyi və qanunun fəaliyyət sahəsi**

1.Ümumi təhsil sahəsi Gürcüstan qanunvericiliyi, Gürcüstan konstitusiyası, konstitusiyada təsbit edilmiş şərtlərlə, beynəlxalq müqavilələr və razılaşdırmalarla, bu və digər qanunlarla və qanunvericilik aktları ilə tənzimlənir.

2.Bu qanun Gürcüstanda ümumtəhsil fəaliyyətinin gerçəkləşdirilməsi şərtlərini, ümümi təhsilin idarə edilməsi və maliyyələşdirmə prinsiplərini, qaydalarını, bütün ümumtəhsil müəssisələrinin statsunu (təşkilatı-hüquqi formaya əsasən), onların təsis edilməsini, fəaliyyətini, yenidən qurulmasını və ləğv edilməsini, lisenziyalaşmasını və akkreditasiya qaydasını müəyyən edir.

**Maddə 2. Terminlərdən istifadə**

Bu qanunda işlədilən terminlərin sonrakı mənası var:

a) Akreditasiya-ümümtəhsil müəssisələrində cari təhsil prosesi ümum təhsilin milli məqsədləri sənədlərlə, milli təhsil planı və Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş ümümtəhsil müəssisələrinin normativlərinə müvafıq gəlməsini təsdiq edir. Əgər ümumtəhsil müəssisəsini mövcud akkreditasiya şərtləri tam qane etmirsə, müəyyən dövr ərzində akreditasiyanın şərtləri tam onu qane edənə qədər şərti akkreditasiya götürür;

b) Əlavə fərdi iş aparmaq-milli və məktəb təhsil planı ilə müəyyən edilmiş dərslərdən (saatlardan) başqa, müəllimlərin milli təhsil planının məqsədlərini yüksəltməsi;

q) Fənlərin yerləşdirilməsi-ümümtəhsil müəssisəsini daxili qaydalarla müəyyən edilmiş qaydalarının ləğvi;

d) Fənlərin tərtib edilməsi-ümumtəhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlərdə vahidiyini təmin etmək,

burada məqsəd sagird və ya müəllimlər tərəfindən fənnlərin necə müəyyənləşdirilməsini aşkara çıxarmaqdır.

e) Fənlərin saxlanması-ümumtəhsil müəssisəsinin daxili qaydası ilə müəyyən edilmiş fənlərin müəyyənləşdirilməsi yerləşdirilməsi üçün təsir ölçüsüdür;

v) Milli təhsil planı – ümumtəhsilin bütün mərhələlərində saatların bölüşdürülməsi, təhsil mühitinin təşkili şərtlərini və tövsiyyələri, şagirdlərin vacib və maksimal yüklənməsini, məqsədlərə çatmaq (qabiliyyət-vərdiş və bilik) da daxil olmaqla, şagirdin bütün mərhələni başa vurmağı bacarması və qabiliyyət-vərdiş və bilik alması imkanlarını əldə etməsi haqqında sənədidir.

z) Milli təhsil planında nəzərdə tutulan əlavə təhsil xidməti-ictimai məktəblər tərəfindən təhsil planında müəyyən olunmuş, milli təhsil planında nəzərdə tutulan fənlərin saatlarının maksimal sayı çərçivəsində göstərilən xidmətdir;

t) Milli təhsil planı ilə nəzərdə tutulan əlavə təhsil və təlim xidməti-ümumtəhsil məktəbləri tərəfindən məktəb təhsil planı ilə müəyyən olunan, tərbiyə və milli təhsil planı ilə nəzərdə tutulan fənnləri seçməklə təhsil və tərbiyə xidmətidir;

i)Milli qiyınətləndirmə sistemi-dövlət tərəfindən şagirdin inkişafına milli təhsil planları ilə qarşıya qoyulmuş səviyyə və bu səviyyəyə çatmağın nə dərəcədə real olub-olmamasını müəyyən edən sistemdir.

k)Ekstern- müstəqil olaraq ümumtəhsil proqramını mənimsəyən və ümumtəhsil müəssisəsində attestasiyadan keçmək imkanına malik olan şəxslər tərəfindən ümum təhsil almanı təsdiq edən dövlət sənədini almaq qaydasıdır;

1)Vauçer-dövlət tərəfindən şagird üçün verilən maliyyə kartıdır, bu maddi baxımdan, eləcə də qeyri-maddi forma ilə şagirin ümumi təhsil almasına imkan verən maliyyələşmədir;

m)Ümumitəhsil-Gürcüstan vətəndaşını tərbiyə etmək, hazırlamaq, ümumitəhsilin sonrakı peşə və cəmiyyətdə yaşamasını təmin etmək məqsədi daşıyan təhsildir. Gürcüs-

tanda tam ümum təhsil 12 il müddətində verilir;

n) Ümumtəhsilin milli məqsədləri sənədi-bu qanuna müvafiq müəyyən edilən ölkədə mövcud olan ümumitəhsil sisteminin məqsədni özündə əks etdirən sənəddir. Ümumtəhsilin milli məqsədi sənədi milli təhsil planını və ümumitəhsil sisteminin fəaliyyətinin əsas göstəricisidir. Ümumtəhsilin milli məqsədi sənədini Gürcüstan Elm və Təhsil nazirinin simasında Gürcüstan hökuməti öz üzərinə götürür və təsdiq üçün parlamentə təqdim edir.

o)Ümumtəhsil mərhələsi-Gürcüstanda tam ümumi təhsilin üç mərhələsi var: ibtidai (6 il), baza (3 il) və orta (3 il);

p)Ümumtəhsil sistemi-milli və məktəb təhsili planlarının, onları gerçəkləşdirəcək ümumtəhsil müəssisələrinin, dövlət orqanlarının və nıülki məhkəmənin təsdiq etdiyi hüquqi şəxslərin ümumtəhsil vermək üçün birgə səyləridir;

j)Ümumtəhsil müəssisələri/məktəbləri-ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin və ya istehsalla məşğul olan xüsusi hüquqi şəxsin, ümumtəhsil fəaliyyəti ilə milli təhsil planına müvafıq və tam ümumitəhsilin bir mərhələsini gerçəkləşdirməsidir;

r)Ümumtəhsil müəssisəsinin inzibati və maliyyə muxtariyyəti - bu cür mövcudluğu halında ümumtəhsil müəssisəsinin özünüidarəsini nəzərdə tutur ki, onun subyektləri qəyyumlar şurası, direksiya, pedaqoji şura, şagirdlərin özünüidarəetməsi, nizam-intizam komitəsi, apeliyasiya komitəsidir;

S)Ümumtəhsil fəaliyyətinin lisenziyalaşdırılması-dövlət tərəfindən verilən sənəddir və bu sənəd xüsusi məktəbin maddi-texniki, praqram və insan resurslarınının Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş ümumtəhsil müəssisələrinin normativləri ilə bir-birinə uyğun gəlməsini təsdiq edən sənəddir;

t)Özünü qiymətləndirmə-məktəb tərəfindən cari təhsil prosesinin umumitəhsilin milli məqsədləri sənədi ilə, milli

təhsil planı ilə və Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunan ümumtəhsil müəssisəsinin normativlərinə uyğun gəlib-gəlməməsini araşdırmaqdır. Özünü qiymətləndirmə prosesində məktəbin müəllimləri, şagirdlər və valideynlər iştirak edir;

u)İnküliziv təhsil-məhdud imkanlı şagirdlərin başqa şagirdlərlə birgə ümumtəhsil prosesinə qoşulmasıdır.

p)Kapital xərc1ər-keçiddir və məqsədi kapital aktivlərini strateji və xüsusi markanın, malın, torpağın, qeyri-material aktivlərin tapılması, tikinti-artırmalarının, maşın, nəqliyyat və başqa əsas vasitələrin tapılması, kapital təmini, inşaat aparmaq və təmiridir;

k) Xüsusi məktəb-xüsusi məhkəmənin təsdiq etdiyi şəxs qismində təsis olumnuş ümümtəhsil müəssisəsidir;

g) Sinif-ümumtəhsil müəssisəsi şagirlərinin müvəqqəti olaraq, milli təhsil proqramında verilən tövsiyələrə uyğun təşkil edilməsi və həmin müəssisənin nizamnaməsi əsasında bir yerdə birləşən şagirdlərin ümümtəhsil proqramını cəmi bir təhsil ili müddətində almasıdır;

ğ) Modifikasiyalı təhsil planı-Milli təhsil planının tərkib hissəsidir, bu xüsusən fərqli təhsil planına müvafiq təhsil alması vacib olan şagirdlər üçündür;

ş) Valideyn-şagirdin valideyni və ya onun qanuni nümayəndəsi;

ç) Az kontinget1i məktəb-yerli şəraitə görə az şagirdi olan məktəbdir. Az şagirdli məktəbin normativlərini Gürcüstan Elm və Təhsil Nazirliyi hazırlayır.

ts) Pedaqoq-ali təhsili olan və qanunvericiliklə nəzərdə tutulan qaydada serfikatı olan şəxsdir;

Dz) Pedaqoji fəaliyyət-müəllimlərin şagirlər üçün verdiyi dərs və onunla əlavə fərdi işləməsidir.

c) Pilotlaşdırma-milli təhsil planınında nəzərdə tutulan məqsədlərə çatmaq üçün məktəblərin seçilməsidir;

C) Məktəb vaxtı - milli təhsil planı ilə müəyyən edilmiş

proseslərin, habelə məktəb tərəfindən yaradılan, təşkil edilən maliyyələşdirilən, habelə onların sponsorları tərəfindən həyata keçirilən hər hansı tədbirin keçirilmə vaxtıdır;

x)Məktəb təhsil planı-konkret ümumtəhsil müəssisəsinin milli təhsil planınıda verilən yükün vacib maksimum yükləmə çərçivəsində dəqiqləşdirməsi; milli təhsil planında nəzərdə tutulan əlavə ümumtəhsil xidmətini və tərbiyə xidmətini, habelə məktəbdə cari təhsil tədbirlərini gerçəkləşdirən təhsil planıdır;

c) İctimai məktəb - ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində təsis etdiyi ümumtəhsil müəssisəsidir;

h) Məktəb direksiyası-məktəbin direktoru, onun müavini, müavinləri və mühasibatdır;

$h^1$) Məktəbin Pedaqoji Şurası - məktəb müəllimlərindən ibarət bərabərhüquqlu orqanıdır;

$h^2$) Məktəbin Qəyyumlar Şurası-məktəbin özünüidarəetməsinin ali orqanıdır;

$h^3$) Axtarış-fənlərin yerləşdirilməsi məqsədi ilə - fənnlərin müəyyənləşdirilməsi qaydası ilə ardıcıllığın qopmamasını, maddi və mənəvi dəyərlərə çatmaq üçün lazımı fənlərin müəyyənləşdirilməsini tələb edən və onları nizamlayan fəaliyyətdir.

**Maddə 3. Ümumtəhsil sahəsində dövlət siyasətinin əsas məqsədləri**

1. Gürcüstanda ümumtəhsil sahəsində dövlət siyasətinin əsas məqsədləri:

a) Şagirdə mövcud milli və ümumtəhsil dəyərlərini mənimsəmək, azad şəxsiyyət kimi formalaşdırmaq üçün lazımi şərait yaratmaq;

b) Şagirlərin əqli və fiziki qabiliyyətinin inkişafı, lazımi biliyin alınmasına qayğı göstərmək, həyatını sağlam qaydada qurmaq, dəyərləri-demokratik dəyərlərlə birgə vətəndaş yetkinliyini formalaşdırmaq, şagird tərəfindən mədəni dəyərlərə hörmət, ailənin, cəmiyyətin, dövlətin və ətrafındakılara qarşı vəzifə və hüquqlarını bilmək və bunları gerçəkləşdirmək.

2. Bu maddənin birinci bəndində nəzərdə tutulan məqsədə çatmaq üçün dövlət aşağıdakıları təmin edir:

a) Ümumtəhsilin şəffaflığını və təhsilin həyatı boyu hamı tərəfindən bərabər şəkildə almasının mümkünlüyünü;

b) Gürcüstan ümumtəhsil sisteminin beynəlxalq təhsil məkanına qoşulmasını;

q) İctimai məktəbin dini və siyasi birliklərin təsiri altına düşməsinin qarşısını almaqla onun müstəqilliyini təmin etmək, habelə xüsusi məktəblərin siyasi birliklərə münasibətinin müstəqillliyini təmin etmək;

d) Milli dəyərlərin milli təhsil planına müvafiq gəlməsini və akkreditasiya sistemini formalaşdırmaq, burada təhsilin keyfiyyəti və qiymətləndirmə vasitəsi ilə ümumtəhsil prosesini planlaşdırma və idarəetmə nəzərdə tutulur;

e) Ümumtəhsil müəssisəsinin funksyasını yerinə yetirməsi üçün lazımi maddi -texniki, proqram və insani resursların normativlərini müəyyən etmək və onlardan ayrı xüsusi məktəblərin lisenziyalaşma sistemini işləyib hazırlamaq;

v) Ümumtəhsil müəssisəsinin inzibati və maliyyə muxtariyyətini;

z)Ümumtəhsil müəssisələrində zorakılığın qarşısını almaq;

t) İnklüziv təhsilə əsaslanmaq

**Maddə 4. Təhsil dili**

1.Ümumtəhsil müəssisələrində təhsil dili gürcü dili, habelə Abxaziya Muxtar Respublikasında gürcü, ya da abxaz dilidir.

2.Abxaziya Muxtar Respublikasının ümumtəhsil müəssisələrinin birində tədris hər iki dövlət dilindən birində aparılırsa, onda burada ikinci dövlət dilini öyrənmək məcburidir.

3.Ana dili gürcü dili olmayan Gürcüstan vətəndaşları milli təhsil planına müvafiq, qanunvericiliklə müəyyən edilmiş qaydada öz ana dillərində tam təhsil almaq hüququna malikdirlər. Bu cür təhsil müəssisələrində dövlət dilini, Abxaziya Muxtar Respublikasında isə hər iki dövlət dilini öyrənmək məcburidir.

4.Gürcüstanda beynəlxalq müqavilələr və razılaşmalarla nəzərdə tutulan hallarda bəzi ümumtəhsil müəssisələrində təhsil xarici dildə keçirilə bilər. Bu cür ümumtəhsil müəssisələrində dövlət dilinin, Abxaziya Muxtar Respublikasında isə hər iki dövlət dilinin tədrisi məcburudir.

**Maddə 5. Milli tədris planı**

1.Bu qanunun 3-cü maddəsində nəzərdə tutulan məqsədlərə çatmaq üçün dövlət özündə ümumtəhsilin mərhələlərinə görə lazımi fənnləri, predmetli qrupları, fənnlərə görə saatları, onların bölünməsini, bərabər səviyyəliyini və vacibliyini və maksimal yüklənmənin sayını, predmetləri və predmetli qrupların təhsil alması üçün lazımi minimal saatların sayını, təhsil şəraitinin təşkilini və tövsiyələri özündə əks etdirən milli tədris planını işləyib hazırlayır.

2. Milli təhsil planı ilə müəyyənləşdirilmiş bu məqsədə çatmaq (vərdiş, qabiliyyət və bilik) üçün şagird bütün fənnlər üzrə, əgər fənlər üzrə müəyyənləşdirilmiş qrup sinifi varsa o da daxil olmaqla, ya da bir mərhələni bitirdiyi təqdirdə, ya da sinifi qurtaranadək hər bir fənni mənimsəməklə milli təhsil planını bitirmiş sayılır. Habelə milli təhsil proqramında modifikasiyalı təhsil planları ilə lazım gələn şagirdlərə xüsusi təhsil də nəzərdə tutulur.

3. Milli təhsil planı sonrakı predmetləri və problemli qrupları nəzərdə tutur:

a)Gürcü dili və ədəbiyyatını (Abxaziya Muxtar Respublikasında abxaz və gürcü dilini);

b) Gürcüstan tarixi, Gürcüstan coğrafiyası və digər ictimai elmləri;

q) Riyaziyyat;

d)Təbiətşünaslıq elmləri;

e)Xarici dillər;

v) Fiziki əmək və estetik tərbiyə

4.Bu maddənin 3-cü bəndinin "A" və "B" yarımbəndləri ilə nəzərdə tutulan fənnlər və problemli qruplar bu qanunun 4-

cü maddəsinin 3-ci bəndinə uyğun olaraq gürcü dili və ədəbiyyatı, Gürcüstan tarixi, Gürcüstan coğrafiyası və ictimai elmləri gürcü dilində, ancaq Abxaziya Muxtar Respublikasında -gürcü dilində ya da abxaz dilində dərs keçilən ümumtəhsil müəssisələrində təhsil alırlar.

5.Milli Təhsil planını tamamlamaq hər bir ümumtəhsil müəssisəsi üçün məcburidir.

6.Milli və məktəb təhsil planları ilə nəzərdə tutulan fənnlərin öyrənilməsi akademik, obyektiv, neytral və plüar olmalıdır.

**Maddə 6. Ümumtəhsil**

l.Tam ümumi təhsil almaq ümumtəhsilin hər üç mərhələsinin milli təhsil planı ilə müəyyən edilmiş səviyyəsinə çatmaq və onlara görə veriləcək müfaviq sənədlərin dövlət tərəfindən təsdiqlənməsinin nəzərdə tutulması deməkdir. Dövlət sənədlərinin nümunələri və onların verilmə qaydaları Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

2.Ümumtəhsil proqramını sürətlə keçmə yalnız xüsusi hallarda, şagirdin fərdi imkanlarını nəzərə almaqla, Gürcüstan Elm və Təhsil Nazrliyi tərəfindən müəyyən edilmiş qaydada gerçəkləşdirilir.

3.Şagirdin və ya onun valideyninin xahişi olduğu təqdirdə müəssisə şagirdin fənləri keçməsini təsdiq edən arayışı Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən işlənib hazırlanmış forma əsasında verməyə borcludur.

4.Şagirdin baza təhsil mərhələsini keçmədən ümumtəhsil sisteminin sonrakı mərhələsinə keşməsi yol verilməzdir.

5.Ümumtəhsilin hər hansı mərhələsini keçməni təsdiq edən sənədi olan hər bir şəxsin Gürcüstanın bütün ərazisində sonrakı mərhələdə təhsilini davam etdirmək hüququ var.

6.Ümumtəhsilin ibtidai mərhələsində təhsil almaq üçün minimal hədd 6 yaşdır. Gürcüstan Elm və Təhsil Nazirliyi bu hədd çatmadığı təqdirdə onu artıra bilər.

**Maddə 7. Ümumtəhsil almaq**

1.Dövlət hər bir şagirdin yaşadığı yerə görə və maksimal yaxınlıqdakı yerdə dövlət və ya ana dilində ümumtəhsil almağı təmin edir.

2.Əgər bu maddənin birinci bəndində verilən hüquqların standart vauçerə uyğunlaşdırılması mümkün deyilsə, dövlət bu cür şagirdləri maliyyə baxımından yüksək vauçerlə təmin edir.

3.Bu maddənin birinci bəndi ilə verilən hüquqlar az kontingentli ictimai məktəblərdə, xüsusi, korrektə olunmuş və ya linqivist azlığı olan məktəbdə və ya sinif çərçivəsində gerçəkləşdirilərsə və əgər ibtidai mərhələdə 3, baza mərhələsində 6 və orta mərhələdə 21 şagird olarsa, onda həmin müəssisənin şagirdləri atırılmış vauçerlə təmin edilməldir.

## II FƏSİL
## ŞAGİRDİN, VALİDEYNİN VƏ MÜƏLLİMLƏRİN ƏSAS HÜQUQ VƏ AZADLIQLARI

**Maddə 8. Əsas zəmanətlər**

l. Şagirdlərin, valideynlərin və müəllimlərin, habelə onların birliklərinin bərabər şəraitdə, diskriminasiyaya məruz qalmadan, müəyyən olunmuş qaydada, məktəb vaxtında və ya məktəb ərazisində, məktəb tərəfindən qəbul edilən hüquq və azadlıqlardan, habelə məktəbin bütün resurslanndan istifadə etmək hüququ var.

2. Məktəbin dərs vaxtı və ya məktəb ərazisindən kənar şəxsləri diskriminasiya etmədən onların məktəb ərazisinə daxil olmasını məhdudlaşdırmaq hüququ var.

3. Bu qanunla nəzərdə tutulan nizamnaməyə müvafiq olaraq, dərs vaxtı və ya məktəb ərazisində şagirdin, valideynin və müəllimin və onları özündə birləşdirən birliklərin səlahiyyətlərini və azadlıqlarını diskriminasiya etmədən və neytral

məhdudlaşdırma qaydası ilə, onlara irəlicədən xəbərdarlıq etməklə hüquqları aşağıdakı kimi məhdudlaşdıra bilər:

a) Sağlamlığın, yaşamağın və mülkiyyətin təhdidi baş verdikdə;

b) Narkotik, alkoqol və tənbəkidən istifadə etdikdə, ya da qanunsuz hərəkət etdikdə;

q) Xoşagəlməz hallara və ya güc tətbiqinə, etnik, ya da dini zəmində dava salmağa, cinayətə, ya zorakılığa yol verildikdə;

d) Tədris prosesini pozduqda, məktəbin fəaliyyətinə, ya da məktəbin ərazisində azad hərəkətə mane olduqda;

4.Şagirdin, valideynin və müəllimlərin hüquq və azadlıqlarının istənilən məhdudiyyəti, məntiqli, proporsional, minimal və müəyyən olunmuş qaydalar əsasında, etik normalara tam riayət etməklə, yazılı və ədalətli prosedura çərçivəsində gerçəkləşdirilməlidir.

5.Şagirdin, valideynin və müəllimin hüquqlarının və azdlıqlarının eyni dərəcədə bərabərləşdirilməsi və məhdudlaşdınlması yol verilməzdir. Hər hansı qadağa və ya buna bənzər hallar, onların hüquq və azadlıqlarının gerçəkləşmə yerindən, vaxtından və formasından asılıdır. Bu cür qadağa geniş informasiya vermək və ya informasiya yaymaqla yox, daha effektli və alternativ yollarla gerçəkləşdirilməlidir.

6.Bu qanunu qəbul edən şagird, valideyn və müəllimlərin hüquqlarından və azadlıqlarından istifadə onların qanunu səlahiyyətidir. Onlar haqqında qaldırılan hər hansı iddia zamanı onların hüquq və azadlıqlarından istifadə etməsinin qanuna zidd olması barədə iddia qadağanı irəli sürən təşəbbüskardan asılıdır.

7.Məktəb tərəfindən qanunun məqsədləri ilə ziddiyyət təşkil edən tədbirin maliyyələşdirilməsi yol verilməzdir.

8.Bu qanun burada izah edilməyən və hamı tərəfindən qəbul edilmiş hüquqları və azadlıqları inkar etmir, ancaq bu halda hər şey Gürcüstan qanunvericiliyindən çıxış edərək

gerçəkləşdirilir.

**Maddə 9. Təhsil almaq hüququ**

1.Hər bir kəsin şəxsi və ictimai həyatda uğur qazanması, öz şəxsiyyətini, bacarıq-qabiliyyətini, biliyini göstərməsi üçün bərabər səviyyədə ümumtəhsil almaq hüququ var, ibtidai və baza təhsili almaq məcburidir.

2.Dövlət ümumtəhsil sistemi və müvafiq sosial-iqtisadi baza yaratmaqla ümumi təhsil almaq təminatını öz üzərinə götürür.

3. Təhsil sistemini idarəedən orqanlar məhdud imkanlı, habelə uzunmüddətli müalicəyə ehtiyacı olan şagirdlər üçün xüsusi və korreksiyalı xarakter daşıyan təhsil müəssisələri, proqramları yaratmaqla belə uşaqların tərbiyəsi, təhsili, müalicəsi və ictimai həyata adaptasiyası və cəmiyyətə inteqrasiyasını gerçəkləşdirir və bu cür şagirdlərin maliyyələşməsi qayğısına qalır.

4. Ekstern formada ümum təhsil almaq mümkündür. Gürcüstan Elm və Təhsil Nazirliyi ekstern formada təhsil almaq qaydalannı və şərtlərini müəyyən edir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq olaraq şagirdin yaş xüsusiyyətini, əmək və ailə şəraitini nəzərə alaraq ümuıntəhsilin alternativ formada alınması təmin edilə bilər.

6. Dövlət ümumtəhsili seçməkdə şagirdə və valideynə müstəqillik verir. Valideynin ümumtəhsil seçiminin azadlığına şamil deyil:

a)Məcburi təhsili özünün müəyyən etməsi hüququ;

b)Bu qanunun məqsədlərinə çatmağa mane olan təhsil.

7. Məktəb şagirdin biliyini qiymətləndirməyi təmin etmək üçün bütün lazımi tələbləri tətbiq etməyə borcludur. Şagirdin nizam-intizamına görə akademik qiymətləndirilməsi yol verilməzdir.

8. Şagirdin qeyri-müvafiq rəftardan, qeyri-qənaətbəxş münasibətdən və təhqirdən müdafiə olunmaq hüququ var.

9. Məktəb məktəb vaxtı, eləcə də məktəbin həyətində və həndəvərində sağlamlığa, həyata və mülkiyyətə təhlükəsiz şərait yaratmağa borcludur.

10. Məktəb dərs vaxtı bütün ölçüləri götürməklə, habelə məktəbin, ya da onun həndəvərindəki ərazidə şagirdin, valideynin və müəllimlərin hüquq və azadlıqlarını yazılı müdafiə etməyə,qanunsuzluqları bəri başdan aradan qaldırmağa borcludur.

11. Məktəbdən qovulmuş şagirdin başqa məktəbdə təhsilini davam etdirmək hüququ var.

12. Şagirdin Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq olaraq bir məktəbdən digər məktəbin ümürntəhsil mərhələsinə keçmə hüququ var.

**Maddə 10. Öz hüquqları və azadlıqları haqqmda məlumat almaq hüququ.**

1. Şagirdin, valideynin və müəllimlərin bütün hüquqları və azadlıqları barədə, habelə, onlar barədə seçilən məhdudiyyətlər barədə məlumat almaq hüququ var.

2. Məktəb hər yeni şagirdə, valideynə, müəllimə onların hüquq və azadlıqlarını başa salmağa borcludur.

3.Məktəb hüquq və azadlığını məhdudlaşdırdığı şagirdə, valideynə və müəllimə bu qadağanın hansı səbəbdən seçilməsi barədə təcili məlumat verməyə borcludur.

**Maddə 11. Məktəbin idarə edilməsində iştirak etmək hüququ**

1.Şagirdin, valideynin və müəllimin şəxsən və seçilmək yolu ilə məktəbin idarə edilməsində iştirak etmək hüququ var.

2.Şagirdin, valideynin və müəllimin şəxsi sirdən başqa, məktəbdə mövcud olan hər hansı informasiyanı almaq hüququ var.

3.Şagirdin, valideynin və müəllimin məktəblə əlaqədar və məsələlərin həlli barədə çıxarılan qərarları məktəbdən tələb etmək, bu məsələlərin müzakirəsi vaxtı onların fikrini dinləməyi tələb, müzakirə də adi qaydada və nümayəndəlik

qismində iştirak etmək hüququ var.

4. Şagirdə qarşı seçilən hər hansı ölçü onun marağı müdafiə olunmaqla gerçəkləşdirilməlidir.

**Maddə 12. Şikayət hüququ**

1.Şagirdin, valideynin və müəllimin öz hüquqları və azadlıqlarının müdafiəsi üçün müəllimlərin və məktəbin qeyri-qanuni və başqa, bəraəti mümkün olmayan hərəkətlərdən, həmçinin, dəyən zərəri ödətmək tələbi ilə şikayət etmək hüququ var.

2.Məktəb şikayəti müstəqil şəkildə və müzakirəsi qadağan olunmayan effektli vasitələrlə seçməyə borcludur.

**Maddə 13. Neytrallıq və diskriminasiyaya məruz qalmaq**

1.Ümumtəhsil müəssisələrində təhsil prosesinin siyasiləşməsi yolverilməzdir.

A) İctimai məktəbin təhsil prosesində dini indektrina, prozelitizm və ya məcburi assimilyasiya yolverilməzdir. Bu norma kütləvi məktəbdə dövlət bayramlarının və tarixi günlərin qeyd ediləməsini, habelə milli və ümumbəşəri dəyərlərə yiyələnməyi istisna etmir.

2. Məktəbdə hər hansı diskiriminasiyanın tətbiqi yolverilməzdir. Bu norma müsabiqələrdə, peşə sənəti və idman hazırlığı və təhsili verən təhsil müəssisələrinə şamil edilir.

3. Məktəbin öz səlahiyyətləri və resurslarından birbaşa və ya dolayısı ilə istifadə etməklə şagird, valideyn və müəllimi, habelə, onlann birliyini diskiriminsiya etməsi yolverilməzdir.

4. Hər hansı ədalətsiz və bilərəkdən hər bir şəxsin və qrupun azad inkişafı və bərbabər imkanlarını müəyyənləşdirmək və ya çatışmazlıq üzündən diskiriminasiya yolverilməzdir.

5. Məktəb şagird, valideyn və müəllimlər arasında onların sosial, dini, linqvistik və haralı olmasına görə sıxışdırılmasının qarşısını almağa və onların hüququnu qorumağa borcludur.

6.Məktəb bərabər səviyyəlilik əsasında azlıqda qalan

üzvlərinin fərdi və kollektiv hüququnu, ana dilindən müstəqil istifadəsini, mədəni mənsubiyyətini müdafiə edir.

**Maddə 14. Özünüifadə azadlığı**

1. Şagirdin, valideynin və müəllimin qanunla müəyyən olunmuş qaydada məktəb vaxtı və ya məktəb ərazisindən bəyəndiyi, gördüyü, yenisini yaratmaqla, saxlamaqla, onun üzərində işləməklə və ya informasiyanı yaymaq, yeni ideyalar axtarmaq, qəbul etmək, habelə məktəb resursundan istifadə ilə informasiyaları Gürcüstan qanunvericiliyi ilə, habelə bu qanunla müəyyən edilmiş məhdudiyyətləri nəzərə alaraq əldə etmək, istifadə etmək, yaratmaq, saxlamaq, üzərində işləmək və ya yaymaq hüququ var.

2. Şagirdin öz fikrini ifadə etmək və ona qarşı hörmətlə yanaşılmasını tələb etmək hüququ var.

3.Məktəb nəşrlərinin redaksiya müstəqilliyinə və məktəb kitabxanasınadakı kitablara senzura tətbiq etınək yol verilməzdir. Bu norma azyaşlı şagirdlərin yaşlarına görə ədəbiyyat seçməsindəki bəzi qadağalara görə onların diskriminasiyaya məruz qalması deyil və bu yaşa görə ədəbiyyatın əks təsirinin qarşısını almaq üçün nəzərdə tutulan neytral məhdudlaşdırmadır.

4.Şagirdin, valideynin və müəllimin müəyyən edilmiş qaydada məktəbin fəaliyyətini öz istəyi ilə yoxlama hüququ var.

5.Şagirdin və müəllimin təhsilin və tədqiqatların milli təhsil məqsədləri ilə ziddiyyət təşkil etdiyi təqdirdə, ondan imtina edərək, müəyyən olunmuş məqsədlərə çatmaq üçün akademik təhsil alma azadlıqlığı var.

6.Məktəbin hər hansı qadağadan kənar, şagirdin və müəllimlərin azadlığını ifadə etməsinə şərait yaratmaq hüququ var. Şagirdin və müəllimin əsaslandırılmış şəkildə məktəbin formasının seçilməsini imtina etınə hüququ var.

7.Məktəbin formasının təsis edilməsində məktəb şagirdin maliyyə imkanlarını nəzərə almalıdır və əgər onlar formanı

tapa bilmirlərsə, məktəb bu formanın tapılmasını təmin etməlidir.

**Maddə 15. Toplaşmaq azadlığı**

1.Şagirdin, valideynin və müəllimin ilkin razılaşma ilə, qanunla müəyyən edilmiş qaydada məktəbin ərazisində toplaşmaq azadlığı var.

2.Məktəbin şagirdin və müəllimlərin arzusuna zidd olaraq, onların icazəsi olmadan toplaşmasını qadağan etməsi və ona nəzarət etməsi, qulaq asması yol verilməzdir. Məktəb vacib bildiyi təqdirdə şagirlərin, valideynlərin, müəllimlərin toplantısında iştirak etınək hüququ var.

3. Kənar şəxslərin şagirdlərin toplantısında onlann dəvəti ilə iştirak etmə hüququ var.

**Maddə 16. Birləşmə azadlığı**

1. Şagirdin, valideynin və müəllimin qanunla müəyyən edilmiş qaydada birləşmək azadlığı var.

2.Məktəbin şagirdin, valideynin, müəllimin birliyinə qanunla nəzərdə tutulan hallardan başqa qarışması yol verilməzdir.

**Maddə 17. Şəxsi həyat toxunulmazlığı**

1.Şagirdin, valideynin və müəllimin şəxsi həyatı toxunulmazdır. Onlardan şəxsi həyatı barədə informasiya verməsini xahiş etmək olmaz.

1. Məktəb şagird, valideyin və müəllim haqqında şəxsi məlumatları qanunla və Gürcüstan ümumi inzibati kodeksinə müvafiq əldə etməyə, toplamağa və saxlamağa borcludur.

2. Şagirdin dərsi akademik qavraması barədə məlumat onun intizamlılığı ilə bağlı məlumatlarından ayrı yığılıb saxlanılmalıdır.

3. Məktəbin şagirdin və müəllimin alkoqola və narkotik vasitələrə, həmçinin xəstəliyə tutulub-tutulmamasını öyrənmək üçün tibbi yoxlamadan keçirmək hüququ var.

4.Şagirdin və müəllimin şəxsi həyatına, şəxsi istifadəsinə verilən xüsusi komunikasiya vasitələrinə, habelə məktəbin

mülkiyyətində olan vasitələrə öz başına toxunması yol verilməzdir.

**Maddə 18. Dini azadlıq.**

1.Şagirdin, valideynin və müəllimin qanunla müəyyən olmuş qaydada dini, ibadət və vicdan azadlığı var, onlar hər hansı dini dünyagörüşü öz istəyi ilə seçmə və dəyişmə hüququna malikdirlər.

2.Şagirdin, valideynin və müəllimin onların dini ilə ziddiyyət təşkil edən ibadət və vicdan azadlığına əks olan öhdəlikləri üzərlərinə götürürsə, xüsusən bu başqasının hüquqlarını pozursa və milli təhsil planında nəzərdə tutulan səviyyəyə mane olursa, belə hallar yol verilməzdir.

3.İctimai məktəbin ərazisində dini simvolların yerləşdirilməsi qeyri-akademik məqsədlərə xidmət etməməlidir.

4.Əgər bunlar dini təhsil almağa xidmət etmirsə, ictimai məktəbin şagirdlərinin məktəb vaxtından azad vaxtlarında öz istəkləri ilə dini öyrənmək, ya da dini ritualları icra etmək hüququ var.

**Maddə 19. Nizam-İntizam.**

1.Məktəb nizam-intizamı şagirdin və müəllimin azadlıq və ləyaqət hissinə hörmət aşılayan metodlarla təşkil olunmalıdır.

2.Məktəbin daxili qaydaları ilə müəyyən olunmuş tələblər, nizam-intizam tərtibi və onun icrası mütənasib olmalıdır.

3.Şagirdin dərsdən buraxılması, məktəbi tərk etməsi və başqa nizam-intizam tətbiqi məktəbin daxili qaydalarına uyğun olmalıdır.

4. Nizam-intizamın yoxlanılması yalnız məktəbin daxili qaydaları ilə və müəyyən edilmiş qaydalarla, yazılı və ədalətli prosedura ilə gerçəkləşdirilə bilər.

5.Müəllim tərəfindən şagirdə nizam-intizamı pozması ilə bağlı irad tutulduqda və o nizam-intizama riayət etmədiyi təqdirdə məktəb şagirdə bunun mahiyyəti ilə bağlı izahat xarakterli müraciət etməyə borcludur.

6. Şagirdə qarşı nizam-intizam tətbiq etməklə bağlı seçilən tədbiri, habelə onun nizam-intizama riayət etmədiyi valideyninə təxirə salmadan bildirmək lazımdır.

7.Məktəb nizam-intizama görə şagirdə tətbiq edilən elə tələblər seçməyə borcludur ki, bunlar şagirdin tədris prosesinin mahiyyətini pozmasın.

8. Şəxsiyyətin hörmətini və ləyaqətini aşağı salan sərt və ya buna bənzər nizam-intizam tədbirinin seçilməsi yol verilməzdir.

9.Şagirdin sikayət etməsi yol verilməzdir, yalnız konkret şəxs haqqında təkzibedilməz faktlar və sübutların mövcud olması gümanı varsa, bununla bağlı şikayət emək məktəbin daxili qaydaları ilə nəzərdə tutulan qaydada ola bilər. Şagirdin şikayətini yalnız məktəb tərəfindən müvafiq səlahiyyətə malik şəxs gerçəkləşdirə bilər. Şagirdlərin kollektiv şikayəti yol verilməzdir.

10. Şagird və ya müəllimin məktəb vaxtında və məktəbdən kənar nizam-intizama görə izlənməsi, yalnız məktəbin təkzibedilməz sübutu olması və marağı istisna olmaqla yol verilməzdir.

11. Şagirdin və müəllimin nizam-intizam təqibinə görə dindirmədə susmaq hüququ var. Susmaq hüququ şagird və müəllimi nizam-intizam cavabdehliyindən azad etmir.

12. Müəllimin şagirdi dərsdən qovmaq qərarını qəbul etməmək hüququ var. Şagirdin 5 gün ərzində dərsdən qovulmaq səlahiyyəti direktorun qərarı ilə ola bilər, 5-10 gün ərzində dərsdən qovulmaq və ya məktəbdən qovulmaq hüququ nizam-intizam komitəsinin geniş müzakirəsindən sonra ola bilər.

13.Qanunla nəzərdə tutulan və vacib hallar istisna olmaqla, dərs vaxtı, ya məktəb ərazisində şagirdlə əlaqəyə girənə qədər polis əməkdaşları və ya xüsusi xidmət işçiləri bu əlaqəyə girmənin məqsədi, işin halları barədə məktəbi tanış etməli və onlar vasitəsi ilə şagirdlə əlaqəyə girməlidirlər. Məktəb şagirdə hüquqlarını başa salmalı və baş verənlər barədə

təxirə salmadan onun valideynlərinə xəbər verməlidir.

**Maddə 20. Zorakılığın yolverilməzliyi**

Məktəbdə şagirdlərə və ya hər hansı bir şəxsə qarşı zorakılıq yol verilməzdir. Fiziki və ya sözlə təhqiretmə halları baş verdikdə məktəb buna qanunvericilikdə nəzərdə tutulan qaydada reaksiya verməyə borcludur.

**Maddə 21. Şagirdin başqa hüquqları.**

1.Ümumtəhsil müəssisələrində şagirdin aşağıdakı hüquqları var:

a)Müəssisənin işləməsi üçün lazımi şəraitin yaradılmasını tələb etmək;

b)Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər əsasında işləmək;

q) İxtisasını artırmaq;

d) Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək;

2. Şagirdin əməklə məşğul olması tam iş həftəsi olduğu təqdirdə bu, Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş kütləvi xidmətin minimal maaşından az olmamalıdır.

3. Ümumtəhsil müəssisələrinin və şagirdin əməklə məşğul olması əmək müqaviləsi, Gürcüstan qanunvericiliyi ilə müəyyən olunmuş müddətə və qaydalarla uyğun olmalıdır.

4. Şagirdin əməklə məşğul olması ictimai məktəbin büdcəsinin artması ilə birgə artır.

## III FƏSİL
## ÜMUMİTƏHSİLİN MALİYYƏLƏŞMƏSİ

**Maddə 22. Dövlət tərəfindən ümumtəhsilin maliyyələşdirilməsi**

1.Dövlət tam ümumtəhsil almağı təmin edir. Şagirdin təhsil alması üçün dövlət ümumtəhsilini 12 il ərzində maliyyələşdirir.

2.Dövlət təhsilə aynlan xərcləri ibtidai təhsil və ya baza

və ya orta ümumtəhsil proqramlanna malik dövlət təhsil müəssisələri üçün ayınr. Özəl məktəbdə təhsil almaq üçün bir şagirdə nəzərdə tutulan maliyyə normativi dövlət tərəfindən, əgər o məktəb akreditasiyaya malikdirsə müvafıq vauçerlə maliyyələşdirir.

3.Dövlət tərəfindən şagirdin təhsilinin maliyyələşməsi mərkəzi büdcədən bir şagird üçün nəzərdə tutulan vauçer əsasında və ümumtəhsil müəssisəsinin kapital xərclərinə daxil edilmədən həyata keçirilir. Standart və artırılmış vauçerin həcmi milli təhsil planı ilə nəzərdə tutulan səviyyəyə çatmaq üçün maksimal yükə görə, başqa vəziyyətdə olan şagird üçünsə maliyyə imkanlarına görə, təhsil almada mütənasibliyi təmin etmək prinsipinə riayət etməklə gerçəkləşdirilir.

4.Hər bir valideynin bu maddənin 2-ci bəndində nəzərdə tutulan qaydada təhsil müəssisəsində məktəb yaşına çatmış uşağının təhsilini maliyyələşdirməsi üçün vauçer almaq hüququ var. Dövlət bu bəndlə nəzərdə tutulan qaydada, şagird başqa təhsil müəssisəsinə keçdiyi təqdirdə maliyyələşməni gücləndirir.

5. Kütləvi məktəbin kapital xərclərini dövlət və ya yerli özünüidarəetmə orqanı həyata keçirir.

6. Hər bir azkontingentli ictimai məktəb milli təhsil planını yerinə yetirmək xərclərini, bir şagird üçün nəzərdə tutulan maliyyə normativini Gürcüstan Elm və Təhsil Nazirliyinin qərarı əsasında mərkəzi büdcədən əlavə artırılmış vauçer şəklində almaq hüququna malikdir.

7.Bu maddə ilə nəzərdə tutulan maliyyələşmə Gürcüstan vətəndaşlarına şamil edilir. Xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslərin ümumi təhsil almaq hüququ Gürcüstanın qoşulduğu beynəlxalq müqavilələr və razılaşdırılmalar əsasında gerçəkləşdirilir. Beynəlxalq müqavilələr və ya razılaşdırmalarla ümumtəhsili almaq hüququ qaydaya salınmamış ölkələrin vətəndaşlarını Gürcüstan dövləti fərdi prinsip əsasında maliyyələşdirir. Gürcüstan dövlətinin fərdi prinsiplə

maliyyələşmə əsasında ümumtəhsilini almaq istəyən hər bir xarici dövlətin vətəndaşı Gürcüstan Elm və Təhsil Nazirliyinə, Gürcüstan Xarici İşlər Nazirliyinə bu barədə məlumat verməklə təhsil alırlar.

**Maddə 23. Əlavə ümumtəhsil və tərbiyə xidmətinin maliyyələşdirilməsi.**

1.Əgər ümumtəhsil müəssisəsində 12 illik təhsildən sonra şagird baza mərhələli milli və ya modifikasiyalı təhsil planı ilə müəyyən edilən səviyyəyə çatmayıbsa, qəyyumlar şurası müvafiq yerli özünüidarəetmə orqanına bu şagirdin təhsilini davam etdirməsi üçün maliyyələşməni davam etdirməyi xahiş edə bilər. Malyyələşmə şagird tərəfindən baza mərhələli təhsil səviyyəsinə çatana qədər davam edə bilər. Əgər şagird bu səviyyəyə çata bilmirsə, ictimai məktəb şagirdə ümumtəhsil almağın alternativ formalarını təklif etməyə borcludur.

2.Əgər şagird 3 il ərzində ümumtəhsilin orta mərhələsini bitirə bilmirsə, qəyyumlar şurası onun müraciəti əsasında yerli özünüidarəetmə orqanına şagirdin təhsil almasını davam etdirə bilməsi üçün maliyyələşdirməni davam etdirməyi xahiş edə bilər.

3. Qəyyumlar şurasının xahişi əsasında yerli özünüidarəetmə orqanı əlavə təhsil və tərbiyə xərclərini ödəyə bilər. Dövlət və yerli özünüidarəetmə orqanları xüsusi məqsədli təhsil proqramını maliyyələşdirə bilər.

## IV FƏSİL
## ÜMUMİTƏHSİLİN İDARƏETMƏ SİSTEMİ

**Maddə 24. Ümumtəhsil sahəsində Gürcüstan parlamentinin səlahiyyətləri**

1. Ümumtəhsil sahəsində Gürcüstan parlamentinin səlahiyyətləri

Gürcüstan parlamenti:

a)Ümumtəhsil sahəsində dövlət siyasətini və idarəet-

mənin əsas istiqamətlərini müəyyən edir, müvafiq qanunvericilik aktlarını işləyib hazırlayır;

b) Gürcüstan hökuməti tərəfindən qəbul edilmiş ümumtəhsilin milli məqsədləri sənədini 1 ay müddətinə təsdiq edir;

q) Mütəmadi olaraq ümümtəhsil sahəsində dövlət siyasətinin həyata keçməsi, maliyyə məsələləri, milli və regional proqramların yerinə yetirilməsi barədə Gürcüstan Elm və Təhsil nazirinin hesabatını dinləyir.

**Maddə 25. Gürcüstan hökumətinin ümumtəhsil sahəsindəki səlahiyyətləri.**

1. Ümumtəhsil sahəsində dövlət siyasətini Gürcüstan hökuməti gerçəkləşdirir.

2. Gürcüstan hökuməti:

a) Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumitəhsilin milli məqsədləri sənədini qəbul edir, 1 ay müddətində Gürcüstan parlamentinə təsdiq edilmək üçün göndərir;

b) Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi təqdimatla bir şagird üçün nəzərdə tutulan maliyyə normativini müvafiq standartla və artırılmış vauçer həcmində təsdiq edir;

3. Gürcüstanın baş naziri Gürcüstan Elm və Təhsil Nazirliyinin təqdimatı ilə təhsil planını və Qiymətləndirmə Mərkəzinin direktorunu təsdiq edir.

**Maddə 26. Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumtəhsil sahəsində səlahiyyətləri**

1. Gürcüstan Elm və Təhsil Nazirliyi ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyi - Gürcüstan konstitusiyası, konstitusiya razılaşdırması, beynəlxalq müqavilələri və razılaşdırmaları, bu qanunla, başqa qanunlarla və qanun yaradıcılığı aktları əsasında:

a)Ümumtəhsil sahəsində vahid siyasət həyata keçirir:

b) Ümumtəhsil haqqında milli məqsədlər sənədi hazırlayır və onu Gürcüstan hökumətinə təqdim edir;

q)Təhsil sistemində indiqatorların bu cür əsas sənəd-

lərini işləyib hazırlayır;

d)Milli təhsil planını və Qiymətləndirmə Mərkəzinin nizamnaməsini işləyib hazırlayır və qəbul edir;

e)Gürcüstan baş nazirinin təsdiq etməsi üçün milli təhsil planını və Qiymətləndirmə Mərkəzinin direktorluğuna namizədi təqdim edir;

v)Milli təhsil planlanının və Qiymətləndirmə Mərkəzinin təklifləri əsasında milli təhsil planını təsdiq edir;

z)Ümumtəhsil müəssisəsinin maddi-texniki, proqramı və insan resurslarının normativlərini işləyib hazırlayır, habelə bunların ictimai məktəblərdə necə icra edilməsini yoxlayır, özəl məktəblər tərəfindən lisenziya şərtlərinin yerinə yetirilməsinə nəzarət edir;

t) Özəl məktəblərin lisenziya almasını həyata keçirir və lisenziyanın şərtlərinin yerinə yetirilməsinə nəzarət edir, lisenziya şərtlərinin pozulması hallarında verilmiş lisenziyanın fəaliyyətini dayandırmağa, ya da onu ləğv etməyə səlahiyyətlidir. Lisenziya verilməsinin lazımi şərtlərinin olması, müəssisənin maddi-texniki bazasının, proqramının, insan resurslarının Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş normativlərə uyğun olub-olmamasını yoxlayır;

ı) Ümumtəhsil müəssisələrinin dövlət akkreditasiya xidmətinin təqdimatı ilə ümumtəhsil müəssisəsinin akkreditasiyası nizamnaməsini təsdiq edir;

k) Ümumtəhsil müəssisəsinin tikintisinin inşaat standartlanna uyğun olub-olmamasına müvafiq sahə nazirlikləri və idarələr ilə birlikdə qiymət verir;

1) Vauçerin verilməsini və verilmə qaydasını Gürcüstan Maliyyə Nazirliyi ilə birgə icra edir;

m)Xüsusi təhsil almağa məcbur olan, habelə məktəbdən kənarlaşdırılmış şagirdlərin təhsil alması daxil olmaqla hər bir şagirdlə bağlı ölçülər götürür; ekstern təhsil almağın sertifikatlaşması üçün nizamnamə işləyib hazırlayır; ümumtəhsil müəssisələrindən başqa ümumtəhsil müəssisəsinə keçməyi və

ya alternativ təhsil nizamnaməsini işləyib hazırlayır;

n)Ümumtəhsil müəssisəsini hüquqi şəxs-ictimai məktəb qismində təsis edir və onun nizamnaməsini təsdiq edir; onun yenidən qurulmasında və ləğv edilməsində iştirak etmək səlahiyyətinə malikdir. Abxaziya və ya Acarıstan muxtar respublikalarında bu bənddə nəzərdə tutulan fəaliyyətlər müvafiq muxtar respublikalarının təhsil nazirliklərinin təqdimatı əsasında gerçəkləşdirilir;

o) İctimai məktəb direktorunun seçilmə müsabiqəsini təşkil edir və qəyyumlar şurasının direktor seçilmək üçün namizədlərin üç nəfərdən artıq olmamasını təmin edir;

p) Qəyyumlar şurası tərəfindən ictimai məktəbə seçilən direktoru və qəyyumlar şurasının üzvlərini qeydiyyata alır;

j) Əgər qəyyumlar şurası məktəb direktorunu qanunsuz olaraq işdən azad edibsə və bu məhkəmənin müvafiq qərarı ilə təsdiqini tapırsa, onun qəyyumlar şurasını buraxmaq səlahiyyəti var;

r) İctimai məktəbin dalbadal iki dəfə akreditasiyasının ləğv edildiyi və ona dalbadal iki dəfə şərti akkreditasiya verildiyi təqdirdə, habelə, bu qanunun 49-cu maddəsinin 7-ci bəndi ilə nəzərdə tutlan hallarda, qəyyumlar şurasının və ya direktorun vaxtının tamam olana qədər saxlanmasını xahiş etməyə səlahiyyətlidir;

s)Xaricdə təhsil almış şəxsin ümumtəhsil almasını təsdiq edən sənədlərin tanınması qaydalarını və şərtlərini işləyib hazırlayır;

t) Milli qiymətləndirmənin keçirilməsini təsdiq edir;

u)Keyfiyyəti yoxlamaq üçün və təminat sahəsində beynəlxalq təşkilatlarla, başqa ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq edir;

p)Milli təhsil planları və Qiymətləndirmə təqdimatı əsasında tövsiyə edilən dərsliklərin Mərkəzinin tərif vermə qaydasını təsdiq edir;

k) İctimai məktəblərin dövlət nəzarətini və ümumtəhsil

sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetrilməsini həyata keçirir. Bu məqsədlə qanunvericiliklə nəzərdə tutulan qaydada nazirlik bu məktəblərdə maliyyə məsələlərini yoxlamağa səlahiyyətlidir;

g)İctimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində məktəbdənxaric təhsil və məktəbdənxaric tərbiyə müəssisələri təsis edir;

ğ)Məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin-ümum təhsil müəssisələrinin, habelə ümumtəhsil müəssisələrinin akkrediasiyasını aparmaq məqsədi ilə təhsil müəssisələrinin dövlət akreditasiya xidmətini yaradır;

ş) İctimai məktəbin direktorunun və müəllimlərin müsabiqə yolu ilə seçilməsi qaydasını, qəyyumlar şurası üzvlərinin seçilməsi, onların səlahiyyət qaydalarını və şərtlərini hazırlayır. Müsabiqə qaydası ilə bir neçə məktəb direktorluğuna namizədlərin eyni vaxtda seçilməsi mexanizmini hazırlayır;

ç) İctimai təşkilatların təqdimatı ilə məşvərətçi səslə ictimai məktəbin qəyyumlar şurasına üzv təyin etmək səlahiyyəti var;

ts)İctimai məktəblərdə il ərzində təhsil günlərinin minimal və maksimal sayını, minimal və maksimal davamlılığını müəyyən edir;

dz) Ümum təhsil müəssisələrinin Dövlət Akreditasiya Xidmətinin təqdimatı ilə təhsil müəssisələrinin akreditasiyasının rüsum həddini təsdiq edir.

c) İctimai məktəbin direktorunun və seçkili orqanları üzvlərinin qeydiyyatı qaydasını hazırlayır;

ç) Müəllimlər arasında əmək bölgüsünün minimal həcmini və şərtlərini müəyyən edir.

ş) Həmkarlar İttifaqının iştirakı ilə ictimai məktəb şagirdlərinin işləməsi ilə bağlı minimal həcmi və şərtləri hazırlayır, məktəblər tərəfindən müəllimlərlə bağlanmış əmək müqaviləsinin məcburi şərtlərini hazırlayır;

x) Müəllimlərin ixtisasını artırmaq üçün peşəkar

ittifaqlarla əməkdaşlığını planlaşdırır;

c) Müəllimlərin peşəkar hazırlığını, hazırlanmasını və ya ixtisasını artırmasını, onların akreditasiyasını artıran, onlann akreditasiyasının şərtlərinə nəzarət, hüquqi şəxslərə akreditasiyanın verilməsi, nizamnamənin, akkreditasiya şərtlərinin pozulması təqdirdə ləğv edəndən sonra akreditisiya verilənə qədər şərti akreditasiya verilməsi və ya bu məqsədlərin onlar tərəfından təsis edilməsi, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin vasitəsi ilə gerçəkləşdirilir;

H) Ümumtəhsil almağı təsdiq edən dövlət sənədinin formasını təsdiq edir;

$H^1$) İctimai məktəblərin nömrələrini və onlara ad verilməsi qaydasını hazırlayır;

$H^2$) Zəmanətlər və xüsusi istedadı olan şagirdləri həvəsləndirmək məqsədi ilə təqaüd təsis etınək səlahiyyəti var;

$H^3$) Şagirdin və müəllimin şəxsi göstəricilərini qeydiyyata almağı və onların qeydiyyata alma qaydalarını gerçəkləşdirir;

$H^4$) Müəllimlərin məşğulluğunu uyğunlaşdırmaq mexanizmlərini işləyib hazırlayır;

$H^5$) Gürcüstan qanunvericiliyi və nazirliyin qərarları ilə nəzərdə tutulan digər funksiyaları yerinə yetrir;

2. Bu maddənin birinci bəndində nəzərdə tutulan səlahiyyətlərin həyata keçməsi "Gürcüstan hökumətinin strukturu, səlahiyyətləri və fəaliyyət qaydaları haqqında" Gürcüstan qanununa müvafiq olaraq, Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən Gürcüstanın bütün ərazisini əhatə edir, yenidənqurma aktı an ilə öz ərazi orqanlarını yaradır və onların nizamnaməsini təsdiq edir, vəzifələrini müəyyənləşdirir və bu orqanların rəhbərlərini və müavinlərini vəzifədən azad edir. Elm və Təhsil Nazirliyinin ərazi orqanları dövlət büdcəsindən maliyyələşir.

3.Gürcüstan Elm və Təhsil Nazirliyi ümumtəhsil, məktəbdənkənar təhsil və məkdəbdəndənkənar tərbiyə müəssisə-

lərinin reysterini hazırlayır, ictimai məktəblərin direktorlarını, direktorların səlahiyyətlərini yerinə yetirmələrinin mümkün olmadığı halda onların öhdəliklərini yerinə yetirən müavinlərini, bu öhdəliikləri yerinə yetirən digər şəxsləri, Qəyyumlar şurasının üzvlərini Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada, aşağıdakı şərtlərə əməl etmək şərti ilə qeydiyyatdan keçirir:

a) Məlumatlar təqdim ediləndən sonra onların 15 gün ərzində qeydiyyata götürülməsini;

b) Əgər məlumatlar bu qanuna və ümumtəhsil sahəsində qüvvədə olan qanuni aktların tələblərinə uyğun gəlmirsə, həmin sənədlər qeydiyyata alınmır;

q) Əgər Gürcüstan Elm və Təhsil Nazirliyi 15 gün ərzində təqdim olunmuş məlumatlarda qanun pozuntusu aşkar etməyibsə və qanun pozuntusu barədə məlumat verməyibsə, məlumat qeydiyyatdan keçmiş hesab olunur;

d) Əgər məlumatlar Abxaziya və Acarıstan muxtar respublikaları ərazisindəki təhsil müəssisələri ilə əlaqəlidirsə, Elm və Təhsil Nazirliyi muxtar respublikaların müvafiq nazirliklərinin təqdimatı əsasında qeydiyyat aparır.

**Maddə 27. Gürcüstan nazirliklərinin ümumtəhsil sahəsindəki səlahiyyətləri**

1. Peşəkar sənət və idman hazırlığını ümumtəhsillə birgə həyata keçirərkən ümumtəhsil müəssisələri sahə nazirliklərinin Gürcüstan Elm və Təhsil Nazirliyinə müvafiq təqdimatı əsasında, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində təsis edilir. Bu müəssisələr Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada akreditasiyadan keçir. Milli təhsil planı yuxarıda qeyd edilən peşəkar sənət və idman hazırlığı və təhsili, həmçinin ibtidai və baza mərhələli təhsil verən bu cür müəssisələr sahə nazirlikliklər və ya yerli özünüidarəetmə orqanları tərəfindən maliyyələşdirilir.

2. Milli təhsil planı yuxarıda göstərilən peşəkar sənət və

idman ümumtəhsil proqramları sahə nazirlikləri tərəfindən qanunvericiliklə nəzərdə tutulan qaydada həyata keçrilir.

**Maddə 28. Milli təhsil planları və Qiymətləndirmə Mərkəzi**

1. Milli təhsil planları və Qiymətləndirmə Mərkəzi ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsdir.

2. Milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzinin funksiyalarına daxildir:

a) Milli təhsil planını hazırlamaq, pilotlaşdırma və onun tətbiqi;

b) İctimai məktəblərdə cari təhsil prosesinin milli qiymətləndirmə sistemini işləyib hazırlamaq, seçmək, milli və başqa qiymətləndirmələri gerçəkləşdirmək;

q) Dərsliklərin milli təhsil planı ilə uyğunluğunu təmin etmək və tövsiyə edilən dərsliklərə tərif vermək;

**Maddə 29. Abxaziya və Acarıstan respublikalarının təhsil nazirliklərinin ümumtəhsil sahəsindəki səlahiyyətləri**

1. Abxaziya Muxtar Respublikasının Təhsil Nazirliyi, Acarıstan Muxtar Respublikası Təhsil Nazirliyi muxtar respublikaların müvafiq ərazilərində:

a) Öz ərazisində ümumtəhsilin idarə edilməsi sahəsində, ümumtəhsil sahəsində vahid dövlət siyasəti aparır;

b) Ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetirilməsini təmin edir;

q) Milli təhsil planını tətbiq etməyi təşkil etməkdə, milli təhsil planlarına və Qiymətləndirmə Mərkəzində milli qiymətləndirməni gerçəkləşdirir;

d) Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş nizamnamələrin bütün ümumtəhsil müəssisələrində Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfından müəyyən etdiyi normativlərə uyğun gəlməsini təmin edir;

e) Lisenziya şərtlərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirir, lisenziya şərtlərinin pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi həmin məktəbə xəbərdarlıq edir,

verilən lisenziyanın dayandırılmasını və ləğv edilməsini təmin edir;

v) Ümumtəhsil müəssisələrinin qiymətləndirilməsini Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada həyata keçirir;

z) Ümumtəhsil, məktəbdənkənar təhsil və tərbiyə müəssisələrinin nizamnaməsini təsdiq üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə təqdim edir;

t) Ümumtəhsil, məkdəbdənkənar təhsil və məktəbdənkənar tərbiyə müəssisələrinin reyestrini keçirir, ümumtəhsil məktəblərinin direktorlarını qeydiyyatdan keçirir, direktor öz səlahiyyətlərini yerinə yetirə bilmədiyi təqdirdə onun vəzifəsini icra edən müavinlərin, qəyyumlar şurasının üzvünün bu qanunla və ümum təhsil sahəsində qüvvədə olan qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada qeyd edilən məlumatları təkrar qeydiyyat üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə göndərməyi təmin edilir. Elm və Təhsil Nazirliyi məlumatların qeydiyyatını və onların qüvvəyə minməsini təmin edir;

İ) Bu qanula nəzərdə tutulan qaydada ümümtəhsil müəssisələrinin maliyyələşdirilməsini gerçəkləşdirir;

K) İctimai məktəbin direktorunun seçilməsi müsabiqəsini keçirir və qəyyumlar şurasının direktoru seçməsi üçün üç nəfərdən az olmamaq şərti ilə namizədlərini irəli sürür;

L) Əgər qəyyumlar şurası qanunsuz şəkildə direktoru işdən azad edərsə və bu məhkəmə qərarı ilə öz təsdiqini taparsa, qəyyumlar şurasını buraxmağa səlahiyyətlidir;

m) İctimai məktəb tərəfindən dalbadal iki dəfə akreditisiyanın ləğv edildiyi və ona dalbadal iki dəfə şərti akreditasiya verildiyi təqdirdə, qəyyumlar şurasının və ya direktorun vaxtı tamam olana qədər saxlanmasını xahiş etməyə səlahiyyətlidir;

N) Gürcüstan qanunvericiliyini və lisenziya şərtlərini yerinə yetirmək üçün, bunların yerlərdə məktəb tərəfindən öyrənilməsi üçün məsələləri və informasiyaları verməsini xahiş edib alır;

o) Məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin və lisenziya şərtlərinin pozulduğu təqdirdə onlara yazılı xəbərdarlıq etməyə səlahiyyətlidir;

p) Əgər məktəb deyilən vaxta qədər yazılı xəbərdarlıq alıbsa və bu pozuntunu düzəltməyibsə və ya da məktəb 1 il ərzində 2 yazılı xəbərdarlıq alıbsa, müddətinə görə səlahiyyətləri ləğv edilmiş direktoru işdən azad etməyə və qəyyumlar şurasını buraxmağa səlahiyyətlidir.

J) Cürcüstan qanunvericiliyinin necə yerinə yetirilməsi barədə Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafıq olaraq ictimai məktəbin ötən ilin fəaliyyəti, təhsil prosesi və maliyyə fəaliyyəti barədə hesabat verir**;**

r) Gürcüstan qanunvericiliyini, habelə bu qanunla nəzərdə tutulan başqa səlahiyyətləri gerçəkləşdirir.

n) Müvafıq yerli idarəetmə orqanları ilə birgə təhsilin qanunda nəzərdə tutulmuş qaydada maliyyələşməsini həyta keçirir;

2. Abxaziya və ya Acarıstan muxtar respublikalarının təhsil nazirlikləri bu maddənin birinci bəndində nəzərdə tutulan səlahiyyətlərin həyata keçməsini, yenidən qurulmasını və ləğv etməsini muxtar respublikaların ərazi orqanları vasitəsi ilə öz ərazilərində gerçəkləşdirir, onların nizamnaməsini təsdiq edir, vəzifəyə təyin edir və onların rəhbərlərini və müavinlərini vəzifədən azad edir.

3. Əgər Acarıstan və Abxaziya muxtar respublikaları haqqında Gürcüstan və müvafıq muxtar respublikaların qanunvericiliyində təhsil nazirliyinin mövcudluğu nəzərdə tutulmayıbsa, bu maddənin birinci və 2-ci bəndlərində nəzərdə tutulan səlahiyyətləri Gürcüstan Elm və Təhsil Nazirliyi bu qanunda müəyyən edildiyi qaydada həyata keçirir.

**Maddə 30. Ümumtəhsil sahəsində yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri**

1. Yerli özünüidarəetmə orqanı:

a) Məktəbin bu qanunla nəzərdə tutulan fəaliyyətini effektli yerinə yetirmək üçün və ya qanunvericiliklə nəzərdə tutulan müddəaları məqsəd kimi üzərinə götürür, yerli büdcədən məktəb təhsil planının gerçəkləşdirilməsi üçün lazımi əlavə maliyyə vəsaitinin miqdarını müəyyən edir;

b) İctimai məktəblərdə, məktəb təhsil planı ilə nəzərdə tutulan milli təhsil planı ilə yuxarıda nəzərdə tutulan ümumtəhsil və tərbiyə proqramlarının gerçəkləşdirilməsinə əl qoyur;

q) Şagirdlərin sosial və tibb xidmətinin kordinasiyasının qayğısına qalır;

d) Məktəbdən xaric edilmiş şagirdlərin ümumtəhsil alması üçün tədbirlər görür;

e) Xəstəlik və ya başqa üzürlü səbəbə görə ümumtəhsil prosesində iştirak edə bilməyən şagirdlərin ümumtəhsil alması üçün tədbirlər ğörür;

v) Qanunvericiliklə nəzərdə tutulan hallarda şagirdin nəqliyyatla təmin olunmasının qayğısına qalır;

z) Qanunvericiliklə nəzərdə tutulan hallarda şagirdin dərsə davamiyyətinin təmin olmasının qayğısına qalır;

t) Yerli büdcədən ayrılmış maliyyə istiqrazları barədə bütün məlumatları almaq səlahiyyətinə malikdir;

i) Bu maddənin "A" yarımbəndi nəzərdə tutulan çərçivədə maliyyə pozuntusu hallarında məktəbin qəyyumlar şurasına müraciət edib direktorun səlahiyyətlərini ləğv etmək məsələsini qaldırmağa səlahiyyətlidir, ancaq qəyyumlar şurasının fəaliyyətsizliyi təqdirdə, Gürcüstan Elm və Təhsil Nazirliyinə qəyyumlar şurasının buraxılması və ya direktorıın səlahiyyətlərinin vaxtından əvvəl ləğv edilməsi təklifini irəli sürmək səlahiyyətinə malikdir;

k) Ərazidə mövcud olan məktəblərdəki qəyyumlar şurasına məşvərətçi səslə üzv təyin etməyə səlahiyyətlidir;

1) Gürcüstan qanunvericiliyində, habelə bu qanunla nəzərdə tutulan başqa səlahiyyətləri gerçəkləşdirir.

# V FƏSİL
# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏETMƏ ƏSASINDA FƏALİYYƏTİ

**Maddə 31. Ümumtəhsil müəssisəsinin təşkilati-hüquqi forması**

1. Ümumtəhsil müəssisəsi/məktəb "İctimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs haqqında" Gürcüstan qanununun əsasında ictimai, məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs və ya xüsusi məhkəmənin təsdiq etdiyi istehsalla məşğul olan və ya da qeyri-istehsalla məşğul olmayan hüquqi şəxsdir.

2. Özəl məktəbin lisenziya almasını, ümumtəhsil müəssisəsi ibtidai təhsil mərhələsini və ya baza və ya orta mərhələsini təmin edir.

3. Özəl məktəbin lisenziya almasını Gürcüstan Elm və Təhsil Nazirliyi gerçəkləşdirir. Lisenziya verilməsi Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya və normativə müvafiq gerçəkləşdirilir.

4.Ümumtəhsil müəssisəsi tərəfindən gerçəkləşdirilən ibtidai və baza ümumtəhsil proqramlarının dövlət tərəfindən tanınması üçün müvafiq akreditasiyadan keçməsi vacibdir. İctimai məktəbin akreditasiya xərclərini dövlət, özəl məktəbin akreditasiya xərclərini isə bu işdə maraqlı olan şəxs çəkir. Akreditasiyanın dəyərini Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi birgə müəyyənləşdirir.

5.Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq akreditasiyadan keçmiş özəl məktəb bu qanunla müəyyən edilən qaydada dövlət tərəfindən maliyyə almaq səlahiyyətinə malikdir.

6. Bu qanunun I, II, III, IV, V və XII fəsillərindəki müvafiq qaydalar özəl məktəblərə şamil edilir.

**Maddə 32. Ümumtəhsil müəssisələrinin akredita-**

**siyası**

1. Ümumtəhsil müəssisələrinin ümumtəhsilin milli məqsədlərl sənədinə və milli təhsil planına uyğunluğu məqsədi ilə dövlət akreditasiya təmin edir. Dövlət yalnız akreditasiya-dan keçmiş ümumtəhsil müəssisəsi tərəfindən verilmiş sənədi tanıyır.

2. Ümumtəhsil proqramını həyata keçirən bütün ümum-təhsil müəssisələri akreditasiyadan keçməyə borcludur. Yeni təsis olunmuş ümumtəhsil müəssisəsinin birinci akreditasiyası bu müəssisənin fəaliyyətə başlaması günündən sayılır.

a)3 il sonra-əgər o ibtidai ümumtəhsili gerçəkləşdirirsə;

b) 2 il sonra-əgər o baza və ya əgər o ibtidai proqram-dan kənar orta ümumtəhsil proqramını gerçəkləşdirirsə.

3.Akreditsiyadan keçməyi təmin etmək məqsədi ilə Gürcüstan Elm və Təhsil Nazirliyi ictimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs — Təhsil Müəssisələrinin Dövlət Akreditasiya Xidmətini yaradır. (Sonradan Dövlət Akreditasiya Xidməti).

4. Dövlət Akreditasiya Xidməti öz fəaliyyətində müstə-qildir və öz işini bu qanunla, Gürcüstan Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnaməyə uyğun qurur.

5. Dövlət Akreditasiya Xidməti ümumtəhsil müəssisə-lərinin akreditasiyasını həyata keçirir, akreditasiyanın şərtləri-nin yerinə yetirilməsinə nəzarət edir, akreditasiya şərtlərinə əməl edilmədiyi təqdirdə verilmiş akreditasiyanı ləğv etmək səlahiyyətinə malikdir.

6. Dövlət Akreditasiya Xidmətinə rəhbər vəzifəyə təyin və vəzifədən azad etmə hüququ Gürcüstan baş nazirinin səlahiyyətinə daxildir.

7. Konkret akreditasiyanı keçirmək üçün Dövlət Akre-ditasiya Xidməti ekspertlər qrupunun sədrliyinə namizədi seçki yolu ilə, əksər səs çoxluğu qazandığı təqdirdə təyin edir. Razılaşma prosedurası Dövlət Akreditsaiya Xidmətinin əsasna-məsinə müvafiq gerçəkləşdirilir.

8. Ekspertlər qrupunun sədri qrupun üzvlüyünə namizədlərin adlarını açıqlayır.

9. Əgər ictimai məktəbin akreditasiya almağa iddealının istəyini təmin etmək barədə razılığı varsa, ekspertlər qrupunun sədri bu rəyi təsdiq etmək üçün Akreditasiya Xidmətinin rəhbərinə təqdim edir.

10. Akreditasiya Dövlət Akreditasiya Xidməti tərəfindən ilkin olaraq bəyənilmiş formalara görə akreditasiya almaq istəyən tərəfindən keçirilən özünüqiymətləndirmə şərtləri əsasında gerçəkləşdirilir.

11. Ekspertlər qrupu öz işini qurtarandan sonra 1 həftə ərzində Dövlət Akreditasiya Xidməti akreditasiyanın keçməsi haqqında nəticəni təqdim edir.

12.Ekspertlər qrupunun çıxardığı nəticə əsasında Akreditasiya Xidmətinin rəhbəri fərdi akt — əmr verir.

13.Ümumtəhsil müəssisəsinin akreditasiyası barədə qərar Dövlət Akreditasiya Xidmətinin rəhbərinin fərdi aktı — əmri ilə Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumtəhsil müəssisələrinin reystrində və qanunvericiliklə müəyyən olunmuş qaydada qeydiyyatdan keçəndən sonra dərc olunur.

14.Ümumtəhsil müəssisələrinin akreditasiyadan keçməsi haqqında qərar 4 növdə olur:

a)Akreditasiya vermək haqqında;

b)Akreditasiya verməkdən imtina etmək haqqında;

q) Şərti akreditasiya vermək haqqında;

d) Akreditasiyanı ləğv etmək haqqında.

15. Şərti akreditasiya verilməsinə razılıq olduğu təqdirdə bu əmrdə akreditasiyanın şərti verilməsi öz əksini tapmalı və akreditasiyanın şərti verilməsi qaydalarına müvafiq icra olunmalıdır.

16. Ümutəhsil müəssisəsinə şərti akreditasiya 6 il müddətindən az olmayaraq verilir.

17. Şərti akreditasiyanın verildiyi təqdirdə sonrakı akreditasiya aradan 1 il keçməməklə gerçəkləşdirilir. Akreditsi-

yanın verilmə müddəti Dövlət Akreditasiya Xidmətinin rəhbərinin əmri ilə təmin edilir.

18. Əgər ictimai məktəb sahə nazirliyinin təqdimatı ilə yaradılıbsa, akreditasiya şərtləri bu sahə nazirliyi ilə razılaşdırılır; bu cür ümumtəhsil müəssisələrinin akreditasiyasında ekspertlər qrupu ümumtəhsil müəssisəsinin təhsil planı ilə nəzərdə tutulan peşəkar, ya da xüsusi sənətlər, ifaçılıq, idman hazırlığı, ya da təhsil proqramı ekspertləri iştirak edir; bu halda ekspertlər qrupunun üzvünün namizədliyi akreditsiya almaq istəyənlə razılaşdırılmalıdır; əgər akreditasiya almaq istəyən iki dəfə təklif edilən namizədi rədd edərsə, ekspertlər qrupunun sədri razılaşdırma olmadan akreditasiya almaq istəyənin rədd etmədiyi eksperti qrupun üzvünü təyin etməyə səlahiyyətlidir.

19. İct imai məktəbin akreditasiyasını keçirmək, habelə ekspertlər qrupunun əməyinin ödənilməsi xərclərini dövlət, özəl məktəbin akreditasiya xərclərini isə ümumtəhsil müəssisəsi öz üzərinə götürür.

20. Dövlət Akreditasiya Xidməti ümumtəhsil müəssisəsinə akreditasiya ilə bağlı ortaya çıxan məsələlərdə hüquqi kömək etməyə borcludur. Dövlət Akreditasiya Xidməti akreditsiya məsələləri ilə bağlı hər il tövsiyələr işləyib hazırlayır.

21.Dövlət yalnız o ümumtəhsil müəssisəsinin ümumtəhsil almasını təsdiq edən sənədini tanıyır ki, bu sənəd dövlət akreditasiyası almış ümumtəhsil müəssisəsi tərəfindən verilib.

22.Akreditasiyası və şərti akreditasiyası olan özəl məktəb dövlət tərəfindən maliyyə ala bilər.

23. Akreditasiyası kütləvi məktəb tərəfindən azından iki dəfə zərərsizləşdirilmiş, ya da azından iki dəfə şərti akreditasiya almış ümumtəhsil müəssisəsinin qəyyumlar şurası özünü buraxmalı və ya direktorun səlahiyyətini vaxtından tez ləğv etməli və ya ümumtəhsil müəssisəsini yenidən qurmalı və ya ləğv etməlidir.

24. Akreditasiyası və ya şərti akreditasiyası olan özəl, habelə kütləvi məktəbi qurtarmasını təsdiq edən sənədin sahibi

olan şagird vahid milli imtahanda iştirak edə bilər.

25. Bu maddənin 23-cü bəndində nəzərdə tutulanların baş verəcəyi təqdirdə Gürcüstan Elm və Təhsil naziri müəyyən edilmiş vaxt ərzində öz nümayəndəsini təqdim etməyə səlahiyyətlidir-direktorun vəzifələrini icra edən bu şəxs müəssisənin cari fəaliyyətini əlaqələndirməli və müəssisənin sonrakı fəaliyyətinin məqsədyönlü inkişafına və bu müəssisənin şagirdlərinin başqa ümumtəhsil müəssisələrinə yerləşdirmək imkanları barədə tövsiyələr işləyib təqdim etməlidir.

26. Ümumtəhsil müəssisəsinin akreditasiyasının ləğvi, ya da akreditasiya ala bilməməsi bu maddənin 2 L-ci və 24-cü bəndində nəzərdə tutulan şərtlər elə ümumtəhsil müəssisəsinə və o şagirdlərə şamil olunur ki, onların təhsil aldığı orta ümümtəhsil proqramına görə təhsil müəssisələrinin akreditasiyası ləğv edlib, ya da akretitasya ala bilməyənə qədər onlar burda təhsil alıblar;

27. Ümumtəhsil müəssisəsi üçün akkreditasiyanın ləğvi, ya da verilməməsi təqdirində burada təhsil alanlar ümumtəhsil müəssisəsinin sinif mərhələsi nəzərə alınmaqla təhsil aldıqları vaxta qədər oranın şagirdləri hesab olunurlar;

**Maddə** 33. **Ümumtəhsil müəssisələrinin öhdəlikləri və səlahiyyətləri**

1. Ümumtəhsil müəssisəsi borcludur:

a) Sağlam həyat, demokratiya və mütənasiblik prinsiplərindən çıxış edərək şagirdələrə müasir tələblərə uyğun milli, və bəşəri dəyərlər formalaşdıran təhsil verməyə;

b) Təhsil prosesinin davam etməsi üçün lazım olan bütün şəraiti yaratmağa;

q) Ümumtəhsil müəssisələri üçün müəyyən edilmiş milli təhsil planını müdafiə etməyə;

d) Milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzi tərəfindən tövsiyə edilmiş qrif almış dərsliklərlə təhsil fəaliyyətini gerçəkləşdirməyə;

e) Gürcüstan Əmək, Səhiyyə və Sosial Müdafiə

Nazirliyi və yerli özünidarəetmə orqanları ilə birgə sağlamlığı müdafiə etmə tədbirlərini gerçəkləşdirməyə;

v) Şagirdin yaş xüsusiyyətlərini müvafiq, mərhələli, başqa şagirdlərdən ayrı ümumtəhsil alması üçün alternativ formaların yaradılmasına;

z) Məhdud imkanlı şagirdləri müəyyən edib, onların təhsil və tərbiyəsi üçün lazımi şərtlərin yaradılması üçün güzəştlərin yaradılmasına;

t) Qeyri-elmi dünyagörüşün və ya nəzəriyyənin və digər faktın tətbiqi ilə təhsilin aparılmasına yol verməməyə;

i) Özünü qiymətləndirmə sisteminin olmasına;

k) Məktəb vaxtında məktəbin ərazisində olan şagirdin təhlükəsizliyini təmin etməyə;

2. Ümumtəhsil müəssisələrinin səlahiyyətidir:

a) İmkan daxilində müstəqil şəkildə dərsə gəlmək və getmək imkanı olmayan şagirdlərin nəqliyyatla təmin olunmasına;

b) Bu müəssisənin şagirlərindən, başqa əməkdaşlardan, müəllimlərdən və şagirdlərin valideynlərindən Gürcüstan qanunvericiliyinə və müəssisənin nizamnaməsindən irəli gələn tələblərə əməl olunmasını tələb etməyə;

q) İnklüziv təhsil almağa şərait yaratmağa;

d) Bu qanunun məqsədlərinə çatmaq uçun başqa məktəblərlə və ictimai təşkilatlarla əməkdaşlıq etməyə;

e) Məktəb ərazisində şagirdin sağlamlığını müdafiə etmək və tibbi cəhətdən tam inkişaf etməsi üçün və habelə onlara psixoloji cəhətdən kömək etmək, qidalandırmanın mövcudluğunu təmin etməyə;

v) Fikir plüralizmini və şagirdin hərtərəfli inkişafı üçün onlar tərəfindən ölkənin özünəməxsusluğunu, milli və ümumbəşəri dəyərlərə və mədəniyyətin çoxtərəflilyinin təmini üçün şagirdi məktəb kitabxanası ilə təmin etməyə;

3. İctimai məktəbin milli təhsil planı ilə nəzərdə tutulan əlavə ümumtəhsil xidmətini şagirdə o vaxt təklif edir ki, əgər:

a) şagird bu xidmətə görə əlavə haqq ödəmirsə;

b) bu xidmətin dərslə əlaqəsi yoxdursa;

q) bu xidmət şagirdin valideyininin razılığı ilə verilirsə;

d) bu xidmət şagird üçün pulsuz verilirsə.

4. İctimai məktəbin şagirdələrə milli təhsil planında nəzərdə tutulan əlavə təhsil və təlim-tərbiyə, habelə pullu xidmət təklif etmək səlahiyyəti var. Kütləvi məktəb bu cür xidmətin müəssisənin hər bir şagirdi üçün əlverişli, bərabər səviyyəli olmasını təmin etməyə borcludur.

**Maddə** 34. **Ümumtəhsil müəssisələrinin yenidən qurulması və ləğvi**

1. İctimai məktəbin yenidən qurulması, ya da ləğv edilməsi onun təsisçiləri tərəfindən gerçəkləşdirilir:

a)Əgər müəssisənin fəaliyyəti konstitusiyaya ziddirsə;

b) Əgər müəssisənin fiziki və ya insan resursları nikbinliyə əsas vermirsə;

q) Əgər müəssisə bütövlükdə istehsal fəaliyyətinə keçibsə;

d) Bu qanunun 32-ci maddəsinin 23-cü bəndində nəzərdə tulan hallarda;

e) Gürcüstan qanunvericiliyində nəzərdə tutulan başqa hallarda;

2. Özəl məktəbin yenidənqurulması və ləğv edilməsi Gürcüstan qanunvericiliyinə müvafiq gerçəkləşdirilir.

# VI FƏSİL
# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PRİNSİPLƏRİ

**Maddə 35. Cavabdehlik və struktur.**

1. Ümumtəhsil müəssisəsi tərəfindən milli təhsil planı və ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetirilməsində, təlim-tərbiyə prosesində və maliyyənin məqsədyönlü xərclənməsində müəssisənin direktoru cavabdehlik daşıyır.

2. Ümumtəhsil müəssisəsinin strukturunu Pedaqoji şura, Qəyyumlar şurası, direktorluq, müəllimlərin özünüidarəetməsi və intizam komitəsi təşkil edir. İntizam Komitəsinin qərarlarından şikayət etmək məqsədi ilə nizamnamədə apelyasiya komitəsiniun yaradılması nəzərdə tutula bilər.

3. Peşəkar sənət təhsili və hazırlığı verən ümümtəhsil müəssisələrinin nizanamnaməsində bədii rəhbər vəzifəsinin mövcudluğu nəzərdə tutula bilər, bu qanun və müəssisənin nizamnaməsi ilə, seçilmə və ya təyin olunmaqla gerçəkləşdirilə bilər.

4. İctimai məktəbin idarə edilməsi açıqlıq və şəffaflıq prinsipləri əsasında gerçəkləşdirilir.

**Maddə 36. Maraqlar kompleksi**

1.İctimai məktəbdə maraqlar münaqişəsinin toqquşmasını bəri başdan aradan qaldırmaq məqsədi ilə qəyyumlar şurası valideynlər arasından özünün şəxsi namizədini seçə bilər, bu valideynin məktəbdə pedaqoji fəaliyyətlə, ya bunlarla bağlı direktorun, ya da məktəbin inzibati, ya da texniki personalının nümayəndələrinin iştirakı ilə keçrilən müzakirələrdə iştirak etmək hüququ yoxdur.

2. Ümumtəhsil proqramını yerinə yetirən ictimai və özəl hüquqi şəxslər ali və ya ali və peşə təhsil proqramı ilə ümumtəhsili həyata keçirən digər müəssisə ilə bir binada fəaliyyət göstərə bilməz.

3. İctimai məktəb tərəfindən bağlanan sazişdə, yalnız

əmək müqaviləsi istisna olmaqla, məktəbin direktoru, direksiyanın başqa üzvləri, qəyyumlar şurasının üzvü və ya bu şəxslərin yaxın qohumu ikinci tərəf ola bilməz. Bu qanunun məqsədləri üçün "yaxın qohum" kimi "İctimai Xidmətdə maraqların təmin edilməsi və korrupsiya haqqında" Gürcüstan Qanunun 4-cü maddəsinin "B" bəndində nəzərdə tutulan şəxslər ehtiva edilir.

4. İctimai məktəbin direktorunun onun yaxın qohumu ilə aralarında bağladıqları əmək müqaviləsi qəyyumlar şurasının razılığı olmadan gerçəkləşdirə bilməz. Əgər qəyyumlar şurasının üzvü saziş bağlayan tərəfin yaxın qohumudursa, o, müzakirələrdə iştirak etmir.

5. İctimai məktəbin qəyyumlar şurası, intizam komitəsi və apellyasiya komitəsinin üzvləri bir-biri ilə yaxın qohum ola bilməz. Qanun çatışmazlığının aradan qaldınlması Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı ilə azkontigent1i məktəblərdə ola bilər.

# VII FƏSİL
# ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN QƏYYUMLAR ŞURASI

**Maddə 37. Qəyyumlar şurası**

1. Qəyyumlar şurası valideyn və pedaqoji şura tərəfindən hərəsi 1 nəfərdən ibarət olan özünüidarəetmə məqsədi ilə bərabər səviyyədə 3 il müddətinə seçilmiş 6, ya da 12 nümayəndədən formalaşdırılır. Yerli özünüidarəetmə orqanları qəyyumlar şurasına 1 üzv təyin etmə səlahiyyətinə malikdir. Məhdud kontingentli məktəblər üçün qəyyumlar şurası üzvlərinin sayı çatmasa, bu Gürcüstan Elm və Təhsil və Elm Nazirliyi ilə razılaşdırılır. Valideynlərdən seçilmiş üzvlərin sayı ibtidai, baza və orta pillələrdə bərabər olmalıdır. Qəyyumlar şurasının üzvü ən azı iki dəfə seçilə bilər.

2. Qəyyumlar şurasının valideynlərdən və pedaqoji şuradan seçilən üzvlərinin sayı məktəbin nizamnaməsi ilə müəyyən olunur.

3. Gürcüstan Elm və Təhsil Nazirliyinin qəyyumlar şurasına məşvərətçi səslə öz nümayəndəsini göndərmək hüququ var.

4. Gürcüstan Elm və Təhsil Nazirliyinin, yerli özünüidarəetmə orqanının istənilən vaxt öz nümayəndələrini qəyyumlar şurasından geri çağırmaq hüququ var.

5. Qəyyumlar şurasının rəhbəri şuranın sədridir, o, şuranın iclasını çağırmağa, onun gedişini yönəltməyə səlahiyyətlidir. O, məktəb direktoru ilə əlaqəni gerçəkləşdirir. Şuranın sədri dəyişmək yolu ilə şuranın tərkibini, səlahiyyət müdətlərini nəzərə almaqla valideynlərdən və pedaqoji şuradan seçilmiş üzvlərdən formalaşdırır. Qəyyumlar şurasınınnın üzvləri - şagirdlərin özünüidarəetmə təşkilatının nümayəndəsi, yerli özünüidarəetmə orqanının nümayəndəsi qəyyumlar şurasının sədri seçilə bilməz.

6. Səslər bərabər bölündüyü təqdirdə qəyyumlar şura-

sının sədrinin səsi həlledicidir.

7. Qəyyumlar şurası təhsil ilində heç olmasa 3 dəfə, hər dəfə ayın 13-də yığışır.

**Maddə 38. Qəyyumlar şurasının funksiyaları**

1. Qəyyumlar şurası:

a) Bu qanunun 42-cü maddəsində nəzərdə tutulan qaydada səs çoxluğu ilə seçilən direktorun Gürcüstan Elm və Təhsil Nazirliyindən qeydiyyatdan keçməsi məqsədi ilə səsvermənin nəticəsini tərtib edir;

b) Məktəb direktorunun təqdimatı ilə məktəbin büdcəsi və direktor tərəfindən hazırlanmış illik hesabatı təsdiq edir və onun şəffaflığını təmin edir;

q) Məktəb direktorunun təqdimatı ilə məktəbin daxili nizamnaməsini təsdiq edir, burada nizam-intizam qaydalarının nüsxəsi, və onlar üçün nəzərdə tutulan intizam məktəbdən qovulma şərtləri öz əksini tapır;

d) Pedaqoji şura tərəfindən işlənmiş məktəb təhsil planının və milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzi tərəfindən tövsiyə edilən qrif verilən dərsliklərin pedaqoqlar tərəfindən seçilməsini, təhsil ili müddətində nəşr olunan nüsxələri barədə razılığını bildirir;

e) Məktəb direktoru tərəfindən maliyyənin xərclənməsinə və mülkiyyətdən istifadə olunmasına nəzarət edilir;

v) Əmək müqaviləsi bağlamağa, Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan tələblərin pozulması təqdirdə məktəb direktoru ilə bağlanan müqaviləni ləğv etməyə səlahiyyətlidir;

z) Qəyyumlar şurasında valideyn və pedaqoji şuraya seçilən nümayəndələrin bülletenlərini və aktlarını qeydiyyatdan keçirir və saxlayır;

t) Məktəb nizamnaməsində nəzərdə tutulan qaydada şikayətləri araşdırır və müvafiq ölçülər götürür;

i) Milli təhsil planına müvafiq olaraq milli təhsil planının necə yerinə yetrilməsi məqsədi ilə tədris ilini bitirənlərin illik imtahanını keçirmək üçün milli imtahan mərkəzinə

müraciət etmək və onlarla müvafiq müqavilə bağlamaq səlahiyyətinə malikdir;

k) Müqavilə şərtləri pozulduqda məktəb direktorundan müəllimlə bağladığı əmək müqaviləsini alıb araşdırmağa və təlim-tərbiyə fəaliyyətində nisbi iş törənərsə və qanunvericiliklə nəzərdə tutulan başqa hallar baş verərsə, müqaviləni ləğv etməyə səlahiyyətlidir;

1) Nizam-intizamın tədbirini müzakirə etmək məqsədi ilə məktəb nizamnaməsində nəzərdə tutulan qaydalara müvafiq nizam-intizam komitəsi seçilir, onun tərkibi seçki yolu ilə bərabər sayda müəllim, valideyin, orta mərhələdə təhsil alan şagirdlərdən formalaşdırılır. Qəyyumlar şurası nizamnamədə nəzərdə tutulan qaydada nizam-intizam komitəsinin qərarı barədə şikayəti özü araşdırır, həmçinin bunları apelasiya komitəsi araşdırmağa səlahiyyətlidir, habelə qəyyumlar şurası nizam-intizamla bağlı direktor tərəfindən seçilən tətbiq etmə qərarını müzakirə edir. Nizam-intizam komitəsinin və ya apelyasiya komitəsinin tərkibini konkret hallarda araşdırmaq məqsədi ilə iclas çağırılması yol verilməzdir;

m) Məktəb direktoru tərəfindən təqdim edilən məktəb nizamnaməsinin layihəsini razılaşdırır.

3. Bu maddənin birinci bəndinin "A", "B", "Q", "D", "K", "M" yarımbəndlərində nəzərdə tutulan qərarları qəyyumlar şurası siyahıda səs çoxluğu, ancaq "Y" yarımbəndində nəzərdə tutulan qərarları siyahı ilə tərkibin üçdə ikisinin səs çoxluğu ilə qəbul edir.

**Maddə 39. Qəyyumlar şurasına seçilmə qaydası**

1. Qəyyumlar şurasına bərabər sayda valideynlər və pedaqoji şuranın nümayəndələri, habelə şagirdlərin özünüidarəetmə təşkilatının nümayəndəsi olan orta mərhələnin şagirdi seçilir.

2. Qəyyumlar şurasına seçilmək qaydasını Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir. Seçki mütanasiblik əsasında, açıq müzakirələrlə, şəffaf və mərhələlərə görə şagird-

lərin valideynlərinin bərabər nümayəndəliyinin prinsiplərinin qorunması ilə keçirilir.

3. Bu maddənin 2-ci bəndi ilə nəzərdə tutulan qaydanın pozulması barədə qəyyumlar şurasına və ya məhkəməyə şikayət vermək olar.

4. Qəyyumlar şurasına seçkinin nəticələri Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada qeydiyyatdan keçdiyi andan qüvvəyə minir.

**Maddə 40. QəyyuınIar şurası üzvlərinin və qəyyumlar şurası üçün səlahiyyətlərin dayandırılması**

1. Qəyyumlar şurasının üzvünün səlahiyyəti dayandınlır:

a) Əgər pedaqoji şura öz nümayəndəsinin səlahiyyətini öz şurasında və qəyyumlar şurasında dayandırırsa;

b) Valideynlərin səs çoxluğunun sayı əsasında çıxarılan qərara əsaslanaraq Gürcüstan Elm və Təhsil Nazirliyinin qəran ilə;

q) Nümayəndə sayılan şagird bu məktəbdə təhsil almırsa, ya da sonrakı mərhələyə keçibsə, ya da pedaqoji şuranın nümayəndəsi bu məktəbin müəllimi deyilsə;

2. Seçkidə iştirak edən digər namizəd şurada kifayət qədər səs almadıqda qəyyumlar şurasının üzvü olan valideyn və ya pedaqoji şuranın üzvü boş yeri tuta bilər.

3. Qəyyumlar şurası üzvünün boş qalmış yerini sonrakı müddət üçün o şəxslər, valideyn və ya pedaqoji şuranın üzvü tuta bilər ki, onlar müvafiq seçkilərdə başqa namizədlərdən daha artıq səs yığıb, ancaq bu səslər həmin vaxt şuraya seçilmək üçün yetərli olmayıb.

4. Qəyyumlar şurası üzvünün və qəyyumlar şurasının səlahiyyətlərinə son vermək qərarı Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən qeydiyyata alınandan qüvvəyə minir.

# VIII FƏSIL
# ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN DİREKTORLUGU

**Maddə 41. Direktorluq**

1. Məktəb direksiyası məktəb direktorundan, direktorun müavinindən/müavinlərdən və mühasibdən təşkil olunur.

2. Məktəb direktoru bu qanuna müvafiq olaraq, ali təhsili olan, 3 illik əmək stajına malik, 65 yaş həddinə qədər Gürcüstan vətəndaşından seçilir. Direktor 6 il müddətinə seçilir. Məktəbdə eyni bir şəxs yalnız iki dəfə direktor seçilə bilər.

3. Direktor seçkidən sonrakı 2 həftə ərzində direktor müavini/müavinləri, habelə direktorun səlahiyyətlərini icra etmə halı olduqda, direktorun vəzifəsini həyata keçirən şəxs haqqında məlumatları qeydiyyat üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə göndərir.

4. Direktor səlahiyyətini həyata keçirə bilmədiyi təqdirdə onun vəzifəsini direktorun müavini, bu qanunla müəyyən olunmuş qaydada Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatdan keçirdikdən sonra icra etməyə başlayır. Yeni direktorun seçilməsi direktor müavini/müavinlərinin səlahiyyətləri həll olunduqdan sonra başlayır.

5. Ümumtəhsil müəssisəsində hər hansı başqa bir fəaliyyət növü ilə məşğul olmaq direktor vəzifəsi və məktəb fəaliyyəti ilə bir araya sığışmaz hesab edilir. Müəllim kadrı çatışmazlığı olduğu təqdirdə direktorun, əgər onun Gürcüstan qanunvericiliyinə əsasən pedaqoji fəaliyyətlə məşğul olmağa hüququ varsa, qanunla müəyyən edilmiş qaydada pedaqoji fəaliyyətlə məşğul olmağa, müəllimlərin ümumi dərs yükünün üçdə birini yerinə yetirmək üçün müəllim kimi işləməyə hüququ var. Yüksək dağlıq regionlarında və məhdud kontingentli məktəblər üçün kadr çatışmazlığı olduqda və ya digər vacib səbəblərin mövcud olduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı ilə direktorun dərs deməsinə icazə

verilə bilər.

6. Peşəkar sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrində, müəssisənin bədii rəhbəri direktorun səlahiyyətlərini gerçəkləşdirə bilər.

**Maddə 42. Məktəb direktorunun seçilməsi qaydası**

1. Gürcüstan Elm və Təhsil Nazirliyi ictimai məktəbə direktor seçilməsini həmin vəzifəyə namizədlər arasından, nazirlik tərəfindən müəyyən edilmiş qaydalara uyğun, açıq müsabiqə qaydası ilə, şəffaf, balanslı, ədalətli musabiqə keçirilmək prinsiplərini əldə rəhbər tutmaqla həyata keçirir.

2.Gürcüstan Elm və Təhsil Nazirliyinin direktorluğa namizədlər arasında keçirdiyi açıq müsabiqənin üç nəfərdən az olmayan namizədləri arasından ümumtəhsil müəssisəsinin qəyyumlar şurası təqdim edilən proqrama uyğun, siyahı üzrə səs çoxluğu ilə, açıq müzakirə, azad və mütanasib seçki əsasında direktor seçir.

3. Əgər direktorluğa namizəd qəyyumlar şurasının üzvüdürsə, o müzakirələrdə iştirak etmir. Qəyyumlar şurasının bir namizədi təkrar təqdim etməsi yol verilməzdir.

4. Qəyyumlar şurası direktor seçkisinin aktlarını və qəyyumlar şurasının qəbul etdiyi qərarların surətini Gürcüstan Elm və Təhsil Nazirliyinə qeydiyyat üçün təqdim edir. Seçkilərin nəticəsini özündə əks etdirən sənədlər nazirlikdə qeydiyyatdan keçən andan qüvvəyə minir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən qeydiyyatdan keçmiş direktorla qəyyumlar şurası nazirlik tərəfindən təsdiq edilmiş müqavilənin şərtlərinə müvafiq əmək müqaviləsi bağlayır.

6. Əgər qəyyumlar şurası Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təqdim edilən heç bir namizədi seçməyibsə, Elm və Təhsil Nazirliyi yeni müsabiqə keçirir; qəyyumlar şurası təkrar irəli sürülən namizədlərin heç birini seçmədiyi təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi yeni direktor seçkisinə qədər direktorun vəzifəsini icra edən bir şəxsi təyin

etmək səlahiyyətinə malikdir. Nazirlik qəyyumlar şurası tərəfindən təkrar seçkiyə namizədliyi irəli sürülən və qəyyumlar şurasının seçmədiyi səxsi direktor təyin edə bilməz.

7. Məhdud kontingentli məktəbdə müsabiqənin üç dəfə pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi direktor vəzifəsini müvəqqəti icra etmək üçün yaşı 65-ə qədər olan şəxsi direktor təyin etməyə səlahiyyətlidir, qəyyumlar şurası həmin şəxslə qanunla müəyyən edilmiş müddətdə müqavilə imzalayır.

**Maddə 43. Direktorun funksiyaları**

1. Məktəbin direktoru:

a) Məktəbin idarəetməsini gerçəkləşdirir;

b) Bu qanunla və məktəbin nizamnaməsində nəzərdə tutulan hallarda məktəbi üçüncü bir şəxslə əlaqə qurmaq üçün təmsil edir;

q) Ümumtəhsil müəssisəsinin daxili qaydalarını, məktəbin büdcəsini təsdiq üçün qəyyumlar şurasına təqdim edir;

d)Ştat cədvəlinin üzərində işləyir;

e) Pedaqoji şura tərəfindən hazırlanan məktəb təhsil planı üzərində işləməkdə iştirak edir;

v) Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş şərtlərə və qaydalara müvafiq olaraq müəllimlər və məktəbin başqa əməkdaşları ilə əmək müqaviləsi bağlayır;

z) Müəllimlə bağlanmış müqavilənin şərtlərinin pozulması təlim-tərbiyə fəaliyyətinin ləngiməsinə gətirib çıxararsa, əməli və ya qanunvericiliklə nəzərdə tutulan qaydada ixtisasa uyğun gəlməyən hallar baş verdiyi təqdirdə müqaviləni ləğv etmək səlahiyyəti var;

t) Hər il dekabrın 10-da məktəbin qəyyumlar şurasına maliyyə və təhsil prosesinin vəziyyəti barədə hesabat verir;

i) Gürcüstan qanunvericiliyi ilə qadağan olunmuş və məktəb nizamnaməsi ilə qəyyumlar şurasının və ya nəzarəti həyata keçirən orqanın razılığı olmadığı hallar istisna olmaqla məktəbin mülkiyyəti haqqında saziş bağlamağa səlahiyyətlidir;

k) Məktəb nizamnaməsində nəzərdə tutulan qaydada

şikayətləri müzakirə etməyə və müvafiq tədbirlər götürməyə hüququ var;

l) Məktəbdə baş verən təlim-tədris prosesinə nəzarət etməyə;

m) Qəyyumlar şurası ilə razılaşdıraraq məktəbin nizamnaməsi layihəsini işləyib hazırlayır və şura ilə razılaşdırılmış layihəni təsdiq üçün Gürcüsan Elm və Təhsil Nazirliyinə təqdim edir;

n) Gürcüstan qanunvericiliyi və məktəb nizamnaməsində nəzərdə tutulan başqa fəaliyyətləri gerçəkləşdirir;

2. Direktor Gürcüstan qanunvericiliyi və məktəb nizamnaməsi ilə nəzərdə tutulan qaydada fərdi hüququ aktları nəşr edir.

3.Peşəkar sənət təhsili və hazırlığı gerçəkləşdirən ümumtəhsil müəssisələri nizamnaməsində direktorun bu maddənin birinci bəndinin "Q", "D" və "E" yarımbəndində nəzərdə tutulan səlahiyyətləri bədii rəhbərlə birlikdə gerçəkləşdirməsi nəzərdə tutula bilər.

**Maddə 44. Direktorun səlahiyyətlərinin dayandırılması.**

1. İctimai məktəbin direktorunun səlahiyyətləri səlahiyyətli orqan tərəfindən, qanunvericiliklə və ya müqavilə ilə nəzərdə tutulan hallarda, müəyyən olunmuş qaydada, habelə 65 yaşı tamam olanda, bu qanunun 42-ci maddəsinin 7-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla dayandırılır.

2.Direktorun səlahiyyəti müvafiq qərarın Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatdan keçdiyi andan dayandırılır.

3.Yeni direktorun seçilməsinə qədər direktorun səlahiyyətlərini bu qanunun 41-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan qaydada, yalnız bu maddənin 32-ci maddəsinin 23-cü bəndi, 42-ci maddənin 6-cı bəndi və 49-cu maddənin 7-ci bəndi ilə nəzərdə tutulan hallar istisna olmaqla, digər şəxs həyata keçirir.

# IX FƏSİL
# ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN PEDAQOJİ ŞURASI

**Maddə 45. Pedaqoji Şura**

1. Pedaqoji şuranın hər bir üzvü bərabər səviyyəli səs hüququna malikdir. Şuranın iclası üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

2. Qəyyumlar şurası nümayəndəsini dinləmək üçün şuranın üçdə birinin istədiyi vaxt pedaqoji şuranın iclasını çağırmaq hüququ var.

3. Pedaqoji şuraya onun 3 illiyə səs çoxluğu ilə seçilmiş sədri rəhbərlik edir. Pedaqoji şuranın sədri iclası çağırır və onu açır.

4. Pedaqoji şuranın səlahiyyətlərinə daxil olan ayrı-ayrı məsələləri şuranın tapşırığı ilə yaradılan işçi qrupu yerinə yetirir və onun qarşısında hesabat verir.

5. Pedaqoji şuranın qərarı səs çoxluğu və üstəgəl üç səs artıqlığı ilə qəbul edilir.

6. Peşəkar sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrində pedaqoji şuranın səlahiyyətlərini bədii şura həyata keçirə bilər. Bədii şuraya seçilmiş və ya nizamnaməyə müvafiq qaydaya uyğun təyin edilən bədii rəhbər başçılıq edir.

**Maddə 46. Pedaqoji Şuranın funksiyaları**

Pedaqoji Şura:

a) Direktor milli təhsil planına müvafiq olaraq təhsil planını qəyyumlar şurası ilə razılaşdıraraq işləyib təsdiq edir;

b) Qəyyumlar şurası ilə razılaşdıraraq mərhələləri və fənləri müvafiq milli təhsil planları və qiymətləndirmə mərkəzi tərəfindən tövsiyə edilən/ pedaqoqlar tərəfindən təqdir edilən və qrif almış dərslikləri seçir, təhsil ili ərzində çap olunınuş dərslikləri təsdiq edir;

q) Öz nümayəndəsini qəyyumlar şurasına seçir;

d) Lazım bildiyi müddətdə nümayəndəsini qəyyumlar şurasında müdafiə etmək səlahiyyətlinə malikdir.

## X FƏSİL
## ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN ŞAGİRD ÖZÜNÜIDARƏETMƏ ORQANLARI

**Maddə 47. Şagird birlikləri**

1. Şagirdlərin özünüidarəetmə təşkilatı bu qanunla və məktəb nizamnaməsinə uyğun olan seçkili orqandır.

2. Baza və orta mərhələ şagirdləri öz idarəetmə orqanlarını yaradırlar.

3. Şagirdlərin özünidarəetmə orqanı seçki ilə, açıq müzakirə ilə, şəffaflıqla və siniflərə görə, şagirdlərin nümayəndələrinin bərabərlik prinsipinin qorunması ilə seçilr;

4. Şagird özünüidarəetməsi orqanına özünüidarəetmə orqanı tərəfindən seçilən sədr rəhbərlik edir.

**Maddə 48. Şagirdlərin özünüidarəetmə orqanının funksiyaları**

Şagird özünüidarəetmə orqanı:

a)Məktəbin daxili qaydaları barədə tövsiyələr hazırlayır;

b) Qəyyumlar şurasında məktəb üçün önəm daşıyan bütün məsələlərlə bağlı təkliflər verməyə səlahiyyətlidir;

q) Öz nümayəndəsini qəyyumlar şurasına seçir;

d) Məktəb nizamnaməsi ilə müəyyən edilən qaydada və Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan qaydada qrantlar ala bilər;

e) Üzvlərinin birə beş səs çoxluğu ilə məktəb klubunu yaradır.

## XI FƏSİL
## ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNƏ DÖVLƏT NƏZARƏTİ, MÜLKİYYƏT, MALİYYƏLƏŞMƏ, HESABLAŞMA VƏ MÜHASİBAT HESABLAŞMALARI

**Maddə 49. Dövlət nəzarəti**

1.Məktəbdə dövlət nəzarətini Gürcüstan Elm və Təhsil Nazirliyi, qanunvericiliklə nəzərdə tutulan digər dövlət nəzarət orqanları, habelə Abxaziya və Acarıstan muxtar respublikalarında təhsil nazirlikləri-Gürcüstan qanunvericiliyi, habelə bu qanunda nəzərdə tutulan tələblərə uyğun şəkildə həyata keçirilir.

2.Dövlət nəzarəti dedikdə ümumtəhsil müəssisəsi tərəfindən Gürcüstan qanunvericiliyi və lisenziya şərtlərinin yerinə yetirilməsi nəzərdə tutulur.

3. İctimai məktəb hər ilin 1 mayından gec olmayaraq Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstan Elm və Təhsil Nazirliyinə keçən tədris ilindəki fəaliyyəti, təhsil prosesi və maliyyə fəaliyyəti barədə hesabat verir. Hesabatın təqdim edilmə formasını Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir.

4.Bu qanunla nəzərdə tutulan nəzarətin gerçəkləşdirilməsinin məqsədi Gürcüstan Elm və Təhsil Nazirliyinin bu məsələlər haqqında təsəvvürünün olması və ya yerində məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin və lisenziya şərtlərinin necə yerinə yetirilməsi barədə informasiyaya malik olmaqdır.

5.Məktəb Gürcüstan Elm və Təhsil Nazirliyi tələb etdiyi informasiyanı 15 gün ərzində təqdim etməlidir.

6. Məktəb Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş lisenziya şərtlərinin pozduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi ona yazılı şəkildə xəbərdarlıq edir.

7.İctimai məktəb yazılı xəbərdarlıq aldıqdan sonra deyilən vaxtda bu pozuntunu aradan qaldırmayıbsa və ya 1 il ərzində 2 yazılı xəbərarlıq alıbsa, Gürcüstan Elm və Təhsil Na-

zirliyi qəyyumlar şurasını buraxmaq və ya vaxtından əvvəl məktəb direktorunun vəzifəsini ləğv etmək, onu direktorun vəzifələrini icra edəcək digər şəxsə dövr etmə səlahiyyətinə malikdir.

8. Əgər özəl məktəb yazılı xəbərdarlıq alıbsa və deyilən vaxta pozuntu faktlarını aradan qaldırmayıbsa və ya məktəbə 1 il ərzində 2 yazılı xəbərdarlıq olubsa, Gürcüstan Elm və Təhsil Nazirliyi lisenziyanın fəaliyyətini dayandırmaq səlahiyyətinə malikdir.

**Maddə 50. İctimai məktəbin mülkiyyəti**

1. İctimai məktəbin tikintisi və müvafiq torpaq sahəsi dövlət mülkiyyətidir və məktəbə müddətsiz vaxta və pulsuz, əvəsiz müqavilə ilə Gürcüstan qanunvericiliyi ilə müəyyən edilən qaydada verilir.

2. İctimai məktəb dövlət tərəfindən ona verilən mülkiyyətdən Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı əsasında, qanunvericiliklə nəzərdə tutulan qaydada istifadə edir.

**Maddə 51. Ümumtəhsil müəssisəsinin maliyyələşməsi**

1. Məktəbin əsas maliyyələşməsi bu qanunla və müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada dövlət tərəfindən vauçer verməklə, habelə bu qanunun 22-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

2. İctimai məktəb Gürcüstan qanunvericiliyi ilə, icazə verilmiş başqa maliyyə vəsaiti ilə, habelə sağlamlığa təhlükə törətməyən və ya şagirdin fiziki və əqli qabiliyyətinə pis təsir etməyən iqtisadi fəaliyyətlə maliyyələşir. Alınmış vəsait qanunvericiliyə müvafiq olaraq yalnız məktəbin məqsədlərini və funksiyalarını gerçəkləşdirmək üçün istifadə edilir.

3. Məktəbin bütün gəliri və xərcləri onun büdcəsinə daxil edilir.

4. Məktəbin müstəqil bank hesabı və möhürü var.

**Maddə 52. Ümumtəhsil müəssisəsinin hesablaşma və mühasibat qeydiyyatı**

1. Direktor tərəfindən məbləğin ayrılması qəyyumlar

şurası tərəfindən təsdiq edilmiş büdcə əsasında istifadə edilir.

2. Direktor vacib gəldiyi təqdirdə qəyyumlar şurasının razılığı olmadan büdcəsinin bir maddəsinin vəsaitlərini 10%-dən artıq olmadan ikinci maddəyə uyğun dəyişə bilər. Bu dəyişiklik müəllimlərin maaşının azalmasına gətirib çıxarmamalıdır. Direktor tərəfindən təklif edilən məktəb büdcəsini qəyyumlar şurası təsdiq etdiyi təqdirdə əvvəlki ilin büdcəsi fəalliyyətini dayandırır.

3. Qəyyumlar şurası bu cür sazişə gəlməyə, dəyərin 5% artmasına razılıq verməlidir.

4. Məktəbdə maliyyə-iqtisadi fəaliyyətin hesabat-qeydiyyat sənədləri Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılır.

## XII FƏSIL
## KEÇİCİ VƏ NƏTİCƏ ƏSASNAMƏSİ

**Maddə 53. Qanunun qüvvəyə minməsi ilə əlaqədar normativ aktların qüvvədən düşmüş elan edilməsi**

1. Bu qanun qəbul ediləndən 27 iyun 1997-ci ildə qəbul edilmiş "Təhsil haqqında" Gürcüstan qanununu 4-cü maddəsinin 5-ci bəndi; 11-ci maddənin 2-ci bəndi; 18-ci maddənin 4-cü bəndinin "O", "P", "J" və "S" yarımbəndləri; 20-ci maddənin "K", "L" və "N" bəndləri; "21-ci maddə; 22-ci maddənin 2-ci bəndi; 23-cü maddənin 3-cü bəndinin "A", "Q" və "A", "D" yarımbəndləri; 24-cü maddənin 6-ci bəndi; 29-cu maddənin 3-cü bəndi; 40-cı maddənin 3-cü bəndi; 44-cü maddənin 4-cü və 5-ci bəndi, habelə qeyd edilən qanunun bu qanunla uyğun gəlməyən digər normativ normaları, bu qanunla fərqli cəhətlər qüvvədən düşür.

2. 25 fevral 2003-cü il Gürcüstan Elm və Təhsil nazirinin 16 N-li əmri "Dövlət ümumtəhsil müəssisələrində tipik qərarların təsdiqi və tədbirlər haqqında" və dövlət idarəetmə orqanları tərəfindən "Normativ aktlar haqqında" Gürcüstan qa-

nununa uyğun olaraq qəbul edilmiş normativ akt, ya onun bu qanunda nəzərdə tutulan əlaqələrlə ziddiyyət təşkil edən bir hissəsi qüvvədən düşür.

**Maddə 54. Hazırlanan qanun layihəsi**

1. Gürcüstan Elm və Təhsil Nazirliyi, 2007-2008-ci dərs ili başlayanadək "Təlim-tərbiyə fəaliyyəti haqqında" və "Peşəkar təhsil haqqında", "Pedaqoji fəaliyyət haqqında" və "Ümumtəhsil müəssisələri və proqramların akreditasiyası haqqında" qanun layihəsi hazırlasın.

2. Bu qanunun 30-cu maddəsinin "Z" bəndinin işlək olması üçün 2006-2007-ci tədris ili başlayanadək "Gürcüstan inzibati hüquq pozuntusu haqqında Kodeksində dəyişiliklər və əlavələr edilməsi haqqında" qanun layihəsi hazırlayıb Gürcüstan hökumətinə təqdim edilsin.

3. Gürcüstan hökuməti və Gürcüstan Parlamenti 2007-2008-ci ilin başlanğıcına qədər müvafiq qanunvericilik aktlarında dəyişikliklər və əlavələr etmək barədə layihələr, ümumtəhsil müəssisələri üçün yeni statusun-gəlirsiz hüquqi şəxsin statusunu hazırlasın.

**Maddə 55. Tərbiyəvi, ümumtəhsil-tərbiyə müəssisələri**

1. Tərbiyəvi və ümum təhsil-tərbiyəvi müəssisələri özəl, ya da xüsusi və ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs formasında mövcud ola bilər.

2. Gürcüstan Elm və Təhsil Nazirliyi tərbiyəvi və ümumtəhsil-tərbiyəvi müəssisələri ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin təsisçiliyi timsalında onun nizamnaməsini təsdiq edir, ona dövlət nəzarətini təmin edir, onu yenidən qurur və ləğv edir.

3. Tərbiyəvi və təhsil-tərbiyəvi müəssisələri, məktəbəqədər tərbiyə müəssisəsindən başqa, ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs qismində təqdim olunan, dövlətim mərkəzi büdcəsindən və qanunvericiliklə nəzərdə tutulan başqa gəlirlərlə maliyələşir.

**Maddə 56. Məktəbdən xaric sənət və idman ümumtəhsil müəssisələri**

Ümumtəhsil müəssisələrindən kənar, qanunvericiliklə müəyyən edilmiş qaydada, yalnız sənət və idman proqramlarını gerçəkləşdirən, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin təsisçiliyi qismində, öz təşəbbüsü ilə və ya özünidarəetmə orqanının təqdimatı əsasında təsis edilən və Gürcüstan Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyi tərəfindən dövlət nəzarətini həyata keçirən müəssisələr məktəbdən kənar sənət və idman ümumtəhsil müəssisələridir.

**Maddə 57. Orta peşə təhsili müəssisələri**

1. Orta peşə təhsili müəssisəsi ictimai, ya da özəl ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs formasında mövcud ola bilər.

2. Gürcüstan Elm və Təhsil Nazirliyi orta peşə təhsili müəssisəsini ictimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs tərəfindən müvafiq nizamnamənin təsdiqindən, dövlət nəzarətini həyata keçirməklə onu təsis edə, yenidən qura və ləğv edə bilər.

3. Orta ümumtəhsil verməklə yanaşı peşəkar sənət və idman təhsili və hazırlığı verən, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs tərəfindən təsis edilən, Gürcüstan Elm və Təhsil Nazirliyi sahə nazirliklərinin təqdimatı əsasında yaradılan orta peşə təhsili müəssisələri; yalnız peşə sənəti, idman hazırlığı və təhsili ilə məşğul olan, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində sahə nazirlikləri təsis edən peşə təhsili müəssisələridir.

4. Mərkəzi büdcədən, ya da büdcədən və ya qanunvericiliklə icazə verilən başqa gəlirlərdən maliyyələşən və ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs olan orta peşə təhsili müəssisəsiləridir.

5. Orta peşə təhsili almaq baza təhsili aldıqdan sonra ola bilər. Orta peşə ümumtəhsil müəssisəsinin standartı mütləq ümumtəhsil məktəblər üçün müəyyən edilmiş milli təhsil

planına uyğun gəlməlidir.

6. Orta peşə təhsili müəssisələri akreditasiyadan keçir.

Akreditasiya qaydası, şərtləri və peşə təhsil müəssisələrinin standartlarını Gürcüstan Elm və Təhsil Nazirliyinin müvafiq sahə nazirliyi ilə razılaşmaqla, dövlət akreditasiya xidmətinin təqdimatı əsasında müəyyən edilir.

7. Orta peşə təhsil hüdudunda ümumtəhsil proqramı bu qanunla müəyyən olunan qaydada maliyyələşir. Ancaq özəl peşə təhsil müəssisəsi mərkəzi büdcədən və qanunla qadağan edilməyən başqa gəlirlər əsasında maliyyələşir.

**Maddə 58. Ümumtəhsil müəssisəsinin ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs kimi təsis etməsini təmin etmək**

1. Gürcüstan Elm və Təhsil Nazirlyi 2005-ci ilin 1 avqustuna kimi Gürcüstan ümumtəhsil müəssisələrinin ictimai məhkəmə tərəfından təsdiq olunmuş hüquqi şəxs tərəfindən təsis edilməsi qayğısına qalmalı, habelə mövcud ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxsin yeni nizamnaməsini bu qanuna müvafıq şəkildə təsdiq etməlidir.

2. İctimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsə verilən normalar ictimai və ya xüsusi məhkəmənin təsdiq etdiyi hüquqi şəxslər olmadıqda və dövlət büdcəsindən maliyyələşdirilən ümümtəhsil, təlim-tərbiyə müəssisələrinə də şamil edilir.

3. Bu maddənin birinci bəndində nəzərdə tutulan müəssisələr üçün Gürcüstan Elm və Təhsil Nazirliyi nizamnaməsinin vahid nümunəsini təsdiq edir. Bunun əsasında həmin müəssisələr təsis edilir. Elm və Təhsil Nazirlyi nizamnamənin nümunəsini nəşr edir və muvafıq olaraq ümumtəhsil müəssisəsinin təsisçisinin nizamnaməsi və planı ilə uyğun gəlməsini təmin edir.

4. Gürcüstan Elm və Təhsil Nazirliyi, iqtisadi inkişaf, ədliyyə və maliyyə nazirlikləri bu qanun qəbul olunduqdan 1 ay müddətinə Gürcüstan dövlətinə Gürcüstan ümumtəhsil

müəssisələrinin ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs kimi təsisçi olan müəssisənin lazımi fəaliyyətinin maliyyə və hüquqi təminatı planını təqdim edir.

5. Bu qanunun 5-ci maddəsinin 4-cü bəndi 2010 - 201l-ci təhsil ilindən mərhələli halda qüvvəyə minir.

6. Bu qanunun 36-cı maddəsinin 2-ci bəndi 2007-2008-ci təhsil ilinin başlanğıcından qüvvəyə minir.

**Maddə 59. Ümumtəhsil müəssisəsi idarəetmə orqanlarına ilk seçki keçirilməsini təmin etmək**

1. Gürcüstan Elm və Təhsil Nazirliyi 2006-2007-ci təhsil ilinin sonuna qədər ictimai məktəblərin qəyyumlar şurasının birinci seçkisinin keçirilməsini təmin etməlidir. İlk seçkilər Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş sıra və qayda ilə keçrilə bilər.

2. Bu qanunun qüvvəyə minməsi bütün ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsə şamil olunur, onlar proqramın heç olmasa bir mərhələsində, direktorun işdən azad edilməsi əsasında, bu qanunun Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən formalaşdırılan əmri əsasında gerçəkləşməsini təmin etməlidir. Bu qanuna müvafiq olaraq direktor seçiminə qədər Gürcüstan Elm və Təhsil Nazirlyi tərəfindən ümumtəhsil müəssisəsinin direktorunun vəzifəsini icra edəni şəxsi seçki vaxtına qədər işdən azad etmək səlahiyyətinə malikdir.

3. Bu qanunun qüvvədən düşməsi ictimai məktəbdə mövcud olan qəyyumlar şurası üzvlərinin səlahiyyətlərinin ləğvindən başlanır.

4. Bu qanunun əsasında ilk dəfə seçilmiş direktorun səlahiyyətləri, Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatından və ümumtəhsil müəssisəsinin direktorunun səlahiyyətlərini və administrasiyanın direktor vəzifəsini icra edən şəxslərin səlahiyyətləri ləğv edildikdən başlanır.

5. İlk dəfə seçilən direktor qeydiyyatının birinci ayı ərzində müəssisənin bütün müəllimləri ilə əmək müqaviləsi bağlamağı təmin edir.

6. İctimai məktəbin akreditasiyadan keçməsi 2011-2012-ci tədris ilindən hesablanır. Bu vaxta qədər Gürcüstan Elm və Təhsil Nazirliyi bu ümumtəhsil müəssisələrinə Dövlət Akreditasiya Xidməti tərəfındən sonrakı akreditasiya verilməsini təmin edir.

7. Lisenziya almış özəl məktəbin akreditasiyası 2010-2011ci tədris ilinin başlanğıcından tədris proqramının sona çatmasına qədər gerçəkləşdirilir.

8. 2010-2011-ci təhsil ilindən bu qanuna müvafıq olaraq Gürcüstan Elm və Təhsil Nazirlyi tərəfindən akreditasiyaya alınmış ümumtəhsil müəssisələrində müəllim kimi yalnız ali təhsili olan, professional hazırlıq proqramı keçmiş, akreditasiya almaq imkanına malik, müvafiq sertifikat imtahanı vermiş şəxs ola bilər.

9. İctimai məktəblərin qəyyumlar şuraları birinci seçkinin nəticələri barədə Gürcüstan Elm və Təhsil Nazirliyinə şikayət edə bilərlər.

**Maddə 60. Təhsil proqramlarında ümumtəhsil mərhələləri ilə uyğunluğunun təmin edilməsi**

Gürcüstan Elm və Təhsil Nazirliyi 2006-2007 -ci təhsil ilinin başlanmasına qədər bütün ümumtəhsil müəssisələrində təhsilin milli təhsil planına müvafiq olmasını təmin etməlidir.

**Maddə 61. Pedaqoq**

"Pedaqoq fəaliyyəti haqqında" Gürcüstan qanununun qəbul edilməsi ilə əlaqədar qanunda nəzərdə tutulan qaydaya müfaviq bu qanunun 2-ci maddəsinin "Ç" yarımbəndinə şamil edilsin.

**Maddə 62. Ümumtəhsil müəssisələrinin maliyyələşməsi**

1. Bu qanunun 22-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq ümumtəhsil mərkəzinin büdcədən maliyyələşməyə keçməsi mərhələli şəkildə, 2007-2008-ci illərdən gec olmayaraq gerçəkləşdirilir. Bu vaxta qədər isə ümumitəhsil yerli idarəetmə orqanları tərəfindən maliyyələşir. Heç bir rayonun tərkibinə daxil olmayan şəhərlər, habelə yeli idarəetmə orqan-

ları mövcud olmayan yerlərdə ümumtəhsil müəssisələrini yerli özünüidarəetmə orqanları maliyyələşdirir. Dövlət yerlərin fərqliliyini nəzərə alıb yerli idarəetmə/özünüidarəetmə orqanları tərəfindən verilən maliyyəni və bir şagird üçün nəzərdə tutulan maliyyə normativləri arasındakı fərqi təmin etməlidir.

2. Bu qanunun 22-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq ümumtəhsil mərkəzi büdcədən maliyyələşməyə keçənə qədər yerli idarəetmə/özünüidarəetmə orqanlarının nümayəndələri qəyyumlar şurasında həlledici səs hüququ ilə iştirak edirlər.

3. Bu qanunun 21-ci maddəsinin 2-cü bəndinə müvafiq olaraq 2005-2006-cı tədris ilinin başlanğıcına qədər qüvvədədir.

**Maddə 63. 12 illik ümumtəhsilə keçmə**

1. Gürcüstan Elm və Təhsil Nazirliyi 2006-2007-ci tədris ilindən ümumtəhsil müəssisələrində mərhələli şəkildə 12 illik təhsilə keçməyi təmin edir.

2. 12 illik ümumtəhsil 2006-2007-ci ilin başlanğıcında 11-ci sinifdə olan şagirdlərə şamil edilmir.

3. Bu qanunun 28-ci maddəsində nəzərdə tutulan milli təhsil planları və Qiymətləndirmə Mərkəzinin nizamnaməsi 2006-2007-ci tədris ilinin başlanğıcınadək təsdiq olunmalıdır.

4. Milli Təhsil Planları və Qiymətləndirmə Mərkəzi yaradılına qədər onun funksiyalarını Gürcüstan Elm və Təhsil Nazirliyi və ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs-Qiymətləndirmə və İmtahanların Milli Mərkəzi birgə həyata keçirir.

**Maddə 64. Qanunun qüvvəyə ıninməsi**

Bu qanun nəşr ediləndən sonra fəaliyyət göstərir.

*Prezident Mixail Saakaşvili.*
*Tbilisi,* 8 *aprel 2005-ci il*

## "ÜMUMİ TƏHSİL HAQQINDA" GÜRCÜSTAN QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏRİN DAXİL EDİLMƏSİ HAQQINDA

**17.03.2006**

**"ÜMUMİ TƏHSİL HAQQINDA" GÜRCÜSTAN QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏRİN DAXİL EDİLMƏSİ HAQQINDA**

**Maddə 1.** "Ümumi təhsil haqqında" Gürcüstan qanununa (Gürcüstan qanunvericiliyi aktı N 20, 04.05.2005-ci il, maddə 143) sonrakı dəyişikliklər və əlavələr edilsin:

1.Birinci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2.Bu qanun Gürcüstanda ümumtəhsil fəaliyyətinin şərtlərini həyata keçirir, ümumtəhsilin idarə edilməsi və maliyyələşmə prinsiplərini və qaydalarını, bütün təhsil müəssələrinin statusunu (təşkilatı formaya görə) bərpa edir, onun təsisçilərini, fəaliyyətini, yenidən qurulmasını, ləğv edilməsini və akreditasiya qaydalarını müəyyən edir.

2. 2-ci maddə:

a) "K" bəndi sonrakı redaksiyada formalaşdırılsın:

"K) Ekstrenat-ümumtəhsili təsdiq edən dövlət sənədinin o şəxslər tərəfindən almasının qaydasıdır ki, həmin şəxslər təhsili müstəqil başa vururlar";

b) "S" bəndi çıxarılsın.

3. 3-cü bəndin 2-ci bəndinin "e" bəndi sonrakı redaksiyada verilsin.

"E) Ümumtəhsil müəssiəsinin akreditasiyası, maddi, texniki, proqramlı və insan resursları normativləri əsasında müəyyən edilsin.

4. 9-cu maddənin 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"4. Eksterni formada ümumtəhsil almaq olar. Eksternat formasında təhsil almaq qaydaları və şərtlərini Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir. Ekstern formada ümumtəhsil

alma təqdirində ümumtəhsil almağı təsdiq edən sənəd Gürcüstan Elm və Təhsil Nazirliyi sisteminə daxil olan vahid əsasda verilə bilər. Ekstern formalı tam ümumtəhsili təsdiq edən akreditasiyadan keçmiş ümumtəhsil müəssisəsi tərəfindən verilən tam ümumtəhsili təsdiq edən sənədlə birlikdə qüvvədədir. "

5. 13-cü maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Məktəbə qəbulla bağlı hər hansı növ diskriminasiya yolverilməzdir. Bu norma peşəkar sənətkarlar və idmançılar hazırlayan və təhsil verən, tərkibi seçkili konkursla müəyyənləşən ümumtəhsil müəssiələrinə şamil edilmir.

6. l9-cü maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Məktəbin daxili qaydaları ilə, qanunvericilkilə müəyyən edilmiş cavabdehlik ölçülərindən başqa şagirdi dərsdən çağırmaq nəzərdə tutula bilər, məktəbi müvəqqəti tərketmə və başqa fənləri buraxmağa icazə verilir. Şagirdi məktəbdən müvəqqəti buraxılmasının səbəblərini şagirdin valideynlərinə izah etmək lazımdır. Şagirdin dərslərindən çətinlik çəkməsi təqdirdə məktəb və şagirdlərin təhsili müvəqqəti tərk etməsi təqdirdə onu öz təminatından kənar qoymamalıdır.

7. 22-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Dövlət ibtidai və ya baza və ya orta ümumtəhsil proqramını gerçəkləşdirən məktəblər üçün vəsait ayırır. Bir şagird üçün xüsusi və ictimai məktəbdə təhsil almaq üçün verilən maliyyə normativi müvafiq vauçerlə dövlət maliyələşdirir. Bu, təhsil müəsisəsi və ya onun nümayəndəsi bu qanunun 32-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş ümumtəhsil müəsisəsinin yeni təsisçiləri kimi akreditasiyaya malik olduğu təqdirdə baş verir".

8. 26-cı maddə:

a) 1-ci bənd:

a.a) "Z" və "T" bəndləri sonrakı redaksiyada verilsin:

z) Ümumtəhsil müəsisəsinin maddi, texniki kreditləşməsi, proqram və dominatlı resurslarının normativləri.

t) Ümumtəhsil müəsisəsinin lisenziyalaşması gerçəkləş-

dirilir.

a.b) "c" bəndi çıxarılsın;

a·q) "H" bəndi sonrakı redaksiyada verilsin:

"H) Umumitəhsil müəssisəsinin şagirdinin çıxardılması üçün lazım olan sənədlərin nüsxələri.

b) $H^5$ bəndi əlavə ilə birlikdə məzmunu $H^6$ bəndində:

$H^6$) Gürcüstan qanunvericiliyi ilə başqa səlahiyyətlər gerçəkləşdirilsin.

9. 27-ci maddə sonrakı redaksiyada verilsin;

**"Maddə 27. Ümumtəhsil sahəsində Gürcüstan nazirliklərinin səlahiyyətləri:**

1. Ümumtəhsil almaqla birlikdə profil sənət və idman hazırlığı və təhsil verən ümumtəhsil müəssisələri Gürcüstan Elm və Təhsil Nazirliyi müvafiq sahə nazirliklərinin təqdimatı ilə ictimai məhkəmənin təsdiq etdiyi hüququ şəxs tərəfindən bu cür müəssisələri təsis edirlər. Qeyd edilən müəssisələr Gürcüstan Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada akreditasiyadan keçirlər. Milli təhsil planının yuxarı profilli sənədləri və idman hazırlığı və təhsili, habelə onların arasında ibtidai və baza mərhələli təhsil müəssisələri sahə nazirlikləri və ya yerli özünüidarəetmə orqanları tərəfindən maliyyələşdirilirlər.

2. Milli təhsil planının yuxarı profilli sənət və idman təhsili proqramını qanunvericiliyə uyğun olaraq yuxarıda qeyd edilən sahə nazirlikləri gerçəkləşdirirlər.

10. 29-cu maddənin l-ci bəndi:

a)"E" bəndi götürülsün;

b)"N" və "O" bəndləri sonrakı redaksiyada verilsin:

o) "İctimai məktəb tərəfindən Gürcüstan qanunvericiliyi pozulduğu təqdirdə ona yazılı xəbərdarlıq etmək səlahiyyətinə malikdir."

11. 3l-ci maddə:

a) l-ci bənddən sonra 11 bəndi sonrakı məzmunda əlavə edilsin:

"11. Xüsusi məhkəmənin təsdiq etdiyi hüququ şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada başqa qeyri-hüququ şəxs olmadan ümumtəhsil fəaliyyətini gerçəkləşdirməyə səlahiyyətlidir. ";

b) 3-cü, 4-cü və 5-ci bəndlər sonrakı redaksiyada verilsin:

"3. Ümumtəhsil müəssisəsinin lisenziyalaşdırılması Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçir”

"4. Ümumtəhsil müəssisəsi tərəfindən yaradılan ibtidai, baza, orta ümumtəhsil proqramının dövlət tərəfindən qəbul edilməsi üçün qanunvericilik qaydasında qeydiyyatdan keçmə-si vacibdir. İctimai məktəbin akreditasiya xərcləri dövlət, ancaq xüsusi məktəbinin maliyyələşməsini isə bu işdə maraqlı tərəf öz üzərinə götürür. Akreditasiyanın dəyərini Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi ilə birgə müəyyən edir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydaya müvafiq olaraq akreditasiyadan keçmiş, habelə bu qanunun 32-ci madəsinin 2-ci bəndində nəzərdə tutulan yeni təsisçilər tərəfindən təşkil edilən xüsusi məktəb bu qanunla müəyyən edilmiş qaydada dövlətdən maliyyə almağa səlahiy-yətlidir .. "

12. 32-ci maddə:

a) 1-ci və 2-ci bəndlər sonrakı redaksiyada verilsin:

"1. Ümumtəhsil müəssisəsi ümumtəhsilin milli məqsəd-ləri sənədi ilə və milli təhsil proqramının müvafiq təminat məqsədi ilə dövlətin öz tərəfindən akretisayadan keçirir. Dövlət akreditasiyadan keçmiş ümumtəhsil müəssiəsi tərəfindən verilən ümumtəhsil almağı təsdiq edən sənədi, habelə bu maddənin və ekstemə əlavə təminat olduqda qanunvericiliklə müəyyən edilmiş qaydada verilən sənədi tanıyır.

2. Akreditasiyadan keçmə bütün ümumtəhsil müəssisə-ləri üçün məcburidir. Yeni təsisçilərin lisenziya almış ümum-təhsil müəssisəsi bu bəndin "A" və "B" bəndlərində nəzərdə tutulmuş qeydiyyata alındığı bir il müddətindən gec olmayaraq

akreditasiya almalıdır. Bundan sonra o yeni təsis edilmiş ümumtəhsil müəssisəsi statusunu itirir. Ümumtəhsil müəssisəsinin birinci akreditasiyası bu müəssisəsinin fəaliyyətə başlaması müddətindən sayılır:

a) 3 ildən sonra - əgər o ibtidai ümumtəhsil proqramını gerçəkləşdirirsə;

b) 2 ildən sonra - əgər o baza və ya orta ümumtəhsilin ibtidai ümumtəhsil proqramından kənar gerçəkləşdirirsə";

q) l8-ci bənd sonrakı redaksiyada verilsin:

"18. Əgər ictimai məktəb sahə nazirliyinin təqdimatı ilə yaradılıbsa, akreditasiya alan şəxslər bunu sahə nazirliyi ilə razılaşdırırlar; bu cür ümumtəhsil müəssisələri akreditasiya ekspertləri qrupundan məcburi ümumtəhsil müəssisələrinin təhsil proqramında nəzərdə tutulan profillə, ya xüsusi sənəd, ifaçılıq, idman hazırlığı, ya da təhsil proqramının ekspertinin iştirakı ilə; bu hallarda ekspertlər qrupu üzvün namizədliyini akreditasiya almaq istəyənlə razılaşdırmalıdır; əgər akreditasiya almaq istəyən iki dəfə təklif edilən başqa-başqa namizədlər tərəfindən rədd cavabı alıbsa, ekspertlər qrupunun sədrinin razılığı olmadan qrupun üzvlərindən birini təyin etmək səlahiyyəti var. Bu şəxs akreditasiya almaq istəyən şəxs tərəfindən arzu olunmayan şəxs olmamalıdır.

q) 2l-ci və 22-ci bəndlər sonrakı redaksiyada verilsin:

"21. Ümumtəhsilin akreditasiyası olan ümumtəhsil müəssisələri və bu maddənin 2-ci-bəndində nəzərdə tutulan yeni ümumtəhsil müəssisəsinin yeni təsisçiləri tərəfindən, habelə ekstern qaydanın tətbiqini verən ümumtəhsil almağı təsdiq edən sənədi dövlət tanıyır."

22. Xüsusi məktəb dövlət tərəfindən o halda maliyyə alır ki, o akreditasiya alıb, şərti akreditasiya alıb və ya o bu maddənin 2-ci bəndində nəzərdə tutulan ümumtəhsil müəssisəsinin yeni təsisçisidir."

d) 24- ci bənd sonrakı redaksiyada verilsin:

"24. Xüsusi, eləcə də ictimai məktəbi qurtarmasını,

yəni, əgər o ümumtəhsil müəssisəsinə akreditasiyası verilən, şərti akreditasiyadan keçən, ya da o bu maddənin 2-ci bəndində nəzərdə tutulan ümumtəhsil müəssisəsinin yeni təsisçi olan müəssisənin, habelə ekstern yolu ilə ümumtəhsili təsdiq edən sənədin sahibi olan şağirdlər vahid milli imtahanda iştirak edirlər. ":

e) 27-ci bənd sonrakı redaksiyada verilsin:

"27. Ümumtəhsil müəsisəsinin akreditasiyası ləğv edilərsə və ya müəssisənin şagirdləri ümumtəhsili bu sinifdə olmaq istəmədiyi təqdirdə, əgər bu sinif mərhələsi bitməmişdirsə — onlar olduğu mərhələ sayılmaqla müəsisəsinin akreditasiyası ləğv edilirsə və ya onlar bu mərhələni bitirdiyi anda akreditasiya verilməyibsə şagirdlər həmin mərhələnin sinif şagirdi hesab edilirlər.

13. 35-ci maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələri nizamnamədə nəzərdə tutulan bədii rəhbər vəzifəsi seçilməyibsə/onda bu təyinat yolu qanuna müvafiq və müəssisənin nizamnaməsi qaydası çərçivəsində gerçəkləşdirilir";

l4.38-ci maddənin birinci bəndinin "İ" bəndi sonrakı redaksiyada verilsin:

i) Milli təhsil planına müvafiq təhsil ilini bitirən imtahan vermək məqsədi ilə Milli İmtahan Mərkəzinə müraciət etmək və o da müvafiq müqavilə bağlamaqla bu işi direktora tapşırmaq səlahiyyətinə malikdir.

14. 41 -ci maddənin 6-cı bəndi sonrakı redaksiyada verilsin:

"6. Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin bədii rəhbərləri direktorun səlahiyyətini gerçəkləşdirə bilər.";

16.43-cü maddə:

a) Birinci maddənin:

a.a.) "T" bəndi sonrakı redaksiyada verilsin:

"T) Məktəbin təsərrüfat şurası hər ilin 10 dekabrına

qədər təhsil prosesinin vəziyyəti barədə hesabat verir, ancaq maliyyə fəaliyyəti barədə hesabat Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə gerçəkləşdirilir.";

a.b.) "N" bəndi sonrakı redaksiyada verilsin:

"N) Təsərrüfat Şurasının tapşırığı ilə milli təhsil planına müvafiq olaraq təhsilini bitirən şagird imtahandan keçmək məqsədi ilə milli imtahan mərkəzinə müraciət edir və onlarla müvafiq müqavilə bağlayır. ";

a.q.) "N" bəndinə "o" bəndi əlavə edilməklə sonrakı məzmunda verilsin:

O) Gürcüstan qanunvericiliyini və məktəbin nizamnaməsində nəzərdə tutulan başqa fəaliyyəti gerçəklişdirir.";

Q) 3-cü bənd sonrakı redaksiyada verilsin:

"3. Profıl sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin nizamnaməsində direktorun bu maddə ilə nəzərdə tutulan səlahiyyəti bədii rəhbərlə birlikdə həyata keçirlə bilər".

17. 45-ci maddənin 6-cı bəndi sonrakı redaksiyada verilsin:

"6. Profıl sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin pedaqoji şurasının səlahiyyətini bədii şura həyata keçirlə bilər. Bədii şuranın rəhbəri bəddi şura tərəfindən seçilir və nizamnamədə nəzərdə tutulan qaydada təyin edilir."

18. 49-cu maddə:

a) 2-ci, 3-cü və 4-cü bəndlər sonrakı redaksiyada verilsin:

"2. Dövlət nəzarəti ümumtəhsil müəssisəsi tərəfindən Gürcüstan qanunvericiliyinin tələblərini yerinə yetirməsini nəzərdə tutur.

3. İctimai məktəb cari təhsil ili başlayana qədər ötən ilin fəaliyyəti və təhsil prosesi haqqında Gürcüstan qanunvericiliyinə müvafiq olaraq və təhsil prosesi haqqında Gürcüstan Elm və Təhsil Nazirliyinə hesabat verir. Hesabat formalarda və vaxtın müəyyən edilmiş qaydasında Elm və Təhsil Nazirliyinə təqdim edilir.

4.Bu qanunda nəzərdə tutulan nəzarətin məqsədi Gürcüstan Elm və Təhsil Nazirliyinin tələb etdiyi məsələlər və məlumatları və ya yerində məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin tələblərinin necə yerinə yetirilməsini yoxlamaq məqsədi daşıyır.

b) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6. Məktəb tərəfindən Gürcüstan qanunvericiliyi pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi ona yazılı xəbərdarlıq etmək səlahiyyətinə malikdir. ";

q) 8-ci bənd sonrakı redaksiyada verilsin:

19) 52-ci maddə:

a) l-ci və 2-ci bəndlər sonrakı redaksiyada verilsin:

"1. Kütləvi məktəbin direktorunun məbləği bölüşdürməsi təsərrüfat şürası tərəfindən formalaşdırılmış məktəb büdcəsinə görə olur.

2. Direktor məsələnin təcili həll edilməsi gərəkən an himayədarlar şurasının razılığı olmadan büdcənin bir maddəsinin istiqrazlarının 10% -dən çox olmadan ikinci maddəyə görə paylaşdıra bilmək səlahiyyətlərinə malikdir. Bu dəyişiklik müəllimlərin maaşlarının azaldılmasına gətirib çıxarmamalıdır. Məktəbin büdcəsinin təsdiq edildiyi təqdirdə direktor hər ay ötən il büdcəsində verilən məbləğdən 1/12-həcmindən az olmayaraq verməyə məsuldur."

b) 4-cü bənd sonrakı redaksiyada verilsin:

"4. İctimai məktəbin iqtisadi-maliyyə hesabatı sənədləri Gürcüstan qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçrilir,

20.55-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Gürcüstan Elm və Təhsil Nazirliyi təlim-təhsil müəssisələrini ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində maliyyələşdirir, onun nizamnaməsini təsdiq edir, ona dövlət nəzarətini təmin edir, onun yenidən qurulmasını, ləğv edilməsini, müəssisənin rəhbər vəzifəsinə təyin və azad edir.

21. 56-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 56. Məktəbdənkənar sənət və idman təhsil müəssisələri o təhsil müəssisələrindən kənardır ki, onlar yalnız sənət və idman proqramlarını ümumtəhsil proqramından kənar, qanunvericiliklə nəzərdə tutulan qaydada, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində, öz təşəbbüsləri, ya da yerli özünüidarəetınə orqanlarının təqdimatı ilə, Gürcüstan Mədəniyyət Nazirliyinin, Abidələrin Mühafizəsi və İdman Nazirliyi təsisçiliyi əsasında, onlara dövlət nəzarətini həyata keçirmək şərti ilə, onları yenidən qurmaq və ləğv etınək hüququ ilə, onların nizarnnaməsini təsdiq etməklə, ona rəhbər təyin etmək və vəzifədən azad etınəklə yaradılır.

22. 57-ci maddə:

a) Birinci bənddən sonra 1/1 bəndinə sonrakı məzmun əlavə edilsin:

"1/1. Xüsusi hüquqi şəxs başqa hüquqi şəxsdən kənar qanunvericiliklə müəyyən olunmuş qaydada orta peşə təhsil fəaliyyəti ilə məşğul olmağa səlahiyyətlidir.

b) 3-cü bənd sonrakı redaksiyada verilsin:

"3.Peşəkar sənət və idman orta təhsili və hazırlığı verən təhsil müəssisələri ictimai hüquqi şəxs qismində sahə nazirliyi tərəfindən onların nizamnaməsini təsdiq etməklə, direktorunu təyin etməklə, ona dövlət nəzarətini həyata keçirməklə, onu yenidən qurma və ləğv etmə hüququ ilə öz fəaliyyətlərini gerçəkləşdirirlər.

q) 5-ci bənd sonrakı redaksiyada verilsin:

"5. Orta peşə təhsili baza təhsili aldıqdan sonra mümkündür. 2005-2006-cı təhsil ilinin axrına qədər ümumtəhsil proqramını gerçəklişdirən və dövlətin 100% iştirakı ilə təsisi xüsusi hüquqi şəxs-orta peşə təhsili müəssisələri ümum təhsil almağı təsdiq edən sənədi 2005-2006-cı təhsil ilinin sonuna kimi proqram maliyyəsi çərçivəsində maliyyəşən ümumtəhsil proqramları əsasında və 2 il müddətində orta peşə ümumtəhsili müddətində təhsil alan şagirdə verməyə səlahiyyətlidir".

d) 5-ci bənddən sonra 5/5 bəndə aşağıdakı məzmun əla-

və edilsin:

"5/1 Lisenziyaya malik xüsusi hüquqi şəxs-orta peşə təhsil müəssisələri, yalniz orta peşə təhsili almağı təsdiq edən diplomdan xaric, ümumtəhsil proqramını bitirməyi təsdiq edən, ümumi təhsiliə müvafiq mərhələli təhsil almağı təsdiq edən sənədi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verır.

Maddə 2. Bu qanun çap olunduğu gündən qüvvəyə minir.

*Gürcüstan Prezidenti*
*Mixail Saakaşvili*
*Tbilisi, 17 mart, 2006-cı il*

# KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQ ÜZƏRİNDƏ MÜLKİYYƏT HAQQINDA GÜRCÜSTAN QANUNU

## I FƏSİL
## ÜMUMİ QAYDALAR

**Maddə 1. Qanunun məqsədləri**

1. Qanunun məqsədləri:

a) torpaqdan səmərəli istifadə edilməsi və aqrar strukturun yaxşılaşdırılması əsasında təşkil olunmuş təsərrüfatın hüquqi cəhətdən təmin edilməsi;

b) torpaq sahələrinin parçalanmasının və onlardan qeyri-səmərəli istifadə olunmasının qarşısının alınınası.

2. Qanun aşağıdakıları müəyyən edir:

a) torpaq sahələrinin və torpaq təsərrüfatlarının əldə edilməsi və özəlləşdirilməsi qaydasını;

b) kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə əlaqədar münasibətlərin qaydaya salınmasında dövlətin iştirakını.

**Maddə 2. Qanunun təsir sahəsi**

1.Bu qanunun təsiri kənd təsərrüfatı torpaqlarına aiddir.

2.Qanunun təsiri həmçinin aşağıdakılara da aiddir:

a) əgər sahələr və sahələrin bir hissəsi yaşayış məntəqələrində yerləşmişsə və torpaq təsərrüfatına aiddirsə;

b) təyinat məqsədi dəyişdirilməmiş tikinti zonasındakı sahələrə;

v) meşə fondunun torpaqları hesabına artmış kənd sakinlərinin torpaq sahələrinə.

**Maddə 3. Kənd təsərrüfatı torpaq sahəsi anlayışı**

1. Təsərrüfat və yardımçı tikililəri olan, yaxud olmayan torpaq kitabında (ümumi reyestrdə) kənd təsərrüfatı torpaq sahəsi kimi qeydə alınmış bitkiçilik və heyvandarlıq məhsulları istehsalı üçün istifadə olunan torpaq kənd təsərrüfatı torpaq sahəsi sayılır.

2. Aşağıdakılar da kənd təsərrüfatı torpaq sahəsi sayılır:

a) kəndə, icmaya, hüquqi şəxslərə məxsus olan otlaqların, biçənəklərin, meşələrin ərazisində həyətin (ailənin) mülkiyyət payı;

b) ayrıca hüquq obyekti ola bilən kənd təsərrüfatı torpaqlarının bir qismi.

**Maddə 4. Torpaq (fermer) təsərrüfatı anlayışı**

1. Üzərində müvafiq yaşayış və təsərrüfat tikintiləri, habelə müvafiq emal sənayesi və avadanlığı, obyektləri olan, kənd təsərrüfatı istehsalının əsasını təşkil edən kənd təsərrüfatı torpaq sahələrinin cəmi torpaq (fermer) təsərrüfatı sayılır.

2. Əgər bağçılıq və bostançılıq yoldaşlıqları sahələrindən və yaylaq sahələrindən əldə edilən gəlir ailənin gəlirinin yarısından çoxunu təşkil edirsə, həmin sahələr də torpaq (fermer) təsərrüfatı sayılır.

3. Torpaq (fermer) təsərrüfatı kənd (kəndli, fermer təsərrüfatı) və kənd təsərrüfatı üzrə hüquqi şəxs halında mövcud ola bilər.

4. Kənd təsərrüfatı, bu maddənin birinci bəndində müəyyən edilmiş bir fiziki şəxsin, yaxud ər-arvadın və ailənin digər üzvlərinin birgə istifadəsində olan torpaq (fermer) təsərrüfatıdır.

5. Kənd təsərrüfatı torpaq kitabında (ümumi reyestrdə) qeydə alınmalıdır. Əgər bu təsərrüfat ər-arvadın, yaxud ailənin digər üzvlərinin ümumi mülkiyyətini təşkil edirsə, onlardan hər biri torpaq kitabında (ümumi reyestrdə) şərikli mülkiyyətçi sifəti ilə qeydə alınmalıdır.

Üçüncü şəxslərə münasibətlərdə kənd təsərrüfatı adından qalan mülkiyyətçilərin səlahiyyət vermiş olduqları şəriklərdən biri çıxış edir. Həmin şəxs torpaq kitabına (ümumi reyestrə) kənd təsərrüfatının başçısı kimi daxil edilir.

6. Qatışıq fəaliyyətlə məşğul olan hüquqi şəxs gəlirin yarısından çoxunu kənd təsərrüfatı fəaliyyətindən əldə edirsə, torpaq (fermer) təsərrüfatı sayılır.

**Maddə 5. Kənd işçisi anlayışı**

1. Kənd təsərrüfatı ilə məşğul olan, əsas gəliri (bütün gəlirin yarısından çoxunu) həmin fəaliyyətdən əldə edən və torpaq təsərrüfatını müstəqil idarə edən fiziki, yaxud hüquqi şəxs kənd təsərrüfatı torpaq sahəsinin mülkiyyətçisi olub-olmamasından, yaxud həmin sahəni müqavilə üzrə götürüb--götürməməsindən asılı olmayaraq kənd işçisi sayılır.

2. Kənd təsərrüfatı təyinatlı torqpaq ancaq Gürcüstan vətəndaşının mülkiyyətinə verilir. Gürcüstan vətəndaşlığı olmayan şəxsə və xarici dövlətin vətəndaşına kənd təsərrüfatı təyinatlı torpaq ancaq icarəyə verilir.

3. Torpaq kitabında (ümumi reyestrdə) qeydəalma nəticəsində Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən fiziki və hüquqi şəxslərə kənd işçisi statusu verilir.

4. Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin torpaq kitabında (ümumi reyestrində) qeydiyyatın təzələnməməsi əsasında kənd işçisinin statusu ləğv edilir.

5. Kənd işçisi statusunun verilməsi, təzələnməsi və ləğv edilməsi, qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

## II FƏSİL
## KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQLARLA ƏLAQƏDAR MÜNASİBƏTLƏRİN ŞƏXSİ-HÜQUQİ (MÜLKİ-HÜQUQİ) MƏHDUDİYYƏTLƏRİ

**Maddə 6. Kənd təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi hüququ**

1. Gürcüstanda kənd təsərrüfatı tayinatlı torpaqların özgəninkiləşdirilməsinə aid qaydada, habelə xüsusi icazə əsasında ümumi məhdudiyyətlərlə yol verilir.

2. Kənd işçisi statusuna malik olan fiziki və hüquqi şəxslər arasında sövdələşmə bağlanarkən özəlləşdirmə üçun icazə tələb olunmur.

**Maddə 7. Varislik**

1. Kənd təsərrüfatında varislik ailənin sonuncu üzvünün ölümü ilə əlaqədar olaraq açılır.

2. Əgər kənd təsərrüfatı bir nəfər şəxsin mülkiyyətidirsə, sahibkar onu vəsiyyətlə kənd təsərrüfatı torpağının mülkiyyətçisi üçün nəzərdə tutulan şərtləri ödəməli və onun üçün bu qanununla müəyyən edilmiş öhdəlikləri yerinə yetirməli olan digər şəxsə verə bilər.

3. Bu qanunun dördüncü maddəsinin dördüncü bəndində xatırlanan kənd təsərrüfatı mülkiyyətçilərinin biri öldüyü halda miras olan əmlak mərhumun varisinə keçir.

4. Əgər bu maddənin 3-cü bəndində nəzərdə tutulmuş zəminlər mövcud deyildirsə və kənd təsərrüfatı bir nəfər şəxsin mülkiyyətidirsə, onun öldüyü təqdirdə həmin təsərrüfat aşağıdakı növbəliliklə verilir:

Əgər bir neçə varis kənd təsərrüfatını miras kimi almağı arzu edərsə, onlardan aşaığıdakına üstünlük verilir:

a) son beş il ərzində miras verənlə birlikdə torpaq (fermer) təsərrufatını idarə edənə və varislik açılan vaxtda həmin fəaliyyətlə məşğul olmaqda davam edənə;

b) miras verənin sağlığında torpaq (fermer) təsərrüfatını idarə etməmiş, lakin təcrübəsi və təsərrüfatı idarəetmə qabiliyyəti olan şəxsə. Əgər bu cür varislər bir neçə nəfərdirsə, bu halda varislik açılan vaxtda həmin kənd təsərrüfatında yaşayana üstünlük verilir:

2)Miras verənin həyat yoldaşına;

3) Əgər kənd təsərrüfatını valideynlərindən almış, yaxud valideynlərinin hesabına əldə etmişdirsə, miras verənin valideynlərinə;

4) Birinci növbədə varislər üçün nəzərdə tutulmuş qaydada miras verənin bacılarına, qardaşlarına və onlann uşaqlarına.

5. Əgər miras verənin varisləri həddi-buluğa çatmamış oğul (qız) olarsa, o, həddi-buluğa çatanadək təsərrüfatı idarəetmək vəzifəsi onun qəyyumlarına həvalə edilir. Həddi-buluğa

çatdıqdan sonra varis təsərrüfatı müstəqil idarə etmək məsələsini həll edir.

6. Əgər varisliyi xarici dövlətin vətəndaşı, yaxud vətəndaşlığı olmayan şəxs alırsa, miras keçmiş torpaq sahəsini bu qanunda müəyyən edilmiş qaydada onlar özəlləşdirirlər.

7. Varislik açılan vaxtadək torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi icarəyə verilmişdirsə, bu halda təsərrüfatı özü idarə etməyi arzulayan və buna qadir olan varis bir il əvvəl bu barədə icarədarı xəbərdar edə və onun razılığı olduğu təqdirdə icarə haqqında müqaviləni poza bilər.

8. Torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi miras almamış şəxslərin ödənc tələb etmək hüququ vardır. Ödəncin növunü və həcmini qarşılıqlı razılaşma əsasında varislər muəyyən edirlər. Mübahisəli hallarda ödənc haqqında məhkəmə qərar çıxarır.

Ödəncin həcmi müəyyən edilərkən onun kənd təsərrüfatının həyat qabiliyyəti üçün təhlükə törətməməsi vacibdir.

**Maddə 8. Özəlləşdirmənin ümumi məhdudiyyətləri**

Dördüncü bəndində göstərilmiş şəxlərlə birlikdə torpaq təsərrüfatını idarə edən mülkiyyətçi kənd təsərrüfatı torpaq sahəsini və ya torpaq (fermer) təsərrüfatını, yaxud ümumi, mülkiyyətdən öz payını ancaq həmin şəxslərin razılığı ilə özgəninkiləşdirə bilər. Razılıq notarial qaydada təsdiq olunmalıdır. Sahibkar bu cür razılıq ala bilməzsə, məhkəməyə müraciət etınək hüququna malikdir.

**Maddə 9. Müqavilə üzrə girovdan çıxarma hüququ**

Özəlləşdirməni həyata keçirən şəxs torpaq əldə edənin torpağı becərməkdən əl çəkdiyi təqdirdə torpaq sahəsini girovdan çıxarmaq hüququ haqqında torpaq sahəsini əldə edənlə razılığa gələ bilər. Özəlləşdirməni həyata keçirən şəxs öldükdə və torpaq sahəsini almış şəxs torpağı becərməkdən əl çəkdikdə torpaq becərmək arzusunda olan özlləşdirməni həyata keçirmiş şəxsin varisi müstəqil olaraq girovdan çıxarmaq hüququndan istifadə edə bilər.

**Maddə 10. İcarədarın girovdan çıxarmada üstün hüququ**

1.Torpaq (fermer) təsərrüfatının özgəlləşdirilməsi zamanı on il ərzində həmin təsərrüfatı özu idarə etmiş icarədarın girovdan çıxarmada üstün hüququ vardır.

2.Kənd təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsi zamanı icarədar artıq digər torpaq (fermer) təsərrüfatının sahibidirsə, yaxud belə təsərrüfatı idarə edirsə və icarəyə götürdüyü torpaq sahəsi onun təsərrüfatına bitişik ərazidə yerləşirsə, ona üstünlük verilir.

**Maddə 11. Ümumi mülkiyyətdən payı girovdan çıxarmada üstünlük hüququ**

1. Torpaq (fermer) təsərrüfatı üzərində ümumi mülkiyyətdən pay özəlləşdirilərkən təsərrüfatı özu idarə etınək arzusunda olan şərikli mülkiyyətçilərdən hər hansı biri girovdan çıxarmada üstün hüquqa malikdir.

2. Kənd təsərrüfatı torpaq sahəsi üzərində ümumi mülkiyyətdən pay özəlləşdirilərkən torpaq (fermer) təsərrüfatının mülkiyyətçisi olan, yaxud belə təsərrüfatı idarə edən və əldə etdiyi sahə onun təsərrüfatına bitişik ərazidə yerləşən hər bir şərik girovdan çıxarmada üstün hüquqa malikdir.

**Maddə 12. Dövlətin girovdan çıxarmada üstün hüququ**

1. Dövlət Torpaq fondunun vasitəsi ilə yüksək şərt daxilində torpağı satmaq hüququna malikdir.

2. Aşağıdakı hallarda dövlət girovdan çıxarmada üstün hüquqdan istifadə etmir:

a) sahibkarın oğlu (qızı) torpaq (fermer) təsərrüfatını qəbul edib, onu müstəqil idarə etmək arzusunda olduğunu bildirərsə;

b) sahibkar ölmüşdürsə və onun varisi torpaq (fermer) təsərrüfatını müstəqil idarə etmək arzusundadırsa;

j) əgər torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi sahibi tərəfindən dövlət ehtiyacları, yaxud ictimai ehtiyaclar üçün özəlləşdirilmişdirsə və ya məcburi qaydada müsadirə edilmişdirsə.

3. Əgər mülkiyyətçilərin əmək qabiliyyəti olmayan varisləri qalmışlarsa, varisin təsərrüfatı müstəqil surətdə idarə etmək qabiliyyətinə malik olması müəyyən edilənədək girovdan çıxarma hüququndan istifadə etməsinə yol verilmir.

**Maddə 13. Girovdan çıxarmada üstünlük hüququnun müddəti**

Səlahiyyətli şəxsin mülkiyyətçinin təsərrüfatı idarə etməni dayandırdığını bildiyi, yaxud bilməli olduğu gündən sonra bir ay müddətində girovdan çıxarmada üstünlük hüququ ləğv edilir.

**Maddə 14. Özəlləşdirmə zamanı kənd təsərrüfatı təyinatlı torpağın dəyəri**

Kənd təsarrüfatı təyinatlı torpağın qiyməti onun girovdan çıxarma vaxtı rəsmi qeydə alınmış qiymətdən artıq olan, yaxud ona bərabər olan bazar qiyməti ilə müəyyən edilir.

## III FƏSİL
## KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQLARLA ƏLAQƏDAR MÜNASİBƏTLƏRİN İCTİMAI - HÜQUQİ (İNZİBATİ-HÜQUQI) TƏNZİMLƏNMƏSİ

**Maddə 15. Gerçəkliyin tanınması üçün xüsusi icazə lazım olan sövdələşmələr**

1. Kənd təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsi və torpaq sahəsinin müqavilə əsasında digər şəxsə verilməsi üçün aşağıdakı hallarda xüsusi icazə tələb olunur:

a) kənd təsərrüfatı təyinatlı torpaqlardan qeyri-kənd təsərüfatı məqsədləri üçün (məqsədli istifadənin dəyişdirilməsi) istifadə olunduqda;

b) torpaq sahəsi kənd təsərrüfatı üçün istifadə olunmayacaq tikinti zonasına verildikdə.

2. Aşağıdakılar torpaq sahəsinin özəlləşdirməsi və tarazlaşdırılması.

a) torpaq sahəsi üzərində ümumi mülkiyyətin bir hissəsinin başqasına güzəşt edilməsi, yaxud onun özəlləşdirilməsi;

b) torpaq sahəsinin uzufrukt (ömürlük istifadə - red.) hüququ ilə yüklənməsi. Uzufrukt qaydası Gürcüstanın mülki məcəlləsi ilə müəyyən edilir.

3. Özəlləşdirmə məqamının başlanmasının həlledici şərtləri bunlardır:

a) bağlanmış müqaviləyə əsasən mülkiyyətin onu əldə edənə keçməsi;

b)torpaq sahəsinin müsadirə olunmasına başlanması;

v) məqsədli istifadənin dəyişdirilməsi əsasında səlahiyyətli şəxsə torpaqdan qeyri-kənd təsərrüfatı məqsədləri üçün istifadə etməyə icazə verən sövdələşmə, yaxud mülkiyyətçinin sahədən məqsədli istifadə olunmasını dəyişdirməsinə səbəb olan hərəkəti;

q) kənd təsərrüfatı torpaq sahəsinin tikinti zonasına verilməsinə başlanması.

**Maddə 16. Özəlləşdirməyə icazə verən orqan. Ərizə ilə müraciət etmək hüququ olan şəxslər**

1. Məsələnin məhkəməyə aid olmadığı hallarda müvafiq dövlət torpaq xidməti özəlləşdirməyə icazə verilməsi haqqında qərar qəbul edir.

2. Müqavilənin iştirakçısı olan tərəflərin və bu müqavilənin onun xeyrinə bağlanan şəxsin icazə almaq barədə ərizə ilə müraciət etmək hüquqları vardır.

**Maddə 17. İcazə verilməsi haqqında qərar qəbul edilməsi**

1. Ərizə daxil olan gündən sonra bir ay müddətində icazə vermək haqqında qərar qəbul olunmalıdır. Əgər bu qanunun 16-cı maddəsinin 1-ci bəndində xatırladılan orqan həmin müddət ərzində ərizəni yoxlayıb qərar qəbul etməmişdirsə, o, ərizəçiyə bu barədə izahat verməli və müddətin daha bir ay uzadıldığını bildirməlidir.

2. Əgər həmin müddət keçdikdən sonra da icazə verilməsi haqqında qərar qəbul edilməzsə, bu halda icazə verilmiş sayılır və müqavilənin tərəf müqabilləri müqavilədə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirə bilərlər.

3. İcazə verilməsinə rədd cavabı barədə qərar qəbul edilən gündən bir ay müddətində məhkəməyə şikayət etmək olar. Müqavilənin iştirakçısı olan tərəflərin və həmin müqavilənin onun xeyrinə bağlandığı şəxsin şikayət etmək hüququ vardır.

4. Əgər icazə verən orqandan yuxarı orqan verilmiş icazə ilə razı deyildirsə, o da icazəni dəyişdirmək, yaxud ləğv etmək tələbi ilə bir ay müddətində məhkəməyə müraciət edə bilər.

5. Əgər bu maddənin 3-cü və 4-cü bəndlərində xatırladılan şəxslər şikayət etmək hüququndan istifadə etmirlərsə, şikayətdən bir ay keçdikdən sonra qərar qüvvəyə minmiş sayılır.

**Maddə 18. Torpaq kitabında (ümumi reyestrdə) özəlləşdirmənin və icazənin qeydə alınması vəzifəsi**

Özgəninkiləşdirmə üçün əsasa çevrilən sövdələşmə ilə yanaşı, icazə də torpaq kitabına (ümumi reyestrə) daxil edilir.

İcazə torpaq kitabına (ümumi reyestrə) ancaq şikayət müddəti keçdikdən və icazə vermək haqqında qərar qüvvəyə mindikdən sonra yazılır.

Maddə 19. İcazə verilərkən məhdudiyyətlər

1. İcazə verilməsindən aşağıdakı hallarda imtina edilir:

a) əgər ərazi baxımından bir-birilə əlaqəli olan torpaq sahələri özəlləşdirmə nəticəsində ən azı beş hektar azalırsa;

b) sahədən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunmayacaqsa;

2. Qanunla bilavasitə nəzərdə tutulmuş hallar istisna olmaqla kənd təsərrüfatı torpaq sahəsindən qeyri-kənd təsərrüfatı təyinatı üçün istifadə olunması qadağandır.

3. İcazə verilməsinə qadağa aşağıdakı hallarda şamil edilmir;

a) müvafiq dövlət orqanları tərəfindən həyata keçirilən torpaqdan səmərəli istifadəyə şərait yaradıldığı hallarda;

b) müsadirə edildikdə;

j) məcburi icra zamanı.

**Maddə 20. Torpaq becərilməməsinə görə sanksiyalar**

1. İki il dalbadal torpağı becərməyən, torpaqdan istifadəyə görə müəyyən olunmuş vergini ödəmə yən, təsərrüfatı idarə etməyən və bu halda onu digər şəxsə icarəyə verməyən mülkiyyətçi barəsində vergi qanunvericiliyində nəzərdə tutulmuş sanksiyalar tətbiq olunur.

2. Torpaq sahəsi alan şəxsin üzərinə də bu qanunla torpaq təsərrüfatı, yaxud torpaq sahəsi mülkiyyətçisinin üzərinə qoyulmuş təəhhüdlər qoyulur.

**Maddə 21. Sövdələşmələrin mülki və inzibati-hüquqi nəticələri**

1. 19-cu maddənin tələblərinə, yaxud bu qanunda nəzərdə tutulmuş özəlləşdirmə haqqında sövdələşmələrin şərtlərinə cavab verməyən sövdələşmələr etibarsız sayılır.

2. İcazə vermiş orqan, əgər bu icazə torpaq sahəsini əldə edənlər tərəfindən təqdim olunmuş saxta göstəricilər

əsasında verilmişdirsə, özünün verdiyi icazəni ləğv edə bilər.

Əgər torpaq kitabında (ümumi reyestrdə) sövdələşmənin qeyd olunduduğu gündən on il keçmişdirsə, icazə verən orqanın onu ləğv etmək hüququ yoxdur.

3. Əgər torpaq kitabında (ümumi reyestrdə) sonralar etibarsız sayılmış sövdələşmə qeydə alınmışdırsa, icazə verən orqanın torpaq kitabında (ümumi reyestrdə) düzəlişlər olunmasını tələb etmək hüququ vardır. Düzəliş keçirildikdən sonra icazə ləğv edilir.

4. Torpaq (fermer) təsərrüfatından, yaxud kənd təsərrüfatı torpaq sahələrindən müvafiq olaraq girov, yaxud mərc qaydasında istifadə olunması Gürcüstan qanunvericiliyində müəyyən olunmuş qaydalara uyğun olaraq tənzimlənir.

5. Bu qanunla müəyyən edilməmiş qaydalar Gürcüstan mülki məcəlləsi ilə tənzimlənir.

*Gürcüstan prezidenti Eduard Şevardnadze*
*Tbilisi, 22 mart 1996-cı il.*

## "KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQ ÜZƏRİNDƏ MÜLKİYYƏT HAQQINDA" QANUNUN QÜVVƏYƏ MİNMƏSİ BARƏDƏ

Gürcüstan parlamentinin qərarı

Gürcüstan parlamenti QƏRARA ALIR:

1. "Kənd təsərrüfatı təyinatlı torpaq üzərində mülkiyyət haqqında" Gürcüstan qanunun bu qərarın 6-cı bəndində nəzərdə tutulmuş qanun qəbul edildikdən, 10 və 11-ci bəndlərdə nəzərdə tutulmuş tədbirlər həyata keçirildikdən sonra qüvvəyə minsin.

2.Gürcüstan Respublikası Nazirlər Kabinetinin 18 yanvar 1992-ci il tarixli 48 N-li, 6 fevral 1992-ci il tarixli l28 N-li , 10 mart tarixli 290 N-li, 22 sentyabr 1922-ci il tarixli 949 N-li, 16 yanvar 1 993-cü il tarixli 503 N-li, 29 noyabr 1994-cü il tarixli 815 N-li, 10 mart 1995-ci il tarixli 129 N-li qərarlarının, Gürcüstan Respublikası Dövlət Şurasının 21 oktyabr 1992-ci il tarixli dekretinin, Gürcüstan Dövlət başçısının 30 dekabr 1994cü il tarixli 249 N-li sərəncamının, Gürcüstan prezidentinin 22 fevral 1995-ci il tarixli 54 N-li fərmanının, yenə də onun 16 fevral 1 996-cl il tarixli 166 N-li fərmanının tələblərinə müvafıq olaraq Gürcüstan vətəndaşlanna verilmiş həyətbaşı, ailə üçün torpaq sahələri, həmçinin 1992-ci ilədək onların qanuni istifadəsində olan bağ, bostan, yaylaq, məskənsalma sahələri, həyətyanı sahələr onların xüsusi mülkiyyəti elan edilir və onlann barəsində "Kənd təsərrüfatı təyinatlı torpaq üzərində mülkiyyət haqqında" qanun tətbiq olunur.

3. Bu qanunun 2-ci bəndində nəzərdə tutulmuş normativ aktlara müvafıq olaraq həyətlərə (ailələrə) məxsus olan, ancaq müəyyən edilmiş qaydada və ölçüdə sahiblərinə verilməmiş torpaq sahələri bu qanunun qəbul edildiyi tarixdən sonra bir il ərzində pulsuz olaraq mülkiyyətə verilir.

4. Kənd yerlərində yaşayan və tibb, maarif, mədəniyyət sahələrinə daxil olan işçilərin həyətləri (ailələri) kənddə yaşayan və kənd təsərrüfatı ilə məşğul olanlara bərabər tutulur və

imkan daxilində onlara birinci kateqoriya ilə müəyyən edilmiş norma üzrə müvafiq inzibati vahiddə torpaq sahələri ayrılır.

5.Yuxarıda göstərilmiş normativ aktlar pozulmaqla əldə edilmiş (mənimsənilmiş) hər hansı torpaq sahəsinə həmin həyətlərin mülkiyyət hüququ verilmir.

6.İkinci bənddə nəzərdə tutulmuş normativ aktlar müvafiq olaraq kənd təsərrüfatı təyinatlı torpaq sahələri vətəndaşların mülkiyyətinə verildikdən sonra torpaqdan istifadə və qalan kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində mülkiyyət münasibətləri müvafiq qanunla tənzim edilir. Gürcütan parlamentinin aqrar məsələlər komitəsinə tapşınlsın ki, həmin qanun layihəsini 1996-cı il avqustun l-dək parlamentin müzakirəsinə versin.

7. Sərhədyanı, sahilyanı zolaqda və sərhədyanı zonada kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə rejimi xüsusi qanunla müəyyən edilir.

8. Tarix, arxeologiya, şəhər tikintisi və arxitektura, monumental incəsənət abidələrinin mühafizəsinin təmin edilməsi məqsədi ilə müəyyən edilmiş zonalarda, habelə Gürcüstan pravoslav kilsəsinə verilmiş torpaq sahələrində kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə rejimi qanunla tənzim edilir.

9. Gürçüstan ərazisinin bir hissəsinə müvəqqəti olaraq nəzarət edən separatçı qurumlar tərəfindən əldə edilmiş torpaqların hüquq statusu ilə əlaqədar aktlar etibarsızdır.

10. Gürcüstan hökuməti 1996-cı il sentyabnn l-dək bu qanunun icrası üçün vacib olan maliyyə, təşkilati və metodoloji tədbirlərin həyata keçirilməsini təmin edir.

11. Parlamentin tabeliyində olan torpaq fondu yaradılsın.

12. Aqrar məsələlər komitəsinə tapşınlsın ki, 1996-cı il iyunun 1-dək bu qanunun qəbul edilməsi ilə əlaqədar olaraq "Girov haqqında" Gürcüstan Respublikası qanununda edilmiş dəyişiklik və əlavələri Gürcüstan parlamentinin müzakirəsinə versın.

13. Kənd təsərrüfatı təyinatlı torpaqların xüsusi mülkiy-

yətə verilməsi torpaq üzərində mülkiyyətçilərin uçotu və qeydə alınmasına, torpaq kadastrı xidmətinin hazırlığına müvafiq olaraq ayrı-ayrı bölgələr üzrə həm eyni vaxtda, həm də mərhələlərlə həyata keçirilə bilər. Bununla yanaşı, torpaq üzərində mülkiyyəti təsdiq edən sənədin qəbul olunması üçün mülkiyyətçi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş Gürcüstan vətəndaşı bəyannaməsini qəbul etdiyini təsdiqləməkdən ötrü onun altından imza etınəlidir.

*Gürcüstan parlamentinin sədri, Zurab Jvaniya.*
*Tbilisi, 22 mart 1996-cı il.*

## KƏND TƏSƏRRÜFATI TORPAQLARININ İCARƏYƏ VERİLMƏSİ HAQQINDA GÜRCÜSTAN QANUNU

**Maddə 1. Ümumi müddəalar**

1. "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanunu Gürcüstan Respublikasının "İcarə haqqında" qanununa müvafiq olaraq işlənib hazırlanmışdır və kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi qaydasını, müddətini, icarə haqqını, tərəflərin hüquq və vəzifələrini və icarənin digər şərtlərini müəyyən edir.

2. Kənd təsərrüfatı icarəsi qanunvericilikdə nəzərdə tutulmuş məqsədlə təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün müqavilə əsasında kənd təsərrüfatı təyinatlı, yaxud kənd təsərrüfatı təyinatı üzrə istifadə etmək üçün mövcud qaydaya müvafiq olaraq icazə verilmiş torpağa (bundan sonra "kənd təsərrüfatı təyinatlı torpağa") bina və tikililərə, qurğu və dəzgahlara, digər maddi əmlaka müddətli və satınalma yolu ilə sahib olunması və istifadə edilməsi deməkdir. İcarəçi təsərrüfat fəaliyyətini müstəqil surətdə həyata keçirir.

**Maddə 2. Kənd təsərrüfatı üzrə icarə obyektləri**

Kənd təsərrüfatı üzrə icarə obyektləri aşağıdakılardır:

a) kənd təsərrüfatı təyinatlı torpaqlar (əkinəyararlı, çoxillik bitkilərin tutduğu sahələr, becərilən sahələr, təbii biçənək və otlaqlar);

b) mövcud qaydaya müvafiq olaraq kənd təsərrüfatı təyinatı üzrə istifadə olumnuş, yaxud istifadə etməyə icazə verilmiş su fondunun və meşə fondunun torpaqları;

v) bağ, bostan və yaylaq sahələri;

q) mövcud qaydaya müvafiq olaraq kənd təsərrüfatı üzrə istifadə olunmuş, yaxud istifadə oluna bilən sənaye, nəqliyyat, rabitə və digər qeyri kənd təsərrüfatı təyinatlı torpaq sahələri;

d) məqsədli təyinatları hələlik dəyişdirilməmiş və mövcud qaydaya müvafiq olaraq onlardan kənd təsərrüfatı

məqsədi ilə istifadə olunmasına icazə verilmiş kənd, rayon mərkəzi və şəhər hüdudlarındakı torpaq sahələri;

e) kənd təsərrüfatı məqsədi ilə torpaqdan icarə yolu ilə istifadə olunması ilə əlaqədar yaşayış və təsərrüfat bina və tikililəri, qurğu və dəzgahlar, təsərrüfat inventarı və kənd təsərrüfatı məqsədi ilə istifadə oluna bilən digər əmlak.

**Maddə 3. Kənd təsərrüfatının icarə subyektləri**

1. Kənd təsərrüfatının icarə subyektləri aşağıdakılardır :

a) icarədar — kənd təsərrüfatı təyinatlı torpağın mülkiyyətçisi, yaxud ona səlahiyyəti çatan şəxs

b) içarəçi — kənd təsərrüfatı torpağını icarəyə götürən fiziki şəxs, fiziki şəxslər qrupu, yaxud hüquqi şəxs.

2. Şəhər idarəetmə orqanı idarə heyəti ərazisi hüdudlarındakı dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqlann icarəyə verilməsinə səlahiyyəti olan şəxs müvafiq şəhər idarəetmə orqanı, yaxud onun səlahiyyət verdiyi şəxsdir.

3. Şəhər idarəetmə orqanı idarə heyətinin ərazisi hüdudlarından kənarda mövcud olan rayon sərhədlərindəki dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinə səlahiyyəti olan şəxs müvafiq rayon idarəetmə orqanı, yaxud onun səlahiyyət verdiyi şəxsdir.

**Maddə 4. Kənd təsərrüfatı icarəsi müqaviləsi, onun qanuni şəklə salınması və qeydiyyatdan keçirilməsi qaydası**

1. İcarəçi müqavilə əsasında torpaqdan istifadə etmək hüququ qazanır. İcarə müqaviləsi icarədarla icarəçinin icarə münasibətlərini müəyyən edən sənəddir və bu, müəyyən müddətə könüllülük və tərəflərin razılığı əsasında, yazılı formada, bu qanuna və Gürcüstanın digər normativ aktlarına müvafiq olaraq bağlanır.

2. İcarə haqqında müqavilədə aşağıdakılar nəzərdə tutulmalıdır:

Torpaqdan başqa digər icarə əmlakının tərkibi və dəyəri, icarə müddəti, torpaqdan və digər əmlakdan istifadə etmək üçün icarə haqqının həcmi və ödənməsi qaydası, tərəf-

lərin hüquq və vəzifələri, məsuliyyəti, icarə müddəti keçdikdən sonra icarə obyektlərinin geri qaytarılması şərtləri, icarəyə götürülmüş obyektlərin qorunması və onlardan istifadə olunması şərtləri. İcarə münasibətləri başlayanadək və qurtardıqdan sonra tərəflər icarəyə göturülmüş torpağın və digər obyektlərin həcmini və vəziyyətini birlikdə əks etdirir və əmlakın əks edirilməsi protokolunda qeydə alırlar.

3. İcarəyə götürülmüş torpağın planı kənd təsərrüfatı icarəsi müqaviləsinin ayrılmaz hissisidir, onu torpaq ehtiyatlarının və torpaq kadastrının müvafiq rayon (şəhər) xidməti müəyyən edir.

4.Toxumçuluq, tingçilik, cinsçilik, cins-sınaq (heyvandarlıq, quşçuluq, arıçılıq, balıqçılıq), elmi-tədqiqat müəssisələrinin sınaq-seleksiya təsərrüfatları və cins-sınaq stansiyaları, təlim-təcrübə təsərrüfatları və sahələri, iri heyvandarlıq kompleksləri və istixana kombinatları tərəfindən istifadə olunmuş, yaxud istifadə edilməli olan dövlət mülkiyyəti torpaqları həmin strukturlarla razılıq və icazə əsasında icarəyə verilir. Həmçinin dağaran otlaq və biçənəkləri də icazə əsasında icarəyə verilir. Həmin icazəni Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi verir. Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikalarının) Meşə Departamentinin müvafiq yerli xidməti dövlət meşə fondunda mövcud olan biçənək və otlaqlardan icarə yolu ilə istifadə olunmasına icazə verir.

Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqlar ancaq Gürcüstan Dövlət torpaqdan istifadə və mühafizə komissiyasının icazəsi ilə Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi və Meşə Departamenti ilə (meşə fondu torpaqları üzrə) razılıq əsasında 10 ildən artıq müddətə icarəyə verilir.

Aşağıdakı hallarda icazə verən orqanın icarə müqaviləsinin bütünlüklə, yaxud qismən dəyişdirilməsini tələb etmək hüququ vardır:

a) İcarə haqqı mövcud qaydadan yan keçməklə müəyyən edilmişdirsə;

b) torpağın icarəyə verilməsi torpaqdan istifadənin inhisarlaşdırılmasına, parçalanmasına, tam istifadəsinə mane olan şərtlərin ortaya çıxmasına, müəyyən olunmuş istifadə rejiminin pozulmasına səbəb olursa.

İcazə verən orqan torpağın icarəyə verilməsi haqqında sorğunu aldığı gündən sonra bir ay müddətində içarəçiyə məlumat verməlidir. Əgər icazə verən orqan göstərilən müddətdə müqavilənin pozulması, yaxud onda dəyişiklik edilməsi və ya icazə verilməməsi barədə icarəçinin qarşısında tələb qoymamışdırsa, icazə verilmiş sayılır. Həmçinin icazə verilməsinə görə məsuliyyət bütünlüklə bu orqanın üzərinə qoyulur. İcazə verilməsi qaydasının pozulması ilə əlaqədar mübahisəli məsələlər mövcud ümumi qaydalara müvafiq olaraq həll edilməlidir.

Bu bənddə göstərilmiş hallarda icazə icarə müqaviləsinin qeydiyyatdan keçirilməsi (yaxud reyestrə daxil edilməsi) üçün əsasdır; bütün digər hallarda icarə müqaviləsinin qeydiyyatdan keçirilməsi üçün icazə tələb olunmur.

Notarial qaydada təsdiq edilmiş kənd təsərrüfatı icarəsi müqaviləsi müvafiq şəhər və rayon torpaq ehtiyatları və torpaq kadastrı xidmətləri tərəfindən qeydə alınır. Əgər müqavilədə hazırkı vəziyyət nəzərə alınmamışdırsa, müqavilə qeydiyyat günündən qüvvəyə minir.

5. Kənd təsərrüfatı icarəsinin müddəti icarədarla icarəçinin razılığı əsasında və bu qanunun tələbinə müvafiq olaraq müəyyən edilir; icarə müddəti icarə müqaviləsində qeyd edilməlidir.

Kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinin əsaslandırılmış layihələri olduqda və onların həyata keçirilməsi nəticəsində nəzərə çarpaçaq nəticələr gözləndikdə və tərəflər icarənin müddətləri barədə razılığa gələ bilmədikdə torpaqların icarəyə verilməsi müddətlərini icarəyə icazə verən mərkəzi orqan müəyyən edir.

6. Kənd təsərrüfatı icarəsi müqaviləsi Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin təsdiq etdiyi forma üzrə bağlanılır.

7. Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaq aşağıdakı qaydada icarəyə verilir:

Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpağı icarəyə götürmək arzusunda olan fiziki və hüquqi şəxs bu qanunun 3-cü maddəsinin 2-ci və 3-cü bəndlərində göstərilmiş, nəzdində Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin, Dövlət Torpaq Ehtiyatları Torpaq Kadastrı Departamentinin, dövlət əmlakının idarə edilməsi, maliyyə və hüquq xidmətlərinin nümayəndələrindən ibarət ərizələrə baxan daimi fəaliyyət göstərən komissiya yaradılmış orqana ərizə ilə müraciət edirlər. Hər bir konkret halda olduğu kəndin (kəndlərin) nümayəndələri komissiya tərkibinə daxil edilir.

Komissiya icarəyə verilən əmlak haqqında məlumatların dərc olunmasını təşkil edir, ərizələri qəbul edib, qeydiyyatdan keçirir, ərizələrinin baxılmağa qəbul edilib-edilməməsi barədə ərizəçilərə yazılı şəkildə məlumat verir.

Komissiyanın hər üzvünün bir səs hüququ vardır.

Əgər komissiya üzvlərinin əksəriyyəti iştirak edirsə, komissiyanın iclası səlahiyyətlidir.

Mübahisəli məsələlər üzrə qərarlar iclasda iştirak edən komissiya üzvlərinin qərarının çoxluğu ilə qəbul edilir. Səslərin yan bölündüyü halda komissiya sədrinin səsi həlledicidir. Komissiya qərarı barədə protokol tərtib edilir və komissiyanın bütün üzvləri tərəfindən imzalanır. Komissiyanın qərarı rayon idarə heyəti tərəfindən təsdiq olunur.

Məlumat dərc edildikdən sonra komissiya əlaqədar olan bütün fiziki və hüquqi şəxslərə icarəyə verilən obyektlər əvvəlcədən tanış olmağa imkan verir.

Ərizələrin qəbulu komissiyanın iclasından üç gün əvvəl dayandırılır.

Komissiya ərizə daxil olduğu gündən sonra bir ay müddətində ərizəçiyə cavab verilməlidir.

8. Əgər torpağın icarəyə götürülməsi haqqında bir nəfərdən artıq adam muraciət edirsə və icarəçini müəyyən etmək mümkün deyilsə, 4-cü maddənin 7-ci bəndində göstərilən komissiya icarayə verməni müsabiqə qaydasında həyata keçirilir.

Müsabiqənin keçirilməsi qaydaları Gürcüstan parlamentinin "Dövlət əmlakının icarəyə verilməsi barədə əsasnamənin təsdiq olunması haqqında" 1994-cü il 20 sentyabr tarixli qararı ilə təsdiq olunmuş əsasnamənin 7-ci və 8-ci bəndləri ilə tənzimlənir.

**Maddə 5. Kənd təsərrüfatı icarə haqqı və onun ödənilməsi qaydası**

1.icarəçi icarəyə götürdüyü torpaqdan və digər əmlakdan istifadəyə görə kənd təsərrüfatı icarə haqqı verir.

2. Kənd təsərrüfatı icarə haqqına torpağın icarəsinə görə ödənc və icarəyə verilmiş digər maddi əmlaka görə ödənc daxildir. Torpaqdan başqa digər əmlaka görə icarə haqqı icarə müqaviləsində ayrıca sətirlə göstərilir.

3. icarəyə götürülmüş sahədə olan faydalı qazıntılardan, yeraltı sulardan, çoxillik bitkilərdən və orada mövcud olan digər maddi əmlakdan istifadəyə görə ödənc (yaxud amortizasiya ayırmaları) kənd təsərrüfatı torpaqlarının icarəsinə görə ödəncə daxil deyildir. Torpağa görə icarə haqqı icarə müqaviləsində ayrıca sətirlə göstərilir.

4. icarə haqqının həcmi icarə müqaviləsi ilə müəyyən edilir. Bundan əlavə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsinə görə illik ödənc həmin torpaqlardan istifadəyə görə mövcud qayda üzrə müəyyən edilmiş vergi sayılır.

5. Tərəflərin razılığı ilə kənd təsərrüfatı icarə haqqı dəyişdirilə bilər. Tərəflərdən biri kənd təsərrüfatı torpaqlarından və amortizasiya normalarından istifədəyə görə gəlir normalarını, dövlət tərəfindən tənzim olunan qiymət və tarifləri, habelə Gürcüstan qanunvericiliyində nəzərdə tutulmuş digər

halların dəyişdirildiyi təqdirdə icarə haqqının həcminin dəyişdirilməsini tələb etınək hüququna malikdir.

Əgər kənd təsərrüfatı icarəsi haqqında müqavilə bağlandıqdan sonra müqavilədə nəzərdə tutulmuş təəhhüdlərə mane olan təəhhüdlər qarşıya çıxarsa, əlaqədar tərəf müqavilədə dəyişikliklər edilməsini tələb etınək hüququna malikdir. Bu qayda icarə müqaviləsnin müddətinə şamil edilmir.

6.İcarə haqqının verilməsi əgər mövcud icarə qanunvericiliyində və müqavilədə başqa bir şey nəzərdə tutulmamışdırsa, icarəçi Gürcüstan qanunvericiliyində nəzərdə tutulmuş digər vergilərdən azad edilmir.

7. İcarə haqqının ödənilməsinin müddəti və qaydası icarə müqaviləsi ilə müəyyən edilir.

8. İcarə obyektlərinin siyahıya alınması və icarəyə verilən sahələrin planının tərtib edilməsi, notariusun təsdiqi və icarə müqaviləsinin qeydə alınması üzrə xərcləri icarəçi çəkir.

**Maddə 6. Əmlakın icarəyə verilməsi**

İcarədar icarə obyektlərini icarəçiyə sahələrin planına, protokolda qeydə alınmış əmlakın siyahıya alınmasının vəziyyəti və miqdarına müvafiq olaraq təhvil verməyə borcludur. İcarəyə verilən obyektlər icarəçiyə icarə müqaviləsinin qeydə alındığı gündən etibarən tərəflər arasında razılaşdırılmış müddətə verilir. Bu qaydanın pozulduğu təqdirdə icarəçi icarə obyektlərinin ona verilməsini və onları vaxtında almaması nəticəsində çəkdiyi zərərin ödənilməsini, yaxud müqavilənin şərtlərinin yerinə yetirilməməsinə görə müqaviləni pozmaq və zərərin ödənilməsini tələb etmək hüququna malikdir. Fikir ayrılığının baş verdiyi halda mübahisə ümumi qaydalara müvafiq olaraq həll edilir.

İcarədar icarəyə verilmiş obyektlərin siyahıya alınması protokolunda qeyd edilmiş, yaxud icarədardan asılı olmayaraq vurulmuş zərərə görə məsuliyyət daşımır.

**Maddə 7. İcarəyə verilmiş obyektlərin vasitəli icarəyə verilməsi**

1.Vasitəli icarə dövlət mülkiyyətində olan kənd təsər-

rüfatı təyinatlı torpağa şamil edilmir.

2.Əgər mövcud qanunvericilikdə, yaxud icarə müqavilәsində başqa bir şey nəzərdə tutulmamışdırsa, icarəçinin torpaqdan başqa icarəyə götürdüyü digər obyekti, yaxud onun bir hissəsini icarədarın icazəsi ilə vasitəli icarəyə vermək hüququna malikdir. Bu zaman icarə müqaviləsinə əsasən icarəçinin icarədar qarşısında məsuliyyəti dəyişilməz qalır.

İcarəçinin icarəyə götürdüyü sahədə onun mülkiyyəti olan bina və qurğuları icarəyə vermək hüququ vardır.

**Maddə 8. İcarəyə götürülmüş obyektlərdən istifadə olunması və onların saxlanması**

1. İcarədar təyinatına və müqaviləyə müvafiq olaraq kənd təsərrüfatı təyinatlı torpaqdan istifadə etməyə, icarəyə götürülmüş obyektlərə qulluq göstərilməsinin təmin olunmasına borcludur. İcarəçi icarə müqaviləsinə müvafiq olaraq öz fəaliyyətinin istiqamətini müstəqil olaraq müəyyən edir və özünün istehsal etdiyi məhsula, əldə etdiyi gəlirə sərəncam verir.

2. Əgər mövcud qanunvericilikdə və icarə müqaviləsində başqa şey nəzərdə tutulmamışdırsa, icarəçi icarəyə verilmiş bina və qurğuları, avadanlıq və dəzgahları, digər maddi vasitələri öz hesabına təmir etməyə səlahiyyətlidir. İcarəçinin icarə obyektlərini təmir etınək haqqında təəhhüdü icarə müqaviləsində əks etdirilir. İcarəçi müqavilədə nəzərdə tutulmuş, yaxud icarədarla razılaşdırılmış icbari təmiri həyata keçirmək və icarədardan bu zaman çəkilmiş xərclərin ödənilməsini, yaxud onların icarə hesabına ödənilməsini tələb etmək hüququna malikdir.

3. İcarədar icarəyə verilmiş obyekti nəzərdən keçirmək hüququna malikdir, bu barədə icarəçiyə əvvəlcədən xəbərdarlıq edilməlidir.

4. İcarəçi icarədarın razılığı ilə icarə müddəti ərzində öz səlahiyyətlərini arvadına, yaxud həddi-buluğa çatmış oğluna (qızına) vermək hüququna malikdir.

5. İcarəyə verilən torpağın, habelə yolların, arxların,

suvarma kanallarının və hasarların (əgər bu təbii hadisələrin nəticəsi deyildirsə) təsərrüfatda istifadə üçün yararsız hala salındığı zaman icarəçi müqavilə müddəti keçənədək öz vəsaiti ilə zədələnməni aradan qaldırmağa və yaxud icarədarın zərərini ödəməyə borcludur.

**Maddə 9. İcarə obyektləri üzərində mülkiyyət**

1. İcarəyə verilmiş torpaq sahəsi icarədarın mülkiyyəti olaraq qalır.

2. İcarəyə götürülmüş obyektdən istifadə olunarkən yaradılmış məhsul və gəlir, habelə icarə müqaviləsində digər bir şey nəzərdə tutulmamışdırsa bu gəlirin hesabına əldə edilmiş əmlak icarəçiyə məxsusdur.

3. İcarədarın razılığı ilə icarəçinin girov qoyduğu, smetaya müvafiq olaraq icarəyə verilmiş sahədəki çoxillik bitkilər, habelə tikilmiş binalar və qurğular icarə müqaviləsində başqa şey nəzərdə tutulmadığı təqdirdə icarədara məxsusdur. Müqavilənin fəaliyyəti dayandırıldıqdan sonra icarəçi çoxillik bitkilərin, bina və qurğuların qalıq dəyərinin ödənilməsini təmin etmək hüququna malikdir.

İcarəyə götürülmüş sahədə icarədarın razılığı olmadan girov qoyulmuş çoxillik bitkilər, icarəçinin tikdiyi bina və qurğular icarədara məxsusdur.

4. İcarəyə götürülmüş obyektlərə zərər vurmadan ayrıla bilən öz təkmilləşdirmə vasitələri ilə həyata keçirilmiş bütün işlər icarəçinin mülkiyyətidir. Əgər icarəçi icarədarın razılığı ilə təkmilləşdirmə vasitələri hesabına icarəyə verilmiş obyektlər üçün zərər verməyən işlər görmüşdürsə, icarədar müqavilə müddəti keçdikdən sonra ayrılmaz təkmilləşdirmələrin dəyərini icarəçiyə ödəməlidir. İcarəçinin icarədarın razılığı olmadan həyata keçirdiyi ayrılmaz təkmilləşdirmələrin dəyəri isə ödənilmir.

**Maddə 10. İcarəyə götürülmüş obyektlərin girovdan çıxarılması**

1.Torpaqdan başqa digər obyektlərin tam, yaxud qismən girovdan çıxarılmasına qanunvericilikdə nəzərdə tutulmuş qa-

dağa icarə müqaviləsində əks etdirilir.

2.Digər kənd təsərrüfatı obyektlərinin satıldığı təqdirdə icarəçi onları girovdan çıxarmaq üçün üstün hüquqa malikdir; fiziki şəxs — icarəçi həmin hüququ həddi-buluğa çatmış uşaqlarına və arvadına verə bilər. Əgər icarə obyektləri icarədarın uşaqlarının və arvadının xeyrinə özəlləşdirilirsə, yaxud dövlət və ya ictimai məqsədlər üçün onların məcburi özəlləşdirilməsinə yol verilirsə, girovdan çıxarmaq üçün üstünlük hüququ mövcud deyildir.

**Maddə 11. İcarə müqaviləsinin təzələnməsi, dəyişdirilməsi, fəaliyyətinin dayandırılması və pozulması**

1. İcarə müqaviləsinin müddəti keçdikdən sonra tərəflər onun təsir müddətini davam etdirmək hüququna malikdirlər.

Müqavilə təzələnərkən tərəflərin razılığı ilə müqavilənin şərtləri dəyişdirilə bilər.

Mövcud qanunvericilikdə, yaxud müqavilədə nəzərdə tutulmuş hallarda tərəflərdən birinin tələbi ilə müqavilədə nəzərdə tutulmuş şərtlər dəyişdirilə bilər.

2. Əgər icarə müqaviləsi müddəti keçdikdən sonra tərəflərdən heç biri müqavilənin təsirinin dayandınrılması, yaxud şərtlərinin dəyişdirilməsi barədə ərizə verməzsə, bu həmin müddətə və həmin şərtlərlə uzadılmış sayılır. Əgər torpaq sahəsi, yaxud kənd təsərrüfatı istifadə üçün yararsızdırsa, icarə müqaviləsinin təsiri dayandırılmış sayılır. İcarəyə götürülmüş sahə mövcud qaydaya müvafiq olaraq müsadirə olunub dövlət ehtiyacları, yaxud ictimai ehtiyaclar üçün verilmişdirsə, habelə əgər icarədar icarəyə verilmiş sahə hüdudlarında icazəsi olmadan yerin təkindən istifadə etməyə başlamışdırsa, yaxud burada mühüm qazıntı ehtiyatları kəşf edilmiş, nadir arxeoloji abidə aşkara çıxarılmışdırsa, icarə müqaviləsinin təsiri dayandırılmış sayılır.

3. Tərəflərin razılığı ilə icarə haqqında müqavilə vaxtından əvvəl pozula bilər. Yalnız mövcud qanunvericiliyə müvafiq olaraq, yaxud müqavilədə nəzərdə tutulmuş hallarda tərəflərdən birinin tələbi ilə icarə haqqında müqavilənin

vaxtından əvvəl pozulmasına yol verilir.

İcarəçinin müflisləşdiyi təqdirdə onun əmlakını satan şəxs əvvəlcədən icarə müqaviləsinin pozulmasını tələb etməyə borcludur.

Əgər icarəçi:

a) icarəyə götürdüyü obyektlərdən təyinatı üzrə istifadə etmir və müqavilənin şərtlərini pozursa;

b)qəsdən, yaxud səhlənkarlığı üzündən icarəyə götürdüyü obyektlərin vəziyyətini pisləşdirirsə;

c) ödənc müddəti keçdikdən sonra üç ay ərzində icarə haqqını ödəmirsə; əgər icarə haqqının verilməsi müddəti müqavilədə müəyyən edilməmişdirsə, təsərrüfat ilinin sonu onun ödənilməsi müddəti sayılır;

ç) icarə müqaviləsində onun vəzifəsinə daxil edilən icarə obyektlərini təmir etmirsə, icarədar müqavilənin vaxtından əvvəl pozulmasını tələb etmək hüququna malikdir.

Aşağıdakı hallarda icarəçinin müqavilənin vaxtından əvvəl pozulmasını tələb etmək hüququ vardır:

a) əgər icarədar icarə obyektlərinin təmiri, icarəçinin maddi ehtiyatla və xidmətlə təmin edilməsi üzrə müqavilədə nəzərdə tutulmuş təəhhüdləri yerinə yetirmirsə;

b) icarəyə göturülmüş torpaq sahəsi və digər icarə obyektləri icarəçinin məsuliyyət daşımadığı vəziyyətə görə istifadəyə yararsız olarsa;

c) icarəçi əlil olmuş, əmək qabiliyyətini itirmiş, yaxud törətdiyi cinayətə görə azadlıqdan məhrum olunmuş, onun barəsində digər cəza tədbiri görülmüş və buna görə icarə müqaviləsinin şərtlərini yerinə yetirə bilmirsə. Bu təqdirdə icarəçi ilə birlikdə yaşayan, yaxud onunla birlikdə işləyən onun ailə üzvləri yeni icarə müqaviləsi bağlamaqda üstün hüquqa malikdirlər.

İcarə müqaviləsinin təzələnməsi, dəyişdirilməsi, müqavilənin təsirinin dayandınlması və pozulması, yazılı formada həyata keçirilir.

4. İcarə müddəti keçənədək icarəyə verilmiş torpağı və

digər icarə obyektlərini başqa şəxsə vermək arzusunda olan icarədar bu barədə bir il əvvəl, yaxud tərəflərin razılığa gəldiyi müqavilədəki müddətdə icarəçiyə məlumat verməyə borcludur.

Həmin bənddə göstərilmiş dəyişikliklər ancaq vacib şəraitdə — icarəçinin razılığı və tərəflərin son qarşılıqlı haqq-hesabının çəkildiyi zaman həyata keçirilə bilər.

5. İcarəyə verilmiş qeyri-kənd təsərrüfatı təyinatlı sahənin başqasına verildiyi, yaxud onun dövlət ehtiyacları və ictimai ehtiyaclar üçün məcburi surətdə özəlləşdirildiyi təqdirdə icarəçi müqavilənin təsirinin dayandırılması nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

**Maddə 12. Mülkiyyətçinin əvəz edildiyi, yaxud icarəçinin öldüyü təqdirdə icarə müqaviləsinin təsiri**

l.Torpaqdan başqa digər icarə obyektlərinin icarəçidən özgə şəxsin mülkiyyətinə keçməsi hüququ, habelə torpaq üzərində mülkiyyətçi olan fiziki şəxsin, yaxud torpağı icarəyə verməyə səlahiyyət qazanmış şəxsin hüququ icarə müqaviləsi şərtlərinin, dəyişdirilməsi, yaxud onun pozulması üçün əsas deyildir. Mülkiyyətçinin səlahiyyət verdiyi hüquqi şəxsin - icarədarın yenidən qurulduğu, yaxud ləğv edildiyi təqdirdə mövcud qanunvericilikdə başqa şey nəzərdə tutulmamışdırsa, onun hüquq və vəzifələri hüquqi varisinə keçir.

2.İcarəçinin öldüyü təqdirdə icarə müqaviləsində nəzərdə tutulmuş varisin icarəçi olmağa razılıq verdiyi və icarə müqaviləsində başqa bir şey nəzərdə tutulmadığı hallarda onun varisinə keçir. İcarədar müqavilənin bağlanmasının icarəçinin fərdi keyfiyyətləri ilə əlaqədar olduğu və icarə müqaviləsində əks etdirildiyi hallardan başqa bu cür şəxsə müqavilədə nəzərdə tutulmuş hüquq və vəzifələr verməkdən imtina etmək hüququna malik deyildir.

**Maddə 13. Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpağın icarəyə götürülməsi zamanı üstünlüklər və məhdudiyyətlər.**

1. Dövlət mülkiyyətində olan kənd təsərrüfatı torpaq-

larının icarədə istifadə etmək üçün alınması müsabiqəsində iştirak edərkən aşağıdakılar eyni şərtlərlə üstünlüklərə malikdirlər:

a) kənd, rayon (şəhər) ərazisində yerləşən və "İnhisarçılar haqqında" Gürcüstan qanunu ilə icazə verilmiş kənd təsərrüfatı müəssisələri yaratmaq məqsədi güdən kənd təsərrüfatı müəssisələri, yaxud fiziki şəxslər;

b) sosial-iqtisadi səmərəyə nail olunması, yaxud mədəni floranın yerli (milli) genefondunun saxlanılması, qabaqcıl istehsalat texnologiyasının tətbiqi, aqrotexniki tədbirlərin səmərəli surətdə həyata keçirilməsi üçün əlverişli şəraitin nəzərdə tutulduğu torpağın icarəsi haqqında müqavilə layihəsi;

j) icarəyə verilmiş torpaqdan istifadə edənlər - kooperativ, yaxud dövlət kənd təsərrüfatı və ya "İnhisarçılar haqqında" Gürcüstan qanunu ilə icazə verilmiş kənd təsərrüfatı müəssisələri yaratmaq məqsədi güdən qeyri kənd təsərrüfatı müəssisələri, təşkilatları və idarələri;

ç) təbii fəlakətə və digər səbəblərə görə yığcam məskunlaşmış şəxslərin həyati (təsərrüfat).

2. İcarəyə verilmiş torpaq sahəsində yerləşən binalar və kənd təsərrüfatı təyinatlı qurğular icarəyə verilərkən torpaqdan istifadə edənə və icarəçiyə üstünlük hüququ verilir.

3. İcarəyə verərkən torpaq sahələrinin mexanikləşdirmədən səmərəli istifadə edilməsinə və aqrotexniki tədbirlərin səmərəli surətdə həyata keçirilməsinə maneələr törətməyə qadir olan torpaq sahələrinin parçalanması qadağandır.

4. Faydalı qazıntıların və mühafizə olunan ərazilərin istifadəsiz qalması hüdudlarında nadir arxeoloji və tarixi abidələrin olduğu torpaqlar Gürcüstan Ətraf Mühitin və Təbii Ehtiyatların Mühafizəsi Nazirliyinin, Dövlət Geologiya Departamentinin, Gürcüstan EA Arxeoloji Tədqiqatlar Mərkəzinin və Abidələrin Mühafizəsi üzrə Baş İdarəsinin razılığı ilə icarəyə verilir.

**Maddə 14. İcarə obyektlərinin icarədara qaytarılması**

İcarə müqaviləsinin müddəti qurtardıqda icarəçi obyekt-

ləri icarədara müqavilədə nəzərdə tutulmuş vəziyyətdə qaytarmağa borcludur.

İcarəçi icarəyə götürdüyü torpağa və digər obyektlərə vurulmuş zərəri mövcud qanunvericiliyə müvafiq olaraq icarədara ödəməlidir.

Əgər icarəçi icarə münasibətləri başa çatdıqdan sonra icarəyə götürdüyü obyektləri qaytarmazsa, icarədar icarə obyektlərinin qaytarılmasının ləngidilməsinə görə təyin edilmiş icarə haqqının ödənilməsini, habelə icarəçinin həmin müddət ərzində, yaxud icarəyə götürdüyü bütün il ərzində əldə etdiyi səmərəyə görə icarə haqqı verməsini tələb edə bilər. İcarədar digər zərərlərin ödənilməsini də tələb edə bilər.

**Maddə 15. İcarə dövründə baş verən mübahisəli məsələlərə baxılması**

İcarə dövründə müqavilənin yerinə yetirilməsi, şərtlərin dəyişdirilməsi, yaxud onun ləğv edilməsi üzrə icarədarla icarəçi arasındakı mübahisəli məsələlərə məhkəmə tərəfindən baxılır və həll edilir.

**Maddə 16. İcarəçinin əmlak hüququnun müdafiəsi**

İcarəçinin icarəyə götürdüyü obyektlər üzərində hüququ qanunla müdafiə edilir.

Tərəflər icarə münasibətləri dövrunda icarə obyektlərinə vurulan zərəri icarə müqaviləsinə və mövcud qanunvericiliyə müvafiq olaraq ödəyirlər.

*Gürcüstan prezidenti Eduard Şevardnadze*
*Tbilisi,* 28 *iyun 1996-cı il.*

## "KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAGIN İCARƏYƏ VERİLMƏSI HAQQINDA" GÜRCÜSTAN QANUNU BARƏDƏ GÜRCÜSTAN PARLAMENTİNİN QƏRARI

Gürcüstan parlamenti QƏRARA ALIR:

1) "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanunu dərc olunduğu vaxtdan qüvvəyə minsin.

2) "Respublikanın kənd təsərrufatında icarə münasibətləri haqqında" əsasnamə Gürcüstan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 1991-ci il tarixli, 22 nömrəli qərarına əsasən bağlanmış kənd təsərrüfatı icarəsi müqavilələri 1996-cı il dekabnn 31-dək "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gurcüstan qanununa müvafiq vəziyyətə salınsın, 1997-ci il yanvarın l-dən bu qanuna uyğun olmayan müqavilələr ləğv edilsin.

3) Yerli idarəetmə orqanları Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi ilə birlikdə "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanununa müvafiq olaraq kənd təsərrüfatı icarəsi muqavilələrinin qeydiyyatdan keçirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsini təmin etsin.

4) Gürcüstan ərazisinin bir qisminə müvəqqəti olaraq nəzarət edən separatçı qurumlar tərəfindən ələ keçirilmiş torpağın hüquq statusu ilə əlaqədar aktlar qüvvəsini itirmiş hesab edilsin.

5) Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsinin maksimum müddəti 49 təqvim ili müəyyən edilmişdir.

6) Bir hüquqi, yaxud fiziki şəxs tərəfindən icarəyə götürülmüş kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin hüdudlarını

və rayonlar arasında kənd təsərrüfatı təyinatlı torpağı, o cümlədən qış və yay otlaqlarından istifadə məsələlərini Gürcüstan icra hakimiyyəti müəyyənləşdirir və tənzimləyir.

*Gürcüstan parlamentinin sədri Zurab Jvaniya*
*Tbilisi,* 28 *iyul 1996-cı iL.*

# "DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**09.06.1999-cu il**

Gürcüstan parlamenti qərara alır:

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri 1 007, 30.04.96,səh.16 ) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.3-cü maddəyə sonrakı məzmunda 3-cü və 5-ci bəndlər əlavə edilsin:

"3.Yüksək dağlıq regionlarda torpaq xüsusi, icma və dövlət mülkiyyəti ola bilər.

4. Yüksək dağlıq regionlarının hələ də icma ənənələri olan kəndlərində otaracaqlardan istifadədə icma qaydaları fəaliyyət göstərir.

5.Yüksək dağlıq regionlarındakı otaracaqlar ümumu kənd və icma mülkiyyəti hesab olunur. Kəndlər arasında otaracaqların sərhədləri ənənəvi qaydada müəyən olunmuş hüdudlarla, bir-biri ilə sərhəd olan kəndlərin kənd məclislərinin razılaşdınlması əsasında müəyyən edilir. Razılaşma olmadığı təqdirdə mövcud mübahisə məhkəmə yolu ilə həll edilir. Biçənəklər icma mülkiyyətidir, ondan icmanın razılığına əsasən bölməklə istifadə edilir."

2. 5-ci maddəyə sonrakı məzmunda 6-cı, 7 -ci bəndlər əlavə edilsin:

"6.Kənddə keçmişdə daimi yaşamış şəxslərdən arzu edənlər və ya icma ona kəndə geri qayıtmaq imkanı verərsə, kənd-təsərrüfatı təyinatlı torpaqdan və biçin sahələrindən ayıra bilər. Boşalmış kəndlərə əhalinin məskunlaşması məsələsi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada birgəya-

şayış məntəqəsi və kənd özünüidarəetmə orqanı yaradılmaqla gerçəkləşdirilir.

7. Kənd məclisi yeni məskunlaşdırılanları yerli büdcədən və fonddan maliyyələşdirir, təbii resursların istismarından, otaracaqların icarəsindən, başqa-başqa istehsal fəaliyyəti ilə, büdcə və qeyri-büdcə vəsaitlərindən istifadə edirlər."

3. 6-ci maddəyə sonrakı məzmunda 3 -cü, 4-cü bəndlər əlavə edilsin:

"3. Dedopliscğaro və Marneuli rayonlarının ərazilərindəki qış otaracaqlarının müəyyən edilmiş sahələri daimi istifadə üçün Axmeta, Tianeti, Duşeti və Kazbeki rayonlarına verilir. Müvafiq olaraq Axmeta, Tianeti, Duşeti, Kazbeki rayonlarının yüksək dağlıq regionları daimi olaraq yay otaracağı kimi Dedopliscğaro, Marneuli və Zalqa rayonlarına verilitr.

4. Yüksək dağlıq regionlarda mövcud olan erroziyalı torpaqların qorunması üçün dövlət məqsədyönlü razılıq verir.

4. Bu qanunun birinci maddəsinin birinci və 2-ci bəndləri Gürcüstan kənd-təsərrüfatı təyinatlı torpaqlar haqqında qanunvericiliyinə müvafiq olaraq icarəyə və xüsusi mülkiyyətə verilmiş torpaq sahalərinə şamil olunmur.

11. Bu qanun 1 yanvar 2000-ci ildən qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Eduard Şevardnadze*
*Tbilisi, 09 iyun 1999-cu il*

# "DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN OZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**14.06.2000-ci il**

Gürcüstan parlamenti qərara alır:

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri l 007, 30.04. 1996-cı il) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.1-ci maddənin 2-ci bəndinin "A" yarımbəndindəki "və dədə-baba təsərrüfatları" sözü götürülsün.

2.2-cü maddənin 2-ci bəndinin "A" yarımbəndi " dədə-babaya aid təsərrüfat" sözü "kənd təsərrüfatı ərzaqının istehsalı və ictimai reyestrdə kənd-təsərrüfatı torpaq sahəsi kimi qeydiy-yatdan keçirilsin" sözü ilə əvəz edilsin.

3.3-ci maddənin l-ci bəndindəki "yerli icma kitabında (ictimai reyestrdə)" sözü "ictimai reyestrdə" sözü ilə əvəz-lənsin.

4. 4-cı bənd sonrakı redaksiyada verilsin:

"Maddə 4.Kənd-təsərrüfatı təyinatlı torpağın mülkiyyə-tə verilməsi

1. Kənd təsərrüfatı təyinatlı torpaq mülkiyyətə yalnız Gürcüstan vətəndaşına və Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsə verilə bilər.

2. Kənd təsərrüfatı təyinatlı torpaq mülkiyyəti hüquqi-fiziki şəxsə, icmanın və Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsə verilə bilər.

5.3-cü maddənin 3-cü, 5-ci bəndləri 4-cü maddənin 3-cü, 5-ci bəndlərinə sayılsın, ancaq 5-ci maddənin 6-cı və 7 -ci

bəndləri 4-cü maddənin 6-cı və 7-ci bəndlərinə sayılsın.

6.5-ci bəndin l-ci, 2-ci və 5-ci bəndləri çıxarılsın.

7.6-cı maddənin:

a) Birinci bəndindən "xüsusi icazə əsasında verilmiş" sözü çıxarılsın.

b) 2-ci bənd çıxarılsın.

8. 8-ci bənd sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmədə xüsusi məhdudiyyət və ümumi mülkiyyət payının üstün satış hüququ

Xüsusi mülkiyyətdə olan kənd-təsərrüfatı təyinatlı torpağın hər bir həmpayı öz payına görə sərəncam verə bilsin, ancaq torpaqdan istifadə sərəncamında başqalarının fikrini bölüşsün və bu qərar birgə olsun. Pay satışa çıxarılanda onun başqası tərəfindən alınmaq hüququ var.

9.9-cu, l1-ci, 12-ci, 14-cü, 18-ci maddələr çıxarılsın.

10.10-cu maddədə:

a)Birinci maddə çıxarılsın;

b) 2-ci bənd sonrakı redaksiyada verilsin:

"2. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin özəlləşməsində icarədarın onu almaqda üstün hüququ var."

11. 13-cü maddənin başlığındakı və mətndəki "satış üçün" sözü "satış", "bir ay müddətinə" sözü isə "iki həftə" sözü ilə əvəzlənsin.

12. 19-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 19.Kənd-təsərrüfatı təyinatlı torpaqlardan istifadədə və özəlləşdirmədəki qadağalar

Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin qeyri-təsərrüfat təyinatı, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dəyişdirilə bilməz.

13.20-ci maddənin 2-ci bəndi çıxarılsın.

14.21-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 21. Hüquqi məhkəmənin nəticəsində sazişə gəlmək

1. Bu qanunun tələblərinə uyğun gəlməyən saziş olmuş sayılır.

2.Bu qanunla nəzərdə tutulan əlaqələr Gürcüstan Mülki Kodeksi ilə tənzimlənir."

15.22-ci maddədə "5-ci" sözü "4-cü" sözü ilə əvəz edilsin.

11. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Eduard Şevardnadze*
*Tbilisi,* 14 *iyun 2000-ci il*

# "DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**20.06.2003-cı il**

Maddə l. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri 1 007, 30.04.96, səh.l 6) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.4-cü bənd:

a) Birinci bənd sonrakı redaksiyada verilsin:

"1.Kənd təsərrüfatı təyinatlı torpağa sahib olmaq haqqı yalnız Gürcüstan vətəndaşının, ailənin, habelə Gürcüstan qanunvericiliyi ilə Gürcüstanda qeydiyyatdan keçmiş, fəaliyyətini əsasən kənd təsərrüfatı sahəsində gerçəkləşdirən hüquqi şəxsin ola bilər."

b) 2-ci bənd çıxarılsın.

q) 4-cü və 5-ci bəndlər sonrakı redaksiyada verilsin:

"4. Ailə təsərrüfatı torpaq sahəsi olan, onda yaşayış yeri və təsərrüfatı sahəsi olan, habelə istehsal işi obyekti və bir fiziki şəxsin mülkiyyətində və ya arvadının və ya ailə üzvlərinin ümumi mülkiyyətindən təşkil edilmiş vahiddir.

5. Ailə təsərrüfatı yerli kitabda (ictimai reyestrdə) qeydiyyatdan keçməlidir. Əgər bu təsərrüfat arvadın və ya ailənin başqa üzvlərinin ümumi mülküdürsə yerli kitabda (ictimai reyestrdə) onların hər biri ailə təsərrüfatının bərabərhüquqlu sahibi kimi qeydiyyatdan keçməlidirlər.

d) 5-ci bənə sonrakı məzmunda 51 bəndi əlavə edilsin:

"51. Arsiani və Acara-İrnereti dağ silsiləsində mövcud olan sup-alp və alp otaracaqları dövlət mülkiyyəti elan edilsin

və onlar Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi Acarıstan Muxtar Respublikası Nazirlər Şurası ilə razılaşdırılaraq aparıcı olaraq 5-5 il müddətinə, müvafiq normativ aktlarla, müvəqqəti istifadə üçün o rayonlara, o ailələrə, qəsəbələrə və kəndlərə verilsin ki, onlar həmin ərazidə yerləşiblər və əvvəllər də bu otaracaqlardan istifadə ediblər. ";

e) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6. Hər hansı üçüncü bir şəxslə əlaqədə ailə təsərrüfatının adı ilə bərabərhüquqlu mülkiyyətçilərdən biri geridə qalanların ona verdiyi səlahiyyətə müvafiq çıxış edir. Bu şəxs yerli kitabda (ictimai reyestrdə) ailə təsərrüfatının başçısı kimi qeyd olunmalıdır. ";

v) 7-ci bənd çıxarılsın.

2.6-cı maddənin 3-cü və 4-cü bəndləri çıxarılsın.

3.8-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmədə ümumi məhdudiyyətlər

Yerli (ailə) təsərrüfatını arvadı və ya ailə üzvləri ilə birgə aparan mülkiyyətçi kənd təsərrüfatı torpaq sahəsini ya yerli (ailə) təsərrüfatında və ya ümumi mülkiyyətçilər öz payını özgələşdirməyə razılıq verdiyi təqdirdə o özəlləşdirilə bilər. Razılıq notarial qaydada təsdiq edilməlidir. Razılığı rədd etmək üçün mühüm səbəb mövcud olmalıdır. Əgər mükliyyətçi razılığı ala bilmirsə, o, məhkəməyə müraciət edə bilər. ",

4.Qanuna sonrakı məzmunda 9-cu bənd əlavə edilsin:

"Maddə 9. Satış üçün müqavilə hüququ

Torpaq sahəsini satışla özəlləşdirən onu alanla o halda razılaşa bilər ki, satan bu torpağı özü işlətməkdən vaz keçsin. Əgər alan torpağı işlətməyə özəlləşdirənin vəfat etməsindən sonra başlasa, satış hüququnu müstəqil şəkildə öz xeyrinə istifadə etmək istəsə özəlləşdirənin varisi torpağı özü işlətmək arzusunda olduğunu bildirməklə ondan istifadə edə bilər.

1.10-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 10. İcarəçi tərəfindən üstün alış hüququ

1. Əgər onun özü bundan istifadə edəcəksə, yerli (ailə)

təsərrüfatın özəlləşdirilməsində icarədarın üstün alış hüququ var.

2.Kənd-təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsində alış üçün icarədarın üstün hüququ var. İcarədar tərəfindən alışa rədd cavabı verildiyi təqdirdə, bu sahə ilə sərhəd təşkil edən torpaq sahəsinin sahibinin və ya onun icarədarının bu torpaq sahəsini almağa üstünlüyü var.

6. Qanuna sonrakı məzmunda Il-ci və l2-ci maddə əlavə edilsin:

"Maddə 11.Ümumi mülkiyyətdə payı olanın alışda üstün hüququ

l.Yerli (ailə) təsərrüfatda ümumi mülkiyyət payı olanın özəlləşmədə bu təsərrüfatı almaq istəyənlə müqayisədə alıcı kimi üstünlüyü var.

2. Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin ümumi mülkiyyət payının özəlləşdirilməsində yerli (ailə) təsərrüfatda mülkiyyətçi olan hər bir mülkiyyətçinin və ya həmin təsərrüfatla eyni ərazidə yerləşən və o təsərrüfatla sərhəddi olan təsərrüfatın alışda üstün hüququ var.

Maddə 12. Satışda dövlətin üstün hüququ

1.Gürcüstanda torpaq bazarını tənzimləmək, torpaqdan istifadə və müdafiə etmək, ondan səmərəli istifadə və mühafizə etmək proqramını maliyyələşdirmək üçün Gürcüstan dövlət büdcəsindən Gürcüstanın yerli fondu yaradılır. Yerli fondun vasitəsi ilə qanunvericiliklə nəzərdə tutulan qaydada və müəyyən edilmiş hallarda üstün alış hüququ var.

2.Dövlət tərəfindən üstün alış hüququna tətbiq olunmur, əgər:

a) Mülkiyyətçinin övladı dədə-baba (ailə) təsərrüfatını tam, sənədlərlə əsaslandırılmış şəkildə götürmək istədikdə;

b) Mülkiyyətçi dədə-baba (ailə) təsərrüfatını və ya kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini dövlət və ya ictimaiyyət üçün gərəkli olduqda və ya məcbur olub özgələşdirirsə.

3. Əgər mülkiyyətçi dəyişməz mülkiyyətçi kimi qalırsa,

dövlət tərəfindən üstün satış hüququ ona 0 vaxta qədər tətbiq edilmir ki, onun mülkiyyətçi kimi təsərrüfatı müstəqil idarə etməsi müəyyən olunmayıb."

l7.19-cu maddənin mətni birinci bənd kimi sayılsın və maddəyə sonrakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Özəlləşdirmə nəticəsində qalan sahə 5 hektardan az olduğu təqdirdə torpaq sahəsinin özgələşdirilməsi qadağan edilir.

Maddə 2. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Eduard Şevardnadze*
*Tbilisi, 20 iyun 2003-cü il*

## "DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYINATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSI HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**26.11.2004-cü il**

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri 1 007, 30.04.96, səh.16 ) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.2 V FƏSİL və 22-ci maddənin başlığı sonrakı redaksiyada verilsin: "Keçici əsasnamələr"

2. 22-ci maddənin mətni birinci bənd kimi sayılsın və bu maddəyə sonrakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Acarıstan Muxtar Respublikasında yaşayan, qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahəsi olan, lakin verilməyən torpaq sahəsi qanunvericiliklə nəzərdə tutulan qaydada 31 dekabr 2006-ci ilədək icmalara (ailələrə) verilir".

Maddə 2. Gürcüstan hökuməti bu qanun qüvvəyə minəndən bir il ərzində qanunun fəaliyyət göstərməsi üçün lazım olan maliyyə, təşkilati və metodoloji tədbirlərin həyata keçməsini təmin edir.

Maddə 3.Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

*Gürcüstan prezdenti Mixail Saakaşvili*
*Tbilisi,* 26 *noyabr 2DD4-cü il*

# "DÖVLƏT MÜLKİYYƏTI OLAN KƏNDTƏSƏRRÜFATI TƏYINATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDIRİLMƏSI HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYIŞILIKLƏR EDILMƏSI HAQQINDA

**08.12.2006-cı il**

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (Gürcüstan qanunvericiliyi aktları 142,29.07.2005-ci il,maddə 3003) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.3-cü maddəyə:

a)"B" bəndi sonrakı redaksiyada verilsin:

b) Kənd təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi dövlət mülkiyyətində mövcud olan kənd-təsərrüfatı təyinatlı torpaqlar Gürcüstan vətəndaşları, ya da Gürcüstanda qeydiyyatdan keçmiş xüsusi hüquqi şəxslərə satınaq formasında, yalnız müqəddəs avtokefal kilsəsinə satmaq istisna olmaqla, xüsusi mülkiyyətə verilir;";

b) "E" bəndi sonrakı redaksiyada verilsin:

"E) Xüsusi auksion- iştirakçılar arasında mülkiyyətin satılma qiymətini bir dəfəyə yazılı şəkildə təklif edən auksion formasıdır. Bu forınalı auksionda konkret inzibati vahidin - əhalinin (kənd, qəsəbə və şəhər əhalisi) və əhali birliklərinin (icmalar) ərazi sərhədləri icma kitabında qeydiyyatda olan və ya şəxsiyyət vəsiqəsi əsasında qeydiyyatı olan Gürcüstan vətəndaşlarının iştirak etmə hüququ var;";

q) "Z" bəndi sonrakı redaksiyada verilsin:

"z) Özəlləşdirmə planı-özəlləşdirmə torpaqları sahələri kadastrda planlaşdırılır, kadastr informasiyası, formaları, torpağın harda yerləşməsi, keyfiyyəti (yaxşı/qeyri məhsuldar) haqqında məlumatlar, bunun əsasında hesablanmış torpaq sahələrinin ilkin qiyməti və onun haqqında informasiya vahidləri hazırlanmasıdır.

c) "İ" bəndi sonrakı redaksiyada verilsin:

"İ) İcma kitabı-inzibati vahid-əhalinin (kəndin, qəsəbənin və şəhərin) ərazi sərhədlərində icmaların və konkret məskunlaşma məntəqələrində yaşayan şəxslərin və icma üzvlərinin olması faktını, orada yaşayan şəxslərin sayını özündə əks etdirən jurnaldır.

2.6-cı maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. İcarəyə verilən kənd-təsərrüfatı təyinatlı torpaq sahələrinin özəlləşdirmə məqsədi ilə xüsusi auksionunun təşkili və keçirilməsini Gürcüstan İqtisadi İnkişaf Nazirliyi müvafiq ərazi orqanları ilə birgə keçirir."

3. 8-ci maddə sonrakı redaksiyada formalaşdınlsın:

"Maddə 8. Torpaq sahəsinin hazırlanması və natural təqdimatı

İcarəyə verilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin hazırlanması və natural təqdimatı və kadastr xəritələrinin hazırlanmasını yerli özünüidarəetmə orqanlarının nümayəndələri Kütləvi Reyestrin Milli Agentliyinin müvafiq ərazi xidmətlərində mövcud informasiyanı daxil etməklə gerçəkləşdirilir. Kütləvi Reyestr Milli Agentliyinun müvafiq ərazi xidmətləri onların əlində olan məlumatın yayılması qayğısına qalmalıdır."

4.13-cü maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Konkret inzibati vahidinin-məskunlaşmış əhalinin (kəndin, qəsəbənin və şəhərin) və məskunlaşmış əhali birliyinin (icmanın) ərazi sərhədlərində icma kitabında qeydiyyatda olan və ya şəxslərin şahidlik əsasında Gürcüstan vətəndaşı kimi qeydiyyatda olan şəxslərin xüsusi auksionda iştirak etmək hüququ var.

5. 14-cü maddə:

a) Başlıq sonrakı redaksiyada verilsin:

"İcarəyə verilən torpaqların özəlləşdirilməsində

Yerli özünüidarəetmə orqanının nümayəndəliyi

Orqan və Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və onun ərazi orqanın öhdəlikləri

b) Birinci bənd sonrakı redaksiyada verilsin:

1) İcarəyə verilən torpaq sahələrinin yerli özünüidarəetmənin nümayəndəlik orqanının öhdəlikləri :

a) Özəlləşdirilən torpaq sahəsinin seçilməsi və onun optimal ölçülü sahələrinə (3 hektardan az olmayaraq) bölmək (əgər sahənin ölçüsü 3 hektardan azdırsa qeyd edilən məhdudiyyət fəaliyyət göstərmir.)

b) Özəlləşdirmə planı layihəsini tərtib edilməsi və Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanlarına təsdiq üçün göndərilməsi;

q) Satışa çıxarılan torpaq sahəsi barədə informasiyanın açıqlığını təmin etmək";

q) 2-ci maddə:

q.a.) "A" bəndi sonrakı redaksiyada verilsin:

"a) Özəlləşdirmə planını layihəsinin müzakirəsi,

Gürcüstanın Ətraf Mühitin Müdafiəsi və Təbii Resurslar Nazirliyinin müvafiq ərazi orqanları ilə razılaşdırılması və təsdiq edilməsi.";

q.a.) "B" bəndindən sonra "Bl" bəndi artırılaraq sonrakı redaksiyada verilsin:

"b 1) Xüsusi auksionun təşkili və keçirilməsi, auksionda qalib gəlməni təsdiq edən aktının tərtib edilməsi və auksionda qalib gəlmiş şəxsə vermək;".

6. Qanuna 151 maddəsi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"Maddə 151. Xüsusi və açıq auksionda iştirak etmək şərtləri

1. Xüsusi və açıq auksionda iştirak etmək üçün maraqlanan şəxs "beh" şəklində torpaq sahəsinin özəlləşdirilməsinin ilkin satış qiymətinin 30%-ni ödəməyə borcludur.

2. Açıq və xüsusi auksionda iştirak baş tutduğu təqdirdə "bes" ödəmə Gürcüstan İqtisadi Nazirliyinin müvafiq ərazi orqanı tərəfindən müəyyən edilən hesabata keçirilməklə gerçəkləşdirilir.

3. Auksionda qalib gələn şəxs qalib gəlməsini təsdiq edən aktı imzalamaqdan imtina edərsə akt onun qalib statusunu geri alır və onun "beh" ödəməsi geri qaytarılmır.

4. Auksionda məğlub olmuş və auksiondan kənar qalmış iştirakçılara "beh" ödənilməsini təsdiq edən qəbz təqdim ediləndən sonra Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanının tapşırığı əsasında qaytarılır. Bank müəssisəsi "beh"i Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanının tapşırığı ilə beş təqvim günü gün ərzində qaytanr."

7.16-cı maddənin 1-ci bəndi sonrakı redaksiyada verilsin:

"1. Xüsusi və açıq auksionda qalib gələn şəxs qələbəsini təsdiq edən aktı aldığı bir ay ərzində torpaq sahəsinin və ondan azad olmuş tərpənməz əmlakın haqqını ya haqqın tam 20 %-dən azını ödəyir və bunu Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanına təqdim edir. Anksionda qalib gəlmiş şəxsin ödədiyi "beh" torpaq sahəsinə ödənilən haqq ödəməsi sayılır. Haqqın ödənilməsini təsdiq edən sənədin təqdimatından sonra torpağın və başqa tərpənməz əmlakın alınmasını təsdiq edən aktı ictimai reyestrdə mülkiyyət hüququ qeydiyyatından keçirmək olar.

Ancaq haqqın hissə-hissə ödənilməsi təqdirdə torpağın və başqa tərpənməz əmlakın alınmasını təsdiq edən aktın verilməsi və ipoteka müqaviləsi bağlanmaqla ictimai reyestrdə mülkiyyətin və ipoteka hüququnun qeydiyyatı üçün verilir. Əgər qalib gələn şəxs müəyyən edilmiş vaxtda haqqı ödəməyi təsdiq etməyən sənədi təqdim etməsə auksionun nəticələri ləğv olunmuş elan edilir və qalib şəxsə ödədiyi "beh" qaytarılmır.

8. 17-cı maddə sonrakı redaksiyada verilsin:

"Maddə 17. Mülkiyyət və ipoteka hüquqlarının qeydiyyatı

Bu qanunun əsasında özəlləşdirilmiş kənd təsərüfatı təyinatlı torpaq sahəsinin mülkiyyət və ipoteka hüquqları ictimai reyestrin qeydiyyat xidmətinə haqqın ödənilmədiyi o təqdirdə qeydiyyatdan keçə bilər ki, birgə və Gürcüstan Vegi Kodeksinin 2l7-ci və 275.-ci maddələrində nəzərdə tutulan

tələblərin yerinə yetirilməsi (etiraf olunması) haqqında vergi orqanları bu barədə və ipoteka hüququnda hər hansı dəyişiklərin olmamasını və ipoteka hüququnun ləğv edilməsini bilməyiblər".

9. 18-cı maddənin 5-ci bəndi sonrakı redaksiyada verilsin:

"5. Bu qanunun əsasında əmlak əlaqələri Gürcüstan Mülki Kodeksinin 183-cü və 289-cu maddələrində nəzərdə tutulan tərpənməz əmlak hüquqlarını meydana gətirən notarial qaydada təsdiq sənədin mövcudluğunu vacib hesab edir."

Maddə 2. Bu qanun nəşr edildiyi gündən qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Mixail Saakaşvili*
*Tbilisi,* 8 *dekabr 2006-cı il*

# DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**29.12.2006-cı il**

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında "Gürcüstan qanununun (Gürcüstan qanunvericiliyi aktları 142, 29.07.200S-ci il, maddə 303) 2-ci maddəsinin 3-cü bəndinin "A" bəndi sonrakı redaksiyada verilsin:

a) Bu qanunu fəaliyyətə başlayana qədər dövət və ya yerli özünüidarəetınə orqanları (idarələr) tərəfindən müəyyən edilmiş qaydada verilən aktlarla xüsusi və hüquqi şəxslərə icarəyə verilən otlaq və biçənəklər, onların içərisində və həndəvərindəki dövlət mülkiyyəti hesab olunan inşaat-tikinti sahələri olan otlaqlar uçota götürülmüşdür.

Maddə 2. Bu qannn dərc edilən gündən qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Mixail Saakaşvili*
*Tbilisi,* 29 *dekabr 2006-cı il*

# "DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSI HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

**19.06.2000-cİ il**

Gürcüstan parlamenti qərara alır:

Maddə 1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri l 007, 30.04.1996-cı il, səh.16 ) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1 .4-cü maddəyə:

a) Birinci bənd sonrakı redaksiyada verilsin:

"1. Kənd təsərrüfatı təyinatlı torpaqların mülkiyyətçisi olmaq hüququ Gürcüstan vətəndaşının, icmanın, Gürcüstan qanunvericiliyinə müvafiq, Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsin, habelə bu bəndin 11,12 və 13 -cü bəndləri ilə nəzərdə tutulan hallarda xarici vətəndaşın və xaricdə qeydi y-yatdan keçmiş hüquqi şəxsin vəsiyyətnamə ilə götürdüyü kənd-təsərrüfatı təyinatlı torpaq sahələrində mülkiyyət hüququ var və xarici-bunnnla yanaşı kənd təsərrüfatı təyinatlı torpaq sahəsindən qanunauyğun, Gürcüstan vətəndaşı kimi istifadə edə bilər."

b) Birinci bənddən sonra 11,12 və 13-cü bəndlər əlavə edilsin:

"11. Xarici və xarici də qeydiyyatdan keçmiş hüquqi şəxslər mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsini öz vaxtında Gürcüstan vətəndaşının, icmanın və ya Gürcüstan qannnvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsin adına özəlləşdirməlidir.

12. Bu maddənin 11 bəndində nəzərdə tıtulan öhdəliklərin yerinə yetirilməsi mümkün olmadığı təqdirdə xarici və xaricdə qeydiyyatdan keçmiş hüquqi şəxs məhkəmə qərarı və müvafiq dövlətin xeyrinə kompensasiya ödəməklə mülkiy-

yətində olan kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini geri qaytanr.

13. Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin geri verilməsi "Vacib ictimai təlabata görə mülkiyyətin geri verilməsi qaydası haqqında" Gürcüstan qanunu ilə müəyyən edilmiş normalara uyğun gerçəkləşdirilir."

Q) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6. İcma təsərrüfatının adı ilə hər hansı üçüncü bir şəxslə əlaqəyə girən bərabərhüquqlu icma üzvü geridə qalan icma üzvlərindən bu səlahiyyət razılığını almalıdır."

1. 8-ci bənd sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmənin ümumi məhdudiyyəti

Yerli (icma) təsərrüfatı arvadı və ya ailə üzvlərinin birgə idarə edən mülkiyyətçi kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini və ya yerli (icma) təsərrüfatı yalnız onun (onların) razılığı ilə özəlləşdirə bilər. Razılıq notarial qaydada təsdiq edilməlidir. Razılaşmaya mühüm səbəb üzündən yox deyilə bilər. Əgər mülkiyyətçi razılıq ala bilməsə, bununla bağlı məhkəməyə müraciət edə bilər. "

3.10-cu və 11-ci maddələr çıxarılsın.

4.19-cu və 11-ci bəndlər çıxarılsın.

5.20-cu maddə çıxarılsın.

Maddə 2. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

*Gürcüstan prezdenti*
*Mixail Saakaşvili*
*Tbilisi,* 19 *iyun 2007-ci il*

# Gürcüstanın Gömrük Məcəlləsi
## *I bölmə*

Ümumi müddəalar

1-ci fəsil. Gürcüstanın Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər və bu məcəllədə istifadə olunan terminlər

**Maddə 1. Gürcüstanın Gömrük Məcəlləsi ilə tənzimlənən münasibətlər**

Bu məcəllə, Gürcüstanın Gömrük ərazisinə malların idxalı və Gürcüstanın Gömrük ərazisindən malların ixracı ilə bağlı hüquqi munasibətləri, Gömrük nəzarətinin müəyyənləşdirilməsini, Gömrük yoxlamaları və Gömrük prosedurları həyata keçirildiyi zaman yaranan mıɥnasibətlərdə iştirak edən şəxslərin və Gömrük orqanlarının hüquqi vəziyyətini, Gürcüstanın Gömrük qanunvericiliyi pozulduqda cavabdehliyi, həmçinin Gömrük orqanlarının və onların salahiyyətli şəxslərinin qeyri-qanuni əməllərinin şikayət qaydalarını və şərtlərini, Gömrük mübahisələrinin həlli qaydalarını tənzimləyir.

**Maddə 2 . Gürcüstanın Gömrük Qanunvericiliyi**

1.Gürcüstanın Gömrük Qanunvericiliyi, Gürcüstanın qanunvericiliyinə muvafiq olaraq Gürcüstanın beynəlxalq muqavilələri, bu məcəllənin,Gömrük işlərini təşkilini tənzimləyən başqa qanunvericilik aktlarından və onlara müvafiq olaraq qəbul olunmuş qanunaltı normativ aktlardan ibarətdir.

2.Gürcüstanın Gömrük Qanunvericiliyi əgər bu qanunvericiliklə başqa bir şey müəyyən edilməyibsə Gürcüstanın bütün gömrük ərazisinə aid edilir.

3.Gömrük munasibətlərinin tənzimlənməsində, bu məcəllədə mülki hüquqi və Gürcüstanın qanunvericiliyinin başqa sahə terminləri və anlayişları, əgər bu məcəllədə başqa bir şey nəzərdə tutulmayıbsa müvafiq sahədə daşıdığı məna ilə istifadə olunur.

**Maddə 3. Qərarlar, əmrlər və göstərişlər**

1.Bu məcəlləni nəzərə alaraq və onun icrası məqsədi ilə Gürcüstan hakimiyyəti və Gürcüstanın maaliyyə naziri müvafiq qərarlar və əmrlər verirlər.

2.Gürcüstanın maaliyyə nazirliyinin Gömrük departamentinin sədri Gürcüstanın qanunvericiliyinin icrası məqsədi ilə Gürcüstanın gömrük qanunvericiliyini isitifadəsi haqda individual administrativ – hüquqi aktlar nəşr edir. Gömrük orqanları Gürcüstanın Gömrük qanunvericiliyinin icrası zamanı bu aktlardan istifadə edirlər.

**Maddə 4. Gömrük siyasəti və Gömrük işlərinin təşkili**

1.Gürcüstanda həyata keçrilən birgə Gömrük siyasəti dövlətin maraqlarının mudafiəsini və beynəlxalq hüquqi qaydaları ilə nəzərdə tutulmuş prinsipləri, normativləri və standartları istifadə etməklə Gürcüstanın Gömrük işlərininin təşkilini təkmilləşdirir.

2.Gömrük siyasətini həyata keçirmək Gürcüstanın ali dövlət orqanlarının xüsusi idarəsinə aiddir.

3.Gömrük işinin təşkili, Gürcüstanın Gömrük ərazisinə malların idxalı və Gürcüstanın Gömrük ərazisindən malların ixracı Gürcüstanın Gömrük qanunvericiliyindən istifadə etməklə Gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər məcmuəsidir.

**Madəə 5. Gürcüstanın gömrük ərazisi və gömrük sərhədi**

1.Gürcüstanın gömrük ərazisi — Gürcüstanın quru ərazisindən, daxili sularından və onların üzərindəki hava məkanından ibarətdir. Gürcüstanın xüsusi hüquqidiksiyası ilə yayımlanan iqtisadi zonada yerləşən xüsusi dəniz qurğuları və tikililər, o cümlədən süni adalar Gürcüstanın gömrük ərazisina aiddir.

2.Gürcüstanın gömrük ərazisinin hüdudları Gürcüstanın dövlət sərhədi ilə üst-üstə düşən gömrük sərhədidir .

**Maddə 6. Malın gömrük statusu**

1.Mala vergi tətbiqi, ticarət siyasi tədbirlərini və gömrük prosedurlarını həyata keçirmək məqsədi ilə mala Gürcüstan malının və ya xarici malın gömrük statusu verilir.

2.Bu məcəllənin məqsədləri üçün Gürcüstan malı tam olaraq Gürcüstanın gömrük ərazisində istehsal və ya qəbul olunmuş yaxud da xarici ölkələrdən idxal olunmuş azad dövriyyədə olan maldır.

3.Bu məcəllənin məqsədləri üçün xarici mal, bu maddənin 2-ci hissəsində qeyd olunan şərtləri təmin etmir. Gürcüstan malı Gürcüstanın gömrük ərazisindən çıxarılandan sonra Gürcüstan malının gömrük statusunu itirir.

**Maddə 7. Bu məcəllədə istifadə olunan anlayışların şərhi**

1.Deklarant (bəyannaməçi) — gömrük rəsmiləşdirilməsi məqsədi ilə öz adı və ya onun adı ilə həyata keçirən, bəyan edən, təqdim edən, göstərən hüquqi şəxs;

2. Gömrük bəyannamə hərəkəti - Gürcüstanın gömrük qanunvericilyi ilə müəyyən edilmiş formaya və qaydaya müvafiq olaraq mala olan gömrük rəsmiləşdirmə əməliyyatının istifadə niyyətini hüquqi şəxs bəyan edir.

3.Gömrük bəyannaməsi – Gürcüstanın gömrük qanunvericiliyinin müəyyən etdiyi forma və vasitə ilə mala olan gömrük rejiminin istifadə niyyətini özündə əks etdirən sənəd.

4.Şəxs, rezident, qeyri-rezident, müəssisə, təşkilat, sahibkar fiziki şəxs, Gürcüstanın müəssisə/təşkilatı, xarici müəssisə/təşkilat, büdcə təşkilatı, bir birindən asılı olan şəxslər, qohum, təyin olunmuş şəxs, şəxsin ailəsi, kompensasiya - əgər bu məcəllədə digər hal nəzərdə tutulmayıbsa - Gürcüstanın vergi məcəlləsi ilə müəyyənləşdirilir.

5.Ticarət siyasətinin tədbirləri – Malın Gürcüstana idxalını və Gürcüstandan ixracını tənzimləyən aktların əsasında qüvvədə olan tarif və qeyri-tarif tədbirləri.

6.Tarif tədbirləri - Gürcüstanın Gömrük tarifləri haqda qanun əsasında müəyyən edilir.

7. Qeyri-tarif tədbirləri - Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulmuş nəzarət və ya müdafiə tədbirləri, malın Gürcüstana ixracına və Gürcüstandan idxalına qoyulmuş qadağalar ya da məhdudlaşmalar.

8. Gömrük rüsumları:

a) İdxal rüsumu - Gürcüstanın gömrük ərazisinə malın gətirilməsi ilə bağlı yaranan öhdəliklər gömrük ödənişləri, gömrük tarifi, aksiz və ya əlavə olunmuş dəyərlərin rüsumları.

b) İxrac rüsumu - Gürcüstanın gömrük ərazisindən malın çıxarılması ilə bağlı yaranan öhdəliklər, gömrük ödənişləri və ya rüsum.

9. Mal – Gürcüstanın gömrük ərazisindən keçrilən hər hansı bir maddi əmlak, o cümlədən pul, qiymətli kağızlar, elektro və istilik enerjisi, qaz və su.

10. İdentik mallar – Dəyərləndirilmiş mallarla müqayisədə hər baxımdan, fiziki xüsusiyyətləri, keyfiyyəti və ticarət nişanı ilə eyni olan və eyni ölkənin və eyni istesalçısının istehsalı (və ya əgər dəyərləndirilməli olan malın istesalçısı tərəfindən istesal olunan identik mal haqda məlumat yoxdursa müxtəlif istesalçı şəxs) olan mallar. Əgər mal digər göstəricilərlə verilən standartlara müvafiqdirsə, əhəmiyyətsiz xarici fərqlənmələr malın identik hesab edilməsinə mane olmamalıdır. Əgər malın bədii dizayni, eskizləri, emal edilməsi Gürcüstanda hazırlanıbdırsa mail identik hesab olunmur.

11. Bənzər mallar - Dəqiq dəyərləndirilməsi mümkün olmayan və eyni ölkənin və eyni istesalçısının istehsalı (və ya əgər dəyərləndirilməli malın istesalçısı tərəfindən istesal olunan identik mal haqda məlumat yoxdursa) olan mallar. Əgər oxşar fiziki xüsusiyətləri və tərkibinə görə eyni funksiyaları yerinə yetirirsə, kommersiyal nöqteyi nəzərdən əvəzləyicidirsə və malın bədi dizaynı, eskizləri, emal edilməsi Gürcüstanda hazırlanıbdırsa bənzər mal hesab olunmur,.

12.Eyni sinfə və növə aid olan mallar - Dərləndirilməli mallara nisbətən əsas fiziki xüsusiyyətləri ilə eyni olan mallar.

Onlar idxal olunan malların xüsusiyətlərinə maksimal olaraq yaxın olmalıdırlar və dəyərləndirilməli malın məhdud qrupuna, sırasına və nomenklaturuna aid olmalıdır. Bununla yanaşı, əgər malın gətirilməsi dəyərləndirilməli olan malın gətirildiyi və ya başqa ölkələrdən həyata keçirilirsə onlar eyni sinfə və növə aid edilə bilər.

13. Malın sahibi – Malın sonrakı daşınması və ya başqa hərəkətləri həyata keçirmək məqsədi ilə malı anbarda saxlayan yaxud da başqa cür cavabdehlik daşıyan şəxs. bununla yanaşı həmin şəxs gömrük orqanlarına təsdiq edə bilməz ki, nəqliyyət vasitəsində, tikintilərdə və ya başqa yerlərdə saxlanılan mallar onun istəyi olmadan orada saxlanılıb.

14. Malın mülkiyyətçisi – mal üzərində Gürcüstanın mülki məcəlləsi ilə müəyyən olunmuş mülki hüququ olan şəxs.

15. Sərnişin - Gürcüstan gömrük sərhədini keçmə səbəblərindən asılı olmayaraq gömrük sərhədini qanuni olaraq keçən fiziki şəxs.

16. Şəxsi əşyalar - Sərnişin daşındığı zaman sərnişinə məxsus olan şəxsi istifadə əşyaları. Yüklə və ya əl yükü ilə daşınır.

17. Əl yükü - Sərnişinlərin şəxsən daşıdıqları əşyalar.

18. Yük - Sərnişinlərdən ayrı daşınan əşyalar.

19. Nəqliyat vasitələri – Avtomobil, hava, dəniz və dəmir yolu nəqliyyat vasitələri, o cümlədən elektrik ötürücü xətlər, boru kəmərləri, konteyner, yedək, yerımyedək və hər hansı bir sərnişin və ya yükdaşıma üçün istifadə olunan başqa vasitə.

20. Gömrük marşrutu - Gürcüstanın gömrük ərazisində gömrük nəzarətinə tabe olan malın daşınması üçün Gürcüstanın qanunceriсiliyi ilə müəyyənləşdirilmiş marşrut.

21. Gömrük orqanına malın təqdim olunması - Gömrük orqanına və ya gömrük orqanı tərəfindən müəyyənləşdirilmiş yerə malın aparılması haqda gömrük orqanına məlumat vermək.

22. Malın keçirilməsi - bu hərəkətlə Gömrük orqanı deklarantının malın üzərində verə biləcəyi bəyannaməni və ya maldan faydalanma imkanını ona qarşı istifadə olunan gömrük əməliyyatı şərtlərinə müvafiq olaraq təmin edir.

23. Lisenziya, Lisenziya şahadətnaməsi, Lisenziya axtaran, Lisenziya verən, Lisenziya sahibi, lisenziya ödənişi, lisenziya şərtləri, icazə, icazə şahədatnaməsi, icazə axtaran, icazə verən, icazə sahibi, icazə ödənişi, icazə şərtləri - əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa ”Lisenziya və icazə haqda” Gürcüstan qanununa müvafiq olaraq müəyyənləşdirilir.

24. Gömrük orqanı – Gürcüstanın maaliyyə nazirliyinin gömrük departamenti, onun struktur vahidi, ərazi orqanı, ərazi orqanının struktur vahidi və ya başqa bölmə, ona aid olan funksialar – Gürcüstanın gömrük ərazisinə malın gətirilməsi və ya Gürcüstanın gömrük ərazisindən malı çıxarılması ilə bağlı prosedurlar, gömrük nəzarəti və gömrük nəzarətini həyata keçirmək. Bununla yanaş qeyd olunan orqanların yenidən təşkili və ya ləğvi zamanı və sonra yaranan hər hansı bir müəssisə, bu müəssisənin ərazi orqanı və ya başqa bölməsi, əgər onlara gömrük orqanı funksiyalarını yerinə yetirmək səlahiyyətləri verilibsə gömrük orqanı hesab olunur.

25.Gömrük qərarları – Gömrük orqanının tam səlahiyyətli şəxsinin hər hansı bir konkret vəziyyətdə Gürcüstanın qanunvericiliyinə müvafiq olaraq həyata keçirdiyi və ya sənədlə verdiyi qərar.

26. Gömrük proseduru – Gömrük orqanınna malın təqdim olunması və yoxlanması, müvafiq sənədlərin olmasının dəqiqləşdirilməsi, ümümi bəyannamə, gömrük deklarasiyasının təqdimi və qeydiyyatı, mühasibat və başqa sənədlərin yoxlanılması, gömrük vergilərinin ödənilməsi, malın, nəqliyyat vasitəsinin və sərnişinin şəxsi əşyalarının yoxlanması, həmçinin gömrük orqanlarının və ya onların tam səlahiyyətli şəxslərinin Gürcüstanın gömrük qanunvericiliyini yerinə yetirilməsi üçün rəsmi tələbi və ya hərəkəti.

27. Gömrük nəzarəti - Gömrük orqanı tərəfindən Gürcüstanın qanunvericiliyinə müvafiq olan öhdəliklərin, məhdudiyyətin, qadağaların, tələblərin və ya başqa şərtlərin müdafiəsi ilə mal üzərində keçirilən tədbirlər cəmi.

28. Gömrük yoxlanması – Gürcüstanın gömrük qanunvericiliyini yerinə yetirilməsini təmin etmək üçün gömrük orqanları tərəfindən gömrük nəzərətinə tabe olan malın bu məcəllə ilə nəzərdə tutulmuş gömrük prosedurlarının həyata keçirilməsi.

29. Gömrük yoxlanışlar əməliyyatı – Mala qarşı gömrük rejimindən istifadə, malın neytral əraziyə və ya azad anbara daşınması, Gürcüstaanın gömrük ərazisindən malın geri çıxarılması, gömrük nəzərəti altında malın məhv edilməsi və ya malın dövlət mülkiyyətinə verilməsi .

30.Gömrük rejimi:

a) Malın azad dövriyyə buraxılması (idxalu, idxalı);

b) Malın tranziti;

q) Gömrük anbarlarında malın saxlanılması;

d) Gömrük ərazisində malın yoxlanılması;

e) Malın müvəqqəti olaraq gətirilməsi;

v) Gömrük ərazisindən kanarda malın yoxlanılması;

z) Malın eksportu (ixracı)

31. Cavabdeh şəxs - Gömrük vəzifələrini yerinə yetirməyə borclu olan şəxs.

32.Gömrük vəzifələri - Şəxsin vəzifələridir, Gürcüstanın gömrük qanunvericiliyi ilə nəzərdə tutulmuş gömrük ödənişlərini, cərimələri və ya vergiləri ödəyir.

33. Gömrük borcu – Deklarantın gömrük vəzifələrinin cəmlənməsi və onun Gürcüstanın gömrük qanunvericiliyi ilə nəzərdə tutulmuş müxtəlif gömrük vəzifələrinə uyğun olaraq əlavə ödənilmiş məbləğin cəmi arasında olan fərq.

34. Malın emal edilmə əməliyyatları:

a) Malın emal edilməsi, o cömlədən montajı, istismarı və ya başqa mala uyğunlaşdırılması;

b) Malın istesalı;

q) Malın təmiri, o cümlədən bərpa və saz vəziyyətinə qaytarılması;

d) Emal olunduğu prosesdə malın tam və ya bir hissəsinin xərclənməsinə baxmayaraq, məhsulun istesalını asanlaşdıran və ya asanlaşdırmaya yardım edən Gürcüstanın maaliyyə nazirliyi tərəfindən müəyyən olunmuş malın istifadəsi.

35.Emal olunmamış mal – Gömrük ərazisində malın emal olunmasının gömrük rejiminə və ya bu rejimdə emal olunmayan gömrük ərazisindən kanarda malın emal edilmə gömrük rejiminə salınmış mallar.

36. Emal edilmə məhsulu - Malın emal edilməsindən sonra alınan  və ya istesal olunan məhsul.

37. Alınan məhsulun norması – Müəyyən miqdarda malın emal edilməsi nəticəsində alınan məhsulun miqdarı.

38. Ekvivalent mal – Gömrük ərazisinə, gömrük rejimində malın emal edilməsi üçün bəyannamə ilə gətiriləcək malın əvəzinə emal olunmalı məhsulun alınması üçün istifadə olunan Gürcüstan malı.

## II Fəsil.
## Gömrük prosedurlarını həyata keçirən şəxslərin hüquqları və vəzifələri

### Mddə 8. Nümayəndə

1.Şəxsin gömrük orqanı ilə birbaşa və ya nümayəndə vasitəsilə əlaqədə olmaq hüququ var. Gürcüstanın mülki məcəlləsinə müvafiq olaraq nümayəndənin hüququ tapşırığın (etibarnamə, müqavilə və ya onu əvəz edən sənəd) əsasında yaranır, bunun əsasında nümayəndə gömrük orqanında gömrük deklarasiyasını təqdim etməni, Gürcüstanın gömrük qanun-vericiliyi ilə müəyyənləşdirilmiş gömrük prosedurlarının həyata keçirilməsini və ya gömrük orqanı tərəfindən qəbul olunmuş qərarın bu məcəlləyə uyğun olaraq şikayətvermə vəzifəsini öz üzərinə götürə bilər.

2.Bu maddənin birinci hissəsi ilə müəyyənləşdirilmiş nümayəndə:

a) Nümayəndə başqa şəxsin adı ilə və onun tapşırığı ilə birbaşa hərəkət edir;

b)Nümayəndə öz adı ilə, amma başqasının tapşırığı ilə hərəkət edir;

2.Bu məcəllənin 70-ci və 4-cü hissəsində qeyd olunan təsadüflər istisna olmaqla, nümayəndə rezident olmalıdır.

3.Malın sahibi gömrük sərhədini keçdikdə gömrük prosedurlarını həyata keçirdiyi kimi yan nümayəndə də hər bir vəzifəni yerinə yetirir və malın sahibi cavabdeh olduğu kimi, o, cavabdeh olur.

4.Nümayəndədən nümayəndə hüququnu verən və təsdiq edən sənədin təqdim edilməsini tələb etmək Gömrük orqanın vəzifəsidir, nümayəndə isə borucludur ki, gömrük orqanına notarial qaydada təsdiq edilmiş tapşırığı (etibarnamə, müqavilə və ya onu əvəz edən sənəd) təqdim etsin. Əgər nümayəndə müəssisənin/təşkilatın və ya sahibkar fiziki şəxsin adı ilə hərəkət edirsə, onun, bu müəssisənin/təşkilatın rəhbərini

(direktor) və ya sahibkar fiziki şəxsin öz möhürü ilə təsdiq etdiyi və təyin etdiyi şəxsə verdiyi nümayəndəlik hüququ (olduğu zaman) və imzalı blank varsa tapşırıq (etibarnamə) vacib deyil.

**Maddə 9. Gömrük qərarı**

1.Gömrük orqanı, Gürcüstanın gömrük qanunvericiliyindən istifadə etdikdə, öz təşəbbüsü və ya şəxsin (maraqlı tərəfin) yazılı və ya şifahi ərizəsi (tələbi) əsasında gömrük qərarları qəbul edir.

2.Şəxsin( maraqlı tərəfin) yazılı şəkildə müraciəti olduğu zaman Gürcüstanın qanunvericiliyi müəyyən etdiyi müddətdə yazılı gömrük qərarı qəbul edilməlidir, bu qərar administrativ - hüquqi akt hesab olunur.

3.Yazılı gömrük qərarında qeyd olunmalıdır:

a)Qərarı qəbul edən gömrük orqanının adı və ünvanı;

b)Qərarın adı, nömrəsi və qəbul olunma tarixi;

c)Haqqında qərar qəbul olunan şəxsin rekvizitləri ( adı, soyadı, identifikasiya nömrəsi (olduqda) və ünvanı)

d)Gürcüstanın gömrük qanunvericilik akt normalarını göstərməklə qərarın qəbul olunma əsası;

e)Qərarın məzmunu;

f)Bu qərar yerinə yetirilmədiyi zaman istifadə olunan gömrük cəzalandırmaları;

g)Qərarı şikayət qaydası;

i)Qərarı qəbul edən gömrük orqanının - salahiyyətli şəxsin adı, soyadı və vəzifəsi

3.Əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa, gömrük qərarının qəbul olunma müddəti Gürcüstanın maaliyyə nazirinin əmri ilə müəyyənləşdirilir.

**Maddə 10. Gömrük qərarının qüvvəyə minməsi**

Yazılı gömrük qərarı Gürcüstanın ümümi administrativ məcəlləsinə müvafiq olaraq qüvvəyə minir, başqa gömrük qərarları isə, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıb-

sa, onu qəbul edən andan qüvvəyə minir və o andan icra olunmalıdır.

**Maddə 11. Yazılı gömrük qərarının və ya onun bir hisəsinin ləğvi yaxud da etibarsız hesab edilməsi**

1.Yazılı gömrük qərarı və ya onun bir hissəsi ləğv edilə bilər yaxud da etibarsız hesab oluna bilər:

a)Gürcüstanın ümümi administrativ məcəlləsi ilə nəzərdə tutulduqda;

b)Əgər bu qərar və ya onun bir hissəsi qeyri dəqiq və ya tam olmayan məlumat əsasında qəbul olunubsa, bu haqda ərizəçi(tələb edən) bilirsə və ya ərizəçi ( tələb edən) bilməlidirsə, yaxud da bu qərar və ya onun bir hissəsi dəqiq və ya tam məlumat əsasında qəbul olunmayıbsa.

c)Bu məcəllədə nəzərdə tutulan başqa hallarda.

2.Yazılı gömrük qərarı və ya onun bir hissəsi Gürcüstanın ümümi administrativ məcəlləsində nəzərə alınmış asandlaşdırılmış administrativ qaydada ləğv edilir və ya etibarsız hesab olunur və onun ləğv edilməsi və ya etibarsız hesab edilməsi bu məcəllə ilə nəzərdə tutulmuş hüquqi nəticələr verir.

**Maddə 12. Yazılı gömrük qərarını qüvvədən düşmüş hesab etmək və onda dəyişikliklər aparmaq**

1.Yazılı gömrük qərarı qüvvədən düşmüş hesab oluna bilər və ya onda dəyişikliklər aparıla bilər:

a)Gürcüstanın ümümi administrativ məcəlləsi ilə nəzərdə tutulduqda;

b)Gömrük orqanı qərarın qəbul edilməsi üçün vacib şərtlərə riayət olunmadığını və ya yerinə yetirilmədiyini hesab etsə;

c)Gömrük orqanı qərar qəbul edilən şəxsin Gürcüstan qanunvericiliyi ilə qoyulan şərtləri yerinə yetirə bilmədiyini və ya pozduğunu hesab edirsə;

2.Gürcüstanın ümümi administrativ məcəlləsi ilə nəzərə tutulmuş asandlaşdırılmış administrativ qaydada yazılı

gömrük qərarını qüvvəsi itmiş hesab etmək və ya onda dəyişikliklər aparmaq olur.

**Maddə 13. Gömrük orqanından məlumat və Gürcüstan qanunvericiliyindən istifadə etmək haqda yazılı şərh tələbi hüququ.**

1.Hər hansı bir şəxs (ərizəçi) gömrük orqanından yalnız özü həyata keçirdiyi gömrük əməliyyatı haqda məlumatı və həmçinin Gürcüstanın ümumi administrativ məcəllədə nəzərdə tutulmuş başqa açıq məlumatı tələb edə bilər.

2.Gömrük orqanının səlahiyyətli şəxsinin maraqlanan şəxsə Gürcüstanın gömrük qanunvericiliyindən istifadə etməsi haqda və bu şəxsin həyata keçirdiyi və ya həyata keçirməyi düşündüyü gömrük prosedurlarına gömrük orqanının mövqeyini ifadə edən yazılı izahat göndərmək hüququ var. Qeyd olunan izahat rekomendasiya hesab olunur və onun gömrük orqanından kanarda heç bir öhdəlik hüququ yoxdur.

**Maddə 14. Gömrük prosedurlarının həyata keçirilməsi dili**

1.Gömrük prosedurları gürcü dilində, Abxaziyada isə - abxaz dilində həyata keçirilir,.

2.Gürcüstan gömrük qanunvericiliyinin müəyyən etdiyi hallarda gömrük prosedurları həyata keçirilə bilər və ya gömrük orqanına təqdim olunan sənəd başqa dildə də tərtib oluna bilər.

3.Əgər Gömrük orqanına deklaranta başqa dildə təqdim olunan sənəd, bu maddənin 2-cı hissəsi istisna olmaqla, gömrük orqanının tam səlahiyyətli şəxsi üçün anlaşılmazdırsa, onun hüququ var ki, bu sənədin dövlət dilinə çevrilmiş və notarial qaydada təsdiq olunmuş tərcüməsini tələb etsin.

**Maddə 15. Sənədlərin və məlumatın təqdim edilməsi**

1.Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq deklarant gömrük orqanına lazım olan sənədlərin və məlumatın təqdim edilməsini təmin etməli və məlumatı təqdim etmək və gömrük nəzarət funksiyasını yerinə yetirmək üçün

gömrük orqanının tələblərinə müvafiq olaraq lazımı yardım etməlidir.

2.Gömrük nəzərətinin və ya gömrük yoxlanmasının həyata keçrilməsi üçün lazımı sənədlərin cildi Gürcüstanın maaliyyə nazirinin əmri ilə müəyyənləşdirilir.

**Maddə 16. Məlumatın konfidensiyyalığı (gizliliyi)**

1.Şəxs tərəfindən (büdcə təşkilatından və açıq ədliyyə hüququ olan şəxsdən savayı) gömrük orqanı üçün bu məcəlləsinə görə Gürcüstanın qanunvericiliyinə müvafiq olaraq təqdim olunan məlumat kommersial sirr hesab olunur və o ,yalnız Gürcüstanın vergi məcəlləsinin 122-ci maddəsi ilə qoyulmuş qaydada istifadə edilə bilər.

2.Dövlət, komersial, bank və qanunla qorunan başqa sirr olan məlumatlar və ümümi əlçatmaz hesab olunan konfedensial məlumatlar onu təqdim edən şəxsin hüquqlarına və qanunla müdafiə olunan maraqlarına ziyan verə bilər, buna görə də onları yayılması, gömrük orqanının vəzifəli şəxsi tərəfindən öz maraqları üçün istifadə etməsi, üçüncü şəxsə verməsi qadağandır, yalnız Gürcüstanın qanunvericiliyi ilə nəzərədə tutulmuş hallar istisna olmaqla.

**Maddə 17. Sənədləri saxlama müddəti**

Gömrük orqanının nəzarətini həyata keçirmək məqsədi ilə bu məcəllənin 15-ci maddəsi ilə müəyyənləşdirilmiş sənədləri gömrük nəzarətçiliyi qurtardıqdan sonra 6 təqvim ili ərzində saxlamaq şəxsin vəzifəsidir.

**Maddə 18. Müddəti müəyyənləşdirmək**

1.Gürcüstanın gömrük qanunvericiliyi ilə qoyulan müddət illərlə, rüblə, aylarla və ya günlərlə hesab olunan konkret təqvim tarixi ilə və ya müəyyən bir zamanla müəyyənləşdirilir.

2.Bu məcəllə ilə təyin olunan müddət müvafiq hərəkətlər həyata keçdiyi günün ikinci günündən hesaba alınır.

3.Hərəkətin həyata keçirilmə müddəti konkret təqvim tarixi ilə, müəyyən bir zamanla və ya mütlaq duracaq şəraitə

hesab olunmaqla müəyyənləşdirilir. Hər halda hərəkət bütün bu zaman ərzində həyata keçirilə bilər.

4.İllərlə hesaba alınan müddət, müddətin son ilinin müvafiq ayında və tarixində sona çatır.

5. Rüblə hesaba alınan müddət, müddətin son rübünün müvafiq ayında və tarixində sona çatır.

6.Ayla hesaba alınan müddət , müddətin son ayının müvafiq günündə və tarixində sona çatır.

7.Həyata keçirilmək üçün təyin olunan müddət,bu müddətin son iş günü başa çatana qədər həyata keçirilə bilər.

8.Əgər müddətin son günü istirahət günü ilə üst-üstə düşürsə, o zaman müddət bir iş günü uzadılır.

**Maddə19. Gürcüstanın milli pul vahidi olan – larinin xarici pul vahidləri ilə mübadilə kursu**

Gömrük dəyərləri və gömrük ödənişləri müəyyənləşdirildiyi zaman xarici pul vahidi Gürcüstanın pul vahidi ilə gömrük deklarasiyası qeydiyyata alındığı gün olduğu kursla hesaba alınır :

a) Gürcüstanın milli bankının rəsmi kursu ilə;

b) Xarici pul vahidinin elan olunmuş kursu ilə, o cümlədən əgər gömrük deklarasiyası qeydiyyata alındığı gün üçün Gürcüstanın milli bankı rəsmi kurs elan etməyibsə, xarici ölkələrdə lari mübadilə rəsmi kursu ilə müəyyənləşdirilir.

**Maddə 20. Gömrük nəzarət zonası**

1.Gömrük nəzərət zonası Gürcüstanın gömrük ərazisinin bir hissəsidir,orada malın, nəqliyyət vasitələrinin və şəxsə qarşı gömrük nəzarətinin hər bir tədbiri həyata keçirilə bilər.

2.Beynəlxalq gediş-gəliş üçün açıq sərhəd məntəqələri, ərazi suları, gömrük orqanları yerləşən ərazilər və gömrük anbarları, o cümlədən torpağın, daxili suların və gömrük prosedurlarının daimi və ya müvəqqəti həyata keçirilməsi üçün gömrük orqanı tərəfindən sahibkarla və ya qanuni mülkiyyətçi ilə razlaşlaşma yolu ilə (əgər mülkiyyətçi sahibkar deyilsə) ayrılan tikintilərin ərazisi gömrük nəzərəti zonası hesab olunur.

2.Gömrük nəzərət zonasında gömrük prosedurlarının həyata keçirilməsi üçün dəqiq yeri gömrük orqanı müəy-yənləşdirir.

3.Gömrük nəzərət zonasında gömrük orqanının razılığı olmadan gömrük nəzərətinin altında olan nəqliyyat vasitələrini yükdən boşaltmaq və ya yükləmək, eyni zamanda malın vacib olan gömrük prosedurlarını həyata keçirmədən gömrük nəzarəti zonasının sərhədlərindən kanara çıxarılması qadağadır.

4.Gömrük zonasına Gürcüstanın Daxili İşlər Nazirliyi-nin mütəxəssisləri bu məcəllənin 78-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək üçün yalnız Gürcüstanın Maaliyyə və Daxili İşlər Nazirlərinin birgə əmri ilə buraxıla bilərlər.

5.Gömrük nəzərəti zonasının yaranma qaydaları və gömrük nəzərəti zonasının yerləri Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyənləşdirilir.

# II Bölmə

## Gürcüstanın gömrük orqanları
## III Fəsil. Gürcüstanın gömrük orqanları

**Maddə 21. Gömrük orqanlarının fəaliyətinin hüquqi əsasları**

Gürcüstanın konstitusiyası, Gürcüstanın beynəlxalq müqavilələri və razılaşmaları, bu məcəllə və başqa qanunverici və qanuna tabe olan normativ aktlar Gömrük orqanlarının fəaliyyətinin hüquqi əsaslarıdır.

**Maddə 22. Gömrük orqanları**

1.Gömrük orqanlarının birgə, mərkəzləşdirilmiş sistemi Gürcüstanın Maalliyə Nazirliyinin gömrük departamentindən və ona daxil olan gömrük orqanlarından ibarətdir.

2.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti hüquq müdafiə orqanı statusu olan Gürcüstanın Maaliyyə Nazirliyinin sisteminə dövlət müəssisəsi adı ilə daxil olan gömrük orqanıdır.

3."Maaliyyə polisi haqda" Gürcüstan qanunu ilə müəyyənləşdirilən maaliyyə polisi əməkdaşlarının sosial müdafiə təminatları gömrük orqanının dövlət məmurlarına da aiddir.

4.Gömrük orqanlarının yaranma qaydaları, strukturu və səlahiyyətləri bu məcəllə ilə Gürcüstanın "hakimiyyət strukturları, səlahiyyətləri və fəaliyyət qaydaları haqda" qanunla və başqa normativ aktlarla müəyyənləşdirilir.

**Maddə 23. Gömrük laboratoriyaları**

1.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük fəaliyətinin təşkili məqsədi ilə malın ekspertizası və başqa tədqiqatlar aparmaq üçün Gürcüstanın qanunvericiliyi ilə müəyyən olmuş qaydada gömrük laboratoriyaları yaratmaq hüququ var.

2.Gürcüstanın Maaliyyə Nazirliyinin qoyduğu qaydalara uyğun olaraq gömrük orqanının gömrük prosedurlarını

həyata keçirməkdən başqa gömrüyün fəaliyyəti ilə bağlı başqa xidmətlər də həyata keçirmək hüququ var.

**Maddə 24. Gömrük orqanının və onun vəzifəli şəxsinin cavabdehliyi**

1.Gömrük orqanının və ya onun vəzifəli şəxsinin qanunsuz hərəkətləri nəticəsində vurduğu zərər Gürcüstanın dövlət büdcəsindən Gürcüstanın qanuncericiliyi qoyduğu qaydada ödənilir.

2.Gömrük orqanının vəzifəli şəxsi tərəfindən xidməti vəzifəsini ümumiyyətlə və ya lazımı qaydada yerinə yetirməyən vəzifəli şəxs Gürcüstan qanunvericiliyi ilə qoyulan qaydada cavabdehdir.

**Maddə25. Maraqların münaqişəsi**

1.Gömrük orqanı əməkdaşına aşağıdakı şəxslərə qarşı öz vəzifəsini yerinə yetirmək qadağan olunur:

a) əgər öz qohumudursa

b) onun ailəsinin və ya özünün birbaşa və ya birbaşa olmayan maaliyyə marağı varsa.

1.Gömrük orqanın əməkdaşı başqa dövlət müəssisəsində hər hansı bir vəzifədə, xarici ölkənin dövlət orqanında və ya müəssisəsində, o cümlədən elmi, pedaqoji və yaradıcı fəaliyət istisna olmaqla, başqa ödənişli işlə məşğul ola bilməz (qadağadır).

## Bölmə III
## Gömrük rüsumlarından istifadə şərtləri və xarici ticarəti tənzimləyən başqa tədbirlər

### Fəsil IV . Gürcüstanın gömrük tarifləri və malın tarif klasifikasiyası

**Maddə 26. Gürcüstanın gömrük tarifinin mahiyyəti**

1.Gürcüstanın gömrük tarifi (bunda sonra gömrük tarifi) qanunla müəyyənləşdirilmiş və ödənişə tabe olan, gömrük vəzifələri yerinə yetirildikdə yaranan gömrük rüsumudur.

2.Başqa sahənin tənzimlənən hüquqi aktları ilə xarici ticarəti tənzimləyən tədbirlər malın tarif klasifikatoruna müvafiq olaraq istifadə olunmalıdır.

3.Gömrük tarifi verilən sistemə uyğun birgəliklə müəyyənləşdirilir :

a) Xarici-iqtisadi fəaliyyətin əmtəə nomenklaturalarından (gələcəkdə - XİFƏN)

b) XİFƏN-də verilən mala qarşı istifadə olunan bölmələrdən və güzəştlərdən

c) Gürcüstanın parlamenti tərəfindən ratifisirə edilmiş və qüvvədə olan beynəlxalq müqavilələrlə tənzimlənən tarif güzəştlərindən (preferenslərdən)

d) Gürcüstanın "Gömrük tarifləri haqda" qanunu ilə Gürcüstanın müxtəlif ölkələr üçün, ölkə qrupları üçün və ya ərazilər üçün birtərəfli qoyduğu tarif güzəşlərindən (preferenslərdən)

4.Bu maddənin 3-cü hisəsinin c) və d) bəndlərində qeyd olunan tarif güzəştləri (preferenslər), əgər mallar bu güzəştlərdən istifadə etmək üçün qoyulan şərtləri qane edirsə, gömrük tariflərinin adi bölmələrinin əvəzinə istifadə edilir.

**Maddə 27. Malın tarif klasifikasiyası**

1.Malın tarif klasifikasiya deklarantı Gürcüstan qanunvericiliyinin tələblərinə müvafiq olaraq malın şifrəsini XİFƏN-ə uyğun müəyyənləşdirir.

2.Əgər gömrük orqanı bəyannaməli malın şifrəsi ilə razlaşmırsa, o zaman, o, bu haqda deklaranta məlumat verir və malın şifrəsi XİFƏN-in malın klasifikasının ümümi qaydası ilə müəyyənləşdirilir.

3.XİFƏN-in istifadə qaydası Gürcüstan hakimiyyətinin qərarı ilə müəyyənləşdirilir.

**Maddə28. Gömrük ödənişləri və gömrük tarifləri bölməsi**

Gömrük ödənişləri bölmələri, onların istifadə və administrativ qaydaları Gürcüstanın " Gömrük ödənişləri haqda" qanunu, gömrük tarif bölmələri, onların administrativ qaydaları – Gürcüstanın "gömrük tarifi haqda" qanunu ilə ilə tənzimlənir.

## Fəsil V. Malların istehsalı

**Maddə29. Malları istehsal edən ölkənin müəyyənləşdirilməsi**

2.Gürcüstanın gömrük ərazisinə malın gətirildiyi və ya gömrük ərazisindən malın çıxarıldığı zaman ticarət siyasi tədbirləri keçirmək məqsədi ilə malı istehsal edən ölkə müəyyənləşdirilir.

3.Malın yaranması güzəştlərsiz (qeyri-prefrensiyal) və ya güzəştli (prefrensiyal) ola bilər.

4.Malın güzəştsiz (qeyri-prefrensiyal) yaranması istifadə olunur:

a) Gömrük tarifini istifadə etmək üçün, bu məcəllənin 26-cı maddəsinin 3-cü hissəsinin c) və d) bəndlərində göstərilən tarif güzəştlərilə (prefrensiyal) istifadə etmək üçün.

b) Başqa sahəni tənzimləyən hüquqi aktlarla fəaliyyət göstərən xarici ticarəti tənzimləyən qeyri-tarif tədbirləri keçirmək üçün.

1.Malın güzəştli (prefrensiyal) istehsal qaydaları ilə mal istehsal olunan ölkəni müəyyənləşdirilməli və şərtlər dəqiqləşdirilməlidir. Mal şərtlərə cavab verməlidir ki, onun üzərində 26-cı maddənin 3-cü hissəsinin c) və d) bəndlərində göstərilən tarif güzəştlərlə (prefrensiyal) istifadə edilsin.

2.Mal istehsal olunan ölkəni müəyyənləşdirən kriterilər və qaydalar Gürcüstan hakimiyyətinin qərarı ilə müəyyən edilir.

**Maddə 30. Malın istehsalını təsdiq etmək**

1.Gürcüstanın gömrük ərazisinə malın gətirilməsi zamanı onun yaranmasını təsdiq edən və Gürcüstanın gömrük qanunvericiliyi ilə və başqa normativ aktları ilə nəzərədə tutulmuş müvafiq sertifikat təqdim olunmalıdır.

2.Əgər gömrük orqanı malın yaranma sertifikatının həqiqi olmasına və ya onda qeyd olunan göstəricilərin dəqiqliyinə şübhə edərsə,o zaman o sertifikatı verən orqana və ya sertifikatı verən ölkənin başqa müvafiq orqanlarına əlavə və ya dəqiq məlumat almaq üçün müraciət edə bilər. Əgər deklarant gömrük prosedurlarını yerinə yetirməyibsə ona imkan verilir ki, gömrük orqanından malı çıxarsın, əgər o, özü təqdim etdiyi malın yaranma sertifikatını nəzərə almaqla hesaba alınan ödənişləri ödəyər və gömrük zəmanətini təqdim edərsə zəmanət məbləği, təqdim olunan malın yaranma sertifikatını nəzərə almadan hesablanan əlavə ödəniləsi gömrük ödənişlərinin məbləğinə bərabərdir.

3.Malın güzəştsiz (qeyri-prefrensiyal) və ya güzəştli (prefrensiyal) yaranmasını təsdiq edən sertifikat forması, onun verilmə və doldurulma qaydaları Gürcüstan hakimiyyətinin qərarı ilə müəyyən edilir.

## Fəsil VI. Malın gömrük dəyəri

**Maddə 31. Malın gömrük dəyərini müəyyənləşdirmənin ümümi əsasnaməsi**

1.Malın tarif dəyərini müəyyənləşdirmək, gömrük tarifi və başqa tənzimləyici hüquqi aktlarla müəyyənləşdirilmiş tarif tədbirlərindən istifadə məqsədi ilə bəyannamə günü üçün malın dəyərləndirilməsini nəzərə alır.

2.Bu məcəllənin 41-ci maddəsinin birinci hissəsində müəyyən edilən hadisələr istisna olmaqla, malın gömrük tarifini deklarant müəyyənləşdirir.

3.Əgər, idxal olunan malların gömrük dəyəri müəyyənləşdirildikdə son qərar verilmirsə, o zaman deklaranta imkan verilir ki, əgər o özü müəyyənləşdiridiyi malın gömrük dəyərinə hesablanan gömrük ödənişlərini ödəyərsə və əlavə olaraq bu məcəllə ilə nəzərdə tutulan zəmanəti təqdim edərsə gömrük orqanından malı çıxarsın, zəmanat isə malın maksimal dəyəri əsasında hesaba alınan gömrük ödənişləri və deklarantın müəyyən etdiyi gömrük dəyəri əsasında hesablanan gömrük ödənişləri arasında olan fərqdir.

1.Mal azad dövriyyəyə buraxıldığında (idxal) gömrük rejimində bəyannamə olunan malın gömrük dəyəri aşağadakı üsullarla müəyyən edilir:

a) Razılaşma yolu ilə (birinci üsul)
b) İdentik malın razılaşma yolu ilə (ikinci üsul)
c) Bənzər malın razılaşma yolu ilə ( üçüncü üsul)
d) Malın fərdi dəyəri ilə (dördüncü üsul)
e) Tərtib olunan dəyər ilə (beşinci üsul)
f) Rezerv üsulu ilə (altıncı üsul)

1.Əgər öncəki üsuldan istifadə etmək mümkün deyilsə bu maddənin 4-cü hissəsində qeyd olunan hər bir növbəti üsuldan istifadə olunur. Deklarantın hüququ var ki, bu maddənin birinci hissəsinin d) və e) bəndlərində qeyd olunan malın

gömrük dəyərinin müəyyənləşdirmə üsullarından istifadə ardıcıllığını dəyişsin.

2. Əgər deklarantın müəyyən etdiyi malın gömrük dəyərinin dəqiqliyinə gömrük orqanı nəzərət edirsə malın gömrük dəyərini deklarant, bu maddənin 4-cü hisəsinin tələblərinə müvafiq olaraq müəyyənləşdirir.

3.Malın gömrük dəyərinin müəyyənləşdirilmə dəqiqlik qaydaları Gürcüstanın Maaliyyə Nazirliyinin qərarı ilə müəyyən edilir.

**Maddə32. Razılaşmanın qiymət üsulu**

1.İdxal olunan malın gömrük dəyəri razılaşma qiymətidir, yəni ixrac üçün alınan malın idxal edilən ölkədə ödədiyi və ya ödəyəcəyi qiymətdir ( bu məcəllənin 38 və 39 – cu maddələrinin tələbi ilə) əgər:

a) Alıcının malı istifadə etməsi ilə bağlı hər hansı bir məhdudlaşdırılma yoxdursa, bu məhdudlaşdırmalardan savayı:

a.a) Gürcüstanın qanunvericiliyi ilə müəyyən edilir və ya tələb olunur;

a.b) Malın bir daha, yenidən satılmasına razılıq verən coğrafi rayonların sayına aiddir;

a.c) Malın dəyərinə əhəmiyyətli təsir etmir;

b) Malın satılması və ya qiyməti hər hansı bir şərt predmeti deyil, bunu nəzərə almamaq isə idxal olunan malın dəyərinin müəyyənləşdirilməsini mümkünsüz edir.

c) Alıcının idxal olunan malın sonrakı istifadəsi, başqasına verilməsi və ya satması nəticəsindən əldə edilən gəlirin heç bir hissəsi, bu məcəllənin 38-ci maddəsinin birinci – 8-ci hissəslərində nəzərə alınan şərtlər istisna olmaqla, nə birbaşa nə də dolayı olaraq satıcıya verilmir,;

d) Satıcı və alıcı bir birindən asılı və ya qeyri-asılı şəxslərdirsə, razılaşmanın qiyməti bu maddənin 2-ci və 3-cü hissələri ilə müəyyən edilən şərtlərə müvafiq olmalıdır.

2.Əgər satıcı və alıcı bir-birindən asılı şəxslərdirsə satılmaqla bağlı şərtlər mütləq müzakirə olunmalıdır, əgər bu

münasibət malın qiymətinə təsir etmirsə malın razılaşma qiyməti malın gömrük dəyəri hesab olunacaq. Əgər deklarant təqdim etdiyi və ya başqa bir yol ilə əldə olunan məlumata əsasən gömrük orqanında malın alıcısı və satıcısı arasında olan münasibət malın qiymətinə təsir etməsi haqda əsaslı şübhə yarandısa, gömrük orqanı deklaranta öz dəqiqləşmiş fikrini bildirir, deklarantın isə hüququ var ki, gömrük orqanına öz tərəfindən müvafiq izahat təqdim etsin. Deklarantın tələbi ilə, gömrük orqanı öz dəqiqləşdirilmiş fikrini yazılı şəkildə sənədləşdirir və deklaranta təqdim edir.

3. Əgər satıcı və alıcı bir birindən asılı şəxslərdirsə, malın razılaşma qiyməti malın gömrük dəyərinin müəyyənləşməsi əsasında qoyulur, əgər deklarant sübut təqdim edərsə ki, qeyd olunan dəyər, müddətin həmin hissəsində müəyyən edilən dəyərlərdən birinə maksimal olaraq yaxındır, o zaman:

a) Bir birlərindən aslı olan satıcının və alıcının idxal olunan ident və ya oxşar malın razılaşma qiymətinə;

b) Bu məcəllənin 35-ci maddəsinə müvafiq olaraq müəyyənləşmiş ident və ya oxşar malın gömrük dəyərinə;

c) Bu məcəllənin 36-ci maddəsinə müvafiq olaraq müəyyənləşmiş ident və ya oxşar malın gömrük dəyərinə.

4. Bu maddənin 3-cü hissəsində müəyyən edilən dəyər, yalnız deklarantın istəyi ilə və yalnız müqayisə etmək üçün istifadə edilə bilər, bununla birlikdə fərqlər də nəzərə alınmalıdır:

a) Satılan malla kommersiyal səviyyələr arasında

b) Malın miqdarları arasında

c) Bu məcəllənin 38-ci maddəsinin ilk 5-ci hissələrində göstərilən şərtlər;

d) Əgər satış razılaşması ilə bağlı alıcı və satıcı biri birindən asılı şəxslər deyillərsə, xərclər.

**Maddə 33. İdentik malların razılaşmasının qiymət üsulu**

1.Gürcüstana idxal olunan və dəqiq və ya təqribi həmin vaxtda ( 90 gündən gec olmamaqla) təqdim olunan malın

idxalu həyata keçirildiyi vaxtda satılıbsa, identik malın razılaşma qiyməti kimi gömrük orqanı tərəfindən qeydə alındığı dəyər hesab edilir.

2.Bu maddənin birinci hissəsinə əsasən, malın gömrük dəyərini müəyyənləşdirmənin əsasıdır:

a) Gürcüstana idxal olunan malların kommersiyal və miqdar səvyiyəsində (malın partiyasının həcmi və qiyməti nəzərdə tutulur) satılan identik malların gömrük orqanı tərəfindən qeydə alındığı razılaşma qiyməti;

b) Bu hissənin a) bəndində qeyd olunan şərtlər olmadığında – kommersiyal səviyyədə və ya başqa miqdarda və qeyd olunan dəyərdə kommersiyal səviyyədə düzəliş aparılıbsa və ya başqa miqdarla şərti qoyulmuş fərqi nəzərə almaqla gömrük orqanı tərəfindən qeydə alınmış identik malın razılaşma qiymətində təqdim olunan sübutlara əsasən belə bir düzəliş aparmaq olar, bu düzəliş dəyərin böyüdülüb azalmasına baxmayaraq düzəlişin məqsədəuyğunluğunu və dəqiqliyini aydın şəkildə göstərməlidir.

3.İdxal olunan malın və onun identik malını daşıyan nəqliyyat vasitələri və daşınan məsafə arasında olan fərqlə, malın gömrük dəyəri müəyyənləşdirildikdə, bu məcəllənin 38-ci maddəsinin 6-cı hissəsində göstərilən xərclərin fərqliliyini nəzərə almaq üçün düzəliş aparmaq vacibliyi vurğulanıb.

4.İdentik malın birdən çox razılaşma qiyməti üzə çıxdığı zaman, malın gömrük dəyərini müəyyənləşdirmək üçün düzəliş aparmağın əsası kimi minimal dəyərdən istifadə olunmalıdır.

**Maddə 34. Bənzər malların razılaşma qiymətinin üsulu**

1.Gürcüstana idxal olunan və dəqiq və ya təqribi həmin vaxtda (90 gündən gec olmamaqla) təqdim olunan malın idxalı həyata keçirildiyi vaxtda satılıbsa, gömrük orqanı tərəfindən bənzər malın razılaşma qiyməti kimi qeydə alındığı dəyər hesab olunur.

2.Bu maddənin birinci hissəsinə əsasən, malın gömrük dəyərini müəyyənləşdirmənin əsasıdır:

a) Gürcüstana idxal olunan malların kommersial və miqdarı səviyyəsində (malın partiyasının həcmi və qiyməti nəzərdə tutulur) satılan bənzər malların gömrük orqanı tərəfindən qeydə alındığı razılaşma qiyməti;

b) Bu hissənin a) bəndində qeyd olunan şərtlər olmadığında – kommersial səviyyədə və ya başqa miqdarda və qeyd olunan dəyərdə kommersial səviyyədə düzəliş aparılıbsa və ya başqa miqdarda şərti qoyulmuş fərqi nəzərə almaqla gömrük orqanı tərəfindən qeydə alınmış bənzər malın razılaşma qiyməti. Təqdim olunan sübutlara əsasən belə düzəliş aparmaq olar, bu düzəliş dəyərin böyüdüb azaltmasına baxmayaraq düzəlişin məqsədəuyğunluğunu və dəqiqliyini aydın şəkildə göstərir.

3.İdxal olunan malın və ona bənzər malı daşıyan nəqliyyat vasitələri və daşınan məsafə arasında olan fərqlə, malın gömrük dəyəri müəyyənləşdirildikdə, bu məcəllənin 38-ci maddəsinin 6-cı hissəsində göstərilən xərclərin fərqliyini nəzərə almaq üçün düzəliş aparmaq vacibliyi vurğulanıb.

4.Bənzər malın birdən çox razılaşma qiyməti üzə çıxdığı zaman, malın gömrük dəyərini müəyyənləşdirmək üçün düzəliş aparmağın əsası kimi minimal dəyərdən istifadə olunmalıdır.

**Maddə 35. Malın fərdi qiymətinin üsulu**

1.Əgər idxal olunan, identik və bənzər idxal olunan mal Gürcüstana gətirildiyi şəkildə (dəyişdirilmədən) satılırsa, idxal olunan malın gömrük dəyəri, Gürcüstana idxal olunan və həmin vaxtda və ya təxminən həmin vaxtda (90 gündən gec olmamaqla) təqdim olunan malın idxalı həyata keçrildiyi vaxtda idxal olunan, identik və bənzər idxal olunan mal satıcı ilə heç bir münasibətdə olmayan böyük miqdarda, yəni maksimal partiya ilə satılıbsa, həmin malın fərdi qiyməti ilə müəyyənləşdirilir və aşğıdakı qaydalara tabe olur:

a) Razılaşmaya əsas, Gürcüstanda həmin sinfə və ya tipə aid olan malın ödənişi və ya ödənilməli komissiya haqqı və ya idxal olunan malın realizsaiyası ilə bağlı əlavə məbləğə daxil olan gəlirlər və ümumi xərclər.

b) Gürcüstanda, adi olaraq həyata keçirilən nəqliyyat və sığorta xərcləri və onlarla bağlı xərclər;

c) Bu maddənin 38-ci hissəsinin 6-cı bəndində nəzərə alınan xərclər;

d) Gürcüstan qanunvericiliyində nəzərə alınmış malın gətirilməsi və keçirilməsi ilə bağlı gömrük ödənişləri, başqa ödənişlər və vergilər.

2.Əgər idxal olunan, identik və bənzər mallar Gürcüstana gətirildiyi şəkildə (dəyişdirilmədən) satılmırsa, o zaman deklarantın tələbi ilə idxal malın gömrük dəyəri malın fərdi qiyməti ilə, yəni Gürcüstanda emal olunandan sonra idxal olunan mal satıcı ilə heç bir münasibətdə olmayan şəxsə böyük miqdarda və ya maksimal partiya ilə satıldığı qiymətlə müəyyənləşdirilir. Bununla yanaşı, bu maddənin birinci hissəsində göstərildiyi kimi, idxal olunan malın qiymətindən onu emal etdikləri zaman yaranan əlavə dəyər, ödənişlər, xərclər və vergilər mütləq çıxmalıdır.

**Maddə 36. Tərtib olunan dəyərin üsulu**

Malın gömrük dəyəri kimi aşağıdaki şəkildə tərtib olunan dəyər hesab olunur

a) Malın emalı üçün istifadə edilən məsələlər, hazırlanmanın və emalın dəyəri;

b) İxracatçı ölkələrin istesalçıları tərəfindən həmin sinfə və tipə aid olan malların ixracı şəklində satıldığı zaman əldə edilən gəlirin və ümumi xərclərin miqdarı;

c) Bu məcəllənin 38-ci maddəsinin 6-cı hissəsində nəzərdə tutulan xərclər

**Maddə 37.Rezerv (ehtiyyat) üsulu**

1.Malın gömrük dəyəri, Gürcüstanın gömrük qanunvericiliyinə əsasən, Gürcüstanda mövcud olan malların dəyəri haqda verilən göstəricilər sistemi əsasında müəyyənləşdirilir.

2.Rezerv üsulu zamanı gömrük dəyərlərinin müəyyənləşdirilməsi üçün əsas kimi istifadə edilmir:

a) Gürcüstanda yaranan malın daxili satış qiyməti;
b) İxracatçı ölkənin daxili bazarında malın qiyməti;
c) Başqa ölkəyə ixrac ediləsi malın qiyməti;
d) Malın minimal gömrük dəyəri;
e) Malın özbaşınalıqla seçilmiş və ya qondarma dəyəri;
f) Malın iki dəyəri arasında ən böyük ortaq dəyər prinsipi;
g) Bu məcəllənin 36-cı maddəsinin a) bəndində göstərilən xərclərin identik və ya bənzər malların dəyərinin istifadəsində.

3.Rezerv üsullarının məqsədləri üçün dəyərləndirmə üsulu kimi, bu məcəllənin 32-36-cı maddələrində verilən əsasnamələr istifadə olunur, amma onların qəbul olunmasının asan yolu bu üsulun məqsədlərinə və əsasnaməsinə müvafiq olmalıdır. Dəyərləndirmə üsulunun asan yolu deyiləndə, yuxarıdakı üsulların liberal istifadəsi nəzərdə tutulur. Xüsusən isə:

a) Razılaşma qiymətinin üsulundan istifadə: əgər deklarant gömrük dəyərini təsdiq edən sənəd bəyan etməyibsə, verilən malın dəyərləndirilməsi gömrük orqanında və ya deklarantda olan qiymət haqda göstəricilərin əsasında da baş verə bilər.

b) İdentik malın razılaşma qiyməti və ya bənzər malın razılaşma qiymətinin üsulundan istifadə: bu vəziyyətdə asan yol deyildikdə, identik malın və ya bənzər malın gətirildiyi müddətin azad interpretasiyası nəzərdə tutulur. Bununla birlikdə, identik və ya bənzər mal idxal olunan maldan fərqli olaraq başqa ölkədə və başqa istesalçı tərəfindən istesal olunmuş ola bilər;

c) Malın fərdi qiymətindən və tərtib olunan dəyərin üsulundan istifadə: bu zaman asan yol deyildikdə , həmin

sinifdən və ya tipdən olan malın dəyişilməz vəziyyətində verilməsi haqda tələbin və daxili bazarda satış müddətinin azad interpretasiyası və idxal olunan malın emal olunma mümkünlüyünə xüsusi şərtlərin olmaması nəzərdə tutlur. İdentik və ya bənzər mal olmadığında, həmin sinfə və ya tipə aid olan başqa ölkələrdən gətirilən maldan da istifadə etmək olar. Bununla yanaşı satıcı və alıcı arasında münasibət, olsa da belə, nəzərə alınmır.

4.Rezerv üsulu ilə müəyyənləşdirilmiş malın gömrük dəyəri mümkün gədər maksimal olaraq müəyyən olunmuş malın gömrük dəyərinə yaxın olmalıdır.

**Maddə 38. Gömrük dəyərlərinin elementləri**

1.Bu məcəllənin 32-ci maddəsinə əsasən idxal olunan malın gömrük qiymətini müəyyənləşdirəndə razılaşma qiymətinə alıcının real olaraq çəkdiyi, amma razılaşmaya əlavə olunmamış xərclər əlavə olunmalıdır:

a) Aldığı komissiya xərclərdən savayı, komissiya və broker xərcləri;

b) Gömrük məqsədlər üçün idxal malları ilə birgə müzakirə olunan konteynerlərin dəyəri;

c) Əmək və qablaşmanı nəzərə almaqla qablaşdırmanın dəyəri.

Əgər alıcı tərəfindən mal və ya xidmət satıcıya havayı və ya aşağı qiymətə birbaşa və ya dolayı yolla verilirsə və idxal olunan malın istesalı və ixrac satışı ilə bağlı, malın gömrük dəyərinin bu məcəllənin 32-ci maddəsinə əsasən müəyyənləşdirildiyində, razılaşma qiymətinə sonrakı malın və xidmət olunmaya proporsional bölünmüş dəyər əlavə olunmalıdır, elə miqdarda ki, bu dəyər ödənilmiş və ya ödəniləsi qiymətə əlavə edilməmiş olsun.

a) Malın tərkibində olan məsələlərə, hissələr (detallar) və başqa analoji komponentlər;

b) Malın istesalı zamanı istifadə edilən iş alətləri, ştamplar, qəlib formaları və əmək üçün lazım olan başqa vasitələr;

c) Gürcüstandan kanarda istesal olunan mühəndis işi, emal olunma, konstruktor və bədii dizayn işi, xətt çəkmə işi, layihələr, sxemlər, eskizlər və başqa işlər.

2.Bu maddənin 2-ci hissəsinin məqsədləri üşün, gömrük dəyərinə daxil olan malın və xidmət olunmanın dəyəri alıcı aldığı qiymət ilə müəyyənləşdirilməlidir. Əgər bu mal alıcı tərəfindən istehsal olunubsa,onun qiyməti alıcının mühasib sənədlərinə əsaslanmaqla müəyyənləşdirilir. Əgər təqdim olunan mal amortizə olunubsa, onun dəyəri amortizasiya normalarını nəzərə almaqla müəyyənləşdirilir.

3.Bu məcəllənin 32-ci maddəsinə əsasən malın gömrük rüsumunun müəyyənləşdirilməsi zamanı, razılaşma qiymətinə, idxal olunan malla bağlı müəllif qonorarı və ya lisenziya ödənişləri ödənilən və ya ödəniləcək qiymətə əlavə olunmayan miqdarda əlavə olunmalıdır və alqı-satqının razılaşmasında idxal malın şərtlərini nəzərə almaqla alıcı birbaşa və dolayı yolla ödəməlidir. Buraya daxildir patentlərin, malın markalarının, muəllif hüquqularınin, "Nou-Hauz" - ödənişləri. Bununla birlikdə, gömrük rüsumlarına əlavə olunur lisenziya və intellektual mülkün ödənişləri, əgər intellektual mülkün nümunələri idxal olunan malla ayrılmaz əlaqədədirsə və bu şərtlər müqavilədə qeyd olunubsa. Əgər alıcı üçüncü şəxsə lisenziya ödənişləri ödəyirsə, bu satıcı ilə razlaşdırılmış olmalıdır.

3.Bu məcəllənin 32-ci maddəsinə əsasən malın gömrük rüsumunun müəyyənləşdirilməsi zamanı, razılaşma qiymətinə, malın hər yenidən satıldığından, istifadəsindən sonra birbaşa və dolayı yolla satıcıya məxsus olan gəlirin bir hissəsinin rüsumu əlavə olunmalıdır.

4.İdxal malına Gürcüstanın gömrük sərhədini keçənə gədər çəkildiyi xərclər malın gömrük rüsumuna əlavə olunur:

a) Nəqliyyatın rüsumu, yükləmə - boşalmanın və emal edilmənin (o cümlədə anbarda saxlanmanın) xərcləri. Əgər müxtəlif malın partiyası eyni nəqliyyat vasitəsi ilə idxal olunubsa, nəqliyyatın xərcləri bərabər bölünür;

b) Sığorta ilə bağlı xərclər.

1.Bu maddənin əsasnaməsinə müvafiq olaraq, razılaşma qiymətinə, malın kəskin şəkildə müəyyən edilən miqdarına, inamlı göstəricilərə əsasən müəyyənləşdirilmiş ,çəkilən xərclər əlavə olunur.

2.Malın gömrük rüsumları müəyyən etdirildikdə, bu maddə ilə nəzərdə tutulmayan xərclər razılaşma qiymətinə əlavə olunmur.

3.Malın gömrük rüsumuna, malın faktiki qiymətindən ayrılan ödənişlər və xərclər əlavə olunmamalıdır:

a) Gürcüstanın qanunvericiliyi ilə qoyulan ödənişlər və rüsumlar;

b) İxracatçı ölkənin, razılaşma qiymətindən ayırdığı dolayı ödənişləri;

c) Gürcüstanın gömrük sərhədini keçəndən sonrakı nəqliyyat xərcləri;

d) Mal gətirildikdən sonra çəkilən inşaa-montaj işlərinin, anbarın, xidmətin və ya texniki yardım xərcləri;

e) Gürcüstan ərazisinə idxal olunan malın daşınması ilə bağlı müxtəlif prosedur xərcləri və başqa xərclər.

**Maddə 39. Gömrük rüsumuna əlavə olunan faizlər**

1.Alıcının idxal olunan malın alınması ilə bağlı qoyduğu razılaşmada nəzərdə tutulan faizlər, malın gömrük rüsumuna əlavə olunmur, əgər:

a) Bu faizlər malın faktiki qiymətindən bölünübdürsə;

b) Maaliyyə razılaşma yazılı şəkildə tərtib olunubdursa;

c) Lazım olduğu zaman, alıcı təsdiq edə bilər ki, mal faktiki olaraq bəyan edilmiş qiymətə satılıb və onu maaliyyələşdirən şəxs olduğu ölkədə maaliyyələşdirdiyi zaman

fəaliyyətdə olan bənzər razılaşmalara nisbi olaraq , faiz hissəsi orta faiz hissəsini keçmir.

2.Bu maddənin birinci hisəsinin əsasnamələri, razılaşmanı maaliyyəşdirən satıcı, bank və ya üçüncü şəxs nəzərə alınmadan istifadə olunur.

**Maddə 40. Göstəricilərin avtomatik emalının və ya tədris proqramların proqramla təminat daşıyıcılarının gömrük rüsumunun müəyyənləşdirilməsi**

1.Bu məcəllənin 32-ci və 39-cu maddələrinin əsasnaməsindən fərqli olaraq, göstəricilərin avtomatik emalının və ya tədris proqramlarının proqramla təminat daşıyıcılarının gömrük rüsumu müəyyənləşdirildikdə yalnız, bu proqramın dəşıyıcısının qiyməti nəzərə alınır, çünki göstəricilərin avtomatik emalının və ya tədris proqramlarının dəyəri proqram daşıyıcısının dəyərindən sənədlə ayrılır.

2.Proqram daşıyıcılarının gömrük dəyəri, proqram daşıyıcılarının dəyərinə və onun tranzitinə, yüklənib – boşaldılmasına, baxılmasına və qablaşdırılmasına çəkilən xərclərin cəmi ilə müəyyən edilir.

3.Bu maddənin məqsədləri üçün "daşıyıcı" anlayışı inteqrasiya olunmuş sxemləri, yarımkeçiriciləri və ya cihazları , "göstəricilər" və " tədris proqramları" anlayışı isə audio-kino və videoyazıları əhatə etmir.

**Maddə 41. Malın gömrük rüsumu müəyyənləşdirildikdə yaranan ixtilaf (narazılıq)**

1.Əgər gömrük orqanı bəyan olunmuş malın gömrük rüsumu ilə razlaşmırsa, o zaman, o, öz fikrini deklaranta bildirməlidir və gömrük rüsumu bu məcəllənin fəsili ilə müəyyənləşdirilməlidir. Deklarantın vəzifəsidir ki, bu məcəllə ilə tənzimlənən qaydada idxal olunan malın gömrük rüsümunu müəyyən etmək məqsədi ilə gömrük orqanının tələbi ilə gömrük orqanına məlumat (o cümlədən sübutlar və sənədlər) təqdim etsin.

2.Əlavə vəziyyət üzə çıxdığında gömrük orqanı gömrük rüsümunu müəyyən etdiyi tarixdən 6 təqvim ili müddətində gömrük rüsümuna düzəliş etsin.

3.Əgər deklarant gömrük orqanının müəyyən etdiyi gömrük rüsumu ila razlaşmırsa, o, bu məcəllədə qoyulan qayda ilə gömrük orqanının qərarını şikayət edə bilər. Belə bir vəziyyətdə deklaranta imkan verilir ki, gömrük orqanından öz malını çıxartsın, əgər, o, özü müəyyən etdiyi malın gömrük rüsumunun əsasında hesablanan gömrük rüsumunu ödəyərsə və əlavə olaraq, bu məcəllədə nəzərdə tutulan zəmanəti təqdim edərsə. Bu zəmanət gömrük orqanı tərəfindən malın gömrük rüsumunun əsasında hesablanan ödənişlərin və deklarant müəyyən etdiyi malın gömrük rüsumu əsasında hesablanan gömrük ödənişləri arasında olan fərqdir.

4.Deklarantın hüququ var ki, yazılı şəkildə gömrük orqanına müraciət etsin və özü gətirdiyi və ya çıxartdığı malın yoxlanılması zamanı, gömrük orqanı tərəfindən gömrük rüsumunun müəyyənləşdirilməsi haqda yazılı şəkildə bildiriş alsın.

**Maddə 42. Gömrük rüsumu müəyyənləşdirildikdə xüsüsi əsasnamələr**

Gömrük rejimindən istifadə ediləndən sonra azad dövriyyəyə buraxılmış və gömrük rüsumunu müəyyən etməni tənzimləyən əsasnamələrin istifadəsini məhdudlaşdırmayan mala bu fəsildən istifadə etmə.

**Maddə 43. Müxtəlif gömrük əməliyyatları zamanı malın azad dövriyyəyə buraxılmasından savayı gömrük rüsumlarını müəyyən etmək**

1.Gömrük ərazisindən kanarda malın emalının gömrük rejimi ilə çıxarılmış malın emalından sonra əldə edilən məhsulu Gürcüstan gömrük ərazisinə gətirildiyində, onların gömrük dəyərindən, emal üçün çıxarılan və bəyan olunan malın gömrük dəyəri azaldılır.

2.Bu maddənin birinci hissəsini nəzərə almaqla gömrük rejimi və malın azad dövriyyəyə buraxılmasından savayı, başqa

gömrük əməliyyatları üçün malın gömrük dəyəri bu fəsillə müəyyən edilir.

## Bölmə IV.
## Gürcüstanın gömrük ərazisinə malın gətirilməsinin ümumi əsasnamələri

### Fəsil VII. Gürcüstanın gömrük ərazisinə malın gətirilməsi

#### Maddə 44. Gürcüstan gömrük ərazisinə gətirilən mala gömrük nəzarəti

1.Gürcüstanın gömrük ərazisinə gətirilən mal , gömrük ərazisini keçdiyi andan gömrük nəzarətinə tabe olur. Gömrük orqanı belə malın, onunla bağlı şəxslərin, nəqliyyat vasitələrinin və sənədlərin gömrük nəzarətini həyata keçirir. Gömrük ərazisinə malın gətirilməsi gömrük prosedurlarına riaəyət edilməsi ilə həyata keçirilir.

2.Gömrük ərazisinə gətirilən xarici mal,ona gömrük statusu verilənə, dəyişdirilənə, neytral zonaya və ya azad anbara keçirilənə qədər və ya gömrük ərazisindən geri qaytarılana qədər, gömrük nəzarəti altında məhv edilənə qədər gömrük nəzarəti altında olur.

3.Əgər mal gömrük nəzarəti altından qanunsuz çıxardılırsa və ya gömrük orqanı malın gömrük nəzərəti altından qanunsuz çıxardılmasına əsaslı şübhələnirsə və bu məcəllənin 188-ci maddəsinin 2-ci hissəsində qeyd olunan vəzifəli şəxslər gömrük orqanına, onun gömrük nəzərəti altından çıxarılmasının qanuni olduğunu təsdiq edə bilmirlərsə, vəzifəli şəxslər malın gömrük nəzarəti altından qanunsuz çıxmasından 5 – təqvim günü ərzində yaranan gömrük vəzifələrini yerinə yetirməlidir.

4.Gömrük nəzarəti altında olan mala qarşı yalnız gömrük orqanı ilə razılaşdırılmış hərəkətlər və əməliyyatlar

həyata keçirilə bilər, əgər gömrük qanunvericiliyi ilə başqa bir şey nəzərdə tutulmaybsa.

5.Əgər gömrük orqanı nəzarəti altında olan mal məhv olsa və ya xarab olsa, malın mülkiyyətçisi yaxın olan gömrük orqanına dərhal xəbərdarlıq etməli və malın məhvi və xarab olması haqda gömrük orqanına salahiyyətli dövlət orqanları tərəfindən təsdiq olunan müvafiq sübutlar təqdim etməlidir. Yoxsa, mal gömrük nəzarəti altından qanunsuz çıxmış hesab oluna bilər.

6.Əgər, Gürcüstanın gömrük ərazisinə malın qeyri qanuni gətirilməsi haqda və ya Gürcüstanın gömrük ərazisinə gətirilən mal haqda verilən bəyannamənin qeyri dəqiq olması haqda şübhə yaransa, gömrük orqanı tam salahiyyətlidir ki, başqa ölkənin gömrük orqanı tərəfindən verilən Gürcüstana gətirilən malın xarici ölkədən malın çıxardılması haqda qeydiyyatı təsdiq edən deklarasiyanı və ya sənədi sübut kimi hesab etsin.

**Maddə 45. Gürcüstanın gömrük ərazisində malın yerdəyişməsi**

1.Gürcüstanın gömrük ərazisinə mal gətirən şəxsin vəzifəsidir ki,Gürcüstanın gömrük sərhəddini keçəndən sonra malı, qəbul olunmuş qaydada gömrük orqanı tərəfindən seçilmiş və ya Gürcüstanın qanunvericiliyi ilə müəyyən olmuş yerə aparsın.

2.Gürcüstanın gömrük ərazisinə gətirilən malın sonrakı tranzitinin cavabdehliyini öz üzərinə götürən şəxs, bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan öhdəlikləri yerinə yetirməlidir.

5.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan öhdəliklər sərnişinlərin yerdəyişmə və ya post əmanətlərinin gətirilməsi haqda hər hansı bir fəaliyyətdə olan əsasnamədən istifadəni istisna etmir, əgər bu hərəkətlə gömrük nəzarəti və ya gömrük nəzarətini həyata keçirmək imkanı məhdudlaşdırılmırsa.

6.Bu maddənin tələbləri, təyinatı Gürcüstan olmayan mala aid deyilsə və onlar tranzit olunursa:

a) Gürcüstanın ərazisində yerləşən suları və hava məkanından keçən dəniz və ya hava nəqliyyatı vasitəsilə;

b) Boru kəməri və ya elektrik daşıyıcı xəttləri ilə;

1.Sərhəd gömrük orqanına qədər və ya başqa yerə qədər malın tranzit olunma qaydası, müddəti və gömrük tranziti Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

2.Sərhəd gömrük orqanını açmaq, iş müddəti və oranı keçməklə gətirilən malın növləri Gürcüstan hakimiyyətinin əsasnaməsi ilə müəyyənləşdirilir.

3.Gürcüstanın gömrük ərazisinə,bu maddənin 6-cı hisəsində qeyd edilən Gürcüstan hakimiyyətinin əsasnaməsi ilə müəyyən edilməyən yerlərə və ya sərhəd gömrük orqanının qeyri iş vaxtı olduğu zaman malın gətirilmə razılığı mal sahibinin ərizəsi əsasında, öz xərcləri ilə, gömrük orqanı ilə razılaşdırılmaqla və Gürcüstanın Maaliyyə Nazirinin qoyduğu qayda ilə müəyyən edilir.

4.Dövlət, Gürcüstanın gömrük ərazisinə malı gətirənin, bu maddənin tələblərini yerinə yetirmək üçün çəkdiyi xərcləri ödəmir.

**Maddə 46. Qəza və ya fövqəladə hallar zamanı həyata keçirilməli tədbirlər**

1.Bu məcəllənin 233 maddəsinin 6-cı hissəsində nəzərdə tutulan qəza və ya fövqəladə hallara görə bu məcəllənin 45-ci maddəsinin birinci hissəsi ilə nəzərdə tutulan tələbləri yerinə yetirə bilmirsə onun vəzifəsidir ki:

a) Yaxında yerləşən gömrük orqanına qeyd olunan hadisə, malın və ya nəqliyyat vasitəsinin yerləşdiyi yer və vəziyyəti haqda dərhal məlumat versin və onların göstərişi ilə hərəkət etsin.

b) Malın və ya nəqliyyat vasitəsinin toxunulmazlığı haqda hər bir vacib olan ölçünü götürsün;

c) Malın və ya nəqliyyat vasitəsinin ən yaxın gömrük orqanına və ya onların göstəriş verdiyi yerə qədər aparılmasını təmin etsin.

2.Əgər bu məcəllənin 45-ci maddəsinin 4-cü hissəsinin a) bəndində qeyd olunan dəniz və ya hava nəqliyyat vasitəsi bu macəllənin 233-cü maddəsinin 6-cı hissəsində nəzərdə tutulan qəza və ya fövqəladə hallar nəticəsində gömrük ərazisinə məcburi giriş və ya durma həyata keçirirsə, malın və ya nəqliyyat vasitəsinin daşınmasına cavabdeh olan şəxs, bu məcəllənin 45-ci maddəsinin birinci hissəsinin tələblərini yerinə yetirməyə borcludur, onları yerinə yetirmək mümkün olmadığında, bu maddənin birinci hisəsində qoyulan qaydalarla hərəkət etməlidir.

3.Gömrük orqanı, bu maddənin birinci və 2-ci hissəsində nəzərdə tutulan mallara gömrük nəzərətini həyata keçirmək üçün, keçirilməli tədbirləri müəyyən etməlidir, vacib olduğu zaman isə, bu malın gömrük orqanına və ya Gürcüstanın qanunvericiliyi ilə müəyyən edilmiş başqa yerə gədər aparılmasını təmin etməlidir.

4.Dövlət, bu maddənin tələblərini yerinə yetirmək üçün çəkilən xərcləri ödəmir.

## Fəsil VIII. Malın gömrük orqanına təqdim edilməsi

### Maddə 47. Malı təqdimetmə öhdəliyi

1.Mal, bu macəllənin 45-ci maddəsinin birinci hisəsi ilə müəyyən edilmiş yerə aparılan andan gömrük orqanına təqdim olunmalıdır. Malın təqdimetmə öhdəliyini, malı Gürcüstan gömrük orqanına gətirən və ya Gürcüstan gömrük ərazisinə mal gətiriləndən sonra malın sonrakı tranziti haqda öz üzərinə öhdəlik götürən şəxsin üzərinə düşür.

2.Bu maddənin birinci hissəsi, bu əsasnamələrin birinci hissəsindən istifadəni istisna etmir. əgər onlar aiddirsə:

a) Bu məcəllənin 79-cu və 90-cı maddələrinə əsasən sərnişinin şəxsi əşyalarına;

b) Bu məcəllənin 81-ci və 91-ci maddələrinə əsasən Gürcüstan ərazisinə gətirilən poçt əmanətlərinə;

2.Malın təqdim olunma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 48. Gömrük orqanına təqdim olunan malların üzərində keçirilən əməliyyatlar**

Gömrük orqanına malın təqdim olunmasından sonra, gömrük əməliyyatı seçilmək məqsədi ilə gömrük orqanının razılığı ilə malın yoxlanması, prob və ya nümunə götürmək və onun analizi və ya tədqiqi həyata keçirilə bilər. Yazılı vasitəçilik əsasında gömrük orqanı, malın gömrük əməliyyatının aparılmasını müəyyən edən tam salahiyyətli şəxsə razılıq verə bilər. Probun və ya nümunənin bəyan edilməsi tək-tək və ya malla birlikdə baş verir.

## Fəsil IX. Ümümi bəyannamə və gömrük orqanına təqdim olunan malın boşaldılması

**Maddə 49. Ümumi bəyannamə**

Gömrük orqanına malı təqdim edəndən 2 iş günündən gec olmamaq şərti ilə, bu məcəllənin 47-ci maddəsinə müvafiq olaraq şəxs ümumi bəyannamə edir.

**Maddə 50. Ümumi bəyannamə formaları və onu təqdim edən şəxs**

1.Gömrük əməliyyatları seçilənə qədər, onun identifikasiyası, gömrük nəzarəti və gömrük nəzarətini həyata keçirmək üçün lazım olan malın ümumi göstəricilərini təqdim etmək, ümumi bəyannamə deməkdir. Ümumi bəyannamə formaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

1.Ümumi bəyannaməni həyata keçirməlidir :

a) Gürcüstan gömrük ərazisinə malı gətirən şəxs və ya Gürcüstan gömrük ərazisinə malın gətirilməsindən sonra malın sonraki tranziti haqda öhdəliyi öz üzərinə götürən şəxs.

b) Bu hissənin a) bəndində qeyd olunan şəxslər .

2.Dəniz və hava gəmilərinə ümumi bəyannamə, Gürcüstanın təyinatlı dəniz limanlarının və hava limanlarının gömrük ərazisinə girdikdə verilir, Gürcüstanın gömrük ərazisindən çıxdıqda isə - onlar getdikləri hava limanının və ya dəniz limanının gömrük ərazisində.

3.Boş və sərnişinlər olan quru nəqliyyat vasitələrinə, Gürcüstanın gömrük sərhəddini keçdikdə ümümi bəyannamə olunur.

4.Ümumi bəyannamə əsasında, gömrük orqanı tərəfindən gömrük nəzərəti altında olan malın və ya nəqliyyat vasitələrinin qeydiyyat şahadətnaməsi verilməsi, qeydiyyat şahadətnaməsini doldurma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə qoyulan qaydada həyata keçrilir.

**Maddə 51. Malın boşaldılması**

1.Nəqliyyat vasitələrindən malın boşaldılması və ya başqa nəqliyyat vasitələrinə yüklənməsi, yalnız bu məqsəd üçün xüsüsi müəyyən edilmiş yerlərdə və gömrük orqanının iş zamanı olar. Başqa yerlərə və ya gömrük orqanının iş vaxtı olmadığında malın boşaldılması və ya başqa nəqliyyat vasitəsinə yüklənməsi, maraqlı şəxsin müvafiq ərizəsi və gömrük orqanının razılığı ilə baş verir. Gömrük orqanının razlığı lazım deyil, əgər malı birbaşa təhlükə gözləyirsə və malı və ya onun bir hisəsi dərhal boşaldılması tələb olunursa, bu haqda isə, gömrük orqanınna dərhal məlumat verilməlidir.

2.Mala və ya onu daşıyan nəqliyyat vasitəsinə gömrük nəzarəti həyata keçirmək məqsədi ilə, gömrük orqanı hər bir zaman mal sahibinin öz xərci ilə malı öz göstəriş verdiyi yerə, malın boşaldılması, yüklənməsi,başqa nəqliyyat vasitəsinə yükləmək , qablaşdırmaq və açmaq,o cümlədən tikintilərin,

konteynerlərin və başqa anbarların açılması və nəqliyyat vasitlərinin yeni yerə keçməsi məqsədi ilə.

3.Ümümi bəyannaməni həyata keçirən şəxsin vəzifəsidir gömrük orqanına təqdim olunan, nəqliyyat vasitələrindən boşaldılmayan malın, ona qarşı keçiriləcək gömrük əməliyyatları haqda qərar qəbul edilənə qədər toxunulmazlığını təmin etsin.

4.Boşaldılmış malın yerini dəyişmək və ya anbara yerləşdirmək istəyən mal sahibi, malın toxunulmazlığını təmin etməlidir.

**Maddə 52. Yerləşdiyi yerdən malın başqa yerə keçirilməsi - keçirilməyə qadağa qoyulması**

Gömrük orqanının nəzarəti altında olan malın, gömrük orqanının razlığı olmadan yerləşdiyi yerdən başqa yerə keçirilməsi qadağandır, əgər Gürcüstanın gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa.

## Fəsil X. Malın müvəqqəti anbarlanması

**Maddə 53. Malın müvəqqəti anbarlanmasının mahiyyəti**

Gömrük orqanına təqdim olunan mal, təqdim olunandan sonra, ona qarşı gömrük əməliyəti keçrilməsi haqda gömrük orqanı qərar qəbul edənə gədər və ya müvafiq gömrük əməliyyatı istifadə edildikdə, Gürcüstanın qanunvericiliyi ilə müəyyən edildiyi müddətdə bu əməliyyat bitənə qədər, mal müvəqqəti anbarlanmış hesab olunur.

**Maddə 54. Malın müvəqqəti anbarlanmasının şərtləri**

1.Müvəqqəti anbarlanmış mal, gömrük orqanı ilə razılaşdırılmış gömrük anbarında və ya başqa yerdə saxlanmalıdır. Gömrük orqanı borcludur ki, mal sahibindən gömrük öhdəliklərinin yerinə yetirilmə, bu məcəllənin 188 və 189 maddəsinə əsasən yanğın zəmanətini tələb etsin.

2.Müvəqqəti anbarlanmış malın nəzarətini və ya onunla bağlı sənədlərin yoxlamasını həyat keçirmək gömrük orqanının vəzifəsidir.

**Maddə 55. Müvəqqəti anbarlanmış mala qarşı keçiriləcək əməliyyatlar**

Müvəqqəti anbarlaşdırılmış mala qarşı yalnız, onun müdafiəsini təmin edən və onun xarici görnüşünü və ya texniki xarakterini dəyişməyən tədbirləri keçirmək olar, bu məcəllənin 48-ci maddədə nəzərdə tutulanlar istisna olmaqla.

**Maddə 56. Müvəqqəti anbarlaşdırılmış mallara gömrük əməliyyat növlərini müəyyənləşdirmək və ya müəyyən edilmiş gömrük əməliyyatlarının sona çatmadığı zaman gömrük orqanının hərəkətləri**

1.Əgər vəzifəli şəxs bu məcəllənin 61-ci maddəsində müəyyən edilmiş müddətdə, müvəqqəti anbarlaşdırılmış mala gömrük əməliyyatlarını müəyyənləşdirməni və ya artıq müəyyən edilmiş gömrük əməliyyatlarını sona çatdırmaq üçün vacib olan gömrük prosedurlarını həyata keçirmirsə, o zaman mala qarşı məcəllənin 87-ci maddəsinin əsasnamələri tətbiq olunur.

2.Mal sahibinin vəzifəsidir ki, gömrük orqanının tələbi ilə, malı öz xərcləri hesabına saxlasın və ya gömrük nəzərətini həyata keçirmək vacibliyindən irəli gələrək gömrük orqanının tələbi ilə müəyyən olunmuş yerə malın aparılmasını təmin etsin.

3.Malın müvəqqəti anbarlaşdırılma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

## Fəsil XI. Tranzit malın gömrük rejiminə salınması üçün həyata keçriləsi gömrük prosedurları

**Maddə 57. Tranzit gömrük rejiminə salınmalı olan malın Gürcüstan gömrük ərazisinə gətirildiyində istifadə olunmayan əsasnamələr**

Gürcüstanın gömrük ərazisinə, malın tranzit rejiminə salınma tələbi olan mallar, gətirildikdə bu məcəllənin 47-cı və 56-cı maddələrin əsasnamələri tələb olunmur.

**Maddə 58. Mal tranzitinin gömrük rejiminə salınmış xarici malların Gürcüstan ərazisindən çıxardıldığında istifadə olunan əsasnamələr**

Gürcüstanın gömrük ərazisinə təyin olunduğu gömrük orqanına və gömrük orqanına təqdim olunan malın tranzitinin gömrük rejimini tənzimləyən Gürcüstan qanunvericiliyinə müvafiq olaraq, mal tranzitinin gömrük rejiminə salınan xarici mallara qarşı, bu məcəllənin 46-cı, 49-cı,56-cı və 61-ci maddələrinin əsasnamələrindən istifadə olunur.

## Fəsil XII. Başqa gömrük prosedurları

**Maddə 59. Gömrük orqanına təqdim olunan mala qarşı həyata keçirilən başqa prosedurlar**

1.Müvəqqəti anbarlaşdırılma məqsədi ilə mal sahibinin vasitəçiliyi əsasında gömrük orqanının salahiyyətlərindədir ki, gömrük orqanına təqdim olunan malı, ona qarşı keçiriləcək gömrük əməliyyatının müəyyənləşməsi sona çatana qədər Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin gömrük anbarında saxlasın.

2.Mal sahibinin müvafiq yazılı vasitəçiliyi əsasında gömrük orqanı salahiyyətlidir ki, Gömrük orqanına təqdim olunan malı gömrük nəzarəti altında, bu məcəllənin 167-ci maddəsinə müvafiq olaraq məhv etsin.

**Maddə 60. Gürcüstanın gömrük ərazisinə malın qanunsuz gətirildiyi və ya gömrük orqanına onun təqdim olunmaması zamanı, gömrük orqanı tərəfindən keçiriləcək prosedurlar**

Gürcüstanın gömrük ərazisinə malın qanunsuz gətirildiyi və ya gömrük orqanına onun təqdim olunmamsı zaman və ya Gürcüstanın gömrük qanunvericiliyi başqa yolla pozulduğu zaman gömrük orqanı malı saxlayır və Gürcüstanın qanunvericiliyinə müvafiq olaraq hərəkət edir.

**Maddə 61. Gömrük əməliyyatının keçirilməsini müəyyən edən və ya artıq müəyyən edilmiş gömrük əməliyyatlarının sona çatması üçün qoyulan müddət**

1.Əgər mala ümumi bəyannamə həyata keçrilibsə, gömrük əməliyyatını müəyyənləşdirmənin sona çatması üçün sonrakı gömrük prosedurları həyata keçirilməlidir:

a) Mal dəniz yolu ilə gətrilibsə ümumi bəyannamədən 45 təqvim günü ərzində;

b) Mal başqa yol ilə gətrilibsə ümumi bəyannamədən 20 təqvim günü ərzində;

1.ömrük orqanı müvafiq sübutlarla bu maddənin birinci hissəsində qeyd olunan müddəti azalda bilər və ya deklarantın yazılı ərizəsi əsasında onları 45 təqvim günü uzada bilər.

2.u maddənin məqsədləri üçün gömrük əməliyyatlarının müəyyənləşdirilməsinin sona çatması üçün lazım olan gömrük prosedurlarında Gürcüstanın gömrük qanunvericiliyinə müvaiq olaraq malın və gömrük bəyanamsinin təqdim edilməsi nəzərdə tutulur əgər bu qanunvericiliklə başqa bir şey nəzərdə tutulayıbsa.

3.Üzərində gömrük əməliyyatı keçirilən mal, şəxsin tələbi ilə 3 aydan çox olmamaqla müvəqqəti anbarda saxlana bilər.

## Bölmə V
## Malın gömrük işlənmə əməliyyatları
## Fəsil XIII. Ümumi müddəalar

**Maddə 62. Malın gömrük işlənmə əməliyyatının müəyyənləşdirilməsi**

1.Malın növlərindən, miqdarından, onun yaranmasından, göndərəndən və qəbul edən ölkələrdən aslı olmayaraq, malın gömrük işlənmə əməliyyatları bu məcəllənin qoyduğu şərtlərə müvafiq olaraq əgər Gürcüstanın gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa gömrük prosedurları həyata keçirildiyi hər bir zamanda müəyyən edilə bilər.

2.Malın gömrük işlənmə əməliyyatlarının müəyyənləşdirilməsi üçün gömrük prosedurlarının həyata keçirmək qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə qoyulur.

**Maddə 63. Gömrük ərazisinə malın gətirilməsi ilə və ya gömrük ərazisindən malın çıxardılması ilə bağlı lisenziyalar, sertifikatlar, razılıqlar, qadağalar və ya məhdudlaşdırmalar**

1.Qanunvericilik aktlarının və ya onun əsasında qoyulan qanunatabe olan normativ aktların nəzərə aldığı hallarda salahiyyətli dövlət orqanlarının qərarı ilə Gürcüstan gömrük ərazisinə malın gətirilməsi və ya Gürcüstan gömrük ərazisindən malın çıxarılmasına məhdudiyyətlər və ya qadağalar qoyula bilər.

2.Gürcüstanın gömrük ərazisinə gətirilməsi qadağan olunan mallar Gürcüstanın gömrük sərhəddini keçdiyi halda, dərhal gömrük ərazisindən çıxarılmalıdır, əgər bu məcəllənin və ya başqa qanunvericilik aktları ilə digər hal nəzərdə tutulmayıbsa. Əgər, həmin malın dərhal Gürcüstan gömrük ərazisindən çıxarılması mümkün deyilsə, o müvəqqəti saxlanma anbarına və ya gömrük orqanı göstəriş verdiyi başqa gömrük nəzarət zonasına yerləşdirilməlidir. Bu cür malların çıxarılması öhdəliyi və müvəqqəti saxlanma xərcləri ,onu qəbul edənin və mal sahibinin üzərinə düşür. Belə hallarda, mal 3

təqvim günündən çox saxlanmamalıdır, əks halda malın üzərində, bu məcəllənin 87-ci maddəsində nəzərdə tutulan hərəkətlər tətbiq olunur.

3.Gürcüstanın Maaliyyə Nazirliyinin və müvafiq olan nəzarəti həyata keçirməyə cavabdeh olan nazirliklərinin birgə əmri ilə müəyyənləşdirilə bilər, sanitar-karantin, dövlət veterinar sərhəd- karantin, dövlət fotosanitar sərhəd-karantin, texniki standartlara müvafiq və keyfiyyətdə və ya başqa dövlət nəzarətinə tabe olan malın Gürcüstan gömrük ərazisinə gətirilməsi və ya Gürcüstanın gömrük ərazisindən çıxardılması mümkün olmayan sərhəd gömrük orqanları.

4.Bu maddə ilə nəzərdə tutulmuş qadağaları və ya məhdudiyyətləri yerinə yetirmək üçün çəkilən xərcləri dövlət ödəmir.

5.Malın Gürcüstanın gömrük ərazisinə gətirilməsi haqda və ya Gürcüstanın gömrük orqanından çıxarılması haqda ,Gürcüstanın qanunvericiliyi ilə qoyulmuş lisenziyaların, razılıqların və sertifikatların verilmə salahiyyətləri Gürcüstan hakimiyyətinin qərarı ilə Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük orqanına yönəldilə bilər.

**Maddə 64. Gömrük nəzarətini həyata keçirmək**

1.Gürcüstanın gömrük ərazisinə gətirilməsi və ya Gürcüstanın gömrük ərazisindən çıxarılması qadağan olunmayan malların Gürcüstanın gömrük sərhəddini keçməyə razılıq verilir.

2.Malın Gürcüstanın gömrük ərazisinə gətirilməsi və ya Gürcüstanın gömrük ərazisindən çıxarılması üçün, Gürcüstanın qanunvericiliyi ilə müəyyən edilən razılıqlar və ya lisenziyalar, gömrük prosedurları həyata keçirildikdə təqdim olunmalıdır.

3.Gömrük nəzarətinin həyata keçirdiyində gömrük orqanı tam salahiyyətlidir, bu məcəllənin 78-ci maddəsinin 2-ci hissəsində nazərə alındığı hallarda ekspert dəvət etsin. Ekspertin xərclərini gömrük orqanı ödəyir, əgər Gürcüstanın gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa.

4.Gömrük nəzərətini həyata keçirmək, insan həyatına və onun sağlamlığına təhlükə yaratmamalıdır və yoxlanılmalı mala və ətraf mühitə zərər verməməlidir. Gömrük nəzarəti heç bir maneə olmadan həyata keçirilir.

5.Gömrük anbarında, neytral zonada, azad anbarda, poçt xidmətləri yerində, dəniz limanında, hava limanında və dəmir yolu vağzalında gömrük nəzarəti həyata keçirmək məqsədi ilə gömrük orqanı salahiyyətlidir ki, tikinti və sahə sahibləri və ya mülkiyyətçilərindən (əgər sahibkar, mülkiyyətçi deyilsə) Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə normaları müəyyənləşdirilən tikinti-binaları və ya sahələri ödənişsiz istifadə etmək üçün tələb etsin.

1.Gömrük nəzarətini həyata keçirdikdə gömrük orqanının tələbi əsasında, deklarantın vəzifəsidir ki, malın miqdarını öz xərcləri hesabına müəyyən etsin.

2.Gömrük nəzarəti risklərin müəyyən edilməsi, analizlər, idarə, monitorinq və prioritet əsasında həyata keçirilir.

3.Gömrük nəzarətini həyata keçirəndə istifadə ediləcək risklərin idarə edilmə sistemi, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

## Fəsil XIV. Gömrük rejiminə malın salınması üçün, bəyannamə və yoxlanma ilə bağlı gömrük prosedurlarının həyata keçirilməsi

1.Gömrük rejiminə salınmalı mala mütləq gömrük bəyannaməsi təqdim olunmalıdır, əgər bu məcəllədə başqa bir şey nəzərdə tutulmayıbsa.

2.Malın eksportunun gömrük rejiminə gömrük ərazisində malın gömrük rejimində işlənməsi üçün və ya gömrük anbarında malın saxlanılmasını, gömrük rejiminə salması üçün mal gömrük bəyannaməsi təqdim edilən andan, malın tranzitinin gömrük rejimi halında isə ümumi bəyannamədən, malın Gürcüstanın gömrük ərazisindən çıxarılmasına qədər və

ya bu məcəllənin 167-ci maddəsinə müvafiq olaraq gömrük nəzarəti altında malın məhvinə və ya gömrük bəyannaməsinin ləğv edilmiş hesab edənə qədər gömrük nəzarəti altındadır.

3.Malın daşınmasını həyata keçirən quru nəqliyyat vasitələrinin bəyannaməsi, malla birlikdə həyata keçirilir, bu məcəllənin 50-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulan istisna olmaqla.

4.Beynəlxalq hava, dəmiryolu və dəniz reyslərini həyata keçirən nəqliyyatlara, sərnişinlərə və ekipaj üzvlərinə şəxsi istifadələri üçün lazım olan mallar və həmin nəqliyyata normal şərait üçün yüklənən su, yanacaq və yağlama məsələləri (ehtiyat hissələrindən və cihazlardan savayı) bu məcəllə ilə qoyulan qaydalarla gömrük bəyannaməsinə tabe olmur.

**Maddə 66. Gömrük prosedurlarını keçirmək üçün vaxt və yer**

Gömrük orqanlarında gömrük prosedurları həyata keçmək üçün lazımı yer və vaxt Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyənləşdirilir.

**Maddə 67. Gömrük bəyannaməsinin təqdim etmə vasitələri**

1.Gömrük bəyannaməsi yazılı və ya elektron formada təqdim olunur.

2.Malın mülkiyyətçisi, Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq istəyini şifahi (sərnişin halında) və ya başqa vasitə ilə bəyan edir və malın üzərində gömrük rejiminin istifadə istəyini bildirirsə, bu, gömrük bəyannaməsini təqdim etmək kimi hesab olunur.

**Maddə 68. Gömrük bəyannamə forması və əlavə sənədlər**

1.Gömrük bəyannaməsi, xarici-iqtisadi işgüzarlığın tənzimləmə mexanizminin düzgün istifadəsi üçün, gömrük statistikasını aparmaq və Gürcüstanın gömrük qanunvericiliyini yerinə yetirmək üçün , o cümlədən müvafiq gömrük rejiminin tələblərini həyata keçirmək üçün vacib olan göstəriciləri əhatə

etməlidir. Gömrük bəyannaməsinin növləri, formaları və doldurulma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyənləşdirilir.

2.Gömrük bəyannaməsinə Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan və gömrük rejiminin şərtlərinin yerinə yetirmək üçün və bəyannamə göstəricilərini təsdiq etmək üçün lazımi sənədlər əlavə olunmalıdır. Müvafiq sənədlərin sayı, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 69. Gömrük bəyannaməsinin qeydiyyatı**

1.Gömrük orqanı, bu məcəllənin 68-ci maddəsinə müvafiq olaraq təqdim etdiyi bəyannamənin qeydiyatını dərhal həyata keçirir, əgər bəyannamədə qeyd olunan malların gömrük orqanına təqdim edilməsi və Gürcüstanın qanunvericiliyi ilə başqa bir şey nəzərdə tutulmayıbsa.

2.Əgər gömrük bəyannaməsinin formasına və onu doldurma qaydalarına riayət olunmayıbsa, bəyannamə ilə verilən sənədlər, yol verilən pozuntuya işarə edilməklə sahibinə geri qaytarılır.

3.Qeydə alındığı gündən gömrük bəyannaməsi hüquqi əhəmiyyətı olan faktları təsdiq edən sənəd hesab olunur, əgər bu məcəllə ilə başqa bir şey nəzərdə tutulmaybsa.

4.Malın gömrük bəyannamə qeydiyyatı günü fəaliyyətdə olan gömrük rejimini tənzimləyən Gürcüstan qanunvericiliyi istifadə olunur, əgər bu məcəllə ilə başqa bir şey nəzərdə tutulmayıbsa.

5.Gömrük bəyannaməsinin təqdim etmə, qeri qaytarılma və qeydiyyata alınma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 70. Deklarant**

1.Bu məcəllənin 8-ci maddəsinin əsasnaməsini nəzərə almaqla, malı səlahiyyətli gömrük orqanına təqdim edən şəxsin gömrük bəyannaməsini təqdim etmək hüququ var.

2.Əgər gömrük bəyannaməsinin qeydiyyatdan keçirmək şəxsə qarşı öhdəliklər yaradırsa, o zaman gömrük bəyannaməsini müvafiq şəxs və ya onun nümayəndəsi təqdim etməlidir. Bu məcəllənin 8-ci maddəsinin əsasnamələrini nəzərə almaqla Gürcüstanın gömrük ərazisinə mal gətirildiyi zaman malı qəbul edən deklarant hesab olunur, gömrük ərazisindən mal çıxarıldığı zaman – malı göndərən, bunlar isə malın mülkiyətçisinin sənədlərində müvafiq olaraq göstərilməlidir. Bununla birgə, malın tranzitinin gömrük rejimində malın dönməsi zamanı, deklarant malın mülkiyyətçisi ola bilər.

3.Deklarant Gürcüstanın vətəndaşı, rezident isə fiziki şəxs və ya Gürcüstanın müəssisəsi /təşkilatı, bu maddənin 4-cü hisəsində nəzərə alınan hallar istisna olmaqla.

4.Xarici vətəndaş tərəfindən (bu maddənin 3-cü hissəsində nəzərdə tutulan rezident fiziki şəxs istisna olmaqla) və ya xarici müəssisə/təşkilat tərəfindən Gürcüstanın gömrük sərhəddində malın bəyannaməsi həyata keçrilir:

a) Malın tranzitinin gömrük rejiminə və ya malın gömrük rejiminə müvəqəti gətirildiyində;

b) Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilən başqa hallarda.

1.Deklarant və gömrük bəyannaməsini təqdim edən nümayəndə, şəxs bəyannamə göstəricilərin dəqiqliyinə, təqdim olunan sənədlərin həqiqiliyinə və gömrük bəyannaməsinə malın müvafiq olmasına cavabdehdir.

**Maddə 71. Bəyan olunmuş göstəricilərin dəyişdirilməsi**

1.Gömrük bəyannaməsinin qeydiyyatından sonra, deklarantın yazılı ərizəsi əsasında gömrük bəyannaməsində işarə olunan göstəriciləri dəyişmək olar, yalnız bu maddənin 2-ci hissəsi ilə qeyd olan hallar istisna olmaqla.

2.Gömrük bəyannaməsinə dəyişiklik etmək qadağandır, əgər:

a) Gömrük orqanı malın çeşidlərini, miqdarını, istehsal ölkəsinin və ya gömrük rüsumu haqda qeyri dəqiq bəyannamə göstəriciləri dəqiqləşdirilibsə;

b) Gömrük orqanı, malı buraxıbsa.

1.Gömrük orqanının salahiyyətli şəxsi tərəfindən bəyannaməni doldurmaq və ya gömrük bəyannaməsinin göstəricilərinə nə isə artırmaq və ya göstəriciləri dəyişmək qadağandır yalnız Gürcüstanın Maaliyyə Nazirinin müəyyən etdiyi hallar istisna olmaqla.

1. Bu maddədə qeyd olunan bəyannamə göstəriciləri dəyişdirildikdə, deklarant , bu məcəllə ilə nəzərdə tutulan cavabdehliyə cəlb oluna bilməz.

**Maddə 72. Mal buraxılana qədər qeydə alınan gömrük bəyannaməsinin ləğvi**

1.Deklarantın yazılı ərizəsi əsasında, mal buraxılana qədər qeydə alınmış gömrük bəyannaməsi ləğv olunmuş hesab oluna bilər, bu maddənin 2-ci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla.

2.Gömrük qərarına əsasən, mal buraxılana qədər qeydə alınmış gömrük bəyannaməsi ləğv oluna bilər, əgər bu bəyannaməni yoxladıqda üzə çıxsa ki:

a) Mal üzərində bəyan olunmuş gömrük əməliyyat növündən istifadə mümkün deyil;

b) Deklarant mal üzərində bəyan olunmuş gömrük işlənmə əməliyyatından istifadə etmək üçün vacib olan hərəkətləri yerinə yetirməyib və bu maddə ilə qoyulan qaydada salahiyyətli gömrük orqanlarına bəyannamənin ləğv edilməsi üçün müraciət etməyib;

c) Malın çeşidi, miqdarı, yaranan ölkə və ya gömrük rüsumu haqda bəyannamə göstəriciləri dəqiq deyil.

1.Qeydə alınmış gömrük bəyannaməsini ləğv etmək, Gürcüstanın qanunvericiliyini pozmaq üçün nəzərdə tutulan cavabdehlikdən azad olma əsası hesab olunmur.

**Maddə 73. Gömrük rejimini tənzimləyən Gürcüstanın gömrük qanunvericiliyindən istifadə etmək**

Gömrük rejiminə düşmək üçün, gömrük bəyannaməsinin qeydiyyata alındığı gün üçün fəaliyyətdə olan müvafiq rejimi tənzimləyən Gürcüstanın qanunvericiliyindən istifadə olunur, bu maccələnin 89-cu maddəsində nəzərdə tutulan hallar istisna olmaqla.

**Maddə 74. Qeydə alınmış gömrük bəyannaməsini yoxlamaq**

1.Qeydə alınmış gömrük bəyamnməsini yoxlamaq məqsədi ilə gömrük orqanı salahiyyətlidir:

a) Gömrük bəyannaməsinin sənədlərlə və təqdim olunan malla müvafiq olmasını yoxlasın;

b) Deklarantdan, bəyannamə göstəriciləri ilə bağlı əlavə sənədlər tələb etsin;

c) Malı yoxlasın və prob və ya nümunə götürsün.

1.Bu maddənin birinci hissəsində nəzərdə tutulan prosedurları həyata keçirmək zamanı belə hərəkətlər üçün lazım olan müddətdən çox olmamalıdır.

**Maddə 75. Malın yoxlanması və prob yaxud nümunə götürmək**

1.Malın yoxlanma yeri və vaxtı Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyənləşdirilir. Deklarantın yazılı ərizəsi əsasında malın yoxlanması başqa yerdə və vaxtda da baş verə bilər. Müvafiq xərcləri deklarant ödəməlidir.

2.Deklarantın vəzifəsidir ki, malın yoxlanması və prob və ya nümunə almaq üçün malı təyin edilən yerə aparsın və ya malın aparılması onu yoxlamaq və prob və ya nümunə götürmək üçün lazım olan hərəkətlərin təşkilini öz üzərinə götürdüyü cavadehliklə ilə həyata keçirsin. Əgər deklarant bu hərəkətləri həyata keçirməkdən imtina edirsə o zaman, onları gömrük orqanı deklarantın xərcləri həyata keçirir.

3.Deklarant, səlahiyyətlidir malın yoxlanmasında prob və ya nümunə alınmasında iştirak etsin. Malı yoxlamağa və

prob və ya nümunə almağa yardım etmək məqsədi ilə, gömrük orqanının tələbi əsasında deklarantın və ya onun nümayəndəsinin vəzifəsidir ki, malın yoxlanma və prob və ya nümunə alınmasında iştirak etsin.

4.Əgər probun və ya nümunənin alınması deklarantın təşəbbüsü ilə həyata keçirilirsə, keçirilən analizin xərclərini deklarant ödəyir.

5.Əgər probun və ya nümunənin alınması gömrük orqanının təşəbbüsü ilə həyata keçrilirsə, keçirilən analizin xərclərini gömrük orqanı ödəyir. Həmçinin, gömrük orqanının vəzifəsi deyil ki, prob və ya nümunə almaqla yaranan zərəri ödəsin. Götürülən prob və ya nümunə analiz və ya təqdiqat üçün lazım olan miqdardan çox olmamalıdır.

6.Gömrük orqanının vəzifəsidir ki, analizin və ya tədqiqatın nəticələrinin poçt və ya elektron formada deklaranta bildirsin. Tələb etdiyi zaman, deklaranta istifadə olunmamış probun və ya nümünənin qalıqları qaytarılır.

7.Malın yoxlanması və prob və ya nümunə alması zamanı həyata keçirilməli gömrük prosedurları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 76. Bəyan olunmuş malın seçimli yoxlanması**

1.Əgər gömrük orqanı bəyan olunmuş malın bir hissəsini yoxlayırsa, yoxlanılmış malın yoxlanma nəticəsi ilə akt tərtib olunur və bu akt butün mal üçün qüvvədədir.

2.Əgər deklarant hesab edirsə ki, malın bir hissəsinin yoxlanma nəticələri bütün mallara aid ola bilməz, o, malın əlavə yoxlanmasını tələb edə bilər.

3.Əgər gömrük bəyannaməsində, malın bir neçə çeşidi bəyan olunubdur, bu maddənin 2-ci hissəsindən istifadə etməklə malın hər çeşidinə verilən göstəricilər tək-tək bəyannamə olunmuş kimi müzakirə olunur.

**Maddə 77. Gömrük bəyannamənin yoxlanma nəticələrindən istifadə**

1.Gömrük bəyannaməsinin yoxlanma nəticələri, malın müvafiq gömrük rejimini tənzimləyən Gürcüstanın gömrük qanunvericiliyi məqsədləri üçün istifadə olunur.

2. Əgər gömrük bəyannamə yoxlanması baş tutmursa, Gürcüstanın qanunvericilik məqsədi üçün gömrük bəyannaməsində olan göstəricilərdən istifadə olunur.

**Maddə 78. Nəqliyyat vasitələrinin yoxlanması**

1.Gömrük orqanı tam salahiyyətlidir ki, Gürcüstanın gömrük sərhədini keçən nəqliyyat vasitəsini saxlasın və yoxlasın.

2.Malın azad dövriyyəsi (idxal) ilə gömrük rejimində Gürcüstana gəlir və onun qeydiyyatını Gürcüstanın Daxili İşlər Nazirliyinin nəqliyat vasitələrinin qeydiyyat xidməti həyata keçirirsə, mal çeşidi kimi, nəqliyat vasitəsini və onun rekvizitlərini (identifikasiya markaları, nömrə) yoxlaması həmin müəssisənin mütəxəsislərinin iştiraki ilə, Gürcüstanın Maaliyyə və Daxili İşlər Nazirlərinin birgə əmri ilə qoyulan qaydada və salahiyyətlər hüdudunda həyata keçirilə bilər.

3.Sərhəd buraxılış məntəqəsi ilə Gürcüstanın gömrük sərhədini keçən nəqliyyat vasitəsinin vəzifəsidir ki, sərhədin yanında yerləşən gömrük orqanında dayansın, əgər gömrük orqanı olmadığı halda dayanmadan, kəskin müəyyənləşdirilmiş gömrük marşrutu ilə təyin olunan gömrük orqanına sarı getsin. Nəqliyyat vasitəsinin məcburi dayandırması haqda ən qısa müddətdə ən yaxın yerləşən gömrük məntəqəsinə məlumat verilməlidir.

4.Dəniz limanının, dəmir yolunun və hava limanının salahiyyətli vəzifəli şəxslərin vəzifəsidir ki, hər bir nəqliyyat vasitəsinin daxil olması və çıxması haqda gömrük orqanına məlumat versin və gömrük orqanının razılığı olmadan gətirilən və ya çıxarılan yükün boşaldılmasına və ya yüklənməsinə yol verməsinlər.

**Maddə 79. Şəxsi əşyaların yoxlanılması**

1.Gömrük orqanının salahiyyətli şəxsinin əsaslı şübhəsi olduğu zaman, Gürcüstanın gömrük sərhəddini keçən, gömrük nəzərət zonasında olan sərnişinləri yoxlamaq üçün şəxsi əşyalarının, gömrük nəzərətinə tabe olan valyuta və qiymətli kağızlarını təqdim etmə tələb etsin, sərnişinin vəzifəsidir ki, gömrük orqanının vəzifəli şəxsinə öz yükünü və nəqliyyat vasitəsini təqdim etsin və onun tələbi ilə yükü açsın, əks halda gömrük orqanı Gürcüstanın cinayət məcəlləsinin əsasnamələrində qoyulan qayda ilə hərəkət edə bilər.

2.Şəxsi əşyalar onun sahibinin və ya nümayəndəsinin iştirakı ilə yoxlanılır. Əgər şəxsi əşyaların sahibini dəqiqləşdirmək mümkün olmadısa və ya sahib yoxlamada iştirak etmədən imtina edirsə, gömrük orqanının salahiyyətli şəxsinin qərarı ilə şəxsi əşyaları sahibinin və ya onun nümayəndəsinin iştirakı olmadan yoxlamaq mümkündür.

3.Gürcüstan ərazisinə dəniz limanına və ya hava limanına tranzitlə daxil olan şəxsin (o gömrük nəzərət zonasının tərk etmir) şəxsi əşyalarını, gömrük orqanının salahiyyətli şəxsi, qadağa qoyulan və ya lisenziya tələb olunan əşyaların olması haqda yalnız əsaslı şübhəsi olduğu halda yoxlaya bilər.

**Maddə 80. Sərnişinlərin yoxlanması**

1.Gürcüstanın gömrük sərhəddini keçən, gömrük nəzarət zonasında olan şəxs üstündə və ya bədənində gömrük nəzarətinə tabe olan əşya gizlətdiyi haqda əsaslı şübhə varsa, gömrük orqanının salahiyyətli şəxsinin qərarı ilə sərnişin yoxlanılır, əgər şəxsdə bəyannamə olunmamış əşya əşkar olunursa, onun əməli Gürcüstanın gömrük sərhəddindən malın qanunsuz keçirilməsi kimi hesab olunacaq.

2.Sərnişinin yoxlanmasını, həmin cinsdən olan gömrük orqanının səlahiyyətli şəxsi həyata keçirir. Yoxlanış bunun üçün müəyyənləşdirilmiş yerdə və həmin cinsin nümayəndəsinin şahid qismində iştirakı ilə həyata keçrilir. Yoxlanılmalı sərnişinin tələbi ilə, onun yoxlanılmasında onun özü seçdiyi şahid də iştirak etməlidir.

3.Sərnişini yoxlamamışdan əvvəl gömrük orqanının səlahiyyətli şəxsinin vəzifəsidir ki, sərnişinə vəzifəsini təsdiq edən şəhadətnamə təqdim etsin və onu yoxlama qaydaları ilə tanış etsin.

4.Gömrük orqanının səlahiyyətli şəxsinin hüququdur:

a) Sərnişini yoxlasın;

b) Əgər onda şübhə yarandısa ki, sərnişin daxili orqanlarında mal gizlədir; bədəninin daxili orqanlarının yoxlamaq məqsədi ilə sərnişini, gömrük orqanının səlahiyyətli şəxsi ilə birlikdə tibbi müəssisəyə göndərsin.

1.Yaranan şübhə ilə bağlı sərnişinin vəzifəsidir ki, verilən suallara dəqiq cavab versin və gizlədilmiş malı çıxartmaq üçün gömrük orqanının salahiyyətli şəxsinin tələblərini yerinə yetirsin; müqavimət göstərdiyində gömrük orqanı Gürcüstanın cinayət məcəlləsində qoyulan qaydalarla hərəkət etməlidir. Xarici ölkənin vətəndaşı, tərcüməçidən istifadə edə bilər.

**Maddə 81. Poçt əmanətinin yoxlanılması**

1.Xarici ölkədən qəbul olunan mal tərkibli poçt əmanətinin yoxlanması poçt xidmətini həyata keçirən şəxsin olduğu yerə müvafiq olaraq, əmanət sahibinə çatana qədər həyata keçirilir, xarici ölkəyə göndərilən poçt əmanətinin yoxlanması isə - poçt xidmətçiləri əmanəti qəbul etdikləri an və ya ondan sonra baş verir.

2.Poçt əmanətində yerləşdirilən malın çıxarılması və ya gətirilməsi qadağandırsa və ya xüsüsi icazə və ya lisenziya tələb edirsə, amma gömrük orqanına müvafiq lisenziya və ya icazə təqdim olunmayıbsa, göndərənin öz xərcləri hesabına geri qaytarılır və ya gömrük orqanında qalır, bu haqda malı qəbul etməli olan şəxsə xəbərdarlıq verilir.

**Maddə 82. Malın identifikasiyası**

Gömrük orqanı, əgər malın sonrakı identifikasiyası üçün gömrük rejimini istifadə qaydalarında nəzərdə tutulan tələblərin yerinə yetirilməsi üçün vacibdirsə onun nişanlamasını həyata keçirir.

**Maddə 83. Gömrük identifikasiya vasitələri (nişanları)**

1.Gömrük orqanının salahiyyətli şəxsinin mallara, nəqliyyat vasitələrinə və ya tikinti-binalara, onların toxunulmazlıqlarını təmin etmək məqsədi ilə, qoyduğu ştamplar, möhürlər və digər nişan vasitələri gömrük identifikasiya vasitələridir (nişanlarıdır). Bir obyektə bir neçə gömrük identifikasiya vasitəsi (nişanı) qoymaq olar.

2.Gömrük orqanı tərəfindən gömrük identifikasiya vasitəsi ilə nişan qoyulmuş nəqliyyat vasitəsinin və ya tikinti-binaların və ya onların içində yerləşən malın toxunulmazlığını və gömrük identifikasiyasının (nişanın) zədələnməməsinə görə, nəqliyyat vasitəsinin və ya tikinti-binaların mülkiyyətçiləri cavabdehdir. Gömrük orqanının razılığı olmadan, bu məcəllənin 233-cü maddəsinin 6-cı hissəsində nəzərdə tutulanlar istisna olmaqla, qəzalar və fövqəladə hallar nəticəsində yaranan vaciblik zamanı nəqliyyatda və tikinti-binalarda saxlanılan malın toxunulmazlığını təmin etmək məqsədi ilə gömrük identifikasiya vasitəsini (nişanını) açmaq/məhv eləmək qadağandır.

3.Gömrük orqanı salahiyyətlidir ki, xarici ölkələrin gömrük orqanları və ya başqa salahiyyətli orqanlar tərəfindən qoyulan gömrük identifikasiya vasitələrini tanısın. Belə hallarda gömrük orqanı tərəfindən tanınan gömrük identifikasiya vasitələri Gürcüstanda qoyulan gömrük identifikasiya vasitələrini (nişanları) əvəz edir.

4.Gömrük orqanı salahiyyətlidir ki, maraqlı şəxsin gömrük orqanının salahiyyətli şəxsi tərəfindən gömrük identifikasiya vasitələrinin (nişanının) qoyulmasında və ya açılmasında iştirakını tələb etsin.

5.Gömrük identifikasiya vasitəsi (nişanı) elə qoyulmalıdır ki, onu zədələmədən mala və ya nəqliyyat vasitəsinə yaxınlaşmaq və ya tikinti-binalara qanunsuz daxil olmaq mümkün olmasın. Gömrük identifikasiyası elə qoyulmalıdır ki, onu zədələmədən açmaq /sökmək mümkün olmasın. Gömrük orqanının salahiyyətli şəxsinin vəzifəsidir ki, qoyduğu identifi-

kasiya vasitəsi (nişanı) haqda xüsusi sənəddə və ya gömrük bəyannaməsində qeyd etsin.

6.Nəqliyyat vasitəsinin və ya tikinti-bina mülkiyyətçisinin vəzifəsidir ki, zədələnmiş və ya itmiş gömrük identifikasiya vasitəsi (nişanı) haqda gömrük orqanına dərhal məlumat versin və nişan qoyulmuş nəqliyyat vasitəsində və ya tikinti-binada aşkar etdiyi izlər, zədələr haqda da qeyd etsin.

7.Gömrük identifikasiya vasitələrinin (nişanlarının), onların qoyulma və açılma, nişan qoyulmuş tikinti-binalarla və nəqliyyat vasitələri ilə davranış qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 84. Dövlət fitosanitar, sərhəd-karantin, dövlət veterinar sərhəd-karantin və sanitar-karantin nəzarəti**

Gürcüstan sərhədlərində, sərhəd dəniz limanlarında, hava limanlarında, quru keçidlərdə və gömrük buraxılış məntəqələri yerləşə ərazilərdə Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti öz nəzarətini həyata keçirir:

a) Dövlət fitosanitar sərhəd-karantin nəzarətinin "kəndtəsərrüfatı karantini haqda" və "ziyanverici canlılardan bitkilərin müdafiəsi haqda" Gürcüstanın qanunlarına və başqa normativ aktlara müvafiq olaraq;

b) Dövlət veterinar sərhəd-karantin nəzərətinin "kəndtəsərrüfatı karantini haqda" və "veterinariya haqda" Gürcüstanın qanunlarına və başqa normativ aktlara müvafiq olaraq;

c) Sanitar- karantin nəzərətinin sanitar məcəlləyə və başqa normativ aktlara müvafiq olaraq.

**Maddə Malın buraxılması**

1.Əgər gömrük bəyannaməsi yoxlandığı zaman, Gürcüstanın gömrük qanunvericiliyinin pozuntuları əşkar edilmədisə və təsdiq olundusa ki, gömrük işlənməsinin əməliyyat şərtləri və xarici-iqtisadi işqüzarlıq tənzimləməsi ilə bağlı məhdudiyyətlər və qadağalar yerinə yetirilib, mal dərhal buraxılır, bu məcəllənin 86-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla.

2.Əgər bir gömrük bəyannaməsində bir neçə çeşiddə mal bəyan olunubsa, bir gömrük bəyannaməsi ilə bəyan olunmuş malın hamısı buraxılmalıdır. Bir fəslin məqsədləri üçün, malın hər bir çeşidi haqda verilən məlumat müxtəlif bəyannamələrlə müzakirə olunur.

3.Əgər bu mal üzərində gömrük rejiminin tənzimlənməsi Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulursa malın buraxılması, malın nəzarət altda olma müddətinin uzadılmasını istisna etmir.

**Maddə 86. Gömrük öhdəlikləri olduğu zaman malın buraxılması**

1.Əgər gömrük bəyannaməsi qeydiyyata alındıqdan sonra, gömrük öhdəlikləri yaranarsa, bəyan olunmuş mala gömrük rüsumlarının ödəniş öhdəliklərindən və ya bu məcəllə ilə nəzərdə tutulan gömrük öhdəliklərinin təmin olunma zamanətini təqdim edəndən sonra bəyan olunmuş mal buraxıla bilər.

2.Əgər zamanət təminatı mal üzərində gömrük rejimini tənzimləyən Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulursa, malın müvafiq rejimə salınması zəmanət təqdim olunduqdan sonra baş verə bilər.

**Maddə 87. Gömrük orqanı tərəfindən mal üzərində sərəncam vermək**

1.Bu maddənin 2-ci hissəsini nəzərə almaqla, gömrük orqanı tərəfindən hər hansı bir malın üzərində sərəncam vermə tədbirləri (o cümlədən gömrük qanun pozuntuları zamanı malın və ya nəqliyyat vasitələrinin müsadirə olunması, realizasiya, gömrük nəzarəti altında məhv olunması) elə mallar üzərində həyata keçirilir ki:

a) Deklarant səbəbi ilə qoyulan müddətdə gömrük prosedurlarının həyata keçirmək mümkün deyil (gömrük işlənmə əməliyyatının müəyyənləşdirilməsi) və ya idxal yaxud ixrac ödənişləri ödənilməyib və ya zamanət təminatı təqdim olunmayıb;

b) Gürcüstan ərazisinə gətirilməsi və Gürcüstan ərazisindən çıxarılması qadağan olan;

c) Buraxılandan 3 gün ərzində gömrük nəzarəti zonasından çıxarılmayan.

2.Gömrük orqanı deklaranta, malın üzərində sərancam vermək haqda öz niyyətini yazılı şəkildə bildirir və bu maddənin birinci hissəsində qeyd olunan çatışmazlıqları düzəltmək üçün 30 təqvim günündən çox olmayan müddətdə vaxt qoyur. Qoyulan müddət ərzində deklarant çatışmazlıqları düzəldir və ya gömrük orqanı malın reeksportu haqqında mal üzərində sərancam verməni həyata keçirmir.

**Maddə 88. Sadələşdirilmiş gömrük bəyannaməsi**

1.Gömrük prosedurlarını sadələşdirmək məqsədi ilə, gömrük orqanı səlahiyyətlidir ki, müvafiq yazılı ərizə əsasında deklaranta sadələşdirilmiş gömrük bəyannaməsini təqdim etmək razlığı versin.

2.Sadələşdirilmiş gömrük bəyannamələrinin çeşidlərini, təqdim etmə hallarını və qaydalarını Gürcüstan hakimiyyəti müəyyən edir.

**Maddə 89. Başqa vasitə ilə təqdim olunan gömrük bəyannamələri**

1.Göstərilən bazanın elektron işlənmə sistemindən istifadə edildikdə, şifahi bəyannamə ilə və ya başqa əməliyyatları həyata keçirməklə gömrük bəyannaməsi təqdim edildiyində, bu məcəllənin 68-88-ci maddələrinin əsasnamələrinin tələbləri qorunmalıdır.

2.Göstərilən bazanın elektron işlənmə sistemindən istifadə edildikdə, gömrük bəyannaməsi elektron formada təqdim olunursa, müvafiq gömrük rejimi istifadə edildikdə müəyyən edilən sənədi bəyannaməyə əlavə etmək lazım deyil. Qeyd olunan sənədlər deklarantın yanında saxlanmalıdır və bu məcəllənin 17-ci maddəsi ilə qoyulan müddətdə və tələb olunan anda gömrük orqanına təqdim olunmalıdır.

3.Göstərilən bazanın elektron işlənmə sistemindən istifadə edildikdə, şifahi bəyannamə və ya başqa əməliyyatları həyata keçirməklə gömrük bəyannaməsinin təqdim edilmə qaydaları, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 90. Sərnişinin gömrü bəyannaməsi**

1.“ Gömrük tarifi haqda” Gürcüstanın qanunu ilə nəzərdə tutulan rüsumsuz malın miqdarından və dəyərindən çox malı olan sərnişin, gömrük sərhədini keçdikdə vəzifəsidir ki, sərnişin gömrük bəyannaməsini təqdim etsin, əgər Gürcüstan qanunvericiliyi ilə başqa bir şey nəzərdə tutulmayıbsa. Təyin olunan gömrük orqanına gecikdirilmiş təqdim olunan şəxsi əşiyalar (yük) Gürcüstana gətirildiyində, sərnişinlə birlikdə yerini dəyişən şəxsi əşiyalar (yük) kimi müzakirə olunur.

2.Şəxsi əşyalara bəyannamə tələb olunmur, yalnız onların gətirilməsi və çıxarılması üçün lazım olan icazə və ya lisenziya və ya onların miqdarı və dəyəri “Gömrük tarifi haqda” Gürcüstanın qanunu ilə nəzərdə tutulan rüsumsuz malın miqdarından və dəyərindən çox olduğu hal istisna olmaqla.

3.Onların gətirilməsi və çıxarılması üçün lazım olan icazə və ya lisenziya tələb olunan şəxsi əşyalara, sərnişinin gömrük bəyannaməsi təqdim olunmalıdır.

4.Sərnişinin, gömrük sərhəd zonasının keçdikdə bəyannaməyə tabe olan malı yoxdursa, Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq, malın bəyannaməsini şifahi şəkildə və ya başqa yolla edir.

5.Sərnişinin yazılı şəkildə ərizəsi əsasında, gömrük orqanı salahiyyətlidir ki, malı Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin gömrük anbarında 20 təqvim günü ərzində saxlasın. Sərnişinin yazılı şəkildə, sübut edilmiş ərizəsi əsasında, gömrük orqanı salahiyyətlidir ki, malın saxlanma müddətini 10 təqvim günü uzatsın.

6.Əgər bu maddənin 5-ci hissəsində nəzərdə tutulan müddətdə sərnişinin müəyyən səbəbdən gömrük əməliyyatı müəyyənləşdirmək üçün lazımi prosedurlar həyata keçirmirsə, o zaman malın üzərində bu məcəllənin 110-cu maddəsinin əsasnamələri istifadə olunur.

7.Sərnişinin şəxsi əşyalarının gömrük sərhədindən keçirilməsi/gətirilməsi qaydaları, o cümlədən gömrük bəyannamə formaları və onları doldurulma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 91. Poçt əmanətlərinin bəyannaməsi**

1.Əgər Gürcüstandan göndərilən mal beynəlxalq poçt əmanətinin içinə yerləşdirilibsə, göndərən, poçt əmanətinə əlavə olunan poçt əmanətinin bəyannaməsinin doldurur.

2.Əgər xarici ölkədən qəbul edilən poçt əmanətində yerləşdirilən malın miqdarı və dəyəri "gömrük tarifi haqda" Gürcüstanın qanunu ilə nəzərdə tutulan rüsumun miqdarından və dəyərindən artıqdırsa, əmanəti qəbul edən şəxs poçt əmanətinin bəyannaməsi ilə birlikdə gömrük bəyannaməsini də təqdim edir.

3.Poçt əmanətinin bəyannamə formaları və onların doldurulma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 92. Gömrük nəzarətinə tabe olan işgüzarlığın yoxlanması**

1.Gömrük orqanı öz kompotensiya hüdudlarında, Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq, salahiyyətlidir ki, gömrük nəzarətinə tabe olan işlə məşğul olan şəxsin işgüzarlığının yoxlamasını təyin etsin və həyata keçirsin.

2.Gömrük nəzarətinə tabe olan işgüzarlığın yoxlanmasını və gömrük ödənişlərinin ödənməsini gömrük orqanı, Gürcüstanın vergi məcəlləsinin IV – VI fəsilləri ilə qoyulan qaydalara müvafiq olaraq həyata keçirir.

3.Gömrük nəzarətinə tabe olan işgüzarlığın yoxlanması zamanı, gömrük orqanının salahiyyətli şəxsinin hərəkətləri bu

maddənin birinci hissəsində qeyd olunan şəxsə ziyan vurmamalıdır və ona yoxlanmanın nəticəsi haqda dərhal məlumat verilməlidir.

4.Bu maddənin məqsədləri üçün gömrük nəzarətinə tabe olmaq işgüzarlıq hesab olunur:

a) Gömrük prosedurlarını həyata keçirən deklarantın və ya vəzifəsi olan şəxsin gömrük nəzarətinə tabe olan sahibkarlıq fəaliyyəti;

b) Gömrük orqanı verdiyi lisenziya/icazə sahibinin, bu lisenziya/icazə ilə nəzərdə tutulan sahibkarlıq fəaliyyəti.

## Fəsil XV. Malın azad dövriyyəyə buraxılması (idxal)

### Maddə 93. Malın azad dövriyyəyə buraxılmasında (idxal) gömrük rejimindən istifadə

1.Malın azad dövriyyəyə buraxılması (idxal) zamanı, mala Gürcüstanın gömrük statusu verilir. Malın azad dövriyyəyə buraxılmasında (idxal) ticarət-siyasəti tədbirlərindən istifadə edilir, onun gətirilməsi zamanı nəzərdə tutulan gömrük prosedurları həyata keçirilir və Gürcüstan qanunvericiliyinə müvafiq olaraq gömrük ödənişləri ödənilir.

2.Malın azad dövriyyəyə buraxılmasında (idxal)gömrük rejimindən istifadə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

### Maddə 94. Gömrük ödənişlərinin güzəştli bölməsi və ya gömrük güzəşlərindən (preferenslərin) istifadə

1.Deklarant salahiyyətlidir ki, Gömrük ödənişlərinin güzəştli bölməsi və ya gömrük güzəştlərinin (preferenslərin) istifadəsini tələb etsin, əgər:

a) Gömrük deklarasiyası qeydiyyata alındığı gün fəaliyyətdə olan Gürcüstanın gömrük qanunvericiliyi nəzərdə tutursa;

b) Malın azad dövriyyəyə buraxıldığı gömrük bəyannaməsinin qeydiyyatından sonra, Gürcüstanın qanunvericiliyi

ilə gömrük ödənişlərinin bölməsi azaldılıbsa; amma mal buraxıldığından gec olmamaqla;

c) Malın azad dövriyyəyə buraxılmasından (idxal) gömrük rejiminə salınan malın buraxılışından sonra gömrük orqanına, o, gömrük ödənişlərinin güzəştli bölmələrini və ya gömrük güzəştlərinin (preferens) istifadəsini nəzərdə tutan, yaranma sertifikatını təqdim edirsə.

2.Bu maddənin birinci hissəsinin b) bəndinin əsasnamələrindən istifadə olunmur, əgər malın buraxılması yalnız deklarantın ehtiyyatsızlığı ucbatından həyata keçirilməyibsə.

**Maddə 95. Malın məqsədyönlü təyinatlı istifadəsi ilə bağlı istisnalar**

1.Əgər mal məqsədyönlü təyinatla və idxal ödənişlərində güzəştlərin istifadəsi ilə azad dövriyyəyə buraxılıbsa, o gömrük nəzərəti altında qalır. Gömrük nəzarəti sona çatır əgər:

a) Əgər məqsədyönlü təyinatla istifadə şərtləri yerinə yetirildisə;

b) Mal, malın eksport gömrük rejimində istifadəsi üçün bəyan olunursa;

c) Mal, bu məcəllənin 167-ci maddəsinə müvafiq olaraq, gömrük nəzarəti altında məhv olunursa;

d) Mal, başqa təyinatlı məqsədlər üçün istifadə olunursa.

1.Məqsədyönlü təyinatla və idxal ödənişlərinə güzəşlərin istifadəsi ilə azad dövriyyəyə buraxılan mala gömrük nəzərətinin sona çatması qaydası Gürcüstan hakimiyyətinin qərarı ilə müəyyən edilir.

**Maddə 96. Malın Gürcüstanın dövlət statusundan məhrum edilməsi**

1.Azad dövriyyəyə buraxılan mal, dövlət statusundan məhrum edilir, əgər onu buraxandan sonra, malın azad dövriyyəyə buraxılması haqda gömrük bəyannaməsi Gürcüstanın adminstrativ məcəlləsində nəzərdə tutulan hallarda ləğv edilibsə və ya qüvvədən düşmüş kimi hesab olunursa.

2.Azad dövriyyəyə buraxılan mal, Gürcüstanın dövlət statusundan məhrum edilmiş hesab olunur, əgər o gömrük ərazisində malın işlənmə gömrük rejiminə düşürsə.

## Fəsil XVI. Malın tranziti

### Maddə 97. Malın tranzitində gömrük rejimindən istifadə

1.Malın tranzitinin gömrük rejimi imkan verir ki, xarici mal başqa ölkələr arasında və ya bir ölkə ərazisində, Gürcüstanın gömrük ərazisini keçməklə, ona qarşı idxal ödənişlərini ödəmədən və qeyri-tarif tədbirləri keçirilmədən hərəkət etsin.

2.Malın tranzitinin Gömrük rejiminə müvafiq olaraq malın daşınması həyata keçirilir:

a) TİR (beynəlxalq yol daşınmaları)sənədləri əsasında;

b) Poçtla, Gürcüstanın gömrük qanunvericiliyi ilə nəzərdə tutulan sənədlərə əsasən;

c) Nəqliyyat əlavələri, hava, dəmir yolu və dəniz nəqliyyat daşınmaları hallarında və sonrakı daşınmalarda və ya malın və nəqliyyat vasitələrinin identifikasiyası üçün lazım olan göstəricilərdən istifadə edən başqa sənədlər əsasında;

d) Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə qoyulan hallarda və qoyulan formalarda başqa sənədlərlə.

1.Əgər səlahiyyətli dövlət orqanları tərəfindən digər hal nəzərdə tutulmayıbsa malın tranziti hər bir istiqamətə və marşrutla həyata keçirilə bilər.

2.Malın tranzitinin gömrük rejiminə, Gürcüstanın gömrük ərazisində tranziti qadağa olunmayan xarici mallar düşə bilər.

3.Mal tranzitinin gömrük rejiminə müvafiq olaraq, malın daşınması, dəyişdirilməmiş vəziyyətdə qalmalıdır, təbii dəyişiklik, daşınma və ya normal saxlandıqda baş verən təbii itkilər kimi dəyişkiliklər istisna olmaqla və tranzitdən savayı başqa məqsədlər üçün istifadə olunmamalıdır.

4.Tranzit daşınması həyata keçirilən Gürcüstanın gömrük ərazisi, göndərilmənin gömrük orqanı hesab olunur, təyinatlı gömrük orqanı isə - tranzit daşınmasının Gürcüstan gömrük ərazisində yeykunlaşdığı yerdir.

5.Mal tranzitinin gömrük rejiminin istifadə qaydaları Gürcüstanın Maaliyyə Nazirin əmri ilə müəyyən edilir.

**Maddə 98. Deklarantın və ya malı daşıyanın öhdəlikləri**

1.Deklarant, malın daşınması başlayan gömrük orqanından təyinatlı gömrük orqanına qədər, malın tranzit daşınmasını təşkil edir.

2.Deklarant və ya malı daşıyanın vəzifəsidir:

a) Malı təyinatlı gömrük orqanına qoyulan müddətdə və dəyişdirilməmiş vəziyyətdə, gömrük identifikasiya vasitələri (nişanları) zədələnmədən və sənədlərlə birlikdə təqdim etsin;

b) Malla bağlı yaranan gömrük öhdəliklərini yerinə yetirməni təmin etmə məqsədi ilə zəmanəti təqdim etsin;

c) Malın tranzitinin gömrük rejimi ilə bağlı başqa öhdəlikləri yerinə yetirsin.

2.Gömrük orqanı ilə razlaşdırıldıqdan sonra mal tapşırılan, malın tranzit gömrük rejiminə salınmış malı daşıyan və ya başqa şəxsin vəzifəsidir ki, təyinatlı gömrük orqanına qoyulan müddətdə və dəyişdirilməmiş vəziyyətdə, gömrük identifikasiya vasitələri (nişanları) zədələmədən, sənədlərlə birlikdə təqdim etsin.

**Maddə 99. Zəmanətin təqdim edilməsi**

1.Tranzit daşınmaları ilə bağlı gömrük öhdəliklərini təmin etmək məqsədi ilə, deklarant və ya malı daşıyanın vəzifəsidir ki, göndərən gömrük orqanına, Gürcüstan Maaliyyə Nazirinin əmri ilə müəyyənləşdirilmiş miqdarda zəmanəti təqdim etsin.

2.Zəmanət ola bilər:

a) İndividual, müxtəlif tranzit daşınmaları üçün;

b) Ümumi, bir neçə tranzit daşınması üçün.

**Maddə 100. Zəmanəti təqdim etməkdən azad olunma**

1.Gömrük öhdəliklərini təmin etmək məqsədi ilə, zəmanəti təqdim etmək vacib deyil, əgər mal:

a) Hava və ya dəniz nəqliyyatı ilə;

b) Borudaşıyıcısı və ya elektrikdaşıyıcı xətti ilə;

c) Dəmir yolu nəqliyyatı ilə daşınırsa.

2.Zəmanət təqdim etməkdən azad olunmanın başqa halları, bu maddənin birinci hissəsində nəzərdə tutulan istisnalar olmaqla, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 101. Tranzit daşınmasının sona çatması və malın tranzitinin gömrük rejiminin dayandırılması**

1.Göndərilən gömrük orqanından tranzit gömrük rejiminə salınan mal və vacib olan hər bir sənəd, göndərən gömrük orqanı tərəfindən nəqliyyat vasitəsinin texniki xüsusiyyətləri, müəyyən edilmiş gömrük marşrutu və daşınmanın başqa şərtlərini nəzərə almaqla qoyulan müddətdə təyinatlı gömrük orqanına təqdim olunmalıdır, amma 10 gündən az olmamaqla.

2.Tranzit daşınması sona çatmış hesab olunar, əgər göndərən və təyinatı gömrük orqanlarında olan göstəricilərə muqayisə edərək, gömrük orqanı əmin olar ki, tranzit daşınması Gürcüstanın qanunvericiliyinə riayət etməklə həyata keçrilib.

3.Malın tranzitinin gömrük rejimindən istifadəsi dayandırılar, əgər:

a) Mal tranzitinin gömrük rejiminə salınan mal, Gürcüstanın gömrük sərhədini keçdikdə;

b) Mal tranzitinin gömrük rejiminə salınan mala qarşı, yeni gömrük işlənmə əməliyyatı müəyyən edildikdə.

4.Əgər, bu məcəllə ilə nəzərdə tutulmayan qaydada həyata keçirilən mal tranzitinin gömrük rejimini dayandırması haqda sübutlar təqdim olunmasa, gömrük rejimi, Gürcüstanın gömrük qanunvericiliyini müdafiyə məqsədi ilə müvafiq tədbirlər həyata keçirir.

## Fəsil XVII. Malın gömrük anbarında saxlanması

**Maddə 102. Gömrük anbarında malın saxlanmasında gömrük rejimindən istifadə**

1.Malın gömrük anbarında saxlanma rejimi imkan verir ki, mal, gömrük anbarında saxlamaq məqsədi ilə yerləşdirilsin:

a) Xarici mal, idxal ödənişlərini (gömrük yığımı istisna olmaqla) ödəmədən və qeyri-tarif tədbirlər keçirilmədən;

b) Gürcüstan malı, əgər onu gömrük anbarında saxlamanın məqsədi Gürcüstanın gömrük ərazisindən kanara çıxartmaqdırsa.

2.Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan hallarda gömrük anbarında mal saxlanmanın gömrük rejiminə salınmış malı gömrük anbarından kanarda da saxlanıla bilər.

3.Gömrük anbarında malı saxlamanın gömrük rejimindən istifadə qaydaları, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 103. Gömrük anbarının tipləri, gömrük anbarının sahibləri və yerləşdirən**

1.Gömrük anbarı, Gürcüstanın gömrük qanunvericiliyi ilə qoyulan qaydalara müvafiq olaraq malın yerləşdirməsinə imkan verilən gömrük nəzarəti zonasıdır və onun fəaliyyət göstərməsi üçün vacib olan, müvafiq orqan tərəfindən verilən gömrük anbarı işlətmək üçün icazə olmalıdır.

2.Gömrük anbarı ola bilər açıq, müvəqqəti saxlamaq üçün və ya müvəqqəti saxlamaq üçün qapalı; xüsusi gömrük anbarı:

a) Açıq-hər bir şəxsin həyata keçirə bildiyi iş, gömrük anbarına malın saxlanması, gömrük rejiminə salınmış malın saxlanması ;

b) Müvəqqəti saxlanmaq üçün açıq - hər bir şəxsin həyata keçirə bildiyi iş, gömrük işlənmə əməliyyatları müəy-

yənləşdiriləna qədər, malın və ya nəqliyyat vasitəsinin müvəqqəti saxlanması;

c) Qapalı – yalnız icazəsi olan şəxs və ya bir şəxs həyata keçirir, gömrük anbarına malın saxlanılmasının gömrük rejiminə salınmış malın saxlanılması üçün;

d) Müvəqqəti saxlanmaq üçün qapalı- yalnız icazəsi olan şəxs və ya bir şəxs həyata keçirir , gömrük işlənmə əməliyyatları müəyyənləşdiriləna qədər, malın və ya nəqliyyat vasitəsinin müvəqqəti saxlanması.

3.Gömrük anbarının sahibi, Gürcüstanın müəssisə və ya sahibkar fiziki şəxsi və ya Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti ola bilər.

4.Malı, gömrük anbarında saxlayan və önün üzərinə öhdəliklər düşən şəxs, malı saxlayandır və ya müvafiq bəyannaməni həyata keçirmək hüquqları və vəzifəsi veriliş şəxsdir.

**Maddə 104. Gömrük anbarını işlətmək icazəsi**

1.Gömrük anbarını işlətmək icazəsini Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti verir. Əgər gömrük departamenti gömrük anbarının sahibidirsə, gömrük anbarını işlətmək üçün icazə lazım deyil.

2.Gömrük anbarı üçün nəzərdə tutulan, müxtəlif ərazilərdə yerləşən tikintiyə və ya müxtəlif ərazilərdə yerləşən açıq meydançalara müxtəlif icazələr verilir.

3.Gürcüstanın "Lisenziya və icazə haqda" qanununa müvafiq olaraq gömrük anbarının fəaliyyətı haqda icazəni Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti 3 il müddətinə verir. Gömrük anbarının fəaliyyət göstərməsinə icazənin verilməsi üçün Gürcüstanın "Lisenziya və icazə haqda" qanunu ilə qoyulan şərtlərdən savayı, lazımdır ki:

a) Gömrük anbarı, Gürcüstanın gömrük qanunvericiliyi ilə nəzərdə tutulan tələblərə cavab verməlidir. Gömrük anbarının texniki və təhlükəsizlik tələbləri Gürcüstan hakimiyyətinin qərarı ilə müəyyən edilir;

b) İcazə tələb edənin mülkiyyətində və ya 3 il müddəti ilə qoyulan müqaviləsi ilə onun mülkiyyətində gömrük anbarı üçün ayrılan torpaq sahəsi və tikinti- bina olmalıdır;

c) Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilmiş gömrük zəmanəti təqdim edilməlidir;

d) İcazə istəyənin gömrük və ya vergi borcları olmamalıdır.

**Maddə 105. Gömrük anbarı sahibinin vəzifələri**

1.Gömrük anbarı sahibinin vəzifələridir:

a) Gömrük orqanı ilə razlaşdırılmadan, gömrük anbarında saxlanmanın gömrük rejiminə salınan malın daşınmasına yol verməsin;

b) Gürcüstanın gömrük qanunvericiliyi ilə nəzərdə tutulan gömrük anbarına malın saxlanılmasının gömrük rejimini tənzimləyən tədbirləri həyata keçirsin;

c) Gömrük anbarına saxlanan malı qeydə alsın və hər rüblük hesabatı aparsın. Rüb qurtarandan 15 gün müddətində gömrük orqanına, qeyd olunan müddətdə gömrük anbarında aparılan hər əmliyyat haqda hesabat təqdim etsin;

d) Malın müdafiəsini təmin etsin və gömrük nəzərətini həyata keçirməyə köməklik göstərsin, bu vəzifəni yerinə yetirmək üçün gömrük orqanının gömrük anbarında ödənişsiz, gömrük nəzarətini və gömrük prosedurları üçün vacib olan yer, rabitə vasitələri və cihazlar ayrılmalıdır;

e) Gömrük anbarı fəaliyyət göstərdiyi bütün müddətdə, gömrük vəzifələrinin yerinə yetirmə təminatını həyata keçirsin;

f) Bu maddənin 2-ci hissəsində nəzərdə tutulan hallarda gömrük ödənişlərini ödəsin.

1.Gömrük orqanı ilə razılaşdırılmadan gömrük anbarından malın çıxarılması və ya itməsi hallarında gömrük ödənişlərini ödəmə vəzifəsi gömrük anbarının sahibinin üzərinə düşür, bu məcəllənin 233 maddəsinin 6-cı hissəsində nəzərdə

tutulan qəza və təbii fəlakət hadisələri ilə və ya normal saxlanma şəraiti üçün baş verən təbii itkilər istisna olmaqla.

**Maddə 106. Yerləşdirənin vəzifələri**

1.Gömrük anbarında malın saxlanmasının gömrük rejiminə malın salınması ilə bağlı vəzifələri, malı yerləşdirən yerinə yetirməlidir.

2.Münasibətlər, gömrük anbarının sahibi və yerləşdirən arasında müqavilə ilə tənzimlənir.

**Maddə 107. Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin gömrük anbarına malın saxlanması**

1.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin gömrük anbarı açıq çeşiddədir

2.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin gömrük anbarına malın saxlanması zamanı gömrük orqanı və yerləşdirən arasında yaranan münasibətlər, onların salahiyyətləri, vəzifələri və cavabdehlikləri Gürcüstanın mülki məcəlləsi və bu məcəllə ilə tənzimlənir.

**Maddə 108. Gömrük anbarında malın saxlanmasının gömrük rejiminə salınan malın qeydə alınması**

Gömrük anbarının sahibi, gömrük anbarına malı apardığı andan, gömrük anbarında malın saxlanmasının gömrük rejiminə salınan malın qeydə alınmasını, Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə təsdiq olunmuş formada aparmalıdır.

**Maddə 109. Gömrük anbarında malı gömrük rejiminə salmadan gömrük anbarına malın saxlanılması və emal edilməsi**

1.Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan hallarda gömrük orqanı razılıq verə bilər:

a) Bu məcəllənin 102-ci maddəsinin birinci hissəsinin b) bəndi ilə nəzərdə tutulan hallar istisna olmaqla, Gürcüstanın malı gömrük anbarında saxlanması haqda;

b) Gürcüstanın gömrük ərazisində, malın emalının gömrük rejiminə salınan xarici malın, gömrük anbarında emalı haqda, bu rejimlə müəyyən edilən şərtlərlə və Gürcüstanın

gömrük qanunvericiliyi ilə belə hallar üçün nəzərdə tutulan xüsusi normalara müvafiq olaraq.

2.Bu maddənin birinci hissəsində müəyyən edilən hallarda mal, gömrük anbarına malın saxlanılmasının gömrük rejiminə salınmış hesab olunmur.

3.Gömrük orqanı, bu maddənin birinci hissəsində qeydə alınan malın, bu məcəllənin 108-ci maddəsinə müvafiq olaraq qeydə alınmasını tələb etməsinə vəzifəlidir.

**Maddə 110. Gömrük anbarında malın saxlanma müddəti**

1.Gömrük anbarında malın saxlanması üçün gömrük rejiminə salınmış malın saxlanma müddəti məhdud deyil, bu maddənin 2-ci hissəsində nəzərdə tutulan hallar istisna olmaqla.

2.Gürcüstanın Maaliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş hallarda, gömrük orqanı yerləşdirən şəxsə müddət təyin etməyə vəzifəlidir, bu müddət ərzində o, malın gömrük işlənməsinin yeni əməliyyatında seçim etməlidir. Bu vaxt, gömrük anbarına malın saxlanmasının gömrük rejiminə malın salındığı gündən hesaba alınır.

3.Gürcüstanın Maaliyyə Nazirliyi, bu məcəllənin 102-ci maddəsinin birinci hissəsinin b)bəndində qeyd olunan Gürcüstan malının müxtəlif çeşidlərinin gömrük anbarına malın saxlanmasının gömrük rejimində saxlanması üçün müəyyən edilən konkret müddətə müəyyən edə bilər.

4.Malın saxlanma faktiki müddətini, bu maddədə nəzərdə tutulan müddət hüdudlarında yerləşdirən şəxs müəyyən edir və gömrük bəyannaməsində göstərir. Bu maddənin tələlərini nəzərə almaqla, yerləşdirən şəxs izahatlı ərizəsi əsasında gömrük orqanı tərəfindən saxlanmanın faktiki müddətini uzadılmasına razılıq verilə bilər.

**Maddə111. Gömrük anbarında malın saxlanmasının gömrük rejiminə salınmış mal üzərində ediləbiləcək hərəkətlər**

1.Gömrük anbarında malın saxlanmasının gömrük rejiminə salınmış mal üzərində ediləbiləcək hərəkətlər cildi və

həyata keçirilmə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

2.Gömrük anbarında saxlanılan malı sahiblik hüququna keçirmək olar.

**Maddə 112. Gömrük anbarından malın müvəqqəti çıxarılması və başqa gömrük anbarına keçirilməsi**

1.Xüsusi hallarda və gömrük orqanı ilə razlaşdırıldıqda, gömrük anbarında malın saxlanılmasının gömrük rejiminə salınmış mal müvəqqəti olaraq gömrük anbarından çıxarıla və ya başqa gömrük anbarına keçirilə bilər.

2.Gömrük anbarında malın saxlanmasının gömrük rejiminə salınmış malın gömrük anbarından müvəqqəti çıxarılması və başqa gömrük anbarına keçirilməsi şərtləri Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 113. Gömrük anbarında mal saxlamanın gömrük rejiminin sona çatması**

1.Gömrük anbarında malın saxlanma müddəti başa çatana qədər, bu məcəllə ilə qoyulan tələbləri yerinə yetirməklə, malın üzərində həyata keçiriləsi gömrük işlənmə əməliyyatının seçilməsi aparılır. Saxlanma müddəti başa çatandan sonra malın üzərində, bu məcəllənin 167 və 168-ci maddələrinə müvafiq olaraq hərəkət edilir.

2.Malın müvəqqəti gətirilmə gömrük rejiminə salınan malın Gürcüstan ərazisində olduğu müddət hesaba alındıqda, malın gömrük anbarında olduğu müddət hesaba alınmır.

**Maddə 114. Gömrük nəzarəti zonasında yerləşən və sərnişinlərə xidmət etmək üçün**

ayrılan gömrüksüz ticarət məntəqəsi

1.Sərnişinlərə xidmət etmək üçün ayrılan gömrüksüz məntəqənin gömrük nəzarət zonasında (hava limanı, dəniz limanı və başqa yerlərdə) fəaliyyətə (Gürcüstanın gömrük ərazisini tərk edən sərnişinlər üçün gömrüksüz fərdi ticarət) malın üzərində ticarət siyasətinin tarif tədbirləri aparılmadan icazə verilir.

2.Gömrük ticarət məntəqələrində, Gürcüstanın ərazisində satışı, Gürcüstandan çıxarılması və gətirilməsi qadağan olunan mallardan savayı, hər cür mal satıla bilər.

3.Gürcüstanın ərazisində satışı məhdudlaşdırılmış mal, gömrük ticarət məntəqəsində, Gürcüstanın qanunvericiliyi ilə qoyulan tələbləri əməl etməklə satıla bilər.

4.Gürcüstanın lisenziya və icazə haqda qanununa müvafiq olaraq, gömrüksüz ticarət məntəqəsinin fəaliyyəti üçün verilən icazə, Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti tərəfindən 3 ilə müddətinə verilir. Bu icazə, yalnız Gürcüstan istehsalçılığına və ya istesalçı fiziki şəxsə verilə bilər.

5.Gömrüksüz ticarət məntəqəsinin fəaliyyətinə icazə almaq üçün, Gürcüstanın "lisenziya və icazə haqda" qanunla qoyulan şərtlərdən savayı, lazımdır ki:

a) İcazə istəyənin vergi və ya gömrük borcları olmasın;

b) İcazə istəyən, 50 000 avroya bərəbər olan lari pul vahidindən az olmayan zəmanət təqdim etsin;

c) İcazə istəyən, gömrüksüz ticarət məntəqəsi üçün ayrılan tikinti-bina mülkiyətçiliyi və ya müvafiq sahiblik hüququnu təsdiq edən sənədlər və açıq reyestrdən çıxarış təqdim etsin.

6.Gömrüksüz ticarət məntəqəsinin fəaliyyətinə icazəsi olanın vəzifəsidir:

a) Gömrük nəzarəti altında olan mal üzərində aparılan əməliyyatları qeydə aldığı jurnalı olsun və gömrük orqanı tələb edən kimi təqdim etsin;

b) Hər rüblük hesabat həyata keçirilsin və rübün sonunda 15 gün ərzində, gömrük orqanına qeyd olunan müddətdə, gömrüksüz ticarət məntəqəsində aparılan hər bir əməliyyat haqda hesabatı təqdim etsin;

c) Gömrüksüz ticarət məntəqəsinin fəaliyyətinin bütün dövründə, ticarətin fəaliyyət zəmanətini həyata keçirsin;

d) Gürcüstanın gömrük qanunvericiliyi ilə qoyulan başqa tələbləri yerinə yetirsin.

7.Gömrüksüz ticarət məntəqəsinin fəaliyyət qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

## Fəsil XVIII. Gömrük ərazisində malın emal edilməsi

### Maddə 115. Gömrük rejimində malın emal edilməsinin gömrük rejiminin istifadəsi

1.Əgər bu məcəllənin 116-cı maddəsi ilə digər hallar nəzərdə tutulmayıbsa, gömrük ərazisində malın emal edilməsinin gömrük rejimi imkan verir ki, Gürcüstanın ərazisində malın emal edilməsinin bir və ya birdən çox əməliyyatı istifadə edilsin:

a) Gürcüstanın gömrük ərazisinə gətirildikdə idxal ödənişləri (gömrük ödənişindən əlavə) ödənilməyən və ticarət siyasət tədbirləri həyata keçirilməyən xarici mallar və onlardan alınan emal olunmuş məhsulun Gürcüstanın gömrük ərazisindən çıxarıldığında ixrac ödənişləri ödənilmir və ticarət siyasəti tədbirləri həyata keçirilmir;

b) Azad dövriyyəyə buraxılmış malın idxal ödənişləri (gömrük ödənişindən əlavə) geri qaytarılmağa və ya hesab olunmağa tabe olmalıdır, əgər ödənilən idxal ödənişləri (gömrük ödənişindən əlavə) qaytarılmayıbsa və ya hesab olunmayıbsa və onun emal edilməsi nəticəsində əldə olunan məhsul Gürcüstanın gömrük ərazisindən çıxarılırsa;

c) Gürcüstanın gömrük ərazisinə gətirildikdə idxal ödənişləri (gömrük ödənişindən əlavə) ödənilməyən və ticarət siyasət tədbirləri həyata keçirilməyən xarici mallar və onlardan alınan emal olunmuş məhsulun azad dövriyyəyə buraxıldıqda idxal ödənişləri ödənilir və ticarət siyasəti tədbirləri həyata keçirilir;

2.Gömrük ərazisində malın emal edilməsində gömrük rejimindən istifadə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 116. Ekvivalent maldan istifadə**

1.Gömrük ərazisinə, malın emal edilməsi üçün gömrük rejimində bəyan olunmuş gətiriləcək mal, gömrük orqanının razılığı ilə, Gürcüstan malı ilə dəyişdirilə bilər, əgər onun təsviri, keyfiyyəti, texniki xüsusiyyətləri və gömrük ödənişləri, gömrük ərazisinə malın emal edilməsinin gömrük rejimində bəyan olunmuş malın göstəricilərinə müvafiqdirsə.

2.Ekvivalent malın emal edilməsi nəticəsində əldə olunan məhsul, qalıq və ya qalıqlar, bu fəslin əsasnamələrinə müvafiq olaraq gömrük ərazisində malın emalının gömrük rejimində bəyan olunmuş, gətirilmiş malın emal olunmuş məhsulu,qalığı və ya qalıqları kimi müzakirə olunur.

3.Bu məcəllənin məqsədləri üçün, ekvivalent malın xarici mal gömrük statusu, gətirilən malın isə - Gürcüstan malının gömrük statusu vardır.

4.Ekvivalent maldan əldə olunmuş emal məhsullarının, qalığın və ya qalıqların Gürcüstan gömrük ərazisindən çıxarılması və ya azad dövriyyəyə buraxılması , yalnız gömrük ərazisinə malın emalının gömrük rejimində bəyan olunmuş malın gömrük ərazisinə gətirilməsinə qədər mümkündür. Belə malların gətirilmə vaxtını gömrük orqanı müəyyən edir.

**Maddə 117. Emal edilən məhsullarda malın identifikasiyası**

1.Malın və həyata keçirilən emal əməliyyatlarını nəzərə almaqla, emal olunan məhsullarda malın identifikasiyası üçün deklarant aşağadakı vasitələrədn istifadə edə bilər:

a) Gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə salınmalı malın ştampla, rəqəmlə və ya marka ilə işarələnməsi;

b) Gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə salınmalı malın xırdalığı ilə təsviri, onun foto şəklinin çəkilməsi, miqyaslı əks etdirilməsi;

c) Gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə salınmalı malın və onun emalı nəticəsində əldə olunmuş məhsulların probunun və ya nümunəsinin tədqiqat və ya analiz nəticələrinin müqayisəsi;

d) Gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə salınmalı mala istehsalçı tərəfindən qoyulan seriya nömrələri və markalar.

2.Emal edilməli mallarda, malın identifikasiyası üçün gömrük orqanı, bu maddənin birinci hissəsində qeyd olunan və onun üçün qəbul edilən vasitələr qəbul etməyə səlahiyyətlidir.

3.Deklarantın tələbi və gömrük orqanının razılığı ilə, malın identifikasiyası, malın emalı əməliyyatında istifadə olunan xammalın, məsələlərin və komplektləşdirənlərin, o cümlədən emal olunmalı məhsulların istehsal texnologiyası haqda təqdim olunan konkret göstəriciləri tədqiq etməklə və malın emal edilmə əməliyyatlarına gömrük nəzarətini həyata keçirməklə mümkündür .

**Maddə 118. Gömrük ərazisində malın emal edilməsində gömrük rejimindən istifadə şərtləri**

1.Gömrük ərazisində malın emal edilməsində gömrük rejimindən istifadə şərtləridir:

a) Emal edilən məhsulda gömrük ərazisində malın emalının gömrük rejiminə salınan malın identifikasiya imkanları;

b) İqtisadi baxımdan səmərəli vasitələrlə emal ediləməli məhsulların ilk vəziyyətində bərpa etmək imkanları;

c) Deklarant tərəfindən sübuta yetirilmiş göstəricilərin təqdim edilməsi;

d) a)Malın emal edilmə əməliyyatlarını həyata keçirən şəxs haqda ;

e) b)Gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə salınmalı malın, onun emal olunmalı məhsul-

larının, qalıqlarının və qalığının təsviri, keyfiyyəti və miqdarı haqda;

f) c)Emal olunmalı məhsulun gəlirli olma normaları haqda;

g) d) Emal olunmalı məhsulda gömrük ərazisində malın emal olunmasının gömrük rejiminə salınmalı malın identifikasiya vasitələri haqda;

h) Deklarant tərəfindən vergi və ya gömrük borcu olmaması;

i) Deklarant tərəfindən gömrük rejiminə salınan mala idxal ödənişlərinə müvafiq zəmanətin təqdim edilməsi, onun hüdudunda öz işini həyata keçirmək səlahiyyətindədir.

1.Gömrük ərazisində malın emal edilməsinin gömrük rejimindən istifadə hüququnu alan şəxs, gömrük orqanına, bu fəsillə qoyulan tələblərin və şərtlərin əməl edilməsinin elə bir dövrü haqda hesabat təqdim etməlidir ki, bu dövrdə mal, gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə müvafiq olaraq istifadə edilibsə və gömrük borcunu ödəməlidir, əgər qeyd olunan dövrdə gömrük borclanması yaranıbsa.

**Maddə 119. Malın emal edilmə müddəti**

1.Gömrük ərazisində malın emal edilməsində gömrük rejimindən istifadə zamanı, malın emal edilmə müddətini, dekalarnt gömrük orqanı ilə razlaşmaqla və 2 ildən çox olmamaq şərti ilə müəyyən edir.

2.Gömrük ərazisində malın emal edilmə müddəti, emal edilmə prosesinin davam etmə müddətindən və emal edilməli məhsulun, qalığının və ya qalıqlarının Gürcüstanın gömrük ərazisindən çıxarılmasından və ya başqa gömrük əməliyyat işlərinin müəyyən edilməsindən asılıdır.

3.Deklarantın izahatlı ərizəsi əsasında, qabaqcadan müəyyən edilən müddət. Bu maddənin birinci hissəsinin əsasnaməsi hüdudlarında uzadıla bilər.

4.Malın emal edilmə müddəti, gömrük ərazisində malın emal edilməsinin gömrük rejiminə malın salındığı gündən hesaba alınır, mal müxtəlif partiya ilə daxil olduğunda – bu

gömrük rejiminə malın ilk partiyası salındığı gündən hesaba alınır.

5.Gürcüstanın Maaliyyə Nazirliyi, malın emal edilməsi ilə bağlı müəyyən əməliyyatlar həyata keçirmək üçün və ya müxtəlif malların emal edilməsi üçün konkret vaxtlar təyin etməyə salahiyyətlidir.

**Maddə 120. Gəlir əldə etmə normaları və onu hesablama üsulunun müəyyən edilməsi**

1.Gömrük ərazisində malın emal edilməsinin gömrük rejimindən istifadəsi üçün, deklarant gömrük orqanı ilə razılaşma ilə gəlir normalarını və onun lazımınca hesablama üsulunu müəyyən edir. Müəyyən etdiyində, malın emalı həyata keçirilən faktiki şərtləri nəzərə alır, bu maddənin 3-cü hissəsi ilə nəzərdə tutulan hallar istisna olmaqla.

2.Gömrük orqanı, deklarantla emal edilən məhsulun gəlir normalarını razlaşdıranda, eksport təşkilatlarının (o cümlədən, gömrük laboratoriyalarının) malın emal edilməsinin konkret texnoloji proseslərinə əsaslanan rəylərini nəzərə alır.

3.Əgər malın emal edilmə əməliyyatı daimi xüsusiyyətə malikdirsə və həmin malın emalı müəyyən texniki şərtləri qorumaqla həyata keçrilirsə, nəticədə isə həmin keyfiyyətdə məhsul əldə edilirsə, Gürcüstan hakimiyətinin salahiyyətli, kompetent orqanları gömrük məqsədlərini əldə rəhbər tutaraq emal edilən məhsulun gəlirliyinin standart normalarını təyin edirlər.

**Maddə 121. Gömrük ərazisində malın emalının gömrük rejiminin istifadəsi zamanı gömrük borcunun müəyyən edilməsi**

1.Əgər emal olunmayan mala və ya emal olunan məhsula qarşı, bu məcəllənin 122-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, gömrük ərazisində malın emalının gömrük rejimini pozmaq üçün və ya azad dövriyyəyə buraxmaq üçün gömrük borcları yarandısa, ödəniləcək məbləğ, bu malın və ya məhsul çeşidinin gömrük dəyəri və miqdarı

əsasında və gömrük ərazisində malın emal edilməsinin gömrük bəyamnəməsinin qeydiyata alındığı gün identik malların və ya məhsulun idxalı zamanı fəaliyyətdə olan Gürcüstanın qanunvericilik əsasnamələri ilə müəyyən edilir.

2.Əgər gömrük ərazisində, malın emal edilməsinin gömrük rejimində malın bəyan edildiyi gün üçün, bu maddənin birinci hissəsində müəyyən edilən malın idxalına güzəştli gömrük ödənişləri aiddirsə, malın azad dövriyyəyə buraxılmasının gömrük rejiminə malın salınması məqsədi ilə, ona gömrük ərazisində malın emal edilməsinin gömrük bəyannaməsinin qeydiyyata alındığı gün üçün identik mallara qoyulan güzəştli gömrük ödənişləri aiddir.

3.Əgər emal olunmayan xarici mala və ya emal olunan məhsula qarşı, gömrük ərazisində malın emalının gömrük rejimini pozduğu üçün gömrük öhdəlikləri yaranırsa, gömrük öhdəlikləri yarandığı gündən, bu pozuntu təsdiq olunmadığı halda – gömrük ərazisində malın emalının gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən, idxal ödənişlərinə Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsi ilə müəyyən edilən rüsum ödənilməlidir.

**Maddə 122. Emal olunandan sonra qalan qalıqlar və ya emal olunmayan malın qalıqlarına gömrük öhdəliklərinin yaranması**

1.Mal emal ediləndən sonra yaranan qalıqlar və ya emal olunmayan malın qalıqlarının azad dövriyyəyə buraxılması, Gürcüstanın gömrük ərazisinə, belə vəziyyətdə idxal olunan mal, idxal ödənişlərini ödəməyə tabe olur.

2.Əgər malın emal edilməsindən sonra yaranan qalıqları və ya emal olunmayan malın qalıqları üçün gömrük işlənmə əməliyyatı müəyyən edildisə (azad dövriyyəyə buraxılmaq istisna olmaqla) belə mallara gömrük öhdəlikləri müəyyən gömrük əməliyyatını tənzimləyən əsasnamələrə müvafiq olaraq yaranır.

**Maddə 123. Emal olunmayan malın, emal olunan məhsulun və ya onları komplektləşdirən hissələrin Gürcüstanın gömrük ərazisindən kanarda emal edilməsi**

1.Gürcüstanın gömrük ərazisində malın emal edilməsinin gömrük rejimindən istifadə edildikdə emal olunmayan mal, emal olunan məhsul və ya onları komplektləşdirən hissələri, gömrük orqanı ilə razılaşdırılmaqla və bu məcəllənin 119-cu maddəsinin əsasında, müəyyən edilən müddət sona çatana qədər, geri qaytarılmaq şərti ilə, müvəqqəti olaraq emal edilmək üçün Gürcüstanın gömrük ərazisindən kanara çıxarıla bilər.

2.Əgər, bu maddənin birinci hissəsində nəzərdə tutulan müvəqqəti çıxarılan emal olunmamış mal, emal olunan məhsul və ya onları komplektləşdirən hissələri, bu məcəllənin 119 –cu maddəsinə əsasən, müəyyən edilən müddət sona çatana qədər, emal olunmuş məhsul kimi geri qaytarılar və gömrük rejiminə salınarsa, o zaman ona qarşı gömrük öhdəlikləri yaranmır . O cümlədən, emal olunan məhsul geri qaytarıldığında, deklarant gömrük ərazisində malın emal edilməsinin gömrük rejimindən istifadə etdiyi üçün, bu məcəllənin 43-cü maddəsinin birinci hissəsi ilə hesablanan gömrük dəyərinin mala ödənilməli idxal ödənişləri məbləği qədər təqdim etdiyi zəmanətin böyüdülməsini təmin etməlidir.

3.Bu maddənin birinci hissəsində nəzərdə tutulan emal olunan məhsulların geri qaytarılması ilə bağlı (bu maddənin 2-ci hisəsi ilə nəzərdə tutulan hallar istisna olmaqla) bu məcəllənin 121 və 122-ci maddələrində nəzərdə tutulan hallarda və müvafiq hesablanan idxal ödənişlərinin məbləği həcmində gömrük öhdəlikləri yaranır.

**Maddə 124. İxracat ödənişlərinin geri qaytarılması və ya hesablanması**

1.Gürcüstanın gömrük ərazisində malın emalının gömrük rejimindən istifadə şərtlərini yerinə yetirdikdə, deklarant idxal ödənişlərinin (gömrük ödənişindən əlavə) geri qaytarılmasını və hesab olunmasını tələb edə bilər, əgər o gömrük

orqanına lazımı sübutlar təqdim etsə ki, bu məcəllənin 115-ci maddəsinin birinci hissəsinin b) bəndinə müvafiq olaraq azad dövriyyəyə buraxılan maldan əldə edilən məhsul və ya emal olunmayan mal:

a) Bu məcəllənin 123 –cü maddəsində nəzərdə tutulan-malın üç ilə ərzində qaytarılması istisna olmaqla Gürcüstanın gömrük ərazisindən çıxarılıb;

b) Gürcüstanın gömrük ərazisindən çıxarılmaq şərti ilə, gömrük anbarında malın saxlanmasının, malın müvəqqəti gətirilməsinin və ya gömrük ərazisində malın emal edilməsinin gömrük rejimində mal neytral əraziyə və ya azad anbara aparılıb.

2.Emal olunmamış mal və ya emal olunmuş məhsul, bu maddənin birinci hissəsinin b) bəndində qeyd olunan gömrük işlənmə əməliyyatını müəyyən etmək üçün xarici mal kimi müzakirə olunur.

3.Əgər emal olunmamış mal və ya emal olunmuş məhsul, bu maddənin birinci hissəsinin b) bəndində qeyd olunan hər hansı bir gömrük rejiminə salınıb və ya neytral əraziyə aparılıbsa və ya azad anbara və azad dövriyyəyə buraxılıbsa, gömrük borcları, idxal ödənişləri geri qaytarılmış və ya hesab olunmuş məbləğ həcmində olur.

## Fəsil XIX. Malın müvəqqəti gətirilməsi

### Maddə 125. Malın müvəqqəti gətirilməsində gömrük rejimindən istifadə

1.Malın müvəqqəti gətirilməsinin gömrük rejimi imkan verir ki, Gürcüstanın gömrük ərazisinə geri qaytarılmaq şərti ilə gətirilən xarici mal, gətirildiyi zaman, idxal ödənişlərindən (gömrük ödənişi istisna olmaqla) tam və ya qismən azad olma şərti ilə və ticarət siyasəti tədbirləri keçirilmədən, müəyyən müddət ərzində Gürcüstanın gömrük ərazisində dəyişdirilmə-

dən istifadə olunsun, ekspluatasiya, nəqliyyat və ya saxlanmanın normal şəraiti üçün təbii olan itkilər istisna olmaqla.

2.Malın müvəqqəti gətirilməsində gömrük rejimindən istifadə etmə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 126. Malın müvəqqəti gətirilməsində gömrük rejimindən istifadə şərtləri**

1.Malın müvəqqəti gətirilməsində gömrük rejimindən istifadə şərtləri

A) Malın müvəqqəti gətirilməsində gömrük rejiminə salınmalı malın inamlı identifikasiya ilə təmin edilmə imkanları;

B) Malın müvəqqəti gətirilməsində gömrük rejimində hər bir malın (Bu maddənin ikinci hissəsinə müvafiq olaraq Gürcüstana müvəqqəti gətirilməsi qadağa olunan mallar istisna olmaqla )salınma imkanı;

C) Deklarant tərəfindən sübutlaşdırılmış göstəricilərin təqdim edilməsi;

D) a) Müvəqqəti gətirilən malın geri çıxarılma öhdəlikləri haqda;

E) b) Malın müvəqqəti gətirilmə vaxtları haqda;

F) İdxal ödənişlərini ödəməkdən müvəqqəti azad olma ilə, malın müvəqqəti gətirilməsi zamanı, deklarant tərəfindən malın müvəqqəti gətirilməsinin gömrük rejiminə salınan mala idxal ödənişlərinı müvafiq olan zamanəti təqdim etmə.

2.Gürcüstana müvəqqəti gətirilməsi qadağan olunan malların cildi Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 127. Malın müvəqqəti gətirilmə müddəti**

1.Malın müvəqqəti gətirilməsinin gömrük rejiminə malın salınma müddəti 2 ildən çox olmamalıdır. Malın müxtəlif çeşidləri üçün qeyd olunan müddət çərçivəsində, Gürcüstanın Maaliyyə Nazirliyi fərqli müddət məhdudiyyəti qoya bilər.

2.Malın müvəqqəti gətirilmə səbəblərini nəzərə almaqla və gömrük orqanları ilə razılaşmaqla, bu maddənin birinci hissəsində qeyd olunan müddət hüdudlarında deklarant, müvəqqəti gətirilən malın Gürcüstanın gömrük ərazisindən çıxarılmasını və ya onun üzərində gömrük işlənmə əməliyyat çeşidinin müəyyənləşdirilmə müddətinin konkret vaxtını müəyyən edir.

3.Malın müvəqqəti gətirilmə müddəti, malın müvəqqəti gətirilmənin gömrük rejiminə xarici malın salındığı gündən hesaba alınır.

4.Gömrük orqanı lazım olan hallarda, deklarantın yazılı ərizəsi əsasında malın müvəqqəti gətirilməsinin əvvəlcədən müəyyən edilmiş müddətini, bu maddənin birinci hissəsində qeyd olunan məhdud müddət hüdudlarında uzada bilər.

5.Malın müvəqqəti gətirilməsinin müddətini uzatma zamanı, ilk dəfə gətirildiyində yaranan bəyannamə tələbi yenidən yaranır.

**Maddə 128. İdxal ödənişlərindən tam azad olmaqla malın müvəqqəti gətirilməsinin gömrük rejimindən istifadə etmək**

1.İdxal ödənişlərindən (gömrük ödənişi istisna olmaqla) tam azad olmaqla,Gürcüstanın gömrük ərazisinə müvəqqəti gətirilmək üçün aid olan aşağıda sadalanan xarici mallar (Malın, Gürcüstanın Maaliyyə Nazirinin gömrük departamentinin qərarı əsasında Gürcüstanın gömrük ərazisində müvəqqəti qalma müddətinin uzadılma halı istisna olmaqla) malın müvəqqəti gömrük rejiminə salına bilər:

A)Hər bir canlı heyvan ( o cümlədən balıqlar) ,əgər onların gətirilmə səbəbi :

a) Təlim, məşq, əhliləşdirmək, çəkiliş, veterinar işlənmə və ya yoxlamadırsa ( almaq məqsədi ilə və s.

b) Sərqidə, konkursda, tamaşada və yarışda iştirak etmək;

c) Əyləncə (sirk heyvanları vəs.) sayahət (sayahətçilərin ev heyvanları daxil olmaqla);

d) Xüsüsi işləri yerinə yetirmək ( polis işçiləri üçün və başqa məqsədlər):

e) Yardım etmə əməliyyatları keçirmək;

f) Otarmaq;

g) İşlər görmək və ya daşımaq (transportirovka);

h) Tibbi məqsədlər üçün istifadə (ilan zəhəri və s.)

B) Yarmarkalar üçün, sərgilər üçün, müxtəlif görüşlər və oxşar tədbirlər üçün aid olan heyvanlar, yalnız tədbirdə təqdim olunan xərclənən ( istifadə edilən, məhv oledilən) xarici mal nümunələri istisna olmaqla (qida məhsulları, elektrik qaynağa aid olan elektrodlar, boyalar, laklar, oboy, çap olunmuş məsələlər, kataloqlar, reklam plakatları, qiymət göstəriciləri və s. ) bunlardır:

B)a) Xarici qurğular və cihazları nümayiş etdirmək və yoxlamaq üçün aid olan mallar;

B)b) Xarici qurğular və cihazları nümayiş etdirmək və yoxlamaq üçün lazım olan inşaa və dekorativ məsələlər (elektrik – cihazlar daxil olmaqla);

B)c) Xarici malın açıq nümayişi üçün ( səs və təsvir yazmaq vasitələri, filmlər və slaydlar və başqa müvafiq cihazlar) aid olan reklam-nümayiş məsələləri;

C) Gürcüstana gətirilən xarici müəssisəyə /təşkilata və ya qeyri rezident fiziki şəxsə məxsus olan kinematoqrafiya, press, televiziya və radio verilişləri üçün lazım olan professional cihazlar və gətirən şəxs tərəfindən yalnız press, səsli və televiziya cihazları üçün istifadə olunur və xarici qanunvericiliyə müvafiq olaraq yaradılan press, radio və ya televizia təşkilatının verlişlərinin, reportajlarını hazırlayan və ya xüsüsi proqramlar yazan nümayəndə istifadə edir; Xarici müəssisəyə /təşkilata və ya qeyri rezident fiziki şəxsə məxsus olan və Gürcüstanın gömrük ərazisində film çəklişi həyata keçirən, kinematoqrafik məqsədlər üçün aid olan professional cihazlar:

C)a)Press üçün aid olan cihazlar: personal kompyuter, telefaks, çap makinası, hər növdə fotoapparat (firlə və

elektron), səsötürücü və ya təsvir yazan və ya təsvir yaradan apparatlar (maqnitofon, videomaqnitofon) pleyr, mikrofon, mikşer pultu, akustik dirək), səsi və ya təsviri yazan və özündə daşıyan yazılarla və ya yazılarsız, ölçü-nəzərət cihazı və apparatı (ossiloqrafiya, maqnitofon və videomaqnitofonu yoxlayan sistem, multimetr, alətlər üçün çamadan və sumka, elektroskopiya, videosiqnal generatoru və s.) işıqlandıran cihazlar (projektor, transformator, üçayaq) yardımçılar (kaset, fotometr, obyektiv, üçayaq, akkumulyator, qoşakəmər, batereyanı dolduran cihaz, monitor);

C)b) Radio yayımı üçün aid olan cihazlar: rabitə cihazları (radiötürücü, radioqəbuledici və ya ötürücülər, terminallar, xəttə və ya kebelə qoşulanlar, rabitə xətləri), səs çoxluğunu generasiya edən (səs yazan, qeydiyyat və ya təsvir istehsal edən apparat), ölçü-nəzarət apparatları və alətləri, apparatı (ossiloqrafiya, maqnitofon və videomaqnitofonu yoxlayan sistem, multimetr, alətlər üçün çamadan və sumka, elektroskopiya, videosiqnal generatoru və s.) yardımçı cihazlar (saat, xronometr, kompas, mikrofon, mikşer pultu, səs yazan, maqnit lent, elektro aqreqat, transformator, batereya və akkumulyator, batereya dolduran cihaz, hava isidən, kondisioner və vintilyasiya apparatı və s.) yazılarla və yazılarsız səs yazmaları daşıyan;

C)c) Televiziya üçün aid olan cihazlar: telekamera, telekinoproeksiya qurğusu, ölçü-nəzarət apparatı və alətlər, ötürücü və retranslyasiya apparatı, səs və ya təsvir yazan və ya təsvir edən apparat (maqnitofon, videomaqnitofon, pleyr mikrofon, mikşer pultu, akustik dirək), işıqlandıran cihazlar, (projektor, transformator, üç ayaq), video montaj üçün apparatura, (saat, xronometr, kompas, mikrofon, mikşer pultu, səs yazan, maqnit lent, elektro aqreqat, transformator, batereya və akkumulyator, batereya dolduran cihaz, hava isidən, kondisioner və vintilyasiya apparatı və s.) yazılarla və yazılarsız səs yazmaları daşıyan, (verlişin adı, stansiyanı şərti olaraq çağıran siqnal, musiqi əlavə və s. ) efirdə olan çəkiliş məsələsi (kinofir

və s.) musiqi əlatləri. Kostyumlar, dekorasiyalar və başqa teatral və səhnə aksessuarları, qrimm, saç qurudan;

C)d)Yuxarda qeyd olunan məqsədlər üçün işlənmiş və ya xüsusən hazırlanmış,tele ötürücü apparat üçün, tele yardımçı, səs yazan və ya təsvir edən apparatlar üçün, yavaşıdıcı apparatlar üçün, işıqlandıran apparatlar üçün nəqliyyat vasitələri;

C)e) Kinomatoqrafiya üçün lazım olan cihazlar : Hər tipdə kamera (kinokamera və videokamera, ölçü-nəzarət cihazları və apparatlar (ossiloqraf, maqnitofon və videomaqnitofonu yoxlamaq üçün sistemlər, multimetr, alətlər üçün çamadan və çanta, elektroskop, videosiqnallar generatoru və s.) Operator üçün qaldırıcı kranlı araba və mikrofon üçün ştativ, işıqlandırıcı cihazlar (projektor, transformator, üçayaq), videomontaj üçün apparatura, səsi və ya təsviri yazan və ya təsviredici apparatlar, maqnitofon, videomaqnitofon, pleyr, mikrofon, mikşer pultu, səs yazan maqnit lenti, elektroaqreqat, transformator, batereya və akkumulyator, batereya dolduran cihazlar, hava isidicisi, kondisioner və ventilasiya apparatura və s.) musiqi alətləri, kostyumlar, dekorasiya və başqa teatral və səhnə aksesuarları. (qrimm, saç qurudan);

C)f)Yuxarıda qeyd olunan məqsədlər üçün xüsusi işlənilmiş və ya hazırlanmış nəqliyyat vasitələri;

D) Başqa cihazlar:

D)a)Cihazlar maşın, qurğu, nəqliyyat vasitələrinin montajı, sınaq, buraxılış, nəzarət, yoxlanış, texniki xidmət və ya təmir cihazları, cihazlar və alətlər ölçü, yoxlamaq və nəzərət üçün, (temperatur, təzyiq, məsafə, yüksəklik, səth, sürət və s.) o cümlədən elektron alətlər, (voltmetr, ampermetr, axarlı ölçü, komparator, transformator, qeydiyyat cihazı və s.) sıxmaq üçün cihaz, maşınlar və qurğuları fotoşəklini çəkmək üçün apparatlar və cihazlar və gəminin texniki nəzarəti üçün cihaz.

D)b) Ekspert, mühasib və oxşar peşə sahibləri üçün vacib olan cihazlar: personal kompyuter, çap maşını, səs və ya

təsvir yazan və ya ötrücü apparat, hesablamaq üçün alət və apparat;

D)c) Ekspertə lazım olan topoqrafik çəkiliş və ya geofiziki kəşfiyyat üçün cihaz, nəzarət – ölçü alətləri və apparat, buruq üçün cihazlar, ötrücü cihazlar və rabitə üçün cihazlar;

D)d) Ətraf mühitin çirklənməsinə qarşı mübarizə məqsədi ilə ekspertin istifadə etdiyi cihaz ;

D)e) Həkimə, xirurqa, veterinara, sanitara və oxşar peşə sahiblərinə lazım olan cihazlar və apparatlar;

D)f) Arxeoloqlara, paleontoloqlara, coğrafiyaşünaslara, zooloqlara və başqa peşə sahiblərinə lazım olan cihazlar ;

D)q) Aktyor-aktrisalara, teatral qruplara və orkestrlərə lazım olan cihazlar, tamaşa zamanı istifadə olunan əşyalar, musiqi alətləri, dekorasiyalar, kostyumlar və s.

D)z) Məruzəçiyə, öz məruzəsini izah etmək üçün lazım olan cihazlar;

D)v) Səyahət zamanı fotoşəkil çəkmək üçün lazım olan cihazlar, (hər növdə fotoapparat, kaset, eksponimetr, obyektiv, üçayaq, akkumulator, kəmər, batereya dolduran cihaz, monitor, işıqlandırıcı, dəb paltarı və maneken üçün tualet əşyaları və s.)

D) i) Yuxarıda qeyd olunan məqsədlər üçün istifadə olunan nəzarət qurğuları, daşınan emalətxana, daşınan laboratoriya və s. kimi nəqliyyat vasitələri;

E) Maarifləndirici, elmi və mədəni məqsədlər üçün gətirilən mal ( əgər Gürcüstanın gömrük ərazisinə gətiriləndən sonra, bu mal xarici müəssisə/təşkilat və ya qeyri-rezident olan fiziki şəxsin mülkiyyətinə çevrilirsə);

E)a) Səs və təsvir yazan apparat: epidiaskop, kinoproektor, rirproektor və episkop, maqnitofon, videomaqnitofon və kinoskop, qapalı tele sistem;

E)b)Səs və təsvir daşıyıcısı: diapozitiv, diafilm və mikrofilm, kinofilm, səsli yazılar (maqnit lent, disk) videolent;

E)c) Xüsusi cihazlar: kitabxana üçün biblioqrafik cihazlar və audiovizual vasitələr, daşınan kitabxana, xarici dil

öyrənənlər üçün laboratoriya, sinxron tərcümə cihazları, mexaniki və elektron proqram təhsil maşını, əlillərin təhsili üçün və ya onların peşakar hazırlaşmaları üçün xüsusi düzəldilən cihazlar;

E)f) Başqa cihazlar: divar diaqramması, maket, qrafika, xəritə, plan, fotoşəkil və rəsm, nümayiş üçün düzəldilmiş cihazlar, apparatlar və modellər, hər hansı bir fənni öyrənmək üçün səsli və ya vizual pedaqoji məlumatdaşıyıcı əşyalar (təhsil komplektləri) kolleksiyası, peşə öyrənmək üçün alətlər, apparatlar, alətlər və dəzgah, yardım əməliyyatları zamanı istifadə olunan və yardımçı personalı hazırlamaq üçün lazım olan cihazlar və nəqliyyat vasitələri ;

E)e) Kitablar və çap üçün lazım olan ləvazimat: hər bir janrda kitab, qiyabi təhsil almaq üçün tədris vasitələri, qəzet və periodik nəşr, limanda dənizçilərin istirahətləri zamanı keçiriləcək tədbirlər haqda məlumat kitabçası;

E)f) Audiovizual qurğular: səsi və ya təsviri yazan apparatlar, maqnitofon, radio qəbuledici, və televizor, proeksiya apparatı, diskdə və ya maqnit lentində olan yazı (dillər öyrənmək üçün kurslar. Radioötrücü, musiqi yazıları və əyləncə xarakterli yazılar) çəkilən kino və fotofirlər, diapozitiv, videolent;

E) z) İdman ləvazimatı: idman paltarı, böyük və balaca toplar, çoqan və tir, gəmidamı oyunları,(müvafiq cihazlar) güləşmək üçün inventar, gimnastika üçün cihazlar;

E)i) Əyləncə və istirahat üçün cihazlar: otaq oyunları, musiqi alətlər, cihazlar və teatr sevənlər üçün aksesuarlar,rəsm üçün cihazlar, heykaltəraşlıq üçün, ağacda və metalda işləmək üçün, xalça toxumaq üçün və s.

E)t) Dini mərasimlər keçirmək üçün lazım olan əşyalar;

E)k) İstrahat üçün vacib olan cihaz aksessuarları, detallar;

E) l) Teatral ictimaiyyət və teatr üçün ödənişsiz müvəqqəti istifadə üçün, göndərilən tetral kostyumlar və aksesuarlar;

E)m) Konsert zalları və orkestrlər üçün müvəqqəti və ödənişsiz istifadə üçün göndərilən partitura və notlar;

F) Dövlət orqanlarına və ya müəssisələrə, təbii fəlakət, qəza, faciə və epidemiya nəticələrinin aradan qaldırması üçün müvəqqəti olaraq ödənişsiz verilən mallar;

G) Tədris üçün yardımçı vasitələr, onların ehtiyyat hissələri və elmi cihazlar və belə yardımçı vasitələri saxlamaq, təmir etmək və ya qəlibləşdirmək üçün lazım olan alətlər, əgər hər bir şərti yerinə yetrilibsə:

G) a) Müəssisə tərəfindən öz istifadəsi üçün gətirilən və qabaqcadan müəyyənləşdirilmiş miqdardan çox olmamaq şərti ilə və yalnız belə müəssisələrin nəzarəti və cavabdehliyi altında istifadə olunur;

G)b) İqtisadi məqsədlər üçün istifadə olunmur;

G)c) Gömrük ərazisində olduğu zaman xarici müəssisə / təşkilat və ya qeyri-rezident fiziki şəxsin mülkiyyətində qalır;

H) Elmi-tibbi cihazlar, onların ehtiyyat hissələri və yardımçı hissələri, belə cihazları saxlamaq, yoxlamaq, təmir və ya qəlibləşdirmək üçün elmi-tədqiqat və ya tədris məqsədləri üçün, əgər hər bir şərt yerinə yetirilibsə:

H)a) Müəssisə tərəfindən öz istifadəsi üçün gətirilən və qabaqcadan müəyyənləşdirilmiş miqdardan çox olmamaq şərti ilə və yalnız belə müəssisələrin nəzarəti və cavabdehliyi altında istifadə olunur;

H)b) İqtisadi məqsədlər üçün istifadə olunmur;

H)c) Gömrük ərazisində olduğu zaman xarici müəssisə / təşkilat və ya qeyri-rezident fiziki şəxsin mülkiyyətində qalır;

J) Nəqliyyat vasitələri ( o cümlədən gəmi və uçaq vasitələri) əgər hər bir şərt yerinə yetirilibsə:

J)a) Xarici ölkə ərazisində qeydiyyata alınmış;

J) b) Gürcüstan vətəndaşı olmayan şəxsin adına qeydiyyatda olan və Gürcüstan ərazisində hərəkət etmək üçün istifadə olunur;

Z) Diplomatik və turist məqsədləri üçün, əgər gömrük ərazisində olduğu zaman xarici müəssisə / təşkilat və ya qeyri-rezident fiziki şəxsin mülkiyyətində qalır;

Ğ) Kommersial əməliyyatla bağlı gətirilən konteyner, nümunə, reklam filmi, qablaşdırma və başqa mal:

Ğ)a) Konteyner (" konteyner haqda" 1972-ci ilin Cenevrə konvensiyasına uyğun olaraq);

Ğ)b)Yardımçı dayanacaq;

Ğ)c) Qablaşdırılma ( malın qablaşdırılması, qorunması, yerləşdirilməsi, bərkidilməsi və ya parçalanması məqsədi ilə gətirilən hər hansı bir məsələ və məmulat, qablaşdırılmalı məsələlər - küləş, kağız, şüşəpambıq, yonqar və s. istisna olmaqla)

Ğ)d) Nümunə ( müəyyən kateqoriyaya aid olan hazır mal və ya istesal üçün nəzərdə tutulan mal məmulat nümunələri, həmin şəxsə və ya qəbul edən şəxsə göndərilən, ticarət qaydalarına uyğun olan miqdarda, artıq nümunə hesab olunmayan identik məmulatlar istisna olmaqla );

Ğ)f)Reklam filmi (təsvirin çəkilmiş daşıyıcıları (fonoqramla və ya fonoqramsız) xarici müəssisənin /təşkilatın və ya qeyri-rezident olan fiziki şəxs tərəfindən satılmaq və ya kirayə vermək üçün təqdim etdiyi məlumatın və ya cihazın mahiyyətini nümayiş etdirir , elə bir şərtlə ki, onlar potensiyal müştərilərə göstərilmək üçün yararlıdır, amma açıq zallarda yox, hər filmin bir-bir surəti olan və filmin daha böyük əmanəti olmayan bağlamada gətirilib);

Ğ)e) Təcrübə, sınaq, yoxlama və nümayiş üçün gətirilən mallar;

Ğ)z) Təcrübə, sınaq, yoxlama və nümayiş proseslərində lazım gələn mallar;

Ğ)i) Çəkilmiş və biruzə verilən kinematoqrafik firlər, o cümlədən kommersial istifadə üçün nümayiş etdirməyə aid olan pozitiv və təsvirdaşıyıcı firlər;

Ğ)t) Səsləndirmək, dublyaj və səs və ya təsviri təsvir etməyə aid olan fir, maqnit lenti, maqnit firi və səs və təsvir daşıyan fir və ya lent ;

Ğ)k) Ödənişsiz göndərilən və aid olan göstəricilərin avtomatik emal edilməsi üçün yazılı məlumat daşıyıcıları;

Ğ)l) Öz xüsussiyətləri ilə müəyyən növdə reklam üçün və ya müəyyən məqsədli propaqanda üçün istifadə edilə bilən məlumatlar ( nəqliyyat vasitələri).

2. Bu maddənin birinci hissəsinin məqsədləri üçün:

a) "Tədbir" termini deməkdir :

a)a) Ticarət, sanaye, kənd təsərrüfatı və keramik məmulatların sərgisi, yarmarka və ya oxşar sərgilər;

a)b) Təhsil, incəsənət, idman, elm, mədəniyyət səviyyəsini yüksəltmək üçün təşkil olunan sərgi və ya görüş;

a)c) Müxtəlif beynəlxalq təşkilatların görüşü;

a)d) Xüsusi məqsədlər üçün, mağaza və biznes mərkəzlərində malın satılması üçün nəzərdə tutulan sərqi istisna olmaqla, rəsmi və ya möhtəşəm xarakterli nümayəndəli görüşlər;

b) "Təhsil üçün yardımçı vasitələr" termini – Tədris məqsədləri üçün və ya peşəkar təlimlər üçün nəzərdə tutulan model, alətlər, apparatlar və cihaz mexanizmi kimi yardımçı vasitələr;

c)"Təsdiq olunmuş müəssisə" - gəlir əldə etmək nəzərdə tutulmayan və müvafiq dövlət orqanı tərəfindən qeydə alınmış təhsil üçün yardımçı vasitələri qəbul edən, müvəqqəti gətirmək rejimi üçün səlahiyyət verən xüsusi və ya açıq məktəb və ya peşə müəssisəsi deməkdir;

d) Elmi tibbi cihazlar" termini - elmi-tədqiqat və ya tədris məqsədləri üçün istifadə olunan alətlər, apparatlar və alət mexanizmləri deməkdir.

**Maddə 129. İdxal ödənişlərinin bir qismindən azad olmaqla malın müvəqqəti gətirilməsində gömrük rejimindən istifadə etmək**

İmport ödənişlərinin bir qismindən azad olmaqla, xarici müəssisənin / təşkilatın və ya qeyri rezident fiziki şəxsin mülkiyyətində qalmaq şərtilə, bu məccəllənin 128 –ci maddəsinin birinci hissəsində göstərilən malın siyahısına daxil olmayan, xarici mal, malın müvəqqəti gətirilməsinin müvəqqəti rejiminə düşə bilər.

**Maddə 130. İdxal ödənişlərinin bir qismindən azad olunmuş malın müvəqqəti gətirilməsində gömrük rejiminə salınmış mala ödənilməli məbləğin müəyyənləşdirilməsi**

1.Malın müvəqqəti gətirilməsinin gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən, idxal ödənişlərinin bir qismindən azad olunan malın Gürcüstanın gömrük ərazisində olduğu hər bir tam və tam olmayan təqvim ayı üçün, malın müvəqqəti gətirilməsinin gömrük bəyannaməsinin qeydiyyata alındığı gün, bu malın azad dövriyyəyə buraxıldığında ödənilən idxal ödənişlərinin (gömrük ödənişləri istisna olmaqla) 3%-i ödənilir. Qeyd olunan məbləğ hər hesabat ayının ardınca gələn ayın 15-inə qədər ödənilməlidir, son ödəniş isə - malın müvəqqəti gətirilməsinin gömrük rejimi sona çatdığı günü ödənilməlidir.

2.Bu maddənin birinci hissəsində qeyd olunan, ödənişlərin cəmi olan məbləğ (rüsumsuz), malın müvəqqəti gətirilməsinin gömrük bəyannaməsi qeydiyyata alındığı gün, bu malın azad dövriyyəyə buraxıldığı zaman idxal ödənişlərinin (gömrük ödənişləri istisna olmaqla) məbləğindən artıq olmamalıdır.

3.Gömrük orqanının və mal sahibinin razılığı ilə, malın müvəqqəti gətirilmə bəyannaməsini təqdim etmək hüququ olan və müəyyən edilən şərtləri qane edən şəxsə, malın gətirilməsinin gömrük rejiminə salınan mal verilə bilər. Müvəqqəti gətirilmə rejiminə salınan mal başqa şəxsə verildiyi gündən,

qeyd olunan gömrük rejiminin bəyannaməçi vəzifələri və salahiyyətləri (o cümlədən gömrük sanksiyaları) bu şəxsə verilir. Bununla yanaşı, malı verən şəxsin vəzifəsidir ki, malın müvəqqəti gətirilmə rejiminə salınan idxal ödənişlərinin bir qismindən azad olunan malın istifadə etdiyi dövr üçün idxal ödənişlərini ödəsin.

4.Əgər idxal ödənişlərini ödəməyin bir qismindən azad olan müvəqqəti gətirilən malın üzərində gömrük borcu yaranarsa, Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsində nəzərə alınmayan rüsum, gömrük borcu olan məbləği, malın müvəqqəti gətirilməsinin gömrük bəyannaməsinin qeydiyyatı günündən ödənilir.

**Maddə 131. Gömrük öhdəliklərini müəyyən etmək**

1.Əgər malın müvəqqəti gətirilməsinin gömrük rejiminə salınan, idxal ödənişlərindən tam azad olan mala qarşı malın müvəqqəti götirilmə rejimini pozmaq üçün və ya azad dövriyyəyə buraxılmaq üçün gömrük öhdəliyi yarandısa, idxal ödənişlərinin məbləği, bu məcəllənin 200-cü maddəsində nəzərə alınan gündən, bu malın növlərinin, gömrük dəyəri və miqdarı əsasında və malın müvəqqəti gətirilməsinin gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən ident mallarının idxalı zamanı fəaliyyətdə olan Gürcüstan qanunvericiliyi əsasnamələri ilə müəyyən edilir.

2.Əgər malın müvəqqəti gətirilməsinin gömrük rejiminə salınan, idxal ödənişlərinin bir qismindən azad olan mala qarşı malın müvəqqəti gətirilmə zamanı gömrük rejimi pozuldusa və ya azad dövriyyəyə buraxıldığı üçün gömrük borcu yarandısa, idxal ödənişləri məbləği ,bu məcəllənin 200-cü maddəsində nəzərə alınan gündən, bu maddənin birinci hissəsinə müvafiq olaraq hesablanan məbləğ və bu məcəllənin 130-cu maddəsi ilə ödənilən idxal ödənişlərinin məbləği arasında olan fərqlə müəyyən edilir.

**Maddə 132. Malın müvəqqəti gətirilməsi gömrük rejiminə salınan malın və ya onu komplektləşdirən hissələrin Gürcüstanın gömrük ərazisindən kanarda emal edilməsi**

1.Malın müvəqqəti gətirilməsi gömrük rejimindən istifadə zamanı, bu rejimə salınan mal və ya onu komplektləşdirən hissələr gömrük orqanı ilə razlaşdırılmaqla və bu məcəllənin 127-ci maddəsinin əsasında müəyyən edilən müddət sona çatana qədər, geri qayıtmaq şərti ilə emal üçün Gürcüstanın gömrük ərazisindən kanara çıxarıla bilər.

2.Malın müvəqqəti gömrük rejiminə salınan və idxal ödənişlərindən tam azad olunmuş mal, əgər bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan müvəqqəti müddətlə çıxardılmışdırsa, bu məcəllənin 127-ci maddəsinin əsasında müəyyən edilən müddət sona çatana qədər emal olunmuş məhsul kimi geri qaytarıldı və yenidən gömrük rejiminə düşdüsə, o zaman ona qarşı gömrük öhdəlikləri yaranmır.

3.Malın müvəqqəti gömrük rejiminə salınan və idxal ödənişlərindən tam azad olunan mal, əgər bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan müvəqqəti müddətdə çıxarılmışdırsa, bu məcəllənin 127-ci maddəsinin əsasında müəyyən edilən müddət sona çatana qədər emal olunmuş məhsul kimi geri qaytarılsa və yenidən gömrük rejiminə düşdüsə, o zaman deklarant təqdim olunan zəmanətin, bu məcəllənin 43-cü maddəsinin birinci hissəsi ilə hesablanan gömrük dəyərinin mala ödənilməli idxal ödənişləri məbləğinin miqdarında böyüdülməsini və belə bir gömrük dəyərinə, bu məcəllənin 130-cu maddəsinə müvafiq olaraq hesablanan idxal ödənişlərinin məbləğin ödənilməsini təmin etməlidir.

4.Bu maddənin birinci hissəsində nəzərdə tutulan malın geri qayıtarılması ilə bağlı ( Bu maddənin 2-ci və 3-cü hissəsində nəzərdə tutulan hallar istisna olmaqla) bu məcəllənin 131-ci maddəsində nəzərdə tutulan hallarda və müvafiq olaraq hesablanan idxal ödənişlərini məbləği miqdarında gömrük öhdəlikləri yaranır.

## Fəsil XX. Gömrük ərazisindən kanarda malın emal edilməsi

**Maddə 133. Gömrük ərazisindən kanarda malın emal edilməsi zaman gömrük rejimindən istifadə**

1.Əgər bu məcəllənin 123-cü, 131-ci, 143-cü və 146-cı maddələri ilə digər bir hal nəzərdə tutulmayıbsa, gömrük ərazisindən kanarda malın emal ediməsinin gömrük rejimi imkan verir ki, Gürcüstanın gömrük ərazisindən kanara müvəqqəti olaraq çıxarılan Gürcüstan malına qarşı, malın emal edilməsində bir və ya birdən çox əməliyyat istifadə olunsun və emal olunan məhsulun Gürcüstan gömrük ərazisinə gətirildiyi zaman, idxal ödənişlərindən ( gömrük ödənişləri istisna olmaqla) tam və ya qismən azad olmaqla azad dövriyyəyə buraxılsın.

2.Gömrük ərazisindən kanara malın emal edilməsinin gömrük rejiminə salınan Gürcüstan malının müvəqqəti çıxarılması zamanı, ixrac ödənişləri ödənilir və ticarət siyasi tədbirləri həyata keçirilir, Gürcüstanın gömrük ərazisindən Gürcüstan malının eksportu zamanı nəzərdə tutulan gömrük prosedurları həyata keçirilir.

3.Gömrük ərazisindən kənarda malın emal edilməsinin gömrük rejimindən istifadə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 134. Gömrük ərazisindən kanarda malın emal edilməsində gömrük rejimindən istifadəni məhdudlaşdıran şərtlər**

1.Gömrük ərazisindən kanarda malın emal edilməsində gömrük rejimi Gürcüstan malına qarşı istifadə olunmur, əgər:

a) Onu çıxartmaq, ona edilən gömrük tarifinin geri qaytarılmasını və ya hesab olunmasını yaradırsa;

b) O çıxardana qədər, məqsədyönlü təyinatlı və idxal ödənişlərinə güzəştlərdən istifadə etməklə azad dövriyyəyə buraxılmışdır və belə güzəştlərdən istifadə olunma şərtləri qüvvədədirsə.

2.Bu maddənin birinci hissəsinin b) bəndində qeyd olunan halların istisnası Gürcüstanın Maaliyyə Nazirinin müvafiq əmri ilə müəyyən olunur.

**Maddə 135. Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadə şərtləri**

Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadə şərtləridir:

a) Emal edilən məhsulda, emal olunan məhsulun xarici malla dəyişdirildiyi hallar istisna olmaqla, gömrük ərazisindən kanarda malın emal edilməsinin rejiminə salınmalı malın identifikasiya imkanları;

b) Deklarant tərəfindən təsdiq edilmiş imkanların təqdim edilməsi;

b)a) Malın emal edilmə əməliyyatını keçirən şəxs haqda;

b)b) Gömrük ərazisindən kanarda malın emal ediməsinin gömrük rejiminə salınmalı malın, onun emal edilməli məhsulunun və qalıqlarının təsviri, keyfiyyəti və miqdarı haqda;

b)c) Malın emal edilmə əməliyyatlarının, onları həyata keçirmə müddəti və vasitələri haqda;

b)e) Emal olunmalı məhsulun gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmalı malın identifikasiya vasitələri haqda;

b)f) Malın emal edilmə müddətləri haqda;

b)q) Emal olunmalı məhsulun gəlir norması haqda

b)v)Emal olunmalı məhsulun xarici malla dəyişdirilməsi haqda;

b)d) Deklarant tərəfindən vergi və ya gömrük borcunun olmaması.

**Maddə 136. Emal olunmalı məhsullarda malın identifikasiyası**

1.Malın və həyata keçirilən emal olunma əməliyyatlarını nəzərə almaqla emal olunmalı məhsulun və çıxardılan

malın identifikasiyası üçün deklarant aşağıdaki vasitələrdən istifadə edə bilər:

a) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmalı malın ştampla, rəqəmlə və ya başqa cür markirovka ilə işarələnməsi;

b) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmalı malın xırdalığı ilə təsviri. Fotoçəkiliş, miqyaslı təsvir;

c) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmalı malın və onun emal olunmalı məhsulunun probunun və ya nümunəsinin tədqiqatı və ya analiz nəticələrinin müqayisəsi;

d) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmalı malın istesalçı tərəfindən qoyulan seriya nömrələri və ya başqa markirovka;

e) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimi ilə çıxardılan mala həyata keçirilən emaledilmə əməliyyatları təsdiq edilən sənədlər;

f) Müasir texnikadan istifadəni nəzərdə tutan identifikasiyanın başqa vasitələri.

2.Emal olunmalı məhsulun identifikasiyası üçün gömrük orqanı səlahiyyətlidir ki, bu maddənin birinci hissəsində nəzərdə tutulan və onun üçün qəbul edilən vasitələri seçsin.

3.Deklarantın tələbi ilə və gömrük orqanının razılığı ilə, malın identifikasiyası, malın emal edilmə əməliyyatında istifadə olunan xammalın, məsələlərin və komplektləşdirənlərin, o cümlədən emal olunmalı malın istehsal texnologiyaları haqda təqdim olunan detal göstəricilərin tədqiqatı və ya malın emal olunma əməliyyatlarına gömrük nəzarəti təmin olunsun.

**Maddə 137. Malın emal olunma müddəti**

1.Gömrük ərazisindən kanarda malın emalında gömrük rejimindən istifadə zamanı, deklarant malın emal edilmə müddətini 2 ildən çox olmamaq şərti ilə, gömrük orqanı ilə razlaşdırılmaqla müəyyən edir.

2.Gömrük ərazisindən kanarda malın emaledilmə müddəti, emaledilmə prosesinin uzunluğundan və məhsulun Gürcüstanın gömrük ərazisinə gətirilməyinə lazım olan müddəti nəzərə almaqla müəyyən ləşdirilir .

3.Deklarantın izahatlı ərizəsi əsasında əvvəlcədən müəyyənləşdirilmiş müddət, bu maddənin birinci hissəsində qoyulan müddət hüdudlarında uzadıla bilər.

4.Malın emaledilmə müddəti, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə malın salındığı gündən hesab olunur. Malın müxtəlif partiyalarla çıxarıldığı zaman – bu gömrük rejiminə malın ilk partiyasının salındığı gündən hesab olunur.

5.Malın emal edilməsi ilə bağlı müəyyən edilən əməliyyatlar üçün və ya müxtəlif malların emal edilməsi üçün, Gürcüstanın Maaliyyə Nazirliyi konkret müddət qoya bilər.

**Maddə 138. Gəlir əldə etmə normaları və onu hesaba alma üsulunun müəyyən edilməsi**

1.Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadə etmək üçün, deklarant, gömrük orqanı ilə razılaşaraq gəlir əldə etmənin normalarını və onu əldə etmənin üsulunu, malın emal edilməsini həyata keçirən , bu maddənin 3-cü hissəsində nəzərdə tutulan hallar istisna olmaqla, faktiki şərtlərinə söykənərək müəyyənləşdirir.

2.Deklarantla, emal edilmə məhsulunun gəlirəldəetmə normalarını razlaşdırıldığı zaman, gömrük orqanı ekspert təşkilatlarının (o cümlədən gömrük laboratoriyalarının), malın emal edilməsinin konkret texnoloji proseslərinə əsaslanan rəylərini nəzərə alır.

3.Əgər malın emaledilmə əməliyyatının daimi xüsusiyyətləri varsa və onlar müəyyən texnoloji şərtləri qorumaqla həyata keçirilirsə və nəticədə həmin keyfiyyətdə emaledilmə məhsulu istehsal olunursa, Gürcüstanın hakimiyətinin səlahiyyətli, komponent orqanları gömrük məqsədlərinə əsasən, emal

olunmalı məhsulun gəlirliyinin standart normalarını qəbul edirlər.

**Maddə 139. İmport ödənişlərindən tam və ya qismən azad olunma şərtləri**

1.Bu məcəllənin 140-cı maddəsinin birinci hissəsi ilə müəyyən edilən idxal ödənişlərindən (gömrük ödənişləri istisna olmaqla) tam və ya qismən azad olunma yalnız elə hallarda mümkündür ki, əgər gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadəsi zamanı gətirilən emal olunma məhsulu, azad dövriyyəyə buraxılmaq üçün bəyan olunubsa:

a) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salan deklarant tərəfindən;

b) Hər bir rezident tərəfindən, əgər ona razılığı gömrük ərazisindən kanarda malın emal edilməsini gömrük rejiminə salan deklarant veribsə və gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadə şərtləri yerinə yetirilibsə.

2.Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadə zamanı, gətirilən emalolunma məhsulu idxal ödənişlərini ödəməkdən tam və ya qismən azad olunmur, əgər gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimi ilə bağlı bütün şərt və ya öhdəliklər yerinə yetirilməyibsə.

**Maddə 140. Emal olunan məhsulun Gürcüstanın gömrük ərazisinə gətirildiyi zaman gömrük öhdəliklərinin müəyyən edilməsi**

1.Əgər gömrük ərazisindən kanarda malın emal edilməsinin, gömrük rejiminə salınmış malın emal edilməsindən sonra əldə edilən emalolunma məhsulunun, bu məcəllənin 133-cü maddəsində nəzərdə tutulan idxal ödənişlərindən tam və ya qismən azad olunmaqla Gürcüstanın gömrük ərazisinə gətirildiyi zaman gömrük öhdəlikləri (bu macəllənin 141-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) yarandısa,

ödənilləsi məbləğ, bu məcəllənin 43-cü maddəsinin birinci hissəsi ilə hesablanan emal olunma məhsulunun gömrük ödənişlərinin əsasında ödənilləsi idxal ödənişlərinin məbləği miqdarında müəyyən edilir.

2.Bu maddənin birinci hissəsində qeyd olunan ödənilləsi məbləği müəyyən edəndə, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın və ondan əldə olunmuş emalolunma məhsulunun çeşidi və miqdarı, o cümlədən emalolunma məhsulunun azad dövriyyəyə buraxıldığı gün, gömrük bəyannamə günü, fəaliyyətdə olan idxal ödənişlərinin bölməsi nəzərə alınmalıdır.

**Maddə 141. Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınan malın ödənişsiz emal edilməsi**

1.Əgər deklarant təsdiq edərsə ki, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınan malı ödənişsiz emal edildi ( müqavilə və ya zəmanət öhdəliklərinin əsasında, və ya istehsal defektinə görə) o zaman emalolunma məhsulunun Gürcüstanın gömrük ərazisinə gətirildiyində, o azad dövriyyəyə idxal ödənişlərindən tam azad olunmaqla buraxılmalıdır.

2.Bu maddənin birinci hissəsi ilə müəyyən edilən güzəşt emalolunma məhsuluna aid deyil, əgər Gürcüstanın gömrük ərazisinə gətirildiyi zaman, malın gömrük ərazisinin kanarında malın emal edilməsinin gömrük rejiminə salınmasına qədər istehsal defekti, onu azad dövriyyəyə buraxana qədər nəzərə alınmışdısa.

**Maddə 142. Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın kompensasiya ödənişi ilə emal edilməsi**

Əgər gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın emal edilməsi müvafiq kompensasiya ödənişi ilə həyata keçirilirsə, emalolunma məhsulunun Gürcüstanın gömrük ərazisinə gətirildiyində azad

dövriyyəyə idxal ödənişlərindən qismən azad olmaqla buraxılmalıdır, belə hallarda gömrük öhdəlikləri bu məcəllənin 140-cı maddəsinə müvafiq olaraq müəyyən edilir

**Maddə 143. Standart mübadilə sistemi**

1.Bu məcəllənin 143-146 maddəsindən istifadə etdikdə standart mübadilə sistemi imkan verir ki, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın emal edilməsi nəticəsində əldə olunmalı emalolunan məhsul xarici mal ilə mübadilə olunmalıdır (bundan sonra - əvəzedici məhsul)

2.Gömrük ərazisindən kanarda malın emal edilməsində gömrük rejimindən istifadə zamanı, deklarantın izahatlı ərizəsi əsasında gömrük orqanı, standart mübadilə sistemindən istifadə haqda qərar qəbul etmək səlahiyyətindədir.

2.Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimindən istifadəsi zamanı, deklarantın izahatlı ərizəsi əsasında gömrük orqanı, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın emal edilməsi üçün çıxarılana qədər, əvəzedici məhsulun gətirilməsi (gələcəkdə - əvvəlcədən gətirilmə) haqda qərar qəbul etməkdə səlahiyyətlidir.

2.Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınan malın emal edilməsindən sonra əldə olunmalı emal olunma məhsulu ilə bağlı, bu fəsildə nəzərdə tutulan əsasnamələr əvəzedici məhsullara da aid edilir.

**Maddə 145. Əvəzedici məhsul qabaqcadan gətirildiyində zəmanəti təqdim etmək və malın çıxarılma müddəti**

1.Əvəzedici məhsulun əvəlcədən gətirilməsinə qədər (azad dövriyyəyə buraxıldığı gündən) gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın Gürcüstanın gömrük ərazisindən çıxarılmasına qədər, deklarant, malın azad dövriyyəyə buraxıldığı günü, malın (əvəzedici məhsulun) idxal ödənişləri məbləğində zəmanət təminatını həyata keçirməlidir. Belə hallarda, gömrük ərazi-

sindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın Gürcüstanın gömrük ərazisindən çıxarılma müddəti gömrük orqanı tərəfindən əvəzedici məhsulun azad dövriyyəyə buraxıldığı və gömrük bəyannaməsi qeydiyyata alındığı gündən hesaba alınır və 2-aydan çox olmamalıdır.

2.Deklarantın sübutlaşdırılmış vasitəçiliyi əsasında gömrük orqanı, gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminin bu maddənin birinci hissəsində qeyd olunan müddətini 1 ayla uzatmaq salahiyyətindədir.

**Maddə 146. Əvəzedici məhsulun qabaqcadan gətirildiyində idxal ödənişlərinin hesablanması**

Əgər bu məcəllənin 141-ci maddəsi ilə digər hal nəzərdə tutulmayıbsa, əvəzedici məhsulun əvəlcədən gətirildiyi zaman gömrük öhdəlikləri yaranır:

a) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejiminə salınmış malın Gürcüstanın gömrük ərazisindən qoyulan müddətdə çıxardıldığında və ödəniləsi idxal ödənişləri bu məcəllənin 140-cı maddəsinə müvafiq olaraq hesablanır;

b) Gömrük ərazisindən kanarda malın emal edilməsinin gömrük rejimini pozduqda və ödəniləsi məbləğ idxal ödənişləri, malın azad dövriyyəyə buraxıldığı gömrük bəyannaməsinin qeydiyyata alındığı gün fəaliyyətdə olan Gürcüstanın qanunvericiliyi əsasnamələrinə müvafiq olaraq, əvəzedici məhsulun çeşidini, miqdarını və gömrük dəyərini nəzərə almaqla hesablanır.

## XXI.Fəsil. Malın eksportu

**Maddə 147. Malın eksportunda gömrük rejimindən istifadə**

1.Malın eksportunun gömrük rejimi imkan verir ki, Gürcüstan malı Gürcüstanın gömrük ərazisindən kanara çıxaril-

sın, əgər ticarət siyasi tədbirləri həyata keçirilərsə və müəyyən hallarda eksport ödənişləri ödənilərsə.

2.Gömrük ərazisindən kanarda malın emalının gömrük rejiminə salınan mal istisna olmaqla, Gürcüstanın gömrük ərazisindən kanara çıxardılması nəzərdə tutulan Gürcüstan malı, malın eksportunun gömrük rejiminə salınmalıdır.

3.Malın eksportunun gömrük rejimində bəyan olunmuş mal, mal eksportunun gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən 30 təqvim günü ərzində çıxarılmalıdır, əgər gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa. Bu müddət qaydası pozulduqda, deklarant 5 təqvim günü ərzində gömrük orqanına gömrük bəyannaməsinin ləğv edilməsi haqda və ya malın çıxarılması üçün qoyulan müddəti 10 təqvim günü ilə uzadılması haqda vasitəçilik təqdim etməlidir. Malın çıxarılmasına və gömrük prosedurlarını yerinə yetirməyə deklarant cavabdehdir.

4.Mal eksportunun gömrük rejiminə bəyan olunmuş mal, malın eksportunun gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən Gürcüstanın gömrük ərazisindən malı çıxardana qədər gömrük nəzarətinə tabe olur.

5.Malın eksportunun gömrük rejimindən istifadə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə148. Malın eksportunda gömrük rejimindən istifadə şərtləri**

Malın eksportunda gömrük rejimi istifadə olunur, əgər mal Gürcüstanın gömrük ərazisindən çıxarıldığı gün, eksportun gömrük bəyannaməsinin qeydiyyata alındığı gün olduğu vəziyyətdədirsə.

## Fəsil XXII. Neytral ərazi və azad anbar

**Maddə 149. Neytral ərazinın və azad anbarın mahiyyəti**

Neytral ərazi və ya azad anbar Gürcüstanın gömrük ərazisinin hissəsidir, orada yerləşən tikinti-binalar yalnız neyt-

ral ərazi və ya azad anbarın fəaliyyəti üçün istifadə olunur və orada:

a) İmport ödənişlərini ödəməsi üçün və ticarət siyasəti tədbirləri həyata keçirmək üçün xarici mal Gürcüstanın gömrük ərazisinə gətirilmiş hesab olunmur, əgər onun azad dövriyyəyə buraxılması, başqa gömrük rejiminə salınması, istifadəsi və ya Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan hallarda istifadə olunması baş vermirsə.

b) Gürcüstan malının gömrük rejiminə salındığında da, oxşar malların Gürcüstanın gömrük rejiminə salındığı zaman istifadə olunan gömrük qanunvericilik normaları istifadə olunur .

**Maddə 150. Neytral ərazi yaratmaq və azad anbar qurmaq**

1.Gürcüstanın gömrük ərazisi hüdudlarında, dəniz limanında, hava limanında və ya gömrük sərhədi ilə həmsərhəd olan nəqliyyat məntəqəsində, neytral ərazi yaratmaq və azad anbar qurmaq mümkündür. Neytral ərazi və azad anbar yaratmaq müəyyən müddətdə nəzərdə tutulur.

2.Maraqlanan şəxsin ərizəsi və müvafiq zəmanət təqdim etməsi əsasında neytral ərazi və ya azad anbar yaratmaq haqda qərarı Gürcüstan hakimiyyəti qəbul edir

3.Neytral ərazi və ya azad anbar sərhədləşdirilmiş və müvafiq olaraq nişanlanmış olmalıdır.

4.Neytral ərazi və ya azad anbara və onların hissəsində giriş və çıxış müəyyən edilməlidir ki, malın başqa yerlərdən daxil edilməsi və çıxarılması baş verməsin.

5.Təqdim olunmalı zəmanətin həcmi, neytral ərazi yaratmaq və azad anbar qurmaq şərtləri, onların fəaliyyəti, malın saxlanma və gömrük nəzarəti qaydaları Gürcüstan hakimiyyətinin müvafiq əsasnamələri ilə müəyyən edilir.

**Maddə 151. Neytral ərazidə və azad anbarda gömrük nəzərətini həyata keçirmək**

1.Neytral ərazi və azad anbarın giriş – çıxışlarına, neytral ərazinın və azad anbarın sərhədlərinə nəzarəti gömrük orqanı həyata keçirir.

2.Gömrük orqanı səlahiyyətlidir:

a) Neytral ərazi və azad anbar perimetrində şəxsin, malın və ya nəqliyyat vasitələrinin hərəkəti və malın saxlanılmasına nəzarəti həyata keçirsin;

b) Neytral ərazi və ya azad anbara, Gürcüstanın gömrük qanunvericiliyi ilə qoyulan tələbləri yerinə yetirməyən şəxsin girişinə və fəaliyyətinə qadağa qoysun;

c) Neytral ərazida və ya azad anbarda saxlanılan malın sənədlərinin surətlərini tələb etsin;

d) İstənilən vaxt neytral ərazida və ya azad anbarda saxlanılan malı yoxlasın.

**Maddə 152. Neytral ərazidə və azad anbarda malın saxlanılması**

1.Neytral ərazidə və ya azad anbarda saxlanıla bilər:

a) Bu məcəllənin 149-cu maddəsinin b) bəndində nəzərdə tutulan Gürcüstan malı;

b) Bu hissənin a) bəndində nəzərdə tutulmayan və gömrük nəzarətinin həyata keçirilməsini mürəkkəbləşdirməyən Gürcüstan malı;

c) Xarici mal.

1.Əgər neytral əraziyə və ya azad anbara digər malları zədələyə biləcək mal yerləşdirilərsə gömrük orqanı səlahiyyətlidir ki, malın xüsusi binaya yerləşdirilməsini tələb etsin.

**Maddə 153. Malın təqdim edilməsi və bəyan edilməsi**

1.Neytral əraziyə və ya azad anbara saxlanılan mala gömrük bəyannaməsini təqdim etmək vacib deyil, əgər bu məcəllə ilə digər bir hal nəzərdə tutulmayıbsa.

2.Neytral əraziyə və ya azad anbara saxlanılan mal təqdim olunmağa və gömrük prosedurlarının həyata keçirilməsinə tabe olur, əgər :

a) O, neytral əraziyə və ya azad anbara saxlanılana qədər gömrük rejiminə salınıbsa. Həmçinin, malın təqdim edilməsi vacib deyil, əgər gömrük rejimini tənzimləyən Gürcüstanın qanunvericiliyi ilə, mal gömrük orqanına təqdim olunma vacibliyindən azad olunubdursa.

b) İmport ödənişlərinin geri qaytarılmasından və ya onları ödəməkdən azad olma haqda qəbul edilən qərar əsasında, onlar neytral əraziyə və ya azad anbara yerləşdirildi;

c) Ona qarşı, oxşar malların eksport rejiminə salındığında istifadə olunan tədbirlər istifadə olunur.

3.Gömrük orqanı, eksport ödənişlərini ödəməyə tabe olan mala və ya malın eksportunun gömrük rejimi hallarında ticarət siyasi tədbirlər həyata keçirilən mal haqda məlumat tələb etməyə səlahiyyətlidir.

4.Maraqlanan şəxsin vasitəçiliyi əsasında, gömrük orqanının vəzifəsidir ki, neytral əraziyə və ya azad anbara yerləşdirilən malın statusunu yazılı şəkildə təsdiq etsin.

**Maddə 154. Azad zonada və ya azad anbarda malın saxlanma müddəti**

1.Neytral ərazidə və ya azad anbarda malın saxlanma müddəti məhdud deyil.

2.Bu məcəllənin 149-cu maddəsinin b) bəndində nəzərdə tutulan hallarda neytral ərazidə və ya azad anbarda malın saxlanma müddəti Gürcüstan hakimiyyətinin müvafiq əsasnamələri ilə müəyyən edilə bilər.

**Maddə. 155. Neytral ərazidə və azad anbarda icazə verilmiş fəaliyyət**

1.Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan şərtlərlə neytral ərazidə və ya azad anbarda hər bir malın istehsalına və ya xidmətinə icazə verilir, bu maddənin 3-cü hissəsində nəzərdə tutulan hallar istisna olmaqla. Belə fəaliyyət haqda Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinə qabaqcadan xəbərdarlıq verilməlidir

2.Bu maddənin birinci hissəsində müəyyən edilən fəaliyyət, neytral ərazidə və ya azad anbarda insanların sağlamlığına və təhlükəsizlik normalarına mənfi təsir etməməlidir.

3.Gömrük nəzarətinin həyata keçirmək məqsədi ilə, neytral ərazidə və ya azad anbarda icazə verilən fəaliyyət növlərinə, Gürcüstan hakimiyyəti müvafiq əsasnamə əsasında qadağalar və mühdudlaşdırmalar qoya bilər.

**Maddə 156. Neytral əraziyə və ya azad anbara yerləşdirilən xarici mal**

1.Neytral ərazidə və ya azad anbarda saxlanılan xarici mal, orada olduğu müddətdə:

a) Bu məcəllənin 162-ci maddəsinə və ya malın idxalının gömrük rejiminə müvafiq olaraq azad dövriyyəyə buraxıla bilər;

b) Həmin rejimin müəyyən etdiyi şərtlərə müvafiq olaraq gömrük ərazisində malın işlənməsinin gömrük rejiminə düşə bilər;

c) Bu rejimlə müəyyən edilən şərtlərə müvafiq olaraq malın müvəqqəti gətirilmə rejiminə düşə bilər;

d) Bu məcəllənin 168-ci maddəsinə əsasən dövlət mülkiyyətinə verilə bilər.

e) Bu məcəllənin 167-ci maddəsinə müvafiq olaraq gömrük nəzarəti altında məhv edilə bilər.

1.Gömrük orqanı ilə razlaşdırılmadan, neytral əraziyə və ya azad anbara yerləşdirilən xarici mala qarşı, saxlandığı müddətdə yalnız bu məcəllənin 111-ci maddəsində nəzərdə tutulan əməliyyatlar həyata keçirilə bilər.

**Maddə 157. Neytral əraziyə və ya azad anbara yerləşdirilən Gürcüstan malı**

Bu məcəllənin 149-cu maddəsinin b)bəndində müəyyən edilən və saxlanmağa verilən mala qarşı, gömrük orqanı ilə razlaşdırılmadan yalnız bu məcəllənin 111-ci maddəsində nəzərdə tutulan əməliyyatlar həyata keçirilə bilər.

**Maddə 158. Malın istifadəsi və ya tətbiqi**

1.Bu məcəllənin 156 və 157 –ci maddələri ilə müəyyən edilən hallar istisna olmaqla, neytral əraziyə və ya azad anbara yerləşdirilən xarici malın və bu məcəllənin 149-cu maddəsinin b) bəndində nəzərdə tutulan Gürcüstan malının istifadəsi və ya tətbiq edilməsi qadağandır.

2.Bu maddənin birinci hissəsi, azad dövriyyəyə buraxıldığında və ya müvəqqəti gətirildiyində idxal ödənişlərini ödəmək və ya ticarət siyasi qeyri-tarif tədbirləri həyata keçirmək nəzərdə tutulmayan mallara aid deyil. Belə hallarda malın azad dövriyyəyə buraxıldığı və ya müvəqqəti gətirilmənin gömrük bəyannaməsini təqdim etmək lazım deyil.

3.Neytral ərazidə və ya azad anbarda malın fərdi satışı qadağandır, burada işləyən işçiləri qida ilə təmin etmək istisna olmaqla.

**Maddə 159. Neytral ərazidə və azad anbarda qeydiyyat aparmaq**

1.Neytral ərazidə və ya azad anbarda malın yerləşdirilməsi, emal edilməsi və ya alışı, satışı ilə bağlı fəaliyyətdə iştirak edən şəxs, Gürcüstanın Maaliyyə Nazirliyinin təsdiq etdiyi formada anbarın qeydiyyatını aparmağa vəzifəlidir.

2.Bu maddənin birinci hissəsində qeyd olunan şəxs tərəfindən anbara gətirilən mal dərhal, anbarın qeydiyyat sənədində qeydə alınmalıdır.

3.Malın identifikasiyasını və malın hərəkətini qeydə alan gömrük orqanı üçün, anbarın qeydiyyat sənədi əlçatan olmalıdır.

**Maddə 160. Neytral ərazinın və ya azad anbarın fəaliyətinin dayandırması**

Əgər neytral ərazi və ya azad anbarı Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulan tələblərə müvafiq deyilsə və ya qeyd olunan tələblər yerinə yetirilmirsə, bu fəaliyyətin müddəti sona çatan kimi və ya Gürcüstan hakimiyyətinin müddətindən tez verdiyi əmrə əsasən, neytral ərazinın və ya azad anbarın fəaliyyəti dayandırıla bilər.

**Maddə 161. Sərbəst zonadan və ya sərbəst anbardan malın çıxarılma şərtləri**

1.Əgər Gürcüstan qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, neytral ərazidan və ya azad anbardan malı çıxartmaq mümkündür:

a) Gürcüstanın gömrük ərazisindən çıxarılsın;

b) Gürcüstanın gömrük ərazisinin başqa yerinə keçirilsin.

2.Gürcüstan ərazisinin başqa yerinə keçirilən mala qarşı, bu məcəllənin 44-cü və 61-ci maddələrinin əsasnamələri istifadə olunur, bu məcəllənin 53-ci və 56-ci maddələrinin Gürcüstan malı ilə bağlı əsasnamləri istisna olmaqla.

3.Neytral ərazidan dəniz və ya hava yolları ilə, gömrük rejimindən istifadə olunmadan çıxarılan mala bu maddənin 2-ci hissəsi aid deyil.

**Maddə 162. Gömrük vəzifələrinin və gömrük ödənişlərini müəyyən etməyin xüsusi əsasnamələri**

1.Əgər gömrük vəzifələri, gömrük ərazisinin başqa yerinə keçirilən mala qarşı yaranırsa və neytral ərazida malın olduğu müddətdə, malın anbarda yerləşdirilməsini və ya saxlanma qiyməti əhatə edən malın gömrük dəyəri razılaşma yolu ilə hesablanıbsa və o razılaşma qiymətindən əlavə göstərilibsə, belə ödəniş gömrük dəyərinə daxil olmamalıdır.

2.Bu maddənin birinci hissəsində qeyd olunan mala qarşı gömrük dəyəri müəyyən ediləndə, deklarantın vasitəçiliyi əsasında və gömrük orqanının razlığı ilə, bu məcəllənin 111-ci maddəsində qeyd olunan əməliyyatlar həyata keçirilib, gömrük dəyəri , çeşidi, və miqdarı ,bu məcəllənin 200-cü maddəsinə müvafiq olaraq müəyyən edilir və elə bir şərtlə ki, ona qarşı 111-ci maddədə qeyd olunan əməliyyatlar həyata keçrilmir.

**Maddə 163. Neytral ərazidə və ya azad anbarda yerləşdirilmiş Gürcüstan malına qarşı keçirilən əməliyyatlar**

1.Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq, bu məcəllənin 149-cu maddəsinin b) bəndində nəzərdə

tutulan Gürcüstan malına qarşı da, malın ixracının gömrük rejiminə salınan oxşar mala qarşı keçirilən gömrük tədbirləri keçirilir.

2.Əgər, bu məcəllənin 149-cu maddəsinin b) bəndində nəzərdə tutulan Gürcüstan malı Gürcüstanın gömrük ərazisinin başqa yerinə qayıtdısa və ya bu məcəllənin 154-cü maddəsinin 2-ci hissəsinə müvafiq olaraq müəyyən edilən müddətdə malın gömrük işlənmə əməliyyatının çeşidini müəyyən etmək tələbi ilə vasitəçilik təqdim edilmədisə, bu maddənin birinci hissəsinə müvafiq olaraq, o, saxlanmağa tabe olur.

**Maddə 164. Malın gömrük statusu**

1.Əgər mal, Gürcüstan gömrük ərazisinin başqa yerinə gətirilib və ya qaytarılıb və ya gömrük rejiminə salınıbsa, malın gömrük statusunu təsdiq etmək üçün, bu məcəllənin 153-cü maddəsinin 4-cü hissəsində qeyd olunan yazılı bildirişdən istifadə olunur.

2.Əgər gömrük orqanının yazılı bildirişi ilə malın Gürcüstan və ya xarici mal statusu olduğu təsdiq edilmirsə, o zaman mal:

a) Gürcüstan malı eksport ödənişlərinin ödənilməsi və ticarət siyasətinin başqa tədbirlərini həyata keçirmək məqsədləri üçün müzakirə olunur;

b) Xarici mal kimi müzakirə olunur, bu hissənin a) bəndində qeyd olunan hallar istisna olmaqla.

**Maddə 165. Mal çıxarıldığında gömrük orqanı vəzifəlidir**

Neytral ərazidən və ya azad anbardan malın çıxarıldığında, gömrük orqanı Gürcüstanın gömrük qanunvericiliyində nəzərdə tutulan normaları qorumaqla, nəzarəti həyata keçirməlidir.

## Fəsil XXIII. Malın reeksportu, onu gömrük nəzarəti altında məhv etmək və malı dövlət mülkiyyətinə vermək

### Maddə 166. Malın reeksportu

1.Malın reeksportunun gömrük işlənmə əməliyyatı imkan verir ki, Gürcüstanın gömrük ərazisinə gətirilən mal, gömrük ödənişlərini (gömrük yığımı istisna olmaqla) ödəmədən və ya ödənilən məbləğin (gömrük rüsumu istisna olmaqla) geri qaytarılması və ya hesablanması ilə, əgər belə bir azad olunma, geri qaytarılma və ya hesab olunma malın Gürcüstanın gömrük ərazisində olduğu zaman salındığı gömrük rejimi sona çatanda nəzərə alınıbsa, Gürcüstanın gömrük ərazisindən çıxarıla bilər.

2.Bu məcəllə ilə qoyulan qaydalarla gömrük rejimində olma müddət sona çatan xarici mal və gömrük rejiminə salınmış hər hansı bir mal, malın reeksportunun gömrük işlənmə əməliyyatına tabe ola bilər.

3.Gürcüstanın Maaliyyə Nazirliyinin müəyyən etdiyi hallarda malın reeksportunun gömrük işlənmə əməliyyatı gömrük orqanının əvəlcədən bildirişi ilə həyata keçirilə bilər. Əgər gömrük anbarında malın saxlanması, gömrük ərazisində malın emal edilməsi və ya malın müvəqqəti gətirilməsi gömrük rejiminə salınan malın reeksportu niyyətindədirsə, gömrük orqanına gömrük bəyannaməsi təqdim olunur.

4.Azad dövriyyəyə buraxılan mal deffekti səbəbindən və ya miqdarı, keyfiyyəti, qablaşdırılması və ya təsviri xarici razılaşmaya müvafiq deyilsə və bu səbəbdən onu ötürənə və ya işarə olunan şəxsə geri qaytarılırsa, reeksport oluna bilər, əgər:

a) İstifadə olunmayıbsa və onun emal edilməsi Gürcüstan ərazisində həyata keçirilməyibsə, malın istifadəsi deffektlə və ya başqa amillər üzə çıxmaqla bağlı olması və bu səbəbdən malın geri qaytarılma halları istisna olmaqla ;

b) Gömrük orqanı tərəfindən identifikasiya oluna bilər;

c) Azad dövriyyəyə buraxıldığı gündən 6 ay ərzində Gürcüstanın gömrük ərazisindən çıxarılmalıdır.

1.Bu maddənin 4-cü hissəsinə müvafiq olaraq, malın reeksportu zamanı ödənilən gömrük ödənişlərinin ( gömrük yığımları istisna olmaqla) geri qaytarılması həyata keçirilir.

2.Malın reeksportundan istifadə qaydalarını Gürcüstanın Maaliyyə Nazirliyi müvafiq əmrlə müəyyən edir.

**Maddə 167. Malın gömrük nəzarəti altında məhv edilməsi**

1.Malın mülkiyyətçisi və ya sahibi (o cümlədən gömrük anbarının sahibi) gömrük orqanına təqdim etdiyi yazılı vasitəçiliyi və ümumi bəyannaməsi əsasında, gömrük orqanı ilə razlaşdırılmış formada və gömrük nəzarəti altında xarici mal məhv oluna bilər. Malın məhv edilməsi, ətraf mühitə ziyan vurmadan və ya insan həyatına və ya sağlamlığına birbaşa və ya potensial təhlükə törətmədən, ətraf mühiti mühafizə edən orqanlarla razlaşdırıldıqdan sonra həyata keçirilir.

2.Məhv oluna bilməz:

a) Mədəni dəyərlər;

b) Nəsli kəsilməkdə olan heyvanlar və bitki növləri, onların hissələri və yaranma mənbələri, onların məhv edilməsinə səbəb epidemiya və xəstəliyin qarşısını almaq məqsədi istisna olmaqla;

c) Gürcüstanın qanunvericiliyinə müvafiq alınan mal və ya qadağa qoyulan mal, onların məhv edilməsinə səbəb epidemiya və xəstəliyin qarşısını almaq məqsədi istisna olmaqla və ya insan həyatına və ya sağlamlığına birbaşa və ya potensial təhlükə yaradırsa;

3.Gömrük nəzarəti altında malın məhv edilməsi, yalnız ərizəçinin ( mal sahibinin və ya mülkiyyətçinin) xərci hesabına baş verir. Məhv olunmadan sonra əldə edilən hər bir qalıq və ya dəmir tullantılarına qarşı gömrük işlənməsinə müvafiq əməliyyat istifadə olunur. Qalıq və ya dəmir tullantısı, bu

məcəllənin 44-cü maddəsinin 2-ci hissəsində qeyd olunan əməliyyatları həyata keçirənə qədər nəzarət altında qalır.

4.Gömrük nəzarəti altında olan malın məhv edilmə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 168. Malın dövlət mülkiyyətinə verilməsi**

1.Gömrük orqanı ilə razılaşdırmaqla xarici mal dövlət mülkiyyətinə verilə bilər, bunun üçün malın mülkiyyətçisi gömrük orqanına mal sahibi ilə razlaşdırılmış yazılı vasitəçilik təqdim etməlidir.

2.Malı dövlət mülkiyyətinə vermək mal sahibinin xərci hesabına idxal ödənişləri ödənilmədən baş verir.

3.Dövlət mülkiyyətinə malın verilmə qaydaları Gürcüstanın Maaliyyə Naziri müvafiq əmri ilə müəyyən edilir.

## Bölmə VI.
## Gürcüstanın gömrük ərazisindən çıxarılan mal
## Fəsil XXIV. Gürcüstanın gömrük ərazisindən çıxarılan mal

**Maddə 169. Gürcüstanın gömrük ərazisindən çıxarılan mala nəzarət**

1.Gürcüstanın gömrük ərazisindən çıxarılan mal gömrük nəzarətinə tabe olur. Gömrük orqanı qeyd olunan mala gömrük nəzarəti həyata keçirmək salahiyyətindədir.

2.Gürcüstanın gömrük ərazisindən malın çıxarılması bu məcəllənin 45-ci maddəsinin birinci hissəsində qeyd olunan yerləri keçməklə və gömrük orqanı tərəfindən müəyyən edilən marşrutla və gömrük prosedurlarını qorumaqla həyata keçirilir.

3.Əgər malın Gürcüstanın gömrük ərazisindən çıxarılması və ya Gürcüstanın gömrük ərazisindən çıxarılan mala bəyan olunmuş göstəricilərin dəqiqliyi haqda şübhə yaranırsa, gömrük orqanı başqa ölkənin verdiyi, Gürcüstandan çıxarılan malın bu ölkəyə daxil edilmə qeydiyyatını təsdiq edən sənədi və ya bəyannaməni sübut kimi hesab etsin.

## Bölmə VII. Gömrük güzəştləri (preferens)
## Fəsil XXV. Gömrük güzəştləri (preferens)

**Maddə 170. Malın gömrük ödənişlərindən azad edilməsi**

1.Gömrük ödənişlərindən malın azad edilməsi halları Gürcüstanın parlamenti ratifikasiya və qüvvədə olan beynəlxalq müqavilələr, Gürcüstanın vergi məcəlləsi, ”Gömrük tarifi haqda” və” Gömrük rüsumları haqda” Gürcüstanın qanunları ilə müəyyən edilir.

2.Gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən 3 təqvim ili ərzində, məqsədyönlü təyinatla və idxal ödənişlərinə güzəştlərdən istifadə etməklə gətirilən malın başqa məqsədlə özgələşdirilməsi, girov qoyma, borc vermə və ya borcu ödəmək üçün onu vermək, başqa şəxsin istifadəsinə vermək və ya istifadə etmək yolverilməzdir. İmport ödənişləri ödəndikdə yuxarıda qeyd olunan məhdudlaşmalar aradan qalxır.

**Maddə 171. Qayıtmış mala vergi qoymaq**

1.Gürcüstanın gömrük ərazisindən çıxarılmış Gürcüstan malı, gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən 3 təqvim ili ərzində dəyişilməz vəziyətdə deklaranta qayıtdısa və bu onun təqdim etdiyi sənədlərlə təsdiq edilirsə, belə vəziyyətdə qayıtmış mal Gürcüstanın gömrük ərazisinə gətirilmiş kimi hesab olunmur və malın sərbəst dövriyyəyə buraxılmasının (idxal) gömrük rejiminə salınması kimi hesab olunmur və buna müvafiq olaraq ona qarşı idxal ödənişləri ödənilmir (gömrük yığımından əlavə) .

2.Gömrük orqanı, Gürcüstanın gömrük qanunvericiliyi ilə müəyyən edilən hallarda və deklarantın yazılı tələbi əsasında, bu maddənin birinci hissəsində qeyd olunan müddət bir təqvim ilinə qədər uzadıla bilər.

3.Əgər Gürcüstanın gömrük ərazisindən malı çıxarana qədər, o məqsədyönlü sərbəst dövriyyəyə buraxılıbsa və idxal

ödənişlərinə güzəştdən istifadə edibsə, bu maddənin birinci hissəsində müəyyən edilən ödənişlərdən azad ola bilər, əgər qayıtmış mal Gürcüstanın gömrük ərazisinə dəyişməmiş vəziyyətdə və həmin məqsədlə gətirilibsə.

4.Əgər bu maddənin 3-cü hissəsinə müvafiq olaraq, mal Gürcüstanın gömrük ərazisinə başqa məqsədlə gətirilibsə, bu malın idxal ödənişlərinin miqdarı , malın ilk dəfə sərbəst dövriyyəyə buraxıldığında ödənildiyi qədər azalmalıdır.

5.Mal bu maddənin birinci hissəsində nəzərdə tutulan idxal ödənişlərini ödəməkdən azad olunmur:

a) Gürcüstanın gömrük ərazisindən kənara, emal edilmə üçün gömrük rejiminə müvafiq olaraq çıxarılan mal , malın vəziyyəti Gürcüstanın gömrük ərazisindən çıxarılandan sonra dəyişdirilmədən qaldığı hal istisna olmaqla;

b) Gürcüstanın gömrük ərazisindən çıxarıldığında ticarət siyasi tədbirləri həyata keçirilir.

6.Bu maddə ilə müəyyən edilən idxal ödənişlərindən azad olma baş verir, yalnız malın Gürcüstanın gömrük ərazisindən çıxarıldığı vəziyyətdə Gürcüstanın gömrük ərazisinə dəyişdirilməmiş vəziyyətdə geri döndüyü hallarda.

**Maddə 172. Qayıtmış emal olunmuş məhsula verginin tətbiq olunması**

1.Gömrük ərazisindən malın gömrük rejimindən istifadəsindən sonra Gürcüstanın gömrük ərazisindən çıxarılan Emal olunma məhsulu dəyişdirilmədən gömrük ərazisinə geri qayıdırsa, ona bu məcəllənin 171-ci maddəsinin əsasnamələri aiddir.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan hallarda, idxal ödənişlərinin miqdarı gömrük ərazisində malın emal edilməsinin gömrük rejimini tənzimləyən əsasnamələri əsasında müəyyən edilir.

**Maddə 173. Dəniz balıqtutma məhsullarının və başqa dəniz məhsullarının idxal ödənişlərindən azad olunması**

Əgər Gürcüstanın gömrük qanunvericiliyinə müvafiq olaraq malın yaranmasını müəyyən edən qaydalarla başqa bir şey qəbul olunmayıbsa, malın azad dövriyyəyə buraxılması (idxalın) gömrük rejiminə salınma kimi hesab olunmur və müvafiq olaraq Gürcüstanın gömrük ərazisinə aşağıdakı mallar gətirildiyində idxal ödənişləri ödənilmir:

a) Gürcüstanda qeydiyyatda olan və Gürcüstan bayrağı altında üzən gəmi tərəfindən əldə edilən balıqtutma məhsulları və başqa dəniz məhsulları;

b) Gürcüstanda qeydiyyatda olan və Gürcüstan bayrağı altında üzən istehsalçı gəmidə bu maddənin a) bəndində qeyd olunan, əldə edilən məhsullar.

**Maddə 174. Gömrük nəzərətindən azad olma**

1.Gömrük nəzarətindən azad olma, yalnız bu məcəllənin əsasında baş verə bilər.

2.Gömrük nəzarətindən azad olma, Gürcüstanın qanunvericiliyi, beynəlxalq müqavilələri və razılaşmaları ilə nəzərdə tutulan tələbləri pozduqda cavabdehlikdən azad olma demək deyil.

3.Gürcüsan prezidenti, parlamentin sədri, Gürcüstan parlamentinin və Gürcüstan hakimiyyətinin üzvü, başqa ölkələrdə Gürcüstanın diplomatik nümayəndəliyin diplomatik və diplomatik immunitetə malik olan administrativ-texniki personal, onlarla birlikdə olan ailə üzvləri, şəxsi əşyaları gömrük nəzarətinə tabe deyil, Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulan hallar istisna olmaqla.

4.Gürcüstanda başqa dövlətin diplomatik və onunla bərəbərləşdirilmiş nümayəndələrin diplomatik və administrativ-texniki personal (onlarla yaşayan ailə üzvləri ilə birlikdə) və onların şəxsi əşyaları gömrük nəzarətinə tabe deyil. Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulan hallar istisna olmaqla.

5.Gürcüstanın gömrük sərhədini keçdikdə başqa dövlətin diplomatik poçtunu və konsul valizəsini açmaq və ya

saxlamaq qadağandır. Əgər konsul valizasında yerləşdirilmiş əşya haqda bu maddənin 7-ci hissəsində nəzərdə tutulmayan ciddi əsas mövcuddursa, gömrük orqanı, dövlət nümayəndəsinin salahiyyətli şəxsinin və gömrük orqanının vəzifəli şəxsinin iştirakı ilə konsul valizasını aça bilər. Konsul valizasının açılmasına görə narazılıq yaranarsa o, göndərildiyi yerə geri qaytarılır.

6.Diplomatik poçt və konsul valizası olan göndərmələrin, onun xasiyyətinə işarə edən xarici nişanı olmalıdır.

7.Diplomatik poçt ,yalnız diplomatik sənədlərdən və rəsmi istifadə üçün nəzərdə tutulan maldan ibarət olmalıdır, konsul valizası isə- yalnız rəsmi korrespodensiya sənədləri və rəsmi istifadə üçün nəzərdə tutulan mallardan ibarət olmalıdır.

8.Başqa ölkənin diplomatik və konsul kuryerləri , iki ölkə arasında olan beynəlxalq razılaşmalara və müqavilələrə əsasən gömrük nəzarəti olmadan , gömrük tarifi və yığımlardan azad olmaqla şəxsi istifadə üçün nəzərdə tutulan malı, dəyişdirmək prinsipi ilə Gürcüstana gətirə və Gürcüstandan çıxara bilər.

9.Başqa dövlət nümayəndələrinə, parlament və hakimiyyət nümayəndələrinə, o cümlədən xarici ölkənin Gürcüstana dövlətlərarası danışıqlar, beynəlxalq konfranslar və tədbirlərdə iştirak etmək üçün gələn nümayəndə heyətinin üzvləri və onlarla olan ailə üzvləri bu maddənin 4-cü hissəsində nəzərdə tutulan gömrük güzəştlərindən istifadə edə bilərlər.

10.Beynəlxalq hakimiyyətarası təşkilatlar, onlarla olan başqa dövlət nümayəndələri, o cümlədən bu təşkilatların və nümayəndələrin personalı və onların ailə üzvləri üçün gömrük güzəştləri Gürcüstanın müvafiq beynəlxalq müqavilələri əsasında müəyyən edilir.

11.Başqa dövlət nümayəndələrinin diplomatik personalına, konsulluğun vəzifəli şəxslərinə və onların ailə üzvlərinə, o cümlədən bu maddənin 9-cu hissəsində nəzərdə tutulan, həmin məqsədlə tranzitlə Gürcüstanın gömrük ərazisini keçməklə

hərəkət edən şəxslərə, bu maddənin 4-cü hissəsində nəzərdə tutulan gömrük güzəştləri nəzərdə tutulur.

## Bölmə VIII. Gömrük öhdəliyi
## Fəsil XXVI. Gömrük öhdəliklərini yerinə yetirmək zəmanəti

### Maddə 175. Ümumi müddəalar

1.Öhdəlikləri yaranan və ya yaranmaq ehtimalı olan şəxs zəmanəti təqdim etməlidir, əgər Gürcüstanın gömrük qanunvericiliyi ilə digər bir hal nəzərdə tutulmayıbsa.

2.Bir gömrük öhdəliyi ilə bağlı gömrük orqanı bir zəmanət tələb edə bilər.

3.Üçüncü şəxsin hüququ var ki, zəmanəti təqdim edən vəzifəli şəxsin əvəzinə zəmanəti təqdim etsin.

4.Öhdəliyi yaranan və ya yaranma ehtimalı olan şəxs dövlət rəhbərliyi və ya yerli idarəetmə orqanıdırsa, zəmanəti təqdim etmək lazım deyil.

5.Zəmanəti təqdim və istifadə etmə, onu təqdim etmədən azad olma halları və zəmanət məbləğini müəyyən etmə qaydaları Gürcüstanın Maaliyyə Nazirinin müvafiq əmri ilə müəyyən edilir.

Maddə 176. Zəmanəti təqdim etmə

Gömrük orqanına zəmanəti təqdim etmək vacibdir

a) Xarici malın gömrük ərazisində hərəkəti zamanı, yalnız gömrük anbarında malın yerləşdirməsinin və bu məcəllənin 100-cü maddəsinin birinci hissəsinin a) b) və c) bəndlərində göstərilən nəqliyyat vasitələri ilə hərəkət edən hər bir gömrük işlənmə əməliyyatı üçün aid olan mal istisna olmaqla;

b) Gömrük işlənmə əməliyyatlarını tənzimləyən əsasnamələr əsasında;

c) Əgər gömrük orqanı qərara alarsa ki, yaranmış gömrük öhdəlikləri yerinə yetirilməyib.

Maddə 177. Ümumi zəmanət

Bu məcəllənin 175-ci maddəsinin birinci və 3-cü hissələrində qeyd olunan şəxslərin vasitəçiliyi əsasında, gömrük orqanı, artıq gömrük öhdəlikləri yaranan və ya yaranma ehtimalı olan iki və ya ikidən çox gömrük işlənmə əməliyyatına ümumi zəmanət təqdim etmək hüququ verməyə tam səlahiyyətlidir.

**Maddə 178. Zəmanət məbləğinin miqdarını müəyyən etmək**

1.Əgər Gürcüstanın gömrük qanunvericiliyinə və malın tranzit hərəkəti ilə bağlı qoyulan tələblərə müvafiq olaraq zəmanəti təqdim etmək vacibdirsə, o zaman gömrük orqanı ekvivalent olan zəmanət məbləğinin miqdarını müəyyən edir:

a) Bir və ya bir neçə gömrük öhdəliklərindən yaranan ödənilməli məbləğdən, əgər zəmanəti təqdim etmə tələbi olduğu zaman qeyd olunan məbləği müəyyən etmək mümkündürsə;

b) Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilən zəmanət məbləğı miqdarında.

2.Əgər ümumi zəmanət elə bir yaranan və ya yaranma ehtimalı olan gömrük öhdəlikləri yerinə yetirmək haqda təqdim olunub ki, onların miqdarı zamanla dəyişir, o zaman zəmanət məbləği hər bir məqam üçün gömrük öhdəliklərini örtə bilən miqdarda müəyyən edilir.

3.Bu məcəllənin 176-cı c) bəndində nəzərdə tutulan hallarda gömrük orqanı zəmanət məbləğini bu maddənin birinci hissəsinin a) və b) bəndində qoyulan miqdardan çox olmayan miqdarla müəyyən edir .

**Maddə 179. Zəmanət növləri**

1.Gömrük orqanına təqdim olunan zəmanət növləri :

a) Bank zəmanəti;

b) Maaliyyə riskinin sığorta polisi;

c) Dövlət xəzinəsinə depozit.

2.Vəzifəli şəxsin gömrük öhdəliklərini, bu maddənin birinci hissəsində qeyd olunan hər hansı bir vasitə ilə yerinə yetirmək salahiyyətindədir.

3.Zəmanətin başqa növünü, lazım olan hallarda Gürcüstanın Maaliyyə Naziri müvafiq əmrlə qəbul edir.

**Maddə 180. Bank zəmanəti**

1.Gürcüstanın Milli Bankı Gürcüstanın Maaliyyə Nazirliyi ilə razılaşdırılmış formada, gömrük orqanı üçün təqdim olunmalı bank zəmanətini verən bankların cildini, bir bank zəmanəti və bir bank tərəfindən veriləsi bank zəmanətinin maksimal miqdarını müəyyən edir.

2.Bank zəmanəti ilə təmin edilən gömrük ödənişləri ödənilmədiyi hallarda, gömrük orqanının tələbi olan an zəmanət verən, müvafiq məbləği Gürcüstanın dövlət büdcəsinə ödəyəcək.

**Maddə 181. Maaliyyə riskini sığortalayan polis**

1.Gürcüstanın sığorta nəzarəti xidməti Gürcüstanın Maaliyyə Nazirliyi ilə razılaşdırılmış formada, gömrük orqanına təqdim olunmalı maaliyyə riskinin sığorta polisini verən sığorta təşkilatlar cildini, bir maaliyyə riskini sığortalama polisi və bir sığorta şirkəti tərəfindən verilməli polisin maksimal miqdarını müəyyən edir.

2.Maaliyyə riskinin sığorta polisi ilə təmin olunan gömrük ödənişlərinin ödənilmədiyi hallarda, gömrük orqanının tələbi olan an, muvafiq məbləği sığortalayan Gürcüstanın dövlət büdcəsinə ödəməlidir.

**Maddə 182. Dövlət xəzinəsində depozit**

1.Dövlət xəzinəsinə lazımi məbləğ, büdcə gəlirlərinin birgə hesabına-depozitin gömrük büdcə gəlirlərinin xəzinə şifrəsinə ödənilir - bu haqda dövlət xəzinəsi gömrük orqanına təqdim etmək üçün müvafiq arayış verir.

2.Müvafiq gömrük orqanı tərəfindən dövlət xəzinəsi üçün yazılı icazə verilmədən depozitə məbləği qoyan tərəfindən onun üzərində sərancam vermək qadağandır.

3.Dövlət xəzinəsinə depozitlə təmin olunan gömrük ödənişləri ödənilmədiyi hallarda, gömrük orqanının tələbi olan an depozit məbləği Gürcüstanın dövlət büdcəsinə keçəcək.

**Maddə 183. Zəmanəti razılaşdırmaq**

1.Zəmanəti təqdim edən vəzifəli şəxsin hüququdur ki, bu məcəllənin 179-cu maddəsində qeyd olunan növlərdən təqdim olunmalı zəmanəti seçim etsin, gömrük orqanı isə, seçim edilmiş zəmanətin müəyyən edilmiş müddətdə yerinə yetirilməsini tələb etmək səlahiyyətindədir.

2.Gömrük orqanı təqdim edilən zəmanətdən imtina etmək hüququndadır, əgər :

a) O gömrük rejimini tənzimləyən Gürcüstanın gömrük qanunvericiliyinə qarşıdırsa;

b) O, zəmanət məbləğinin və ya zəmanətin fəaliyyət müddətini nəzərə almaqla, yarana bilən gömrük öhdəliklərinin yerinə yetirilməsini təmin edə bilmirsə.

**Maddə 184. Yeni və ya əlavə zəmanət təqdim etmək**

Əgər gömrük orqanı təsdiq etsə ki, təqdim olunan zəmanətin zəmanət məbləği yetərli deyil və ya onun etibarlılıq müddəti yarana bilən gömrük öhdəliklərinin yerinə yetirilməsinin təmin edə bilməz, o zaman gömrük orqanı, bu məcəllənin 175-ci maddəsinin birinci hissəsində qeyd olunan şəxsdən ilk dəfə təqdim etdiyi zəmanətin yenisi ilə dəyişdirilməsini və ya əlavə zəmanət təqdim edilməsini tələb edə bilər.

**Maddə 185. Zəmanətin ləğv edilməsi və ya yerinə yetirilməsi**

1.Əgər gömrük öhdəlikləri yaranmadısa, gömrük öhdəlikləri yerinə yetirildisə və ya onun yaranma əsasları kəsildisə, o zaman gömrük öhdəliklərini yerinə yetirmək üçün təqdim olunan zəmanət ləğv olunur.

2.Əgər gömrük borcu qismən ödənilibsə və ya gömrük borcu yalnız gömrük ödənişlərinin təmin etdiyi məbləğin bir hissəsinə yarana bilərsə, o zaman vəzifəli şəxsin gömrük orqanına təqdim etdiyi ərizə əsasında zəmanət məbləğinin bir hissəsi ləğv edilə bilər.

3.Qoyulan müddətdə gömrük ödənişləri məbləği ödənilmədiyi hallarda, gömrük orqanı məhkəmə qərarı olmadan,

gömrük ödənişləri məbləğini və gömrük öhdəlikləri yarandığı gündən Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsində nəzərdə tutulan cərimələni ödəməklə təqdim olunan zəmanətin yerinə yetirilməsini tələb edə bilər.

## Fəsil XXVII. Gömrük öhdəliklərinin yaranması

**Maddə 186. Gürcüstanın gömrük ərazisinə gətirilən malın bəyan edildiyi zaman gömrük öhdəliklərinin yaranması**

1.Gürcüstanın gömrük ərazisinə gətirilən mala (bu məcəllənin 187-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) bəyannamə edildiyi gündən gömrük öhdəlikləri yaranır, əgər o:

a) Sərbəst dövriyyəyə buraxıldığında idxal ödənişlərini ödəməyə tabe olurdusa;

b) İmport ödənişlərini ödəməkdən qismən azad olmaqla malın müvəqqəti gətirilməsinin gömrük rejiminə və ya İmport ödənişlərini ödəməkdən tam azad olmaqla malın müvəqqəti gətirilməsinin gömrük rejiminə salındısa və bu rejimin müddəti uzadıldısa.

2.Deklarant və malın sahibi bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı vəzifəli şəxslərdilər.

**Maddə 187. Gürcüstanın gömrük ərazisinə mal qanunsuz gətirildiyində yaranan gömrük öhdəlikləri**

1.Bu məcəllənin məqsədləri üçün Gürcüstanın gömrük ərazisinə malın qanunsuz gətirilməsi bu məcəllənin 44-47-ci maddələrinin və 161-ci maddəsinin ikinci hissəsinin əsasnamələrini pozmaq deməkdir.

2.Gömrük öhdəlikləri yaranır:

a) Gürcüstanın gömrük ərazisinə, azad dövriyyəyə buraxılması idxal ödənişlərini ödəməyə tabe olan malın qanunsuz gətirildiyi gündən;

b) Neytral zonaya və ya sərbəst anbara yerləşdirilən malın Gürcüstanın gömrük ərazisindən başqa yerə qanunsuz keçirildiyi gündən.

1. Bu maddənin 2-ci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı vəzifəli şəxslərdir- deklarant və malın sahibi və ya mülkiyyətçisi.

**Maddə 188. Gömrük nəzarətində olan mal çıxarıldığında gömrük öhdəliklərin yaranması**

1.Gömrük ödənişləri vergilərinə tabe olan malın gömrük nəzarətindən çıxarıldığı gündən, gömrük öhdəlikləri yaranır.

2.Bu maddənin 1-ci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı vəzifəli şəxslərdir,- deklarant və malın sahibi və ya mülkiyyətçisi.

1. Gürcüstanın mal statusu əsassız verilən mal çıxarıldığında, bu maddənin birinci hissəsi aid olunur.

**Maddə 189. Gürcüstanın gömrük qanunvericiliyi ilə qoyulan tələblər və şərtlər yerinə yetirilmədiyində gömrük öhdəliklərinin yaranması**

1.Gürcüstanın gömrük ərazisinə mal gətirildiyi gündən gömrük öhdəlikləri yaranır, əgər :

a) İmport ödənişləri vergilərinə tabe olan malın müvəqqəti anbarlama və ya ona qarşı olan gömrük rejimindən istifadə tələbləri yerinə yetirilmirsə, bu hissənin b) bəndində qeyd olunan hallar istisna olmaqla;

b) Gömrük rejiminə malın salınması üçün və ya idxal ödənişlərində güzəştlərdən istifadə üçün qoyulan şərtlər yerinə yetirilmirsə.

2.Malla bağlı vəziyyətə müvafiq, idxal ödənişləri ilə vergilərə tabe olan mala, onun gömrük anbarına müvəqqəti saxlanılması ilə, bəyannamə olunmuş gömrük rejimindən istifadə ilə və ya bu rejimə malın salınması ilə bağlı şərtləri yerinə yetirən şəxs ,bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı şəxsdir.

**Maddə 190 Malın neytral zonada və ya sərbəst anbarda istifadəsi zamanı yaranan gömrük öhdəlikləri**

1.Neytral zonada və ya sərbəst anbarda idxal ödənişlərini ödəməyə tabe olan malın Gürcüstanın gömrük qanunvericiliyi ilə müəyyən edilən şərtlərdən fərqli olaraq istifadəsi zamanı idxalla bağlı gömrük öhdəlikləri yaranır. Mal itdiyində, malın sahibi gömrük orqanına dərhal bildirməlidir və bu malın itməsi ilə bağlı müvafiq səlahiyyətli dövlət orqanları tərəfindən təsdiq edilmiş, dəqiq sübutlar təqdim olunmalıdır. Digər hallarda mal, neytral zonada və ya sərbəst anbarda Gürcüstanın qanunvericiliyi ilə müəyyən şərtlərdən fərqli olaraq istifadə olunmuş hesab olunacaq.

2.Neytral zonada və ya sərbəst anbarda Gürcüstanın gömrük qanunvericiliyi ilə müəyyən edilən şərtlərdən fərqli olaraq malın istifadəsi başlandığı gündən , bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri yaranır.

3.Sərbəst anbarda və ya neytral zonada fəaliyyət göstərən və malı istifadə edən şəxs, bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı vəzifəli şəxsdir.

4.Əgər gömrük orqanı itmiş malı neytral zonada və ya sərbəst anbarda istifadə olunan mal hesab edərsə və bu maddənin 3-cü hissəsindən istifadə etmək mümkün olmazsa, o zaman gömrük ödənişlərini ödəmək, gömrük orqanında olan məlumata görə ,bu malın son sahibinin üzərinə düşəcək.

**Maddə 191. Gömrük öhdəlikləri yaranmayan hallar**

1.Əgər vəzifəli şəxs təsdiq edərsə ki, bu məcəllənin 45-47-ci maddəsi ilə və 161-ci maddəsinin 2-ci hissəsində qoyulan, neytral zonadan və ya sərbəst anbardan malın çıxarılması, müvəqqəti saxlanması və müvafiq gömrük rejimi şərtləri ilə bağlı öhdəlikləri yerinə yetirməmək , bu məcəllənin 233-cu maddəsinin 6-cı hissəsində nəzərdə tutulan qəza və fövqəladə hallar nəticəsində mal tamamilə məhv olub və ya yararsız hala düşüb, o zaman, bu məcəllənin 187-ci və 189-cu maddələrinin

birinci hissəsinin a) bəndi ilə nəzərdə tutulan malın idxalı ilə bağlı öhdəliklər yaranır.

2.İmport ödənişlərinə güzəştlərdən istifadə etməklə və məqsədyönlü təyinatla azad dövriyyəyə buraxılan mala gömrük öhdəlikləri yaranmır, əgər o Gürcüstanın gömrük ərazisindən gömrük orqanının razılığı ilə çıxarılıbsa.

**Maddə 192. Qalıqların gömrük statusu**

Əgər bu məcəllənin 191-ci maddəsinin birinci hissəsini nəzərdə tutmaqla, idxal ödənişlərinə güzəştlərdən istifadə ilə və məqsədyönlü təyinatla azad dövriyyəyə buraxılan mala , gömrük öhdəlikləri yaranmış hesab olunmursa, məhv olandan sonra qalan qalıqlar xarici mal hesab olunur.

**Maddə 193. Məqsədyönlü təyinatla azad dövriyyəyə buraxılan mala gömrük ödənişlərinin hesablanması**

Əgər bu məcəllənin 188-ci və 189-cu maddəsinə müvafiq olaraq, malın idxal ödənişlərinə güzəştlərdən istifadə etməklə və məqsədyönlü təyinatla azad dövriyyəyə buraxıldığında gömrük öhdəlikləri yaranırsa, gömrük ödənişlərinin bütün məbləğından malın azad dövriyyəyə buraxıldığı zaman ödənilən ödənişlərin miqdarı çıxmalıdır.

**Maddə 194. Gürcüstanın gömrük ərazisindən çıxarılmalı malın bəyannaməsi zamanı yaranan gömrük öhdəlikləri**

1.Gürcüstanın gömrük ərazisindən çıxarılmalı mala gömrük bəyannaməsinin qeydiyyata alındığı gündən gömrük öhdəlikləri yaranır, əgər onu çıxarmaq eksport ödənişlərini ödəməyə tabe olursa.

2.Bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı deklarant və mal sahibi cavabdeh şəxslərdir.

**Maddə 195. Gürcüstanın gömrük ərazisindən bəyannaməsi olmayan malın çıxarıldığı zaman yaranan gömrük öhdəlikləri**

1.Gürcüstanın gömrük ərazisindən eksport ödənişlərini ödəməyə tabe olan bəyannaməsi olmayan mal çıxarıldığında gömrük öhdəlikləri yaranır.

2.Bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı malın mülkiyyətçisi və mal sahibi cavahbdeh şəxslərdir.

**Maddə 196. Gürcüstanın gömrük ərazisindən malın çıxarılma şərtləri yerinə yetirilmədiyində yaranan gömrük öhdəlikləri**

1.Gürcüstanın gömrük ərazisindən mal çıxarılığında, eksport ödənişlərindən malın qismən və ya tam azad olunduğu ilə bağlı şərtlər yerinə yetirilməyibsə, gömrük öhdəlikləri yaranır.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan hallarda, gömrük ərazisindən eksport ödənişlərindən qismən və ya tam azad olmaqla çıxarılan malın təyinatlı yerindən fərqli yerə aparıldığı gündən gömrük öhdəlikləri yaranır. Əgər gömrük orqanı, bu günü müəyyən edə bilmirsə, malın çıxarılması ilə bağlı şərtlərin yerinə yetirilməsi üçün qoyulan müddət bitdiyi andan gömrük öhdəlikləri yaranır.

3.Bu maddənin birinci hissəsi ilə müəyyən edilən gömrük öhdəlikləri ilə bağlı ,deklarant ,malın mülkiyyətçisi və mal sahibi cavabdeh şəxslərdir.

**Maddə 197. Qadağalar və məhdudiyyət olduğu zaman yaranan gömrük öhdəlikləri**

1.Əgər malın Gürcüstanın gömrük ərazisinə gətirilməsi və ya Gürcüstanın gömrük ərazisindən çıxarılması ilə qadağalar və güzəştlər bu mala aiddirsə bu məcəllənin 186-cı-190-cı və 194-cu -196-cı maddələrilə nəzərdə tutulan gömrük öhdəlikləri yaranır.

2.Bu maddənin birinci hissəsini nəzərə almaqla, gömrük ərazisinə saxta pul, narkotik və ya psixotropik maddələrin qanunsuz gətirilməsinə görə gömrük öhdəlikləri yaranmır, əgər o gömrük orqanının kəskin nəzarəti nəticəsində

Gürcüstanın ərazisində, tibbi və elmi təyinatla istifadəsi və ekspertiza keçirmək məqsədi ilə gətirilirsə və dövriyyəyə buraxılmırsa.

3.Əgər Gürcüstanın gömrük qanunvericiliyini pozmaqla bağlı əsasnamələrə müvafiq olaraq, gömrük ödənişləri cəriməyə və ya gömrük ödənişlərinin mövcud olması cinayət işinin açılmasına səbəbdirsə, gömrük öhdəliklərinin yaranması ,bu maddənin 2-ci hissəsində qeyd olunan şərtləri qorumaqla müəyyən edilməlidir.

**Maddə 198. Gömrük ödənişlərindən azad olmaqdan istifadə şərtləri**

Əgər bu məcəllənin 95-ci133-cu və ya 170-ci 172-ci maddələrinə əsasən idxal və eksport ödənişlərindən malın qismən və ya tam azad olması həyata keçirilirsə, qeyd olunan azad olma bu məcəllənin 187-ci,190-cı, 195-ci və ya 196-cı maddələrinə müvafiq olaraq gömrük öhdəlikləri yaranan mala da aid olmalıdır. Nəzərə alınmalıdır ki, müvafiq şəxs Gürcüstanın gömrük qanunvericiliyini qəsdən pozmaqda və ya səhlənkarlıqla şübhəli olmamalıdır və o təsdiq etməlidir ki, gömrük ödənişlərindən qismən və ya tam azad olmaqla bağlı hər bir şərti yerinə yetirib.

**Maddə 199. Həmrəy cavabdehlik**

Əgər bu məcəllənin 186-cı, 192-ci və ya 194-cu-197-ci maddələri ilə gömrük ödənişlərini ödəməyə bir neçə şəxs cavabdehdirsə o zaman onlar ödəməyə həmrəy cavabdeh şəxslər hesab olunacaqlar.

**Maddə 200. Gömrük öhdəliklərinin yaranma müddətini müəyyən etmək**

1.Bu məcəlləyə əsasən gömrük öhdəlikləri yaranan vaxtı müəyyən etmək üçün gömrük öhdəlikləri yaranan gün üçün fəaliyyətdə olan malla bağlı eksport və ya idxal ödənişlərinin bölümündən istifadə olunur, əgər Gürcüstanın gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa.

2.Əgər gömrük öhdəliklərinin yaranmasının dəqiq vaxtını müəyyən etmək mümkün deyilsə, onun yaranma vaxtı kimi, gömrük orqanında olan məlumata əsasən gömrük öhdəliyi yaranan gün hesab olunur. Belə bir məlumatın olmadığı halda gömrük öhdəliklərinin yaranma günü kimi, gömrük bəyannaməsinin qeydiyyata alındığı gün hesab olunur.

**Maddə 201. Gömrük öhdəliklərinin yaranma yeri**

1.Gömrük öhdəlikləri ilə bağlı hərəkətlər həyata keçirilən yerdə gömrük öhdəlikləri yaranır.

2.Əgər bu maddənin birinci hissəsi ilə müəyyən edilmiş yeri dəqiqləşdirmək mümkün deyilsə, o zaman gömrük orqanında gömrük öhdəliyinin yaranması ilə bağlı mövcud olan məlumata əsasən o yer gömrük öhdəliyinin yaranma yeri hesab olunacaq. Belə bir məlumatın olmadığı halda gömrük öhdəliklərinin yaranma günü kimi, gömrük bəyannaməsinin qeydiyyata alındığı gün hesab olunur.

3. Əgər mal gömrük rejimindədirsə, o zaman malın gömrük rejiminə salındığı yer öhdəliyin yaranma yeri hesab olunacaq.

## Fəsil XXVIII. Gömrük öhdəliyini yerinə yetirmək

**Maddə 202. Gömrük ödənişlərinin hesablanması və onları ödəmək qaydaları**

1.Deklarant vergi qoyulan obyektin, ödəniləsi bölümün və güzəştləri nəzərə almaqla ödəniləsi gömrük ödənişləri məbləğinin hesablayır, əgər Gürcüstanın vergi və gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa.

2.Gürcüstanın vergi və ya gömrük qanunvericiliyində nəzərdə tutulan hallarda, ödəniləsi gömrük ödənişlərinin məbləğinin hesablanma hüququ gömrük orqanının və ya başqa cavabdeh şəxsin üzərinə düşə bilər.

3.Gömrük ödənişləri, müvafiq ödənişlər üçün Gürcüstanın vergi və ya gömrük qanunvericiliyi ilə qoyulan qaydada hesablanır.

4.Gömrük ödənişlərinin ödənilməsi, gömrük prosedurları həyata keçirildikdə gömrük orqanı tərəfindən qeydiyyata alınmış bəyannamə və ya bildiriş əsasında həyata keçirilir, ödənilmiş gömrük ödəniş məbləği isə gömrük prosedurunu yerinə yetirəndə və ya gömrük prosedurları sona çatandan sonra büdcənin hesabında həkk olunur.

5.Gömrük ödənişlərinin ödənilməsi milli valyuta hesabına həyata keçirilir – lari ilə nəğd və ya nəğdsiz hesablama, bank müəssisəsinin vasitəçiliyi ilə, əgər Gürcüstanın vergi və ya gömrük qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa. Bank müəssisəsi olmadığı halda, deklarant fiziki şəxs gömrük ödənişlərini gömrük orqanının kassasına ödəyə bilər, kəskin qeydiyyat qəbzi yazmaqla.

**Maddə 203. Gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin üzərinəgəlmə**

1.Gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin üzərinəgəlməsi, gömrük orqanında konkret müddət üçün cavabdeh şəxs tərəfindən ödəniləsi gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin qeydiyyat aparılması deməkdir. Üzərinəgəlmə düzəlişli və güman edilən olur. Düzəlişli üzərinəgəlmə zamanı güman edilən üzərinəglmə ləğv olunur.

2.Gömrük orqanı hər bir cavabdeh şəxsin gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinə Gürcüstanın vergi və ya gömrük qanunvericiliyinə əsasən üzərinəgəlmə həyata keçirsin, sonrakı bir və ya birdən çox olan məlumat əsasında:

a) Cavabdeh şəxsin gömrük bəyannaməsi;

b) Gömrük orqanına məlum olan yoxlanış məsələləri və başqa məlumat;

3.Əgər deklarant gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin üzərinəgəlmə üçün lazımi məlumat təq-

dim etməzsə, gömrük orqanı ,onda olan məlumata əsasən gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin üstünə gəlsin və deklaranta bildiriş göndərsin.

4.Əgər Gürcüstanın vergi və ya gömrük qanunvericiliyi ilə gömrük bəyannaməsini təqdim edəndə gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin ödənilməsi nəzərdə tutulmayıbsa və gömrük orqanı təsdiq edirsə ki, əvvəlki üzərinəgəlmə də səhvən həyata keçirilib, gömrük orqanı gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğının ödənilməsini cavabdeh şəxsin üstünə gəlməlidir və ya bildiriş göndərməlidir.

5.Əgər gömrük ödənişlərinin ödənilməsi gömrük bəyannaməsinin doldurmaqla bağlıdırsa, ödəniləsi ödənişin öhdəliyini əks etdirən bəyannamə müzakirə olunur:

a) Bu ödənişin üzərinəgəlməsi kimi;

b) Bildiriş və Gürcüstanın vergi və ya gömrük qanunvericiliyi ilə qoyulan müddətdə yerinə yetiriləsi öhdəlik kimi.

6.Cavabdeh şəxs tərəfindən ödəniləsi gömrük ödənişlərinin və ya gömrük sanksiyasının üzərinəgəlmə və ödənilən məbləğin qeydiyyata alınma qaydaları Gürcüstanın Maaliyyə Nazirinin əmri ilə müəyyən edilir.

**Maddə 204. Üzərinəgəlmənin yaşlılıq müddəti**

Gömrük ödənişlərinin və ya gömrük sanksiya məbləğinin yaşlılıq müddəti 6 təqvim ilidir, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa. Bu müddət müvafiq öhdəlik yaranan təqvim ilinin sonundan hesaba alınır.

**Maddə 205. Üzərinəgəlmə gömrük öhdəliklərinə bildiriş**

1.Bildiriş cavabdeh şəxsə təqdim olunan gömrük orqanının administrativ-hüquqi aktıdır. Bildirişin yerinə yetirilməsi bu məcəllə ilə müəyyən hallarda və qoyulan qayda ilə yerinə yetirilməlidir.

2.Gömrük hüquq pozuntuları aşkar olunduğunda, gömrük orqanı cavabdeh şəxsə bildirişi təqdim etməkdə vəzifəlidir,

gömrük bəyannaməsində qeyd olunan məbləğ, gömrük orqanı tərəfindən hesablanan ödənilәsi məbləğə müvafiq olduğu haqda bəyannamə olunduğu hal istisna olmaqla.

3.Bildirişdə qeyd olunmalıdır:

a) Gömrük orqanının adı və ünvanı;

b) Bildirişin göndərilmə (çatdırma) tarixi;

c) Öhdəlikli şəxsin rekvizitləri (adı və soyadı, adı və ünvünı;

d) Öhdəlikli şəxsin identifikasiya nömrəsi(oduğu halda);

e) Onun təqdim edilmə əsası Gürcüstanın vergi və ya gömrük qanunvericilik aktlarının gömrük öhdəliklərinin üzərinəgəlmə və ya öhdəlikli şəxsin norma pozuntularına işarə edərək;

f) Onun məzmunu (verginin qoyulma obyekti, üzərinəgəlmə ödənişinin, rüsumun və cərimənin miqdarı, cərimə qoyulduğu gün, bu tələbin yerinə yetirilmə müddəti, ödəmə qaydaları);

g) Öhəlikli şəxsin hüquqları və vəzifələri (o cümlədən bildirişin şikayət edilməsi);

h) Cavabdeh şəxsə qarşı bu tələbin yerinə yetirilməsi üçün keçiriləcək tədbirlərin təminatı.

4.Bildiriş bu məcəllə ilə qoyulan qaydada şikayat oluna bilər.

**Maddə 206. Gömrük ödənişlərinin ödənmə müddəti**

1.Əgər gömrük öhdəliklərinin yaranma əsası gömrük bəyannaməsidirsə, gömrük ödənişlərinin ödənməsi , malın gömrük prosedurları sona çatana gədər baş verməlidir. əgər Gürcüstanın qanunvericiliyi ilə, bu məcəlləyə əsasən digər hal nəzərdə tutulmayıbsa.

2.Əgər gömrük öhdəliklərini yerinə yetirməyin əsası gömrük bəyannaməsi deyilsə, ödənilәsi məbləğ üzərinə gələn gömrük öhdəlikləri haqda bildiriş qəbul ediləndən sonra 15 təqvim günü ərzində ödənilməlidir.

3.Əgər şəxs gömrük öhdəliklərini yerinə yetirmək müddətinin dəyişdirilməsi ( uzadılması) ilə faydalanırsa,

ödənilməsi məbləğ dəyişirilən (uzadılan) müddət sona çatana qədər ödənilməlidir.

4.Sadələşdirilmiş qaydada gömrük bəyannaməsini təqdim edəndə gömrük ödənişlərinin məbləği, gömrük rejimini tənzimləyən əsasnamələrdə nəzərdə tutulan müddətdə ödənilməlidir.

**Maddə 207. Gömrük öhdəliklərini yerinə yetirmək müddətini dəyişdirməyin ümumi şərtləri**

1.Gömrük ödənişinin və ya onun bir hissəsini ödəmək üçün qoyulan müddəti uzatmaq, gömrük öhdəliyini yerinə yetirmək müddətini dəyişdirmək hesab olunur.

2.Qeydə alınmış gömrük bəyannaməsi əsasında yaranan gömrük öhdəliyini yerinə yetirmək müddəti, ödənişin tam məbləğinin və ya onun bir hissəsinə Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsində nəzərdə tutulan cərimə üstünə gəlməklə dəyişdirilə bilər, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa.

3.Öhdəlikli şəxsin təqdim etdiyi yazılı ərizəsi əsasında və bu məcəllə ilə nəzərdə tutulan müvafiq zəmanət təqdim ediləndən sonra qeydiyyata alınmış gömrük bəyannaməsi əsasında yaranan gömrük öhdəliklərinin yerinə yetirilmə müddəti 1 təqvim ayı ilə uzadıla bilər.

4.Gömrük öhdəliklərinin yerinə yetirilmə müddətini uzatmaq haqda qərar qəbul ediləndən sonra gömrük öhdəliklərini bağlamaq qrafikində müqavilə bağlanır.

5.Gömrük öhdəliklərini bağlamağın bu maddə ilə nəzərdə tutulan şərtləri pozulduqda, gömrük orqanı öhdəlikli şəxsə qarşı təqdim edilən zəmanətin yerinə yetirilməsindən istifadə edə bilər.

**Maddə 208. Gömrük öhdəliyini yerinə yetirmək müddətinin dəyişdirilməsini istisna edən hallar**

1.Gömrük öhdəliklərinin yerinə yetirilmə müddətini dəyişdirmək olmaz, əgər :

a) O qeydiyyata alınan gömrük bəyamnaməsi əsasında yaranmayıbsa;

b) Əgər deklarantın yerinə yetirməmiş vergi və ya gömrük borcu varsa;

c) Əgər təqdim edilən zəmanətin etibarlılıq müddəti və ya zəmanət məbləği gömrük öhdəliklərinin yerinə yetirilməsini təmin etmirsə;

d) Əgər öhdəlikli şəxsə qarşı Gürcüstanın vergi və ya gömrük qanunvericiliyini pozduğuna görə cinayət işi açılıbsa;

e) Əgər öhdəlikli şəxsin vergi və ya gömrük qanunvericiliyini pozduğuna görə, vergi hüqüpozuntusu, gömrük hüqüpozuntusu və ya administrativ hüqüpozuntusuna görə iş açılıbsa.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan hallar üzə çıxdıqda, gömrük öhdəliklərini yerinə yetirmək müddətinin dəyişdirilməsi ilə bağlı istənilən qərar və bu qərarı yerinə yetirmək üçün qoyulan hər bir müqavilə - ləğv olunmuş hesab olunur.

3.Qərarı qəbul edən salahiyyətli şəxs, bu maddənin 2-ci hissəsinə əsasən , qərarı ləğv edilmiş hesab etdiyi gündən 3 gün ərzində öhdəlikli şəxsə və gömrük orqanına yazılı bildiriş göndərməlidir.

**Maddə 209. Gömrük öhdəliyini yerinə yetirmək müddətini dəyişmək haqda qərar qəbul edən şəxslər**

1.Gömrük öhdəliyini yerinə yetirmək müddətini dəyişmək haqda öhdəlikli şəxsin yazılı ərizəsi qəbul olunandan sonra gömrük öhdəliklərini bağlamaq vaxtını Gürcüstanın Maliyyə Nazirliyinin gömrük departamentinin sədri/onun müavini dəyişə bilər .

2.Gömrük ödənişlərini ödəmək vaxtını uzatmaq, öhdəlikli şəxsi gömrük ödənişlərinin vaxtında büdcəyə ödəmədiyi üçün Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsi ilə nəzərdə tutulan üstünə gələn cəriməni ödəməkdən azad etmir.

**Maddə 210. Uzadılmış vaxtın etibarlılığının dayandırılması**

1.Uzadılmış vaxtın etibarlılığının dayandırılması müvafiq qərarın (müqavilənin) vaxtı sona çatanda və ya bu məcəllə ilə nəzərdə tutulan hallarda sona çatana qədər baş verə bilər.

2.Əgər öhdəlikli şəxs vaxt sona çatana qədər ödəniləsi məbləği və Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsi ilə nəzərdə tutulan cəriməni tam ödəyərsə uzadılmış vaxtın etibarlılığının vaxtından tez dayandırılması baş verir .

3.Əgər öhdəlikli şəxs uzadılmış vaxtın şərtlərini pozursa müvafiq qərar qəbul edən səlahiyyətli şəxs uzadılmış vaxtın etibarlılığını dayandıra bilər.

4.Uzadılmış vaxtın etibarlılığının dayandırılması haqda səlahiyyətli şəxs tərəfindən qəbul edilən qərar 5 gün ərzində, yazılı şəkildə öhdəlikli şəxsə göndərilir (verilir). Qərarın surəti həmin müddətdə müvafiq gömrük orqanlarına da göndərilir.

**Maddə 211. Üzərinəgələn gömrük ödənişlərinin və ya gömrük sanksiyası məbləğinin ödənilməsi**

Əgər öhdəlikli şəxs müəyyən edilən müddətdə qoyulan gömrük ödənişlərini və ya gömrük sanksiya məbləğini ödəmirsə gömrük orqanı Gürcüstanın vergi məcəlləsinin XI bölməsində vergi orqanı üçün qoyulan qaydada bu öhdəlikli şəxsə qarşı gömrük öhdəliklərini yerinə yetirməyi təmin edən tədbirlər həyata keçirir.

**Maddə 212. Gömrük öhdəlikləri ilə bağlı bankların və başqa təşkilatların vəzifələri**

1.Banklar və başqa növlərdə bank əməliyyatları yerinə yetirən başqa təşkilatlar, öhdəlikli şəxsin bank hesablarından gömrük ödənişlərini ödəmək haqda öhdəlikli şəxsin ödənişlərlə bağlı tapşırıqlarını və gömrük orqanlarının qərarlarını (inkas tapşırıqlarını) yerinə yetirməyə vəzifəlidirlər.

2.Bank tərəfindən vergi ödənişilə bağlı tapşırıq və ya inkas tapşırığı qeyd olunan tapşırığın və ya qərarın qəbul edildiyi günün ikinci günündən gec olmamaq şərti ilə yerinə

yetirilir, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa. İnkas tapşırığının xidməti öhdəlikli şəxsin xərci ilə , onun ödənişlər tapşırığı yerinə yetirmək hesabına həyata keçirilir.

3.Öhdəlikli şəxsin hesabında pul vasaiti olduğu zaman, bank, öhdəlikli şəxsin ödənişlər tapşırığını və ya gömrük orqanının inkas tapşırığını müvafiq büdcəyə ödəməyi yubatmağa haqqı yoxdur. Əgər öhdəlikli şəxsin hesabında pul vasaiti yoxdursa və ya hesabında olduğu məbləğ, ödənişlər tapşırığını və ya inkas tapşırığını yerinə yetirmək üçün yetərli deyilsə, o zaman onların yerinə yetirilməsi belə köçürmənin ikinci əməliyyat günündən gec olmamaqla bu hesaba pul vəsaitini köçürməklə həyata keçirilir.

4.Öhdəlikli şəxsin hesabında pul vasaitinin olduğu zaman, öhdəlikli şəxsin ödənişlər tapşırığının və ya gömrükk orqanının inkas tapşırığının yerinə yetirilməsi, hesabdan məbləğin götürülməsi və büdcəyə köçürülməsi vaxtında həyata keçirilmədiyində, Gürcüstanın vergi məcəlləsi ilə qoyulan qaydada banka cərimə kəsilir. Belə hallarda öhdəlikli şəxsə cərimə sanksiyası kəsilmir.

5.Öhdəlikli şəxsin xidmətində olan bank və ya başqa növlərdə bank əməliyyatlarını yerinə yetirən təşkilatlar tərəfindən, ödənilısi məbləğin, bu maddə ilə qoyulan büdcəyə köçürülmə qaydaları pozulduqda ,bankın və ya başqa növlərdə bank əməliyyatlarını yerinə yetirən təşkilatların və ya onların cavabdeh şəxslərinin vergi hüquqpozuntuları üçün və ya bu məcəllə ilə və başqa qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

## Fəsil XXIX. Gömrük öhdəliklərini yerinə yetirmək şərtləri

### Maddə 213. Gömrük öhdəliklərini yerinə yetirmək şərtləri

1.Gömrük öhdəliklərini yerinə yetirmək öhdəlikli şəxsin əsas vəzifəsidir. Gömrük öhdəlikləri, öhdəlikləri şəxsin üzərinə qoyulan başqa vəzifələrdən asılı olmayaraq yerinə yetirilir.

2.Gömrük öhdəlikləri yerinə yetirilmiş hesab olunur:

a) Qoyulan müddətdə gömrük ödənişlərinin və ya gömrük sanksiyaların ödənilməsi;

b) Gömrük ödəniş məbləği hesaba alındıqda – hesab olunan hissəsi;

c) Gömrük rejiminə bəyannamə olunmuş və gömrük ödənişlərinə tabe olan mala ;

d) a)Gömrük bəyannaməsinin etibarsız elan edilməsi;

e) d) b) onu buraxana qədər müsadirə, bu məcəllənin 167-ci maddəsinə müvafiq olaraq gömrük nəzarəti altında məhv edilməsi, bu məcəllənin 168-ci maddəsinə müvafiq olaraq dövlət mülkiyyətinə çevrilməsi, bu məcəllənin 233-cü maddəsinin 6-cı hissəsində nəzərdə tutulan qəza və fövqəladə hallar nəticəsində malın tam məhv edilməsi;

f) Əgər verilən müddətin çıxması ilə bağlı üzərinəgəlmə və öhdəliklərin yerinə yetirilməsini təmin edən tədbirlər həyata keçirilmədisə;

g) Əgər mal Gürcüstanın gömrük ərazisinə qanunsuz gətirildiyində bu məcəllənin 187-ci maddəsinə müvafiq olaraq gömrük öhdəliyi yarandısa və mal ödənişsiz müsadirə olundusa.

3.Öhdəlikli şəxs gömrük öhdəliyini yerinə yetirmək üçün ,bütün mülkiyyəti ilə cavabdehdir, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa.

## Fəsil XXX . Gömrük ödənişlərinin hesaba alınması və ya geri qaytarılması

**Maddə 214. Dəqiq ödənilmiş gömrük ödəniş məbləğinin hesaba alınması və ya geri qaytarılması**

1.Əgər konkret gömrük ödənişlərinin və ya gömrük borcunun ödənilən məbləği üstünə gəlinən məbləğdən və ya gömrük borcundan artıqdırsa, ödəyənin tələbi olduğu halda gömrük orqanı:

a) Əlavə ödənilən məbləği ödəyənə gələcək gömrük öhdəliyinin hesabına hesab edir;

b) Əlavə ödənilən məbləğı dövlət xəzinə büdcəsinə daxil olanların birgə hesabına ödəyənin başqa gömrük ödənişlərinin ödəmək hesabına təqvim ili ərzində ödəniləsi olan səfərbər edilən vəsait hüduduna keçiririr;

2.Əgər gömrük ödənişlərinin və gömrük sanksiyalarının ödənilən məbləğinin cəmi üstünə gəlinən gömrük ödənişlərinin və gömrük sanksiyalarının məbləğinin cəmindən artıqdırsa, ödəyənin tələbi əsasında gömrük orqanı tələbdən 45 təqvim günü ərzində ödəyənə qalan məbləği, dövlət xəzinəsinin büdcəsinə daxil olanların birgə hesabının vergi gəlirinin əlavə ödənilən məbləğin geri qaytarılma hesabından ,üstünə hesablanan qalıq hüdudunda geri qaytarır.

3.Əgər ödəyənin əlavə ödədiyi məbləği başqa gömrük ödənişlərinin öhdəlik hesabına keçiriblərsə, ödəyən göndərilən bildirişdə əlavə ödənilən məbləğin hansı gömrük ödənişləri hesabına keçirildiyi qeyd olunmalıdır .

4.Ödəyən tərəfindən büdcəyə əlavə ödənilən gömrük ödənişlərinin və ya gömrük sanksiyası məbləğı başqa şəxsin gömrük borcunun ödəmək hesabına keçirilə bilməz.

**Maddə.215. Vergi gəlirinin əlavə ödənilən məbləğin geri qaytarılma hesabına məbləğlərin akkumulyasiyası**

1.Gömrük ödənişlərinin əlavə ödənilən məbləğinin geri qaytarılmasını təmin etmək üçün gömrük orqanları tərəfindən administrə olunan gəlirlərdən büdcəyə daxil olan birgə hesaba

faktiki daxil olan məbləğin bir hissəsi bu maddənin 2-ci hissəsi ilə müəyyən edilən faizlə vergi gəlirlərinin əlavə ödənilən məbləğin geri qaytarılma hesabına köçürülür. Məbləği bu hesaba büdcəyə daxil olanların birgə hesabına faktiki köçürülən məbləğə proporsiyal olaraq dövlət xəzinəsi köçürür.

2.Büdcəyə daxil olanların birgə hesabından vergi gəlirlərinin əlavə ödənilən məbləği geri qaytarma hesabına köçürüləsi məbləğın faizi Gürcüstanın maaliyyə Nazirinin müvafiq əmri ilə müəyyən edilir. Bu faiz o qədər olmalıdır ki, bu məcəllə ilə müəyyən edilən müddətdə əlavə ödənilən məbləğin tam geri qaytarılması təmin olunsun,.

3.Büdcəyə daxil olanların birgə hesabının vergi gəlirlərinin əlavə ödənilən məbləğin geri qaytarılma hesabından əlavə ödənilən məbəlğin geri qaytarılma qaydasını Gürcüstan hakimiyyəti müəyyən edir.

**Maddə 216. Əlavə ödənilən gömrük ödəniş məbləğinin hesaba alınması və ya geri qaytarılma müddəti**

Əlavə ödənilən gömrük ödəniş məbləğinin hesaba alınması və ya geri qaytarılma tələbinin bitmə müddəti 6 ildir, əgər bu məcəllə ilə digər hal nəzərdə tutulmayıbsa. Bu müddət müvafiq öhdəliyin yarandığı təqvim ilinin sonundan hesablanır.

## Bölmə IX Gömrük mübahisəsi
## Fəsil XXXI. Gömrük mübahisəsinin müzakirə edilməsinin ümumi qaydaları

**Maddə 217. Gömrük mübahisəsinin başlanmasının əsasları**

1.Gömrük mübahisəsinin başlanmasının maddi əsası gömrük orqanı, deklarant, mal sahibi, mal mülkiyyətçisi və ya başqa vəzifəli şəxs (bundan sonra – gömrük prosedurlarını həyata keçirən şəxs) tərəfindən gömrük qanunvericiliyi ilə qoyulan öhdəliklərin pozulması ola bilər.

2.Gömrük orqanının yazılı qərarı və ya Gürcüstanın gömrük qanunvericiliyi ilə müəyyən edilən müddətdə yazılı qərarın qəbul edilməməsi gömrük mübahisəsinin formal əsasıdır.

3.Bu maddənin 2-ci hissəsi ilə müəyən edilən əsas olduğunda və gömrük orqanının yazlı qərarı təqdim edilən hallarda gömrük prosedurlarını həyata keçirən şəxs və ya onun nümayəndəsi mübahisəli məsələni bu bölmə ilə qoyulan qaydada şikayət edə bilər və gömrük mübahisənin həll edilmə formasını seçə bilər.

**Maddə 218. Gömrük mühisəsinin həll edilmə formaları**

1. Gömrük mühisəsinin həll edilmə formalarıdır:

a) Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirə qaydaları ilə mübahisənin həll edilməsi;

b) Məhkəmə tərəfindən mübahisənin həll edilməsi.

2.Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirə qaydası ilə mübahisənin həlli 3 mərhələdən ibarətdir:

a) Yazılı qərar qəbul edilmə, gömrük orqanında mubahisənin həlli;

b) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində mübahisənin həlli;

c) Gürcüstanın Maaliyyə Nazirliyinin yanında yerləşən mübahisələrin həlli şurasında ( bundan sonra – şura).

3.Əgər gömrük prosedurlarını həyata keçirən şəxs mübahisənin həlli forması kimi Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində həllini seçdisə, mübahisənin həllinin hər bir mərhələsində qəbul edilən yazılı qərarı, qanunla qoyulan qaydada, Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində şikayət etmə hüququ olduğu müddətdə məhkəməyə şikayət verməyə onun haqqı var.

4.Gömrük prosedurunu həyata keçirən şəxs, gömrük mübahisəsinin həlli formasını seçmək haqda gömrük orqanına bildiriş vermək hüququna malikdir:

a) Gömrük orqanının yazılı qərarına cavab olaraq bu məcəllənin 221 -ci maddəsinə müvafiq olaraq təqdim olunan bildirişdə göstərildiyi kimi;

b) Yazılı bildirişlə əgər gömrük orqanının yazılı qərarına cavab olaraq mübahisəni birbaşa məhkəməyə verməklə başlayırsa;

5.Gömrük prosedurlarını həyata keçirən şəxsin öz yazılı bildirişində göstərdiyi mübahisənin həlli formasını dəyişmək hüququ yoxdur.

**Maddə 219. Gömrük mübahisəsini başlamaq qaydası**

1.Əgər gömrük prosedurlarını həyata keçirən şəxs gömrük orqanının yazılı qərarını yerinə yetirməkdən imtina edirsə, əgər mübahisənin həlli forması kimi, Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində həllini seçirsə, gömrük orqanının qərarını qəbul edəndən 15 təqvim günü ərzində gömrük orqanına yazılı cavab göndərməyə vəzifəlidir və ya yazılı bildiriş göndərməlidir.

2.Cavabın əsaslandığı hər bir sübut göndərilən bildiriş cavabına əlavə olunmalıdır.

3.Cavab bildirişinin hər bir səhifəsi nömrələnməlidir və cavabın sonunda , imza atılana qədər sözlə qeyd olunmalıdır yazılı səhifələrin sayı.

4.Mübahisə edən tərəf hər bir səhifəyə imza atmağa borcludur.

5.Gömrük prosedurlarını həyata keçirən şəxs tərəfindən gömrük orqanına bu maddənin birinci hissəsində qeyd olunan yazılı cavabı və ya yazılı bildirişi göndərdiyi tarix gömrük mübahisəsini başlamaq tarixi kimi hesab olunur.

6.Bu maddənin birinci hissəsi ilə qoyulan öhdəlikləri yerinə yetirməmək gömrük prosedurlarını həyata keçirən şəxs tərəfindən gömrük orqanının yazılı qərarını tanımaq kimi hesab olunur və qərar icra olunur.

**Maddə 220. Mübahisə məbləğini ödəmək öhdəliyinin dayandırılması**

Mübahisə məbləğini və müvafiq cəriməni ödəmək öhdəlikləri gömrük mübahisəsi başlayan gündən qurtaran günə qədər dayandırılmış hesab olunur.

**Maddə 221. Gömrük prosedurlarını həyata keçirən şəxsin cavab bildirişi və ya yazılı bildirişi**

1.Gömrük prosedurlarını həyata keçirən şəxsin cavab bildirişi və ya yazlı bildirişində qeyd olunmalıdır:

a) Gömrük orqanının adı və ünvanı;

b) Gömrük prosedurlarını həyata keçirən şəxsin kimliyi (adı və soyadı, adı) ödənişi ödəyənin identifikasiya nömrəsi (olduğunda) ,ünvan və əlaqə vasitələri (telefon, faks, elektron poçt);

c) Gömrük orqanı qərarı qəbul etdiyi tarixi və tələb olunanlar;

d) Gömrük orqanının qərarını yerinə yetirməkdən imtina etməyin hüquqi və faktiki əsasları;

e) Cavab bildirişinə əlavə olunan sübutların cildi;

f) Mübahisə davam etdiyi hallarda, onun həlli forması (Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində və ya məhkəmə tərəfindən).

2.Bu məcəllənin 219-cu maddəsinin birinci hissəsində müəyyən edilən yazılı bildirişdə qeyd olunmalıdır:

a) Gömrük orqanının adı və ünvanı;

b) Gömrük prosedurlarını həyata keçirən şəxsin kimliyi (adı və soyadı, adı), ödənişi ödəyənin identifikasiya nömrəsi (olduğunda), ünvan və əlaqə vasitələri (telefon, faks, elektron poçt);

c) Gömrük orqanı qərarı qəbul etdiyi tarix və tələb olunanlar;

3.Cavab bildirişinin və ya yazılı bildirişin təqdim olunmamasına bərabərdir gömrük öhdəliklərinin təmin edilməməsinin təqdim olunmaması və ya mübahisənin həlli forması qeyd olunmayan cavab bildirişinin/yazılı bildirişin təqdim olunması.

**Maddə 222. Gömrük öhdəliklərini yerinə yetirmənin təmin edilməsi**

1.Gömrük prosedurlarını həyata keçirən şəxs gömrük orqanının yazılı qərarını şikayət etdiyi halda, gömrük orqanının yazılı qərarını gəbul etiyindən 15 təqvim günü ərzində gömrük öhdəliklərini yerinə yetirməyin təmin edilməsi üçün gömrük orqanına bank zəmanəti, bankda depozit hesabına müvafiq məbləği köçürdüyü haqda arayış ( gömrük prosedurlarını həyata keçirən şəxs, gömrük orqanı tərəfindən bank üçün müvafiq icazə verilmədən bu məbləğin üzərində sərəncəm verə bilməz) və ya maaliyyə riskinin sığorta polisi təqdim etməyə vəzifəlidir. Təqdim olunan zəmanətin ümumi qiyməti gömrük öhdəliyinin məbləğindən az olmamalıdır.

2. Əgər gömrük prosedurlarını həyata keçirən şəxs bu maddənin birinci hissəsində göstərilən müddətdə gömrük orqanına həmin hissədə qeyd olunan gömrük öhdəliklərinin yerinə yetirilmə təminatınının zəmanətlərini təqdim etməsə gömrük orqanı məhkəmə qərarı olmadan aşağada qeyd olunan gömrük öhdəliklərini yerinə yetirmək tədbirlərindən (mübahisəli gömrük borcunun həcmi hüdudunda, əgər qismən təmin edilmə zəmanəti təqdim olunduğunda – mübahisəli gömrük borcunun həcmini doldurmaq üçün yetərli olan hüdudlarda) istifadə edə bilər:

a) Onun bank hesablarına qadağa qoysun;

b) Onun hər hansı bir başqa mülkünə qadağa qoysun (o cümlədən daşınan,daşınmayan və qeyri maddi ).

3.Əgər gömrük mübahisəsi gömrük prosedurlarını həyata keçirən şəxsin xeyrinə həll olundusa, o zaman onun təqdim etdiyi gömrük öhdəliklərinin yerinə yetirilmə zəmanətləri ləğv olunur, gömrük orqanı tərəfindən qoyulan qadağa götürülür, ipoteka/ girov hüququ isə ləğv olunur.

4.Əgər gömrük mübahisəsi gömrük prosedurlarını həyata keçirən şəxsin xeyrinə həll olunmasa, belə halda gömrük öhdəliyi yarandığı gündən mübahisəli məbləğin və

Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsində nəzərdə tutulan ödənişin ödənilməsi üzərinə düşəcək.

## Fəsil XXXII. Gömrük mübahisəsinin Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirəsi

**Maddə 223. Gömrük mübahisəsinin Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirə məqsədi və onu müzakirə edən orqanlar**

1.Gömrük mübahisəsinin, Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirəsinin məqsədi tərəflərin bərabər hüququ ilə mübahisənin tez və ədalətli həllidir.

2.Gömrük mübahisəsinin Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində müzakirəsi və həlli bu məcəllə ilə qoyulan qaydada həyata keçirilir.

3.Gömrük mübahisəsinin Gürcüstanın Maaliyyə Nazirliyinin sistemində muzakirəsi yazılı qərarı qəbul edən gömrük orqanında, Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində və Gürcüstanın vergi məcəlləsi ilə müəyən edilən şurada həyata keçirilir.

**Maddə 224. Cavab bildirişini alandan sonra gömrük orqanının vəzifələri**

1.Gömrük orqanı rəhbəri /onun müavini gömrük prosedurlarını həyata keçirən şəxsin cavab bildirişini aldığından 10 gün ərzində onu müzakirə etməyə və cavab bildirişini təmin etmək üçün və ya mübahisəni dayandırmaq haqda cavab bildirişinin qismən təmin edilməsi və ya onu təmin etməkdən imtina etmək haqda müvafiq əmr verməyə vəzifəlidir və əmr verəndən 3 gün ərzində onu cavab bildirişini təqdim edənə təqdim etməlidir.

2.Gömrük orqanında mübahisə şikayətinin və ya onun nümayəndəsinin (nümayəndələrinin) iştirakı ilə müzakirə olunur. Gömrük mübahisəsinin müzakirə edilməsi üçün

qoyulan vaxtda şikayətçinin və ya onun nümayəndəsinin təqdim olunmadığı halda mübahisə onların iştirakı olmadan müzakirə olunur.

3.Cavab bildirişinin qismən təmin edildiyi və ya onun təmin edilməsinə imtina qərarı qəbul edilən hallarda gömrük orqanı, əmr veriləndən 3 gün ərzində Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinə qəbul etdiyi qərarı və cavab bildirişini əlavə olunmuş sübutlarla birlikdə təqdim etməlidir, gömrük prosedurlarını həyata keçirən şəxsə isə əmrlə birlikdə düzəliş olunmuş qərarı ( əgər onda düzəliş aparılıbsa) və əlavə sübutlar (olduğu halda) təqdim olunmalıdır.

4.Gömrük orqanının əmrində qeyd olunmalıdır :

a) Gömrük orqanının adı və ünvanı;

b) Əmr verilən vaxt və yer, əmri verən şəxslərin kimliyi;

c) Bildiriş cavabını təqdim edənin kimliyi ( adı və soyadı; adı) ödənişi ödəyənin identifikasiya nömrəsi (olduğu halda) ünvan və əlaqə vasitələri ( telefon, faks, elektron poçt) və mübahisə səbəbi;

d) Gömrük orqanı tərəfindən qoyulan vəziyyət, sübutlar əsasında imtina edilmə bu və digər sübutlar, normativ aktlar və rəhbər tutulan normalar;

e) Gömrük orqanının cavab bildirişini təmin etmək, qismən təmin etmək və ya təmin etməmək haqda qərarı;

f) Gömrük orqanının əmrinin şikayət edilməsinin vaxtı və qaydaları.

5.Əgər gömrük orqanı bu maddənin birinci hissəsi ilə müəyyən edilən müddətdə yuxarıda qeyd olunan qərarı vermir və ya gömrük prosedurlarını həyata keçirən şəxsə əmri göndərmirsə, bu cavab bildirişinin təmin edilməsindən imtina etməkdir.

**Maddə 225. Gömrük orqanının qərarını şikayət etmək**

1.Gömrük prosedurlarını həyata keçirən şəxsin, bu məcəllənin 224 –cü maddəsinin 3-cü hissəsi ilə müəyyən edilən

hallarda gömrük orqanının rəhbərliyinin /onun müavininin əmrini (bu əmrə və əlavə olunmuş sənədləri götürəndən 5 gün ərzində) və ya bu məcəllənin 224-cü maddəsinin birinci hissəsi ilə müəyyən edilən müddətdə əmri almadığında , gömrük orqanının yox cavabını ( bu müddət sona çatandan 5 gün ərzində) şikayət etməyə hüququ var:

a) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində əgər onun cavab bildirişində belə qeyid olunubsa (belə bir halda o, təqdim etdiyi şikayətə, müvafiq olaraq, bu məcəllənin 224-cu və 219-cu maddəsində qeyd olunan gömrük orqanlarına təqdim olunan hər bir sənədin surəti və əlavə sübutları olduğu halda );

b) Məhkəmədə.

2.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinə təqdim edilən şikayətdə, mübahisənin davam edildiyi halda, şikayətçi mübahisənin həllinin hansı formasını seçdiyi qeyd olunmalıdır.

3. Əgər gömrük prosedurlarını həyata keçirən şəxs, bu maddənin birinci hissəsində qoyulan müddətdə şikayat verməzsə:

a) Gömrük orqanının rəhbərinin/onun müavininin əmri tanınmış hesab olunacaq və icra olunacaq, gömrük prosedurlarını həyata keçirən şəxsin cavab bildirşi isə ləğv olunmuş hesab olunacaq;

b) Gömrük orqanının imtina cavabını (əgər o, gömrük orqanının əmrini vaxtında almadısa), gömrük orqanının qərarı tanınmış hesab olunacaq və icra ediləcək, gömrük prosedurlarını həyata keçirən şəxsin cavab bildirişi isə ləğv edilmiş hesab olunacaq.

**Maddə 226. Gömrük mubahisəsinin Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində muzakirəsi**

1.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti, bu məcəllənin 225-ci maddəsinin birinci hissəsində qeyd olunan şikayəti aldığından 15 gün ərzində müzakirə etməyə və

şikayəti təmin edilməsi və ya mübahisəni dayandırma haqda qərar qəbul etməyə vəzifəlidir, şikayətin qismən təmin edilməsi və ya təmin edilməkdən imtina olunması haqda və qərar qəbul ediləndən 3 gün ərzində onu şikayətçiyə və qərarı şikayət olunan gömrük orqanına göndərməyə vəzifəlidir.

2.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində mübahisə, şikayətçinin və ya onun nümayəndəsinin (nümayəndələrinin) iştirakı ilə müzakirə olunur. Gömrük mübahisəsini müzakirə etmək üçün qoyulan vaxt şikayətçinin və ya onun nümayəndəsinin iştirak etmədiyi halda mübahisə onların iştirakı olmadan müzakirə edilir.

3.Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti mübahisəni müzakirə etməklə səlahiyyətlidir ki:

a) Gömrük orqanının qərarını ləğv etsin;

b) Gömrük orqanının qərarını ləğv etsin və yenisini qəbul etsin;

c) Şikayəti təmin etməsin.

4.Gürcüstanın Maaliyyə Nazirinin gömrük departamentinin qərarında qeyd olunmalıdır:

a) Qərarın qəbul edilmə vaxtı və yeri, qərarı qəbul edən şəxsin kimliyi, şikayətçinin və qərarı şikayətə verilən gömrük orqanının adı və mübahisənin predmeti;

b) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin qoyduğu şərait, hər hansı bir sübutun əsasında imtina olunan sübutlar, normativ aktlar və onun rəhbər tutduğu normalar;

c) Gürcüstanın Maaliyyə Nazirinin gömrük departamentinin şikayətinin təmin edilməsi, qismən təmin edilməsinin və ya təmin edilməkdən imtina olunması haqda yekun nəticəsi;

d) Gürcüstanın Maaliyyə Nazirinin gömrük departamentinin qərarının şikayətə verilməsi və qaydası.

5.Qərara Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin səlahiyyətli şəxsi imza atmalıdır.

6.Şikayətin qismən təmin edildiyi və ya onun təmin edilməsinə imtina qərarı qəbul edildiyi halda qərar qəbul ediləndən 3 gün ərzində, Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti gömrük prosedurlarının həyata keçirən şəxsə qəbul etdiyi qərarla birlikdə düzəliş olunmuş (əgər düzəliş olunubsa) bildiriş və əlavə sübutlar (olduğu halda), şikayətçinin Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentində təqdim etdiyi şikayətdə mübahisəni həlli forması kimi, onun müzakirə edilməsi qeyd olunduğu halda – şuraya işin hər bir məsələsinin qərarla birlikdə təqdim etməyə borcludur.

7.Əgər Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamenti bu maddənin birinci hissəsi ilə müəyyən edilən müddətdə yuxarıda qeyd olunan qərarı qəbul etməsə və ya gömrük prosedurlarının həyata keçirən şəxsə qərarı göndərməsə, bu şikayətin təmin edilməsindən imtina deməkdir.

**Maddə 227. Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük qərarının şikayət edilməsi**

1.Gömrük prosedurlarını həyata keçirən şəxs, bu məcəllənin 226-cı maddəsinin 3-cü hissəsinin b) və c) bəndlərində müəyyən edilən hallarda Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin qərarını (qərarı və əlavə edilən sənədləri alandan 5 gün ərzində) və ya bu məcəllənin 226-cı maddəsinin birinci hissəsində müəyyən edilən müddətdə qərarı almadığı halda departamentin (bu müddət çıxdığından 5 gün ərzində) cavabını şikayət etməyə hüquqludur:

a) Şurada, əgər onun şikayətində belə qeyd olunubsa (belə hallarda,o təqdim etdiyi şikayətə Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinə təqdim etdiyi məsələlərin surətini və olduğu halda, əlavə sübutları əlavə etməlidir) ;

b) Məhkəmədə ( belə hallarda bu məcəllənin 219-cu maddəsində qeyd olunan şura cavabdehdir).

2.Şuraya təqdim edilən şikayətdə, qeyd olunmalıdır, mübahisənin davamı zamanı, şikayətçi onun həllinin hası formasını seçir.

3.Əgər gömrük prosedurlarını həyata keçirən şəxs, bu maddənin birinci hissəsi ilə qoyulan müddətdə şikayət verməz :

a) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin qərarı tanınmış hesab olunar və icra edilmək üçün geri qaytarılar;

b) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin imtina cavabını (əgər o departamentin qərarını vaxtında almadısa) şikayət ləğv olunmuş hesab olunacaq və qəbul edilən qərar icra edilmək üçün geri qaytarılacaq.

**Maddə 228. Şuranın yığıncağı**

1.Şura mübahisəni şikayət götürdükdən 15 gün ərzində öz yığıncağında müzakirə edir.

2.Yığıncağa Gürcüstanın Maaliyyə Naziri və ya onun tərəfindən təyin edilən şuranın üzvü sədrlik edir.

3.Yığıncağın reqlamentini şura müəyyən edir.

4.Şuranın qərarı iştirakçıların səs çoxluğu ilə yığıncaqda qəbul edilir, səsvermədə özünü saxlamaq qadağadır.

5.Şuranın qərarı yazılı şəkildə sənədləşdirilir.

6.Şurada mübahisə şikayətçinin və ya onun nümayəndəsinin iştiraki ilə müzakirə olunur. Gömrük mübahisəsini müzakirə etmək üçün təyin olunan vaxt şikayətçinin və ya onun nümayəndəsinin təqdim olunmadığı halda, mübahisə onlar olmadan müzakirə olunur.

**Maddə 229. Şuranın qərarı**

1.Gömrük mübahisəsini müzakirə əsasında şura səlahiyyətlidir:

a) Gömrük orqanının və ya Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin qərarını ləğv etsin;

b) Gömrük orqanının və ya Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin qərarını ləğv etsin və yenisini qəbul etsin;

c) Şikayəti təmin etməsin.

2.Şuranın qərarında qeyd olunmalıdır:

a) Qərarın qəbul edilmə vaxtı və yeri, qərarı qəbul edən şəxsin kimliyi, şikayətçinin və qərarı şikayətə verilən gömrük orqanının adı və mübahisə predmeti;

b) Şura tərəfindən tədqiq olunmuş mühit, sübutlar - onların əsasında hər hansı bir sübutdan imtina edildisə, rəhbər tutulan normativ aktlar və onların normaları ;

c) Şikayətin təmin edilməsi, qismən təmin edilməsi və ya imtina cavabı haqda şuranın yekun qərarı;

d) Şuranın qərarının şikayət edilmə müddəti və qaydası.

3.Şuranın üzvü ( qərarın tərəfdarı kimi, o cümlədən tərəfdarı olmayan) qərar, fərqli fikir əlavə edə bilər.

4.Şura qərarın təsdiq edilmiş surətini 5 gün ərzində tərəflərə ( numaiyəndələrə) şəxsən təqdim etməlidir.

5.Əgər şura bu məcəllənin 228-ci maddəsinin birinci hissəsi ilə müəyyən edilən müddətdə yuxarıda qeyd olunan qərarı qəbul etməsə və ya gömrük prosedurlarını həyata keçirən şəxsə qərarı göndərməsə, bu şikayətin təmin edilməsindən imtina etmək deməkdir.

**Maddə 230. Şuranın qərarının qüvvəyə minməsi və onu şikayət etmək qaydaları**

1.Şuranın qərarı qüvvəyə minir:

a) Şikayətçi bu qərarı qəbul edəndən 10 təqvim günü ərzində, əgər şikəyəta vermirsə;

b) Bu məcəllənin 228-ci maddəsinin birinci hissəsində müəyyən edilən müddət sona çatandan 10-cu gün, əgər şikayətçi bu müddətdə şuranın qərarını almasa və həmin müddətdə şuranın imtina cavabını şikayət etməsə.

2.Gömrük prosedurlarını həyata keçirən şəxs şuranın qərarını məhkəmədə şikayətə edə bilər (öz şikayətində qeyd etdiyi kimi) belə bir halda bu məcəllənin 219-cu maddəsində qeyd olunan gömrük orqanı cavabdehdir.

3.Mübahisənin davam etdiyi halda tərəflər bu məcəllənin XXXI fəsilində nəzərdə tutulan şərtlərə müvafiq olaraq hərəkət edirlər.

**Maddə 231. Məhkəmədə gömrük mübahisəsinin müzakirəsi**

Gömrük prosedurlarını həyata keçirən şəxsin məhkəməyə təqdim etdiyi şikayət Gürcüstanın administrativ proses qanunvericiliyi ilə qoyulan qaydada müzakirə olunur və qərar qəbul edilir.

## Bölmə X. Gömrük hüquqpozuntuları və cavabdehlik
## Fəzil XXXIII. Gömrük hüquqpozuntuları üçün cavabdehliyin ümumi müddəaları

**Maddə 232. Gömrük hüquqpozuntuları və gömrük cavabdehliyi subyektləri**

1.Bu məcəllənin XXXIV fəsilində nəzərdə tutulan hüquqa zidd olan hərəkətlər (hərəkət və hərəkətsizlik) gömrük hüquqpozuntusu hesab olunur.

2.Bu məcəllənin XXXIV fəsilində nəzərdə tutulan hüquqa zidd olan hərəkətlər üçün müəssisənin/təşkilatın və fiziki şəxsin üzərinə cavabdehlik düşür.

**Maddə 233. Gömrük hüquqpozuntusu üçün cavabdehliyin ümumi prinsipləri**

1.Bu məcəllə ilə tətbiq edilən əsasdan və tətbiq edilən qaydadan savayı, bu məcəllə ilə nəzərdə tutulan gömrük pozuntularına görə cavabdehlik heç kəsin üzərinə düşmür.

2.Eyni hərəkət üçün heç kəsin üzərinə təkrar cavabdehlik düşə bilməz. Əgər ilk hüquqpozuntusuna sanksiyanı yerinə yetirməkdən bir ilə keçməyibsə, gömrük hüquqpozuntusu təkrar edilmiş hesab oluna bilər.

3.Bu məcəllə ilə nəzərdə tutulan gömrük hüquqpozuntuları zamanı fiziki şəxsin üzərinə cavabdehlik düşür, əgər bu hüquqpozuntusu Gürcüstanın qanunvericiliyinə müvafiq olaraq cinyaət işi hesab olunmursa.

4.Gömrük hüquqpozuntusuna görə müəssisəyə /təşkilata qarşı gömrük sanksiyasından istifadə etmək, onun vəzifəli şəxsinin, müvafiq əsaslar olduğunda, Gürcüstanın qanunvericiliyi ilə nəzərdə tutulan inzibati, cinayət və ya başqa cavabdehlikdən onu azad etmir.

5.Gömrük hüquqpozuntusuna görə şəxsə qarşı gömrük sanksiyasından istifadə ,ona məxsus olan ödənişlərdən, yığımlardan və vergi öhdəliklərindən azad etmir.

6.Bu məcəllənin 232-ci maddəsinin 2-ci hissəsi ilə müəyyən edilən subyektlərə, bu məcəllədə nəzərdə tutulan konkret gömrük hüquqpozuntularına görə üzərlərinə cavabdehlik düşmür, əgər gömrük pozuntuları qəza və ya föqəladə hallar nəticəsində baş veribdirsə və subyekt dərhal gömrük orqanlarına xəbərdarlıq edib müvafiq sübutlar da təqdim edibsə. Bu məcəllə ilə tətbiq olunan öhdəliklərin yerinə yetirilməsini mümkün etməyən, subyektin istəyindən aslı olmayaraq baş verən hallar, föqəladə hallar hesab olunur və xüsusi mühit (oğurluq və qaçaqmalçılıq istisna olmaqla), onları nəzərə almaq və onlardan qorunmaq biliyin və texniki inkişafın lazımi səviyyədə olmadığına görə mümkün olmayan:

a) Təbii fəlakət ( zəlzələ, su daşqını, torpaq uçurumu, qar uçurumu, yanğın və s.)

b) Xarici ticarətin məhdudiyyəti, fövqəladə / hərbi vəziyyətin elan edilməsi, o cümlədən dövlət orqanlarının başqa qərarları;

c) Kütləvi ixtişaşlar

**Maddə 234. Gömrük sanksiyası**

1.Gömrük hüquqpozuntusuna görə cavabdehlik ölçüsü gömrük sanksiyasıdır.

2.Rüsumun, pul cərimənsinin və gömrük hüquqpozuntularına görə nəqliyyatın və ya malın ödənişsiz müsadirə olunması, bu məcəllə ilə nəzərdə tutulan hallarda , gömrük orqanının qərarı ilə gömrük sanksiyasından istifadə etmək deməkdir, əgər həmin məcəllə ilə digər hal tətbiq olunmayıbsa.

3.Gömrük pozuntularını birgə olduqları hallarda, gömrük sanksiyası hər bir pozuntu üçün ayrılıqda istifadə olunur.

4.Bu məcəllənin XXXIV fəslində nəzərdə tutulan iki və ya ikidən çox əməl ( hərəkət və ya hərəkətsizlik) gömrük pozuntularının cəmi deməkdir, belə hallarda subyektin üzərinə cavabdehlik düşmür.

5.Bu məcəllənin XXXIV fəslində nəzərdə tutulan iki və ya ikidən çox maddə ilə və ya maddə hissəsi ilə nəzərdə tutulan gömrük pozuntusu nişanları olan əməl ( hərəkətin və ya hərəkətsizliyin), gömrük hüqupozuntusunun cəmi kimi hesab olunur. Əgər əməl ümumi və xüsusi normalarla nəzərdə tutulubdursa, hüqupozuntularının cəmi mövcud deyil və subyektin üzərinə cavabdehlik xüsusi norma ilə tətbiq olunur.

6.Əgər gömrük pozuntusu subyekti birdən çox şəxsdirsə, bu məcəllə ilə nəzərdə tutulan cavabdehlik həmrəy şəkildə onların üzərində tətbiq olunacaq.

7.Ödənişsiz müsadirə və dövlət mülkiyyətinə verilən malın və ya nəqliyyat vasitəsinin realizasiya qaydası Gürcüstan prezidentinin əmri ilə müəyyən edilir.

8.Gömrük sanksiyasına cərimə qoyulmur.

**Maddə 236. Gömrük hüquqpozuntusu işinin aparılması**

1.Əgər bu məcəllə ilə digər hal tətbiq olunmayıbsa, gömrük hüquppozuntusu işinin gömrük orqanı bu məcəllə ilə müəyyən edilmiş qaydada, öz kompetensiyası hüdudunda müzakirə edir və müvafiq qərar qəbul edir.

2.Bu məcəllə ilə nəzərdə tutulan gömrük hüqupozuntusu zamanı, hüqupozuntusu aktı tətbiq olunur. Aktı tətbiq edirlər:

a) Gürcüstanın Maaliyyə Nazirliyinin gömrük departamentinin individual inzibati-hüqüqi aktı ilə müəyyən edilən vəzifə şəxsləri;

b) Gürcüstanın Maaliyyə Nazirliyinin maaliyyə polisi departamentinin individual inzibati-hüquqi aktı ilə müəyyən edilən vəzifə şəxsləri - bu məcəllənin 239-cu, 241-ci, 243-cü, 246-cı və 248-ci maddələrilə nəzərdə tutulan hüquqpozuntularına;

c) Gürcüstanın Daxili İşlər Nazirliyinin sərhəd Müdafiə Departamentinin və patrul polisinin salahiyyətli şəxsləri - bu məcəllənin 239-cu, 241-ci, 243-cü, 246-cı və 248-ci maddələrilə nəzərdə tutulan hüquqpozuntularına.

3. Aktda qeyd olunur:

a) Onun tərtib olunma yeri və tarixi;

b) Aktı tərtib edən şəxsin və həmin hüqüpozuntusunu aşkar edən şəxsin (şəxslərin) adı, soyadı, vəzifəsi.

c) Gömrük hüqupozuntusu subyekti haqda göstəricilər (olduğu halda);

d) Hüqupozuntusunun yeri, vaxtı və məzmunu (o cümlədən faktlar və mühit);

e) Bu məcəllənin XXXIV fəsilində, bu hüqupozuntusuna olan cavabdehliyi nəzərdə tutan maddənin və ya maddənin bir hissəsi;

f) İşin aparılmasında iştirakçı və ya şahid olan şəxsin adı, soyadı və ünvanı (olduğu halda);

g) Gömrük hüqüpozuntusu subyektinin izahatı;

h) Gömrük hüqüpozuntusu işinin aparılmasını təmin edən tədbirlər (istifadə edildikdə).

4. Aktla tanış olmaq üçün, akt işin hər bir iştirakçısına təqdim olunur. Onların öz fikirlərini söyləmək və qeydlər aparmaq hüquqları var.

5. Akta, aktı tərtib edənlər və gömrük hüqüpozuntusuna yol verən şəxs və ya onun nümayəndəsi və şahidlər imza atır (onlar olduğu halda).

6. Əgər hüqüpozuntusuna yol verən şəxs akta imza atmaqdan imtina edirsə, o zaman xüsusi qeyd aparılır. Hüqupozuntusu edən akta əlavə edilən izahatı təqdim edə bilər və aktın məzmunu ilə bağlı qeydlər edə bilər, o cümlədən akta imza atmamasının səbəbini şərh edə bilər.

7. Aktın bir nüsxəsi gömrük hüqüpozuntusu edən şəxsə verilir.

8. Akt, hüqüpozuntusu üçün sanksiya tərtibetmə məsələsinə qərar verən səlahiyyətli şəxsə (orqana) göndərilir.

9. Gömrük hüqüpozuntusu aktı tərtib ediləndən 30 gün ərzində gömrük orqanının rəisi və ya müavini işin məsələlərinə əsaslanaraq iş haqda qərar qəbul edir (bu maddənin 11-ci və

12-ci hissələrində nəzərdə tutulan hallar istisna olmaqla) və gömrük bildirişi ilə sənədləşdirilir.

10. Bu maddənin 9-cu hissəsində müəyyən edilən müddəti pozmaqla verilən gömrük bildirişi hüquqi qüvvəsini itirmiş hesab olunur.

11. Əgər bu maddənin 9-cu hissəsi ilə müəyyən edilən müddətdə gömrük hüqupozuntusu subyektini müəyyən etmək mümkün olmasa və ya onun identifikasiyası baş tutmadısa, gömrük orqanının rəisi və ya müavini, hüqüpozuntusu malının və ya nəqliyyat vasitəsinin ödənişsiz müsadirəsi haqda individual inzibati-hüquqi akt tərtib edir.

12. Gömrük hüqüpozuntusu subyektinə yalnız akta əsasən, hüqüpozuntusu baş verən yerdə sanksiya tətbiq olunur, əgər:

a) Gömrük hüqüpozuntusu subyekti, yol verdiyi gömrük pozuntusu barədə mübahisə etmir və baş verən hadisəni akta imza atmaqla təsdiq edir;

b) Gömrük hüqüpozuntusu üçün yalnız cərimə tətbiq olunur.

13. Gömrük hüqupozuntusu işinin aparılması üçün bu maddənin 2-ci hissəsində qeyd edilən səlahiyyətli şəxslər Gürcüstanın inzibati hüqupozuntusu məcəllənin 244-cü, 246-cı, 247-ci, 248-ci və 249-cu maddələri ilə müəyyən edilən tədbirlərdən istifadə edirlər. Gömrük sanksiyasının icrasını təmin etmək üçün, gömrük hüqupozuntusu işinin aparılmasında hüqupozuntusu subyektinə hüqupozuntusu malına və ya nəqliyyat vasitəsilə qarşı istifadə edilən təmin edilmə tədbirləri və onların həyata keçirilmə qaydaları Gürcüstan hakimiyyətinin tətbiq etdiyi qaydada müəyyən edilir.

14. Gömrük hüqupozuntusu işinin aparılması və onun müzakirəsi və müvafiq qərar qəbul edilməsi Gürcüstanın maliyyə nazirinin əmri ilə tətbiq edilən qaydada həyata keçirilir.

15. Bu maddənin birinci – 14-cü hissələri, bu məcəllənin 237-ci maddəsinə aid deyil. Bu məcəllənin 237-ci

maddəsi ilə tətbiq edilən öhdəliklərin ödənilməsi, ödənilməyən gömrük ödənişlərinin ödənilmə qaydalarına müvafiq olaraq həyata keçirilir.

**Maddə 236. Şikayətetmə qaydaları**

1.Gömrük hüquqpozuntusu üçün göndərilən gömrük orqanının bildirişini, ona aid olan qərarın sahibi şəxs və ya onun nümayəndəsi bu məcəllənin IX fəsli ilə tətbiq edilən qaydada şikayət edə bilər.

2.Gömrük hüquqpozuntusu aktı gömrük sanksiyasının qoyulması haqda qəbul edilən qərarla birgə şikayət edilə bilər, o cümlədən, bu məcəllənin 235-ci maddəsinin 12-ci hissəsində nəzərdə tutulan akt fiziki və ya psixiki təzyiq altında yerinə yetirilən hallar istisna olmaqla şikayət edilə bilməz.

## Fəsil XXXIV Gömrük hüqüpozuntuları növləri və cavabdehlik

**Maddə 237. Gömrük ödənişlərinin ödənilməməsi**

Gömrük ödənişlərinin ödənilməməsi - Gürcüstanın vergi məcəlləsinin 129-cu maddəsi ilə nəzərdə tutulan miqdarda və qaydada borc tətbiq edilməsinə səbəb olur.

**Maddə 238. Bəyannamənin tətbiq edilən müddətdə həyata keçirilməməsi**

1.Bəyannamənin tətbiq edilən müddətdə həyata keçirilməməsi – bəyannaməyə öhdəlikli şəxsin 500 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan əməl, təkrar baş verən – bəyannaməyə öhdəlikli şəxsin hər bir təkrarına 1000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 239. Gömrük orqanının razılığı olmadan gömrük identifikasiya vasitələrindən azadolma və ya məhvetmə**

1.Gömrük orqanının razılığı olmadan gömrük identifikasiya vasitələrindən azadolma və ya məhv etmə, gömrük nəzarəti altında olan nəqliyyat vasitələrinə və ya

gömrük nəzarəti zonasında mövcud olan tikinti-binalara daxil olmaq- malın, nəqliyyat vasitələrinin və ya tikinti-binaların sahiblərinin 5 000 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan əməllər, təkrar olunanlar - malın, nəqliyyat vasitələrinin və ya tikinti-binaların sahiblərinin hər baş verəndə 10 000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 240. Gömrük bəyannaməsini doldurma qaydalarının pozulması**

1.Gömrük bəyannaməsinə malın növünün, miqdarının, istehsal ölkəsinin və ya gömrük qiymətləri haqda dəqiq olmayan məlumat qeydləri aparmaq, əgər nəticəsində gömrük ödənişlərinin miqdarı azalırsa və ya qeyri tarif tədbirlərindən yayınmaq baş verirsə - deklarant, ödəniləsi gömrük ödənişləri məbləğinin 25 % miqdarında, amma 500 laridən az olmamaq şərti ilə cərimələnir.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməl, təkrar edilən – hər bir təkrar üçün ödəniləsi gömrük ödənişlərinin məbləğinin 100% miqdarında cərimələnir, amma 2 000 laridən az olmamaq şərtilə.

3.Bu maddənin məqsədləri üçün gömrük bəyannaməsinə qeyri dəqiq göstəricilərin qeyd edilməsi kimi hesab olunacaq, əgər bu qeyri dəqiqlik sübutlara əsaslanaraq gömrük nəzarəti həyata keçirildikdə və ya cinayət işinə Gürcüstan qanunvericiliyi ilə tətbiq edilən qaydada təsdiq olunubdursa. Yalnız əsaslı şühbənin olması, gömrük dəyərlərinin korrektəsinin və ya fərqli üsulla tətbiq edilmənin əsası hüquqpozuntusunun tərkibi ola bilməz.

**Maddə 241. Bəyann olunmamış malın qeyri qanuni olaraq Gürcüstanın gömrük sərhədi keçməsi və ya gömrük nəzarət zonasını tərk etməsi**

1.Gömrük orqanının salahiyyətli şəxsinin razılığı olmadan, bəyan olunmamış malın qeyri qanuni olaraq Gürcüstanın gömrük sərhədini keçməsi və ya gömrük nəzarət zonasını

tərk etməsi – öhdəlikli şəxsin bu mala ödənilməli import ödənişləri məbləğinin 25 % miqdarında ,amma 500 laridən az olmamaqla, cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan əməlin təkrar edilməsi – öhdəlikli şəxsin, hər bir təkrarı üçün, bu mala ödəniləsi import ödənişlərinin məbləğının 75 % miqdarında, amma 1500 laridən az olmamaqla cərimələnməsinə səbəb olur.

**Maddə 242. Bəyannamə olunmamış malın qeyri qanuni olaraq Gürcüstanın gömrük sərhədini keçməsi**

1.Gömrük orqanının salahiyyətli şəxsinin razılığı olmadan və ya gömrük nəzarətindən yan keçməklə bəyannamə olunmamış malın qeyri qanuni olaraq Gürcüstanın gömrük sərhədini keçməsi- öhdəlikli şəxsin bu mala ödəyəsi import ödənişləri məbləğinin 50% məbləğində, amma 1 000 laridən az olmamaqla cərimələməsinə və ya gömrük hüqupozuntusu törədən nəqliyyat vasitəsini və ya malın ödənişsiz əlindən almasına səbəb olur.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan təkrar edilən əməl - öhdəlikli şəxsin, hər bir təkrara , ödənilәsi import ödənişləri məbləğinin 100 % miqdarında, amma 2 000 laridən az olmamaqla cərimələnməsinə və ya gömrük hüqüpozuntusu törədən nəqliyyat vasitəsini və ya malın ödənişsiz əlindən almasına səbəb olur.

**Maddə 243. Gömrük orqanı ilə razlaşdırılmadan gömrük nəzarəti altında olan malın açılması, təkrar qablaşdırılması, boşaldılması və ya doldurulması**

Gömrük orqanı ilə razlaşdırılmadan gömrük nəzarəti altında olan malın açılması, təkrar qablaşdırılması, boşaldılması və ya doldurulması – öhdəlikli şəxsin 500 lari ilə cərimələnməsinə səbəb olur.

Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməlin təkrarlanması – öhdəlikli şəxsin hər bir təkrar üçün 1 500 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 244. Neytral zona və ya sərbəst anbar üçün tətbiq edilən tələblərin pozulması**

1.Neytral zona və ya sərbəst anbar üçün tətbiq edilən tələblərin pozulması ilə malın daşınması və ya ərazidən çıxardılması, o cümlədən anbarlaşdırmaq, saxlamaq və ya qeydiyyata alınma tələblərinin pozulması - azad neytral zona və ya sərbəst anbarın sahibinin 500 lari ilə cərimələnməsinə səbəb olur.

2.Neytral zonada və ya sərbəst anbarda qanunsuz müəssisə və ya ticarət işi və ya xidməti, tikinti – binaların tikilməsi, maldan istifadə etmək – neytral zonanın və ya sərbəst anbarın sahibinin 500 lari ilə cərimələnməsinə səbəb olur.

3.Bu maddənin birinci və 2-ci hissələri ilə nəzərdə tutulan əməllərin təkrarı - neytral zonanın və ya sərbəst anbarın sahibinin hər bir təkrarı üçün 1 000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 245. Gömrük orqanının vəzifəli şəxsinə müqavimət göstərmək**

1.Gömrük orqanının vəzifəli şəxsinə müqavimət göstərmək, o cümlədən nəzarət keçirdiyində, gömrük orqanının vəzifəli şəxsinin qanuni tələbinə və qərarına imtina etmək və gömrük qanunvericiliyi ilə müəyyən edilən yerdə nəqliyyat vasitəsinin saxlanma tələbinin yerinə yetirilməməsi – 1 000 lari ilə cərimələnməyə səbəb olur.

2.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan əməllərin təkrarlanması, - hər bir təkrarlanma 2 000 lari miqdarında cərimələnməyə səbəb olur.

**Maddə. 246. Nəqliyyat vasitəsilə bağlı gömrük qanunvericiliyinin pozulması**

1.Gömrük prosedurları həyata keçirildiyində, gömrük orqanının razılığı olmadan nəqliyyat vasitəsinin yerini dəyişdirmək, hərəkət üçün tətbiq edilən gömrük marşrutundan dönmək, - 1 000 lari ilə cərimələnməyə səbəb olur.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməllərin təkrarı, hər təkrar əməl üçün 2 000 lari cərimələnməyə səbəb olur.

**Maddə 247. Gömrük işlənmə əməliyyatlarına gömrük qanunvericiliyi ilə tətbiq edilən şərtlərin pozulması**

1.Gömrük işlənmə əməliyyatlarına gömrük qanunvericiliyi ilə tətbiq edilən şərtlərin pozulması, - öhdəlikli şəxsin 500 lari ilə cərmələnməsinə səbəb olur.

2. Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməllərin təkrarı, hər təkrar əməl üçün öhdəlikli şəxsin 1 000 lari cərimələnməyə səbəb olur.

**Maddə 248. Malın itirilməsi, məhv edilməsi və ya qanunsuz idarəsi**

Gömrük nəzarəti altında olan malın və ya nəqliyyat vasitəsinin gömrük nəzarətindən, gömrük qanunvericliyi ilə tətbiq edilən şərtlərin pozulması ilə çıxarılması/ çıxması,-

Malın və ya nəqliyyat vasitəsinin sahibinin, bu mala və ya nəqliyyat vasitəsinə ödənilləsi import ödənişi məbləğının 100% miqdarında cərimələnməsinə və ya gömrük hüqüpozuntusu malının və ya nəqliyyat vasitəsinin ödənişsiz əlindən alınmasına səbəb olur.

**Maddə 249. Sənədin saxlanma müddətinin pozulması**

1.Bu məcəllənin 17-ci maddəsində nəzərdə tutulan sənədlərin saxlanma müddətinin pozulması – bu sənədin saxlanmasına cavabdeh olan şəxsin 300 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan təkrarlanan əməl,- bu sənədin saxlanılmasına cavabdeh olan şəxsin, hər bir təkrar üçün 1000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 250. Qəza və qarşısıalınmaz qüvvə zamanı keçiriləsi tədbirlərin həyata keçirilməsi**

1.Bu məcəllənin 46-cı maddəsi ilə nəzərdə tutulan qəza və qarşısıalınmaz qüvvə zamanı gömrük nəzarəti altında olan malın və ya nəqliyyat vasitəsini qorumaq üçün müvafiq

ölçülərin keçirilməməsi, gömrük nəzarəti altında olan malın zədələnməsi və ya məhv edilməsi haqda gömrük orqanına dərhal xəbərdərlik verməmək,- öhdəlikli şəxsin 300 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməlin təkrarlanması,- öhdəlikli şəxsin hər bir təkrar üçün 1 000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 251. Nəqliyyat vasitəsinin daxil olması/ təyyarənin enməsi və ya çıxması /qalxması haqda gömrük orqanına xəbərdarlıq verməmək**

1.Limanın, poçt xidmətinin, dəmiryolunun və ya hava limanı tərəfindən nəqliyyat vasitəsinin daxil olması / təyyarənin enməsi və ya çıxması /qalxması haqda gömrük orqanına xəbərdarlıq verməmək - limanın, poçt xidmətinin, dəmir yolunun və ya hava limanının 5 000 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməlin təkrarlanması - Limanın, poçt xidmətinin, dəmir yolunun və ya hava limanının hər bir təkrarı üçün 10 000 lari ilə cərimələnməsinə səbəb olur.

**Maddə 252. Müvəqqəti saxlanma anbarının və ya gömrüksüz ticarət məntəqəsinin sahibi tərəfindən Gürcüstanın qanunvericiliyi ilə tətbiq edilən şərtlərin yerinə yetirilməməsi**

1.Müvəqqəti saxlanma anbarının və ya gömrüksüz ticarət məntəqəsinin sahibi tərəfindən Gürcüstanın qanunvericiliklə tətbiq edilən şərtlərin yerinə yetirilməməsi,- icazə sahibinin 3 000 lari ilə cərimələnməsinə səbəb olur.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan əməlin təkrarlanması - icazə sahibinin hər bir təkrar üçün , bu maddənin birinci hissəsində nəzərdə tutulan cərimənin üç qatı ilə cərimələnməsinə səbəb olur.

**Maddə .253. Digər cərimələr**

Deklarantın, mal sahibinin və ya başqa vəzifəli şəxslərin bu məcəllə ilə nəzərdə tutulan öhdəliklərinin yerinə yetirilməməsi, bu məcəllə ilə nəzərdə tutulan cavabdehliyə, miqdarı müəyyən edilməyən cərimələnməyə səbəb olur, - bu isə 300 lari miqdarındadır.

**Bölmə XI. Keçici və yekun müddəalar**
**Fəsil XXXV. Keçici və yekun müddəalar**

**Maddə 254. Keçici müddəalar**

1.Bu məcəllə fəaliyyətə girənə qədər verilən lisenziyalar və icazələr, 3 təqvim ayı müddətinə, bu məcəllə ilə müəyyən edilən icazə tələbləri ilə uyğunlaşdırılmalıdır.

2.Bu maddənin birinci hissəsində nəzərdə tutulan tələblər tətbiq edilən müddətdə yerinə yetirilmədiyi zaman, bu bu məcəllənin fəaliyyətə başlayana qədər verilən icazələr və lisenziyalar etibarsız elan ediləcək.

3.Bu məcəllənin prosedur müddəaləri, bu məcəllənin qüvvəyə girdiyi gündən bəyannamə edilən mallara aiddir.

4.Bu məcəllənin fəaliyyətə başlanmasına qədər, bəyannamə olunmuş gömrük rejiminə Gürcüstanın gömrük məcəlləsi (parlament bildirişləri, N 47-48,31.12.1997, səi.86) və ona müvafiq olaraq buraxılan qanuna tabe olan normativ aktları aiddir.

5.Gürcüstanın neftinin yüngül, orta və ağır distilatları üçün, bu məcəllənin 7-ci maddəsinin 30-cu hissəsinin c) və e) bəndləri ilə müəyyən edilən gömrük rejimləri və malın neytral zonaya və ya sərbəst anbara keçirilməsindən istifadə edilmir. O cümlədən, bu malın reeksportu, yalnız 1 aylığına mümkündür, gömrük anbarı rejiminə salınması zamanı, bu mal yalnız qapalı tipli gömrük anbarına 3 aydan çox olmamaq şərti ilə yerləşdirilməlidir.

6.Aksiz markalanmasına tabe olmayan tütün məmulatının Gürcüstanın gömrük ərazisinə gətirilməsi və ya daşınması

(o cümlədən tranzit təyinatlı ölkənin aksiz markası olmayan. Əgər təyinatlı ölkənin aksiz markası ilə nişanlamaq vaciblik tələbi yoxdursa, o zaman gömrük orqanının müvafiq xidməti tütün məmulatını gömrük buraxılış məntəqəsinə qədər yola salır) yalnız gömrüksüz ticarət məntəqələrinə aid olan tütün məmulatının, xarici ölkənin gömrük ticarət zonasında realizasiyasına aid olan tütün məmulatının və aksiz markası olmayan tütün məlumatının ticarətinə icazə verilən ölkələrə ixracı istisna olmaqla.

7.Gürcüstanın gömrük sərhədində boru kəməri və elektrik ötürücü xəttlərlə daşınan malın gömrük prosedurlarının həyata keçirilmə qaydaları, Gürcüstanın maaliyyə naziri müvafiq əmri ilə tətbiq edilir.

**Maddə 255. Yekun müddəalar**

1.Bu məcəllə, 207-ci və 210-cu maddələr istisna olmaqla, 2007-ci il, yanvarın 1-dən fəaliyyətə başlasın.

2.Bu məcəllənin 207-ci və 210-cu maddələri 2008-ci il, yanvarın 1-dən fəaliyyətə başlasın.

3.Gürcüstanın 1997-ci il, 14 noyabr gömrük məcəlləsi (parlament bildirişləri , N 47-48,31.12. 1997, səh. 86, 2007 –ci il, yanvarın 1-dən etibarsız hesab edilsin.

Gürcüstan prezidenti Mixeil Saakaşvili
Tbilisi
2006- cı il, 25 iyul
N 3545

# İÇINDƏKILƏR

Gürcüstan Konstitusiyası 1-74
Təhsil qanunu 75-142
Torpaq qanunu 143-190
Gömrük məcəlləsi 191-352